Azərbaycan Respublikası
Təhsil Nazirliyi

Layihə Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

Təhsil İnstitutu
Azərbaycan Respublikasının Təhsil İnstitutu

**İxtisasın adı: Məktəb Meneceri**



# TƏLİM PROSESİ VƏ DAXİLİ NİZAM-İNTİZAM QAYDALARININ TƏŞKİLİ

**Bakı 2020**

Bu modul dərs vəsaiti Avropa İttifaqının texniki yardımı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyini dəstəkləmək üçün "Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək" (EuropeAid/138339/DH/SER/AZ) layihəsi tərəfindən hazırlanmışdır. Modulda ifadə olunan fikirlər və məlumatlara görə Avropa İttifaqı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Təhsil İnstitutu məsuliyyət daşımır.

Modul dərs vəsaiti müvafiq təhsil proqramları (kurikulumlar) üzrə bilik və bacarıqların verilməsi məqsədilə hazırlanmışdır və əlavə təhsildə müvafiq modulların tədrisi üçün tövsiyə edilir. Modul dərs vəsaitinin istifadəsi ödənişsizdir və kommersiya məqsədi ilə satışı qadağandır.

**Müəllif:** Fəridə Hüseynova

**Modul üzrə məsləhətçi:** Aynur Kərimova

© Bakı – 2020
Modulda ifadə olunan fikirlər müəllifə aiddir, istifadə olunmuş fotolar açıq mənbələrdən götürülmüşdür. Antiplagiat və digər tədqiqat etikasının tələblərinin təmin olunması modul müəlliflərinin məsuliyyətidir.

# MÜNDƏRİCAT

**ƏSAS ANLAYIŞLAR** ..... **12**

**GİRİŞ** ..... **18**

**MODULUN SPESİFİKASİYASI** ..... **19**

**TƏLİM NƏTİCƏSİ 1: TƏDRİS PROSESİNİN TƏŞKİLİNƏ RƏHBƏRLİK ETMƏK** ..... **21**

1.1. Məktəbin strateji istiqamətinə uyğun təhsil və təlimin məqsədlərini təsvir edir ..... 22

1.1.1. Təhsil və təlimin məqsədləri ..... 22

1.1.2. Təlim taksonomiyası - idrakı fəaliyyət ardıcıllığı ..... 23

1.1.3. Yeni təlim məqsədləri taksonomiyası ..... 24

Tələbələr üçün fəaliyyətlər ..... 30

Qiymətləndirmə ..... 31

1.2. Tədris planları və proqramlarının (kurikulum) yerinə yetirilməsi üzrə pedaqoji işçilərin metodiki fəaliyyətini səmərəli istiqamətləndirir ..... 32

1.2.1. Tədris planları və proqramlarının (kurikulum) yeni məzmunu ..... 32

1.2.2. Təhsil proqramlarının yerinə yetirilmə (kurikulum) sahələri ..... 33

1.2.3. Təhsil proqramı (kurikulum) və planının (silabus) xüsusiyyətləri ..... 33

1.2.4. Məktəb tədris kurikulumun hazırlanma mərhələləri ..... 36

Tələbələr üçün fəaliyyətlər ..... 39

Qiymətləndirmə ..... 40

1.3. Tədris proqramlarının səmərəli yerinə yetirilməsi üçün tələblərə uyğun dərs cədvəli tərtib edir ..... 42

1.3.1. Məktəbdə dərs cədvəlinin rolu ..... 42

1.3.2. Dərs cədvəlinin tərtibi qaydaları ..... 43

1.3.3. Dərs cədvəlinin tərtibatında müasir texnoloji modellər ..... 43

1.3.4. Dərs cədvəlinin tərtibatının səmərəli şərtləri ..... 44

1.3.5. Dərs cədvəlinin tərtibatının metodiki tələbləri ..... 45

Tələbələr üçün fəaliyyətlər ..... 48

Qiymətləndirmə ..... 49

1.4. Tədris prosesinin səmərəliliyini artırmaq üçün beynəlxalq təcrübə nümunələrini tətbiq edir ..... 50

1.4.1. Təlimdə beynəlxalq təcrübənin rolu ..... 50

1.4.2. STEM (Science-Technology-Engineering-Math) ... 50
1.4.3. Beynəlxalq Bakalavriat Proqramı (İnternational Baccalaureate) ... 51
1.4.4. Distant təhsilin (Microsoft Outlook, Teams və Zoom) öyrənilməsi yolları ... 53
1.4.5. Təcrübə əsaslı təlim modeli (D.Kolb) ... 53
1.4.6. e-Twining platforması: Məktəblər üçün birlik ... 54
Tələbələr üçün fəaliyyətlər ... 56
Qiymətləndirmə ... 57
1.5. Təlim prosesində müasir təlim texnologiyalarından istifadə yollarını təsvir edir ... 59
1.5.1. Təlimdə müasir texnologiyalardan istifadə ... 59
1.5.2. Təhsil texnologiyalarının komponentləri ... 59
1.5.3. Rəqəmsal texnologiyanın tətbiqi üsulları ... 60
1.5.4. Tapşırıq əsaslı təlim ... 63
Tələbələr üçün fəaliyyətlər ... 66
Qiymətləndirmə ... 67
1.6. Tədrisin keyfiyyət göstəricisi kimi məktəbdaxili qiymətləndirmənin aparılması yollarını şərh edir ... 68
1.6.1. Tədrisin keyfiyyət göstəricisi – Məktəbdaxili qiymətləndirmə ... 68
1.6.2. Məktəbdaxili qiymətləndirmənin komponentləri ... 68
1.6.3. Məktəbdaxili qiymətləndirmə prosesinin planlaşdırılması ... 69
1.6.4. Məktəbdaxili qiymətləndirmənin növləri və aparılması yolları ... 70
1.6.5. İlkin səviyyənin qiymətləndirilməsi (diaqnostik qiymtələndirmə) ... 70
1.6.6. Prosesin qiymətləndirilməsi (formativ qiymətləndirmə) ... 71
1.6.7. Yekun qiymətləndirmə (summativ qiymətləndirmə) ... 73
Tələbələr üçün fəaliyyətlər ... 75
Qiymətləndirmə ... 76
1.7. Təlim prosesində təhsilalanların təlim fəaliyyətinin izlənilməsi və nailiyyətlərinin dəyərləndirilməsini həyata keçirir ... 77
1.7.1. Təlim fəaliyyətinin izlənilməsi və nailiyyətlərin dəyərləndirilməsi ... 77
1.7.2. Təlim fəaliyyətinin izlənilməsinin məqsədləri ... 77
1.7.3. Təlim fəaliyyətinin izlənilməsinin həyata keçirilməsi ... 78
1.7.4. Təlim nailiyyətlərinin dəyərləndirilməsi ... 80
1.7.5. Qiymətləndirmə standartları ... 81

1.7.6. Nailiyyət testlərinin tərtibatı ... 82
Tələbələr üçün fəaliyyətlər ... 84
Qiymətləndirmə ... 85
1.8. Xüsusi təlimə ehtiyacı olan və təhsildən kənarda qalan şagirdlər üçün fərdi təhsilin təşkili qaydalarını izah edir ... 87
1.8.1. İnklüziv təhsilin xüsusiyyətləri ... 87
1.8.2. Sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili qaydaları ... 88
1.8.3. Xüsusi istedadlı uşaqlarla işin təşkili qaydaları ... 88
1.8.4. Fərdi təhsilin xüsusiyyətləri ... 89
1.8.5. Fərdi təhsilin təşkili qaydaları ... 90
1.8.6. Fərdi təhsil üzrə işin planlaşdırılması mərhələləri ... 92
Tələbələr üçün fəaliyyətlər ... 95
Qiymətləndirmə ... 96
**TƏLİM NƏTİCƏSİ 2: TƏDRİS PROSESİNDƏ PEDAQOJİ-PSİXOLOJİ YANAŞMALARI TƏTBİQ ETMƏK ... 97**
2.1. Şəxsiyyətyönümlü təhsilin prinsiplərini təcrübədə tətbiq edir ... 98
2.1.1. Şəxsiyyətyönümlü təhsilin əsasları ... 98
2.1.2. Şəxsiyyətyönümlü təhsilin psixoloji və pedaqoji prinsipləri ... 99
2.1.3. Şəxsiyyətyönümlü təhsilin prinsiplərinin təcrübədə tətbiqi yolları ... 102
Tələbələr üçün fəaliyyətlər ... 106
Qiymətləndirmə ... 107
2.2. Tədris prosesini təhsilalanların yaş, fizioloji və psixoloji xüsusiyyətlərinə və potensial imkanlarına uyğun təşkil edir ... 108
2.2.1. Tədris prosesinin pedaqoji-psixoloji xüsusiyyətləri ... 108
2.2.2. Təhsilalanların yaş, fizioloji və psixoloji xüsusiyyətləri ... 108
Tələbələr üçün fəaliyyətlər ... 114
Qiymətləndirmə ... 115
2.3. Təhsilalanların motivasiyasını yüksəltmək üçün müsbət psixoloji təlim mühiti yaradır ... 117
2.3.1. Təlimdə motivasiyanın rolu ... 117
2.3.2. Motivasiyanın yüksəldilməsi yolları ... 117
2.3.3. Motivasiyanın yaradılması yolları ... 119
2.3.4. Müsbət psixoloji təlim mühitinin yaradılması ... 120

Tələbələr üçün fəaliyyətlər....................123
Qiymətləndirmə....................124
2.4. Təlimin məqsədlərinə uyğun psixoloji dəstək vasitələrini müvafiq şəkildə tətbiq edir ....................126
2.4.1. Təlimə dəstək vasitələri....................126
2.4.2. Təlimə psixoloji dəstək vasitələrinin tətbiqi....................126
2.4.3. Müəssisənin təhsilalanlara psixoloji dəstəyinin prinsipləri və tətbiqi vasitələri127
2.4.4. Təlim məqsədlərinə uyğun psixoloji dəstəyin təşkili yolları....................128
2.4.5. Təlimin səmərəli təşkili və resursların təmin edilməsi....................130
Tələbələr üçün fəaliyyətlər....................131
Qiymətləndirmə....................132
2.5. Təlimin müxtəlif formaları üzrə təhsilalanların yaradıcılıq və müstəqilliyini stimullaşdıran vasitələri təqdim edir....................134
2.5.1. Təlimdə yaradıcılıq və müstəqillik....................134
2.5.2. Yaradıcı işlərin planlaşdırılması və stimullaşdırıcı mərhələlər....................134
Tələbələr üçün fəaliyyətlər....................140
Qiymətləndirmə....................142
2.6. Təhsilalanların maraq və ehtiyacları üzrə onların istedad və qabiliyyətlərinin inkişafı yollarını təsvir edir....................143
2.6.1. Təlimdə istedad və qabiliyyətin inkişafı....................143
2.6.2. Təlimdə istedad və qabiliyyətin inkişafı məqsədləri....................143
2.6.3. Müxtəlif istedad və intellektlərin inkişafı yolları....................144
2.6.4. H. Qardnerin çoxşaxəli intellekt tipləri....................145
Tələbələr üçün fəaliyyətlər....................149
Qiymətləndirmə....................150
2.7. Sinifdənxaric və məktəbdənkənar işlərin aparılmasını təşkil edir....................151
2.7.1. Təhsildə sinifdənxaric və məktəbdənkənar işlərin məzmunu....................151
2.7.2. Sinifdənxaric və məktəbdənkənar işlərdə müəllimin rolu....................152
2.7.3. Sinifdənxaric və məktəbdənkənar işlərin növləri....................152
2.7.4. Sinifdənxaric və məktəbdənkənar işin faydası....................154
Tələbələr üçün fəaliyyətlər....................156
Qiymətləndirmə....................157

2.8. Təhsilalanların peşə bacarıqlarını formalaşdıran yaradıcı işlərin həyata keçirilməsi planını tərtib edir ... 158
2.8.1. Peşə bacarıqları və yaradıcı işlərin təlimdə əhəmiyyəti ... 158
2.8.2. Peşə bacarıqları üzrə yaradıcı təlim metodları ... 158
2.8.3. Peşə bacarıqları və yaradıcı təlimin sahələri ... 159
2.8.4. Emal texnologiyaları işinin planlaşdırılması ... 160
2.8.5. Texniki elementlər üzrə işin planlaşdırılması ... 160
2.8.6. Məişət mədəniyyətinin planlaşdırılması ... 161
2.8.7. Qrafika peşəsi üzrə yaradıcı işin planlaşdırılması ... 161
Tələbələr üçün fəaliyyətlər ... 163
Qiymətləndirmə ... 164
**TƏLİM NƏTİCƏSİ 3: NİZAM-İNTİZAM QAYDALARINA RİAYƏT OLUNMASINA RƏHBƏRLİK ETMƏK ... 165**
3.1. Məktəbdaxili nizam-intizam qaydalarını əməkdaşlıq şəraitində uşaq hüquqlarının müdafiəsi prinsipləri əsasında hazırlayır ... 166
3.1.1. Nizam–intizam qaydalarının rolu ... 166
3.1.2. Nizam-intizam qaydalarının komponentləri ... 166
3.1.3. Məktəbin nizam-intizam qaydalarının tətbiqi ... 167
3.1.4. Şagirdlərin məsuliyyətləri ... 168
3.1.5. Məktəbli forması ... 168
3.1.6. Davranış qaydalarının tətbiqində valideynlərin rolu ... 169
3.1.7. Məktəbdə qadağalar haqqında olan qaydalar ... 170
Tələbələr üçün fəaliyyətlər ... 172
Qiymətləndirmə ... 173
3.2. Təhsilalanların tərbiyə, özünütərbiyə və yenidəntərbiyəsi istiqamətində müvafiq yanaşmalar tətbiq edir ... 174
3.2.1. Təhsilalanların (şagirdlər) tərbiyə, özünütərbiyə və yenidəntərbiyəsi ... 174
3.2.2. Şagirdlərin özünütərbiyəsinin inkişafı ... 175
3.2.3. Yenidəntərbiyədə korreksiyaedici və ya bərpaedici yanaşma ... 177
Tələbələr üçün fəaliyyətlər ... 179
Qiymətləndirmə ... 180
3.3. Nizam-intizam qaydalarının səmərəli tətbiqi yollarını şərh edir ... 181
3.3.1. Məktəbdə nizam-intizam qaydalarının rolu ... 181

3.3.2. Rəhbərlik və işçi heyəti tərəfindən nizam-intizam qaydalarının idarə olunması ....... 182

3.3.3. Məktəb direktorunun nizam-intizamda rolu ....... 182

3.3.4. Məktəbdə Davranışın İnkişaf Planı ....... 183

3.3.5. Məktəbdə davranışın formalaşdırılma yolları ....... 183

Tələbələr üçün fəaliyyətlər ....... 187

Qiymətləndirmə ....... 188

3.4. Məktəbdaxili nizam-intizam və müəllimlərin etik davranış qaydalarına riayət olunması yollarını təqdim edir ....... 189

3.4.1. Məktəbdə etik-davranış qaydaları ....... 189

3.4.2. Etik davranış qaydalarının xarakterik xüsusiyyətləri ....... 189

3.4.3. Etik davranış qaydaları üzrə məktəb rəhbərliyi və işçi heyətinin vəzifələri ....... 190

3.4.4. Müəllimlərin təlimdə etik davranış qaydalarına əməl etmələri ....... 191

3.4.5. Təlimdə pozitiv etik davranış mühitinin yaradılması ....... 192

3.4.6. Təlimdə etik davranış prinsiplərinə riayət etmək ....... 193

Tələbələr üçün fəaliyyətlər ....... 196

Qiymətləndirmə ....... 197

3.5. Təhsilalanlar arasında hüquq pozuntuları, fiziki, psixoloji və cinsi zorakılıq hallarına qarşı geniş miqyaslı profilaktik və maarifləndirici tədbirləri təşkil edir ....... 198

3.5.1. Təhsilalanların hüquq pozuntuları və zorakılığa məruz qalmaları ....... 198

3.5.2. Təhsildə zorakılıqların növləri və başvermə səbəbləri ....... 198

3.5.3. Fiziki zorakılığın başvermə səbəbləri və nəticələri ....... 199

3.5.4. Psixoloji zorakılığın başvermə səbəbləri və nəticələri ....... 199

3.5.5. Təhsildə cinsi zorakılıq və ona qarşı mübarizə ....... 201

3.5.6. Zorakılığın azaldılması üçün məktəb mühitinin yaxşılaşdırılması ....... 202

3.5.7. Tədris proqramları və fəaliyyətlər ....... 203

Tələbələr üçün fəaliyyətlər ....... 204

Qiymətləndirmə ....... 205

**TƏLİM NƏTİCƏSİ 4: MÜVAFİQ MARAQLI TƏRƏFLƏRLƏ ƏMƏKDAŞLIQ QURMAQ ....... 207**

4.1. Valideyn-məktəb icması ilə birgə fəaliyyətin qurulması yollarını müəyyən edir ....... 208

4.1.1. Valideyn-məktəb icmasının xüsusiyyətləri ....... 208

4.1.2. Valideyn-məktəb icmasının yaradılması məqsədləri ....... 208

4.1.3. Valideyn-məktəb icmasının şagird nailiyyətinə təsiri ....... 209

4.1.4. Məktəbdə keyfiyyətin təminatı üzrə valideynlərin məsuliyyətləri ........ 210
4.1.5. Valideyn-məktəb icmasının yaradılması üsulları ........ 210
4.1.6. Valideyn-məktəb icmasının üstünlükləri ........ 212
Tələbələr üçün fəaliyyətlər ........ 214
Qiymətləndirmə ........ 215
4.2. Digər təhsil müəssisələri ilə əlaqələrin qurulması və müvafiq məktəb şəbəkələrinə cəlb olunması yollarını izah edir ........ 217
4.2.1. Təhsil müəssisələri ilə əlaqə və məktəb şəbəkələri ........ 217
4.2.2. Məktəb şəbəkəsinin yaradılması ehtiyacları və məqsədləri ........ 218
4.2.3. Təhsil müəssisələri ilə əlaqə və məktəb şəbəkələrinin yaradılması ........ 219
4.2.4. Məktəb şəbəkələrinin funksiyaları və iştirakçı məsuliyyəti ........ 220
4.2.5. Məktəb şəbəkələrinin faydaları ........ 221
Tələbələr üçün fəaliyyətlər ........ 222
Qiymətləndirmə ........ 223
4.3. Maraqlı tərəflərlə əməkdaşlıq etmə yollarını təqdim edir (birinci ifadə dəyişilib) ... 224
4.3.1. Təhsildə maraqlı tərəflərin rolu ........ 224
4.3.2. Maraqlı tərəflərlə əməkdaşlıq məqsədləri ........ 224
4.3.3. Maraqlı tərəflərin növləri və fəaliyyətləri ........ 224
4.3.4. Daxili maraqlı tərəflərin rolları və məsuliyyətləri ........ 226
4.3.5. Xarici maraqlı tərəflərin rolları və məsuliyyətləri ........ 227
4.3.6. Tədbirlərdə maraqlı tərəflərin iştirakının təmin edilməsi ........ 228
Tələbələr üçün fəaliyyətlər ........ 229
Qiymətləndirmə ........ 230
**CAVABLAR ........ 231**
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT ........ 234**

# ƏSAS ANLAYIŞLAR

**Analitik rubrik –** şagirdlərin inkişaf səviyyələrini meyarlar, təsviri xarakter daşıyan nailiyyət səviyyələri üzrə qiymətləndirilməsində istifadə olunan sütun və ya cədvəl nümunəsi.

**Aktiv təcrübə –** nəticələrini görmək üçün real həyatda tətbiq edilən eksperiment.

**Akselerasiya –** (latın dilində "akselerasio" sürətlənmə deməkdir) – uşaq və yeniyetmə yaşında fiziki, həm də eyni zamanda psixi inkişafın sürətlənməsi.

**Autizm –** üç yaşından əvvəl başlayan və ömür boyu sürən, ictimai qarşılıqlı təsirə və ünsiyyətə zərər verən, məhdud və təkrarlanan davranışlara gətirib çıxaran beyinin inkişafına maneə törədən xəstəlik

**Bədən-kinestetik intellekti –** şəxsin öz bədən hərəkətlərini və əşyaları məharətlə idarə etmək qabiliyyəti

**Cinsi zorakılıq –** cinsi istismar - insan hüquqlarının daimi və çox ağır pozuntuları

**Çevik təlim** (Flipped Learning) – "təkrarlanan öyrənmə" metodu kimi elektron texnologiyaların vasitəsilə sinifdənkənar təlimin sinifdə tətbiq edilməsi.

**Daxili mexanizmlər –** məktəbdaxili şəraitdə aparılan özünüqiymətləndirmə.

**Dəstəkləyən intizam –** təhsilalanların əvvəlki vəziyyətlərinə qayıtmalarına kömək etməklə özünə nəzarət etmələri üçün görülən tədbirlər.

**Deselerasiya –** nitqin inkişafının azalması.

**Diaqnostik qiymətləndirmə –** ilkin bilik və bacarıqları müəyyən dərəcədə qiymətləndirilməsi.

**Diferensiasiya, diferensial təlim –** fərqli mədəniyyətlərin öyrənilməsi; müxtəliflik.

**Disleksiya –** beyin qabığının zədələnməsi nəticəsində oxumaq (qiraət) qabiliyyətinin itməsi.

**Distant təlim –** tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunduğu məsafədən öyrənmə.

**E-Öyrənmə –** elektron təlim.

**Emosional bilik –** affektiv, ünsiyyət, (izah etmək, təsvir etmək, şərh etmək, reaksiya vermə) xarakterli bilik.

**Empatiya –** özünü digərlərinin yerinə qoyma.

**Ekzistensial intellekt –** insan varlığı barədə dərin suallar vermək qabiliyyəti.

**Elektron bloq –** rəqəmsal vasitə kimi hər şagirdin şəxsi elektron səhifə yaratması.

**e-Tvinninq –** elektron cütləşmə, qoşalaşma.

**Əks əlaqə –** qarşı tərəfə rəyin verilməsi (feedback).

**Fərddaxili intellekt –** öz daxili hissləri, dəyərləri, inancları və düşünmə proseslərini anlaması və onları aydın şəkildə hiss etmək qabiliyyəti.

**Fiziki mühiti –** bina təməli və quruluşu, xarici divarları, damı, pəncərələri, yaşı, istismarı, məktəb.

**Fiziki zorakılıq –** bədəni təmas yolu ilə başqa bir insana və ya heyvana xəsarət və ya travma verən hər hansı bir qəsdən hərəkət.

**Formativ qiymətləndirmə –** müntəzəm, mənimsəmənin izlənilməsi, korrektə edilməsi.

**Hesabatlılıq** prinsipi – məktəblərdə təhsilalanların, təhsilverənlərin və idarəçilərin nailiyyətləri, hesabat verməsi prosesi.

**Hi-Q Akademiyası –** zəngin, çoxdilli, məktəbin məzmunlu idarəetmə sistemi.

**Holistik rubrik –** şagirdin işi ilə bağlı ümumi təəssürat yaradan sürətli qiymətləndirmə.

**Xarici mexanizmlər –** milli və ya regional səviyyədə təşkil olunan məktəb qiymətləndirmələri.

**İnteraktiv lövhə** (ağıllı lövhə) **–** hər hansı bir texnoloji sinif üçün tamamilə zəruri olan müasir bir rəqəmsal öyrənmə cihazı.

**İnfrastruktur –** (lat. *infra — aşağı*, *alt* və lat. *structura — tikinti*, *məkan*) — məktəbin fəaliyyəti üçün bir-biri ilə bağlı olan struktur və obyektlərin məcmusu.

**İnklüzivlik –** "include" sözündən götürülüb, bütün fərqli qabiliyyətlərin, xüsusi istedadı və ehtiyacı olan öyrənənlərin, zehni və fiziki qüsurlu fərqlərin təhsilə daxil olması.

**İnteqrasiya –** vahid aləmin tamamlanmış bütov qəbul edilməsi.

**Koqnitiv bilik –** dərketmə və xarici informasiyaları mənimsəmə qabiliyyəti.

**Konkret təcrübə –** yeni bir təcrübə ilə qarşılaşan və mövcud təcrübənin tətbiqi və şərhi.

**Korreksiyaedici intizam –** şagirdlərin sinif və ya məktəb qaydalarına əməl etmədikdə görülən tədbirlər.

**Kvalifikasiya –** təkmilləşmə, irəliləyiş, inkişaf.

**Kurikulum –** tədris standartları və proqramı.

**Qiymətləndirmə standartı –** təhsilin keyfiyyətini qiymətləndirmək üçün məzmun standartlarının müxtəlif səviyyələrdə ölçülməsi.

**Qiymətləndirmə nəticələri –** qiymətləndirmə məlumatlarının toplanması və emalı.

**Loqopediya –** nitq inkişafı qüsurları haqqında pedaqoji elm; nitq inkişafı qüsurlarının aradan qaldırılması və qarşısını almaq üçün xüsusi təlim-tərbiyə sistemi.

**Lokalaşma –** yerli səviyyədə tanınma.

**Maddi-texniki baza –** akademik və qeyri-akademik məqsədlər üçün istifadə olunan bütün növ avadanlıqlar.

**Mentorluq –** təcrübəli, bilikli bir işçi və təcrübəsiz və ya yeni bir işçi arasında qurulan rəsmi və ya qeyri-rəsmi bir əlaqə.

**Metaetika –** etikanın əsas təbiətini və əxlaqi düşüncəni müzakirə edən bir qolu.

**Məkan-vizual intellekti –** şəkil və rəsmlər ilə düşünmək, dəqiq və abstrakt şəkildə vizuallaşdırmaq bacarığı.

**Məktəbdaxili qiymətləndirmə –** təlim nəticələri üzrə şagird nailiyyətlərinin diaqnostik, formativ və summativ yollarla qiymətləndirilməsi.

**Məktəb şəbəkəsi –** elektron şəbəkələr vasitəsilə məktəbin digər təhsil müəssisələri ilə müxtəlif səviyyələrdə əlaqəsi.

**Məktəbin maliyyə vəsaiti –** Məktəbin təhsil siyasəti məqsədlərinə çatmaqda dəstəyin təmin olunması.

**Məktəb mühasibatlığı –** maliyyənin plan əsasında düzgün paylanması, istifadəsi və xərclənməsi işini həyata keçirən idarəedici bölmə.

**Milli Kvalifikasiya Çərçivəsi –** milli kvalifikasiyaların sistemləşdirilməsi üçün bir vasitə olmaqla bütün təhsilalanlar, təhsilverənlər və işəgötürənlər üçün hazırlanmışdır və milli kvalifikasiyaların beynəlxalq kvalifikasiyalarla uyğunluğu.

**Multimedia və Audio-Visual –** video filmlər, televiziya, radio, smartfonlar, ipadlar və s. kimi vasitələr.

**Musiqi-ritmli intellekt –** ritm, keyfiyyətli səs və keyfiyyətli ton yarada bilmək və musiqini dəyərləndirə bilmək qabiliyyəti.

**Nailiyyətlərin monitorinqi –** əldə olunan nailiyyətlərin yoxlanılması, nəzərdən keçirilməsi.

**Nəzəri konseptualizasiya –** yeni nəzəri fikir və anlayışların meydana gəlməsi və dəyişdirilməsi.

**Naturalist intellekt –** bitkilər, heyvanlar və təbiətdəki digər obyektləri müəyyənləşdirmək və kateqoriyalara bölə bilmək qabiliyyəti.

**Normativ etika –** əxlaqi cəhətdən, necə davranmaq lazım olduğunu düşünərkən ortaya çıxan suallar toplusu.

**Pedofiliya –** uşaqların cinsi zorakılıq və cinsi istismarı.

**Portfolio qiymətləndirmə –** öyrənənlərin müəllimləri ilə birlikdə hazırladıqları bir qiymətləndirmə forması.

**Praktiki qabiliyyət –** nəzəriyyəni praktikaya və mücərrəd fikirləri praktik nailiyyətlərə çevirmək qabiliyyəti.

**Predispozisiya –** bilik, münasibət və inamın yaranmasını təbliğ edən proqramın olması.

**Profilaktik intizam –** təhsilalanların xoşagəlməz rəftarının qarşısını almaq üçün görülən tədbirlər.

**Psixoloji zorakılıq –** qarşılıqlı anlaşılmazlıq, sosial mənəvi və təzyiqlər, ümidsizlik, qəsdən yüklənmə və hər şeydən kənarlaşma.

**Psixomotor inkişaf –** duyğu orqanları zehnin və matorikanın birgə inkişafı.

**Reabilitasiya –** insanın psixi və fiziki zədələnmələrindən sonra qarşılaşdığı çətinliklərin aradan qaldırılmasına yönəlmiş tədbirlər.

**Reflektiv müşahidə –** xüsusi əhəmiyyət kəsb edən yeni təcrübənin nümayişi.

**Riyazi-məntiqi intellekti –** konseptual və abstrakt düşünmə qabiliyyəti; məntiqi və ədədi nümunələri tanımaq və seçmək bacarığı.

**Rubrik –** öyrənənlərin hazırladığı cavabların keyfiyyətini qiymətləndirmək üçün istifadə olunan keyfiyyətə dair təsviri gözləntiləri.

**Şəxsiyyətyönümlü təhsil –** fərdin şəxsiyyəti, xarakteri, düşüncəsi, məkanı, bacarığı, vərdişləri ilə bağlı təhsil.

**Şəxslərarası intellekt –** digərlərinin əhval-ruhiyyəsi, motivasiyası və istəklərini müəyyənləşdirə bilmək və ona uyğun şəkildə cavab vermək qabiliyyəti.

**Sinif podkastinqi –** "iPod" sözündəki "pod" (kiçik kapsul) və "broadcast" (yayım) sözlərinin birləşməsindən ibarət olub, hər cür səslərin dinlənilməsidir (Spotify, iTunes).

**Sintetik qabiliyyət –** yaradıcılıq kimi yeni və maraqlı fikirlər yaratmaq qabiliyyətidir.

**Sosial-mədəni nəzəriyyə –** şagirdlərin mədəni dünyagörüşü, media vasitələri ilə bağlı müsbət təcrübələrinin bölüşməsi.

**Summativ qiymətləndirmə –** yekun nəticələrin və nailiyyətlərin qiymətləndirilməsi.

**Oriqami –** kvadratşəkilli kağız parçalarını kəsmədən və yapışdırıcı maddə istifadə etmədən, sadəcə qatlayaraq düzəldilən müxtəlif fiqurlar.

**Özünütəhlil –** tədris prosesini sabitləşdirmək və ya yaxşılaşdırmaq üçün peşəkar fəaliyyətin və nəticələrin sistematik olaraq izlənilməsi, təhlil edilməsi və qiymətləndirməsi proseduru.

**Özünütərbiyə –** bir inkişaf növü kimi, şəxsiyyətin inkişafının müəyyən səviyyəsi, onun özünüdərki, davranışı.

**Təlim taksonomiyası –** təlim məqsədlərinin idraki fəaliyyət üzrə iyerarxik və ya ardıcıl təsnifatı.

**Təlim standartı –** bilik və bacarıqların səviyyəsinə qoyulan dövlət tələbi.

**Təlim nəticələri –** proqramı müvəffəqiyyətlə başa vurduqdan sonra əldə etməli olduqları bilik, bacarıq və yanaşmaları izah edən ifadələr.

**Tətbiqi etika –** tətbiqi etika, etik nəzəriyyəni real vəziyyətlərdə tətbiq edən nizam-intizam.

**Verbal-linqvistik intellekt –** yaxşı inkişaf etmiş verbal qabiliyyət və sözlərdə səslərə, mənaya və ritmə həssaslıq.

**Verbal zorakılıq –** qəzəb və düşmənçilik, şəxsin özünüdərki və mənfi duyğulara səbəb olmaq üçün dağıdıcı ünsiyyət forması.

**Uçot qeydiyyat –** məktəb avadanlıqlarının planlaşdırılması.

**AUPK –** Ailə və Uşaq Problemləri Komitəsi.

**BMT –** Birləşmiş Millətlər Təşkilatı.

**CUHB –** Cenevrə Uşaq Hüquqları Bəyannaməsi.

**DMH –** Dövrü Məktəb Hesabatı.

**ƏMS –** Əmlak Mülkiyyət Sənədi.

**FT –** Fərdi təhsil.

**FTP –** Fərdi Təhsil Planı.

**İB** (International Baccalaureate) – Beynəlxalq bakalavriat.

**İA –** İdarəetmə Akademiyası.

**İKT –** İnformasiya, Kommunikasiya texnologiyaları.

**KÜİM –** Keyfiyyətin Ümumi İdarəolunması Modeli.

**KTS –** Keyfiyyət Təminatı Sistemi.

**QM –** Qanunauyğunluq Modeli – bilik cəmiyyətinin reallıqla uyğunlaşması.

**LƏT –** Layihə Əsaslı Təlim (PBL - Project based learning) - müxtəlif elektron resursların vasitəsilə istənilən problemin araşdırılması.

**MDİP –** Məktəb Davranış İnkişaf Planı.

**MFP –** Məktəb Fəaliyyət Planı.

**MQ –** Monitorinq və Qiymətləndirmə.

**MİS –** Məktəbin İdarəolunması Sistemi.

**MM –** Məktəb Menecmenti, idarəolunması.

**MP –** Müəllim Peşəkarlığı – müəllimin lazımi biliyə, bacarıqlara, müasir səriştələrə malik olması.

**MYYK –** Müəyyənləşdirmə, Yerləşdirmə və Yoxlama Komitəsi.

**MMV –** Məktəb Maliyyə Vəsaiti.

**"OLAP" –** Metodu (On-layn Analitik Proses).

**PƏT –** Problemli Əsaslı Təhsil (PBL).

**PIAAC –** Yaşlılar Arasında Səriştələrin Beynəlxalq Qiymətləndirilməsi (Programme for the International Assessment of Adult Competencies,).

**PİRLS** (Progress in International Reading Literacy Study, PIRLS) **– OQKQS** (Oxuma və Qavrama Keyfiyyətinin Qiymətləndirilməsi sorğusu).

**PİSA –** Beynəlxalq Şagird Qiymətləndirməsi Proqramı (Program for International Student Assessment).

**PESTLE –** Siyasi-İqtisadi, Hüquqi, Etik, Texnoloji, Sosial-Demoqrafik Və Ətraf Mühit.

**PT –** Profilaktik təmir.

**SMART –** Qiymətləndirmə meyarı (specific, measurable, achievable, realistic and time-bounded): spesifik, ölçüləbilən, əldə edilən, real, və vaxta əsaslanan.

**SP –** Starateji Planlaşdırma.

**SİP -** Strateji İnkişaf Planı.

**STEM –** (Science, Technolgy, Engineering, Math) - Elm, texnologiya, Mühəndislik, Riyaziyyat

**TƏT –** Tapşırıq əsaslı təlim (Task based learning).

**TƏT –** Tədqiqat əsaslı təlim (RBL - Research based learning) (təhlil, sintez və qiymətləndirmə kimi fəaliyyətlərlə əlaqəli, öyrənənlərə və müəllimlərə biliklərin mənimsənilməsi).

**TIX –** Təhsil İnfrastruktur Xidməti.

**TİİMS –** Riyaziyyat və Təbiət Fənləri üzrə Tədqiqat (Trends in Mathematics and Science Study).

**TTM –** Təşkilati Təlim Modeli - təlim mühitinin dəyişməsini, tədrisin keyfiyyətinin davamlı inkişafı.

**TSP –** Təhsil Sağlamlığı Proqramı.

**UHK –** Uşaq Hüquqları Konvensiyası.

**Vİİ –** Veb İcma İdarəçiliyi.

**VMİ –** Valideyn-Məktəb İcması.

**ZƏTX –** Zaman Əsaslı Texniki Xidmət.

# GİRİŞ

Ümumi təhsilin inkişafı təhsilalanların daim yeniləşən, müasir standartlara uyğun biliklərə və dünyagörüşə yiyələnməsini, cəmiyyətin tələblərinə uyğun şəxsiyyət kimi inkişaf etməsini və ömür boyu təhsilin hamı üçün açıq və bərabər imkanlı olmasını təmin etməyə istiqamətlənmişdir.

Bu modul 4 təlim nəticəsini əhatə edir və hər bir təlim nəticəsi üzrə qiymətləndirmə meyarlarının məzmunu açıqlanmış, verilən məzmunun möhkəmləndirilməsi üçün "Tələbələr üçün fəaliyyətlər" və təhsilalanın məzmunu hansı səviyyədə qavradığını qiymətləndirmək üçün "Qiymətləndirmə" bölməsi verilmişdir.

İlk təlim nəticəsi təhsil və təlimin məqsəd, tədris planı və proqramlarının (kurikulum) yerinə yetirilməsində pedaqoji işçilərin metodiki fəaliyyəti, uyğun dərs cədvəlinin tərtibi, müasir təcrübə nümunələri və müasir təlim texnologiyaları, məktəbdaxili qiymətləndirmə, təlim fəaliyyətinin izlənilməsi və nailiyyətlərinin dəyərləndirilməsi, və xüsusi təlimə ehtiyacı olan, təhsildən kənarda qalan şagirdlər üçün fərdi təhsilin təşkili qaydalarını izah edir.

İkinci təlim nəticəsi şəxsiyyətyönümlü təhsilin prinsipləri, təhsilalanların yaş, fizioloji, psixoloji xüsusiyyətləri və potensial imkanlarına uyğun təşkili, motivasiyasını yüksəltmək üçün müsbət psixoloji təlim mühitinin yaradılması, psixoloji dəstək vasitələrinin tətbiqi, müxtəlif təlim formaları üzrə təhsilalanların yaradıcılıq və müstəqilliyini stimullaşdıran vasitələr, onların maraq və ehtiyacları üzrə istedad və qabiliyyətlərinin inkişafı yolları, peşə bacarıqlarını formalaşdıran yaradıcı işlər, sinifdənxaric və məktəbdənkənar işlərin aparılmasını əhatə edir.

Üçüncü təlim nəticəsi məktəbdaxili nizam-intizam qaydalarının hazırlanması, təhsilalanların tərbiyə, özünütərbiyə və yenidəntərbiyəsi, nizam-intizam qaydalarının səmərəli tətbiqi və etik-davranış qaydaları, təhsilanlar arasında hüquq pozuntuları, fiziki, psixoloji və cinsi zorakılıq hallarına qarşı profilaktik və maarifləndirici tədbirlər haqqında fikirlərdən bəhs edir.

Dördüncü təlim nəticəsi müvafiq maraqlı tərəflərlə əməkdaşlıq qurmaq, valideyn-məktəb icması ilə birgə fəaliyyətin qurulması, digər məktəblərlə əlaqələrin qurulması və məktəb şəbəkələrinə cəlb olunması yolları və müxtəlif tədbirlərdə maraqlı tərəflərlə əməkdaşlıq etmək haqqında yeni yanaşmaları təqdim edir.

Əziz təhsilalanlar! Unutmayın ki, gələcək fəaliyyətinizin yüksək səviyyədə qurulmasının əsası, sizə təqdim edilən materialların həm nəzəri, həm də praktiki mənimsənilməsindən çox asılıdır.

## MODULUN SPESİFİKASİYASI

| | |
|---|---|
| **Modulun adı:** | Təlim prosesi və daxili nizam-intizam qaydalarının təşkili |
| **Modulun kodu:** | SS-2020-04 |
| **Modulun ümumi məqsədi:** | *Təhsilalan bu modulu uğurla tamamladıqdan sonra tədris prosesinin təşkilini, tədris prosesində pedaqoji-psixoloji yanaşmaların tətbiqini, nizam-intizam qaydalarına riayət olunmasına rəhbərlik etməyi və müvafiq maraqlı tərəflərlə əməkdaşlıq etməyi bilib və tətbiq etməyi bacaracaq.* |
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Tədris prosesinin təşkilinə rəhbərlik etmək | ➢ Məktəbin strateji istiqamətinə uyğun təhsil və təlim məqsədlərini təsvir edir;<br>➢ Tədris planları və proqramlarının (kurikulum) yerinə yetirilməsi üzrə pedaqoji işçilərin metodiki fəaliyyətini səmərəli istiqamətləndirir;<br>➢ Tədris proqramlarının səmərəli yerinə yetirilməsi üçün tələblərə uyğun dərs cədvəli tərtib edir;<br>➢ Tədris prosesinin səmərəliliyini artırmaq üçün beynəlxalq təcrübə nümunələrini tətbiq edir;<br>➢ Təlim prosesində müasir təlim texnologiyalardan istifadə yollarını təsvir edir;<br>➢ Tədrisin keyfiyyət göstəricisi kimi məktəbdaxili qiymətləndirmənin aparılması yollarını şərh edir;<br>➢ Təlim prosesində təhsilalanların təlim fəaliyyətinin izlənilməsi və nailiyyətlərinin dəyərləndirilməsini həyata keçirir;<br>➢ Xüsusi təlimə ehtiyacı olan və təhsildən kənarda qalan şagirdlər üçün fərdi təhsilin təşkili qaydalarını izah edir. |
| 2. Tədris prosesində pedaqoji-psixoloji yanaşmaları tətbiq etmək | ➢ Şəxsiyyətyönümlü təhsilin prinsiplərini təcrübədə tətbiq edir;<br>➢ Tədris prosesini təhsilalanların yaş, fizioloji, psixoloji xüsusiyyətləri və potensial imkanlarına uyğun təşkil edir;<br>➢ Təhsilalanların motivasiyasını yüksəltmək üçün |

| | |
|---|---|
| | müsbət psixoloji təlim mühiti yaradır;<br>➢ Təlimin məqsədlərinə uyğun psixoloji dəstək vasitələrini müvafiq şəkildə tətbiq edir;<br>➢ Təlimin müxtəlif formaları üzrə təhsilalanların yaradıcılıq və müstəqilliyini stimullaşdıran vasitələri təqdim edir;<br>➢ Təhsilalanların maraq və ehtiyacları üzrə onların istedad və qabiliyyətlərinin inkişafı yollarını təsvir edir;<br>➢ Sinifdənxaric və məktəbdənkənar işlərin aparılmasını təşkil edir;<br>➢ Təhsilalanların peşə bacarıqlarını formalaşdıran yaradıcı işlərin həyata keçirilməsi planını tərtib edir. |
| 3. Nizam-intizam qaydalarına riayət olunmasına rəhbərlik etmək | ➢ Məktəbdaxili nizam-intizam qaydalarını əməkdaşlıq şəraitində uşaq hüquqlarının müdafiəsi prinsipləri əsasında hazırlayır;<br>➢ Təhsilalanların tərbiyə, özünütərbiyə və yenidəntərbiyəsi istiqamətində məktəbin ailə və ictimaiyyətlə birgə fəaliyyəti üçün müvafiq yanaşmalar tətbiq edir;<br>➢ Nizam-intizam qaydalarının səmərəli tətbiqi yollarını şərh edir;<br>➢ Məktəbdaxili nizam-intizam və etik-davranış qaydalarına riayət olunması yollarını təqdim edir;<br>➢ Təhsilanlar arasında hüquq pozuntuları, fiziki, psixoloji və cinsi zorakılıq hallarına qarşı geniş miqyaslı profilaktik və maarifləndirici tədbirlər təşkil edir. |
| 4. Müvafiq maraqlı tərəflərlə əməkdaşlıq qurmaq | ➢ Valideyn-məktəb icması ilə birgə fəaliyyətin qurulması yollarını müəyyən edir;<br>➢ Digər təhsil müəssisələri ilə əlaqələrin qurulması və müvafiq məktəb şəbəkələrinə cəlb olunması yollarını izah edir;<br>➢ Müxtəlif tədbirlərdə maraqlı tərəflərlə əməkdaşlıq etmə yollarını təqdim edir. |

# TƏLİM NƏTİCƏSİ 1

## TƏDRİS PROSESİNİN TƏŞKİLİNƏ RƏHBƏRLİK ETMƏK

## 1.1. Məktəbin strateji istiqamətinə uyğun təhsil və təlimin məqsədlərini təsvir edir

### 1.1.1. Təhsil və təlimin məqsədləri

Təhsil məqsədləri insanların və ya cəmiyyətin problemlərini həll etmək üçün cəmiyyət daxilində həyata keçiriləcək fəaliyyətlərə istiqamət verir. Bu məqsədlər təhsilalanların ehtiyaclarına uyğun olaraq onları problemin həlli, düşüncə, tədqiqat və öyrənmə bacarıqları əsasında yaradıcı düşünənlər kimi formalaşdırmaqdır. (Şəkil 1.1). Bu məqsədlə, ümumtəhsil məktəblərində şagirdlərin yaş xüsusiyyətləri və intellektual səviyyələri üzrə qeyd olunan spesifik səriştələrin qazanılması təhsilin əsas məqsədinə çevrilmişdir:



**Şəkil 1.1. Təhsilin məqsədləri**

- Vətəndaş savadlılıq, qlobal şüurun və siyasi düşüncə
- Sağlamlıq, ətraf mühit və maliyyə savadlılığı
- Sosial mədəniyyət, ünsiyyət və əməkdaşlıq
- Tənqidi düşüncə, qərar qəbul etmə və problemin həlli
- İnformasiya-kommunikasiya texnologiyalarından istifadə

Qeyd olunan təhsil məqsədləri iki əsas istiqamət üzrə tədrisin səmərəli təşkilini və təlim prosesinin innovativ üsullarla təşkilini tələb edir:

- Təlim fəaliyyətlərinin sürətləndirilməsi və hərəkətverici istiqamətini təmin etmək;
- Uzun müddət fəaliyyəti davam etdirmək üçün prosesin davamlılığını təmin etmək.

Amerikalı filosof, psixoloq və təhsil islahatçısı *Con Dyunun* (Şəkil 1.2) nəzəriyyəsinə görə, təhsilin məqsədi reflektiv, yaradıcı, məsuliyyətli düşüncənin və sosial səmərəliliyin inkişafıdır. Bu məqsədlər praktik və nəzəri münasibətlərin balanslı qarşılıqlı əlaqəsini təmin etməyə xidmət etməli, fərdi və sosial inkişaf arasında harmoniya yaratmalıdır. Təbiətən müxtəlif istiqamətlərdə fərqli xarakter daşıyır: bəziləri sabit, dəqiq və dəyişməz, bəziləri isə çevik, tənzimlənən və dəyişkəndir. *Praktiki* cəhətdən təhsilin məqsədləri dəyişkən və nisbi xüsusiyyətlərə malik olduğundan sabit və universal deyildir. Nəzəri cəhətdən təlim məqsədləri eyni mövzunu müxtəlif yollarla araşdırmağı təklif edir, təlim taksonomiyasına uyğun ***koqnitiv, affektiv və psixomotor*** olmaqla



**Şəkil 1.2. Con Dyu – amerikalı filosof**

üç əsas tipə bölünür və təlimdə qazanılması yolları vacib hesab edilir.

### 1.1.2. Təlim taksonomiyası - idrakı fəaliyyət ardıcıllığı

Təhsil məqsədlərinin təsnifatına və mənimsəmə öyrənmə nəzəriyyəsinə əhəmiyyətli töhfələr verən Amerika təhsil psixoloqu, B. Blumun (Şəkil 1.3) “İdrak taksonomiya”sı təlim məqsədlərinin ardıcıl və iyerarxik əldə olunmasına kömək edən çox dəyərli vasitədir. O, təlim fəaliyyətinin koqnitiv məqsədlərini öyrənənlərin mövzu üzrə cavabı kimi deyil, biliyinə diqqət və struktur əsasında tətbiqi kimi izah edir. Burada B.Blumun məqsədi fikirlər arasında əlaqə və qaydaları nəzərdə tutan, aşağı səviyyəli idrak bacarıqlarını inkişaf etdirən yüksək səviyyəli düşüncələri təşviq etməkdir. Blum taksonomiyası daha geniş miqyaslı təhsil hədəflərinə çatmaq üçün davranış və idraki təlim məqsədlərini aşağıdakı iyerarxik ardıcıllıqla təqdim edir:



**Şəkil 1.3. B.S.Blum – amerikalı alim**

- **Dəyərləndirmə:** mühakimə yürüdülür və qiymətləndirilir;
- **Sintez:** birləşdirilir, tərtib etdirilir, yazılır və nitq edilir;
- **Analiz:** tərkib hissələrə bölünür, əlaqələndirilir və həll edilir;
- **Tətbiq:** dəyişilir, hesablanır və istifadə edilir;
- **Anlama:** fərqləndirilir, izah edilir və nümunə gətirilir;
- **Bilik**: müəyyən edilir, sadalanır, seçilir və qeyd edilir.




**Sxem 1.1. B. Blumun təlim məqsədləri taksonomiyası-1956**

Buraya intellektual qabiliyyət və bacarıqların inkişafına xidmət edən konkret faktlar, prosedur nümunələri və konsepsiyaların tanınması daxil edilir. İdraki ardıcıllıq üzrə bu prosesin altı əsas kateqoriyası təqdim edilir (Sxem 1.1):

### 1.1.3. Yeni təlim məqsədləri taksonomiyası

2001-ci ildən B.Blumun tələbələri D. Krasvol və L. Anderson (Şəkil 1.4 və Şəkil 1.5) "Təhsilin əsas prinsipləri" (2001-ci il) əsərində bu taksonomiya yenidən nəzərdən keçirilərək psixoloji əsaslara görə dəqiqləşdirilmişdir. Onlar koqnitiv məqsədlərin tətbiqini düşüncə proseslərinə təsir kimi və yeni məlumatlar ilə əvvəlki məlumatlar arasındakı əlaqənin olmasının daha təsirli öyrənmə məqsədi kimi qeyd edirlər. İdraki, affektiv və psixomotor məqsədlər əsasında aşağıdakı fəaliyyət ardıcıllığını yerinə yetirilir (Sxem 1.2):



**Şəkil 1.4. Deyvid Krasvol, amerikalı psixoloq**



**Şəkil 1.5. Lori Anderson, amerikalı alim**




**Sxem 1.2. Təlim məqsədlərinin təkrar taksonomiyası (L. Anderson və D. Krasvol, 2001)**

- **Yaratma:** mövzu haqqında müxtəlif elementlərdən yeni model və struktur qurulur;
- **Dəyərləndirmə:** şəxsi fikirlər əsaslandırılır və münasibət bildirilir və yeni məlumatlar dəyərləndirilir;
- **Təhlil etmə:** mövzuya yeni məlumat və anlayışlar daxil edilir, mövzunun strukturunu aydınlaşdıran hissələr birləşdirilir, faktlar və nəticələr fərqləndirilir;
- **Tətbiq etmə:** yeni bir vəziyyətdə bir konsepsiyadan istifadə edilir və ya sinifdə öyrənilən mövzuya tətbiq edilir;
- **Anlama:** məna başa düşülür, təlimatlar və problemlər şərh edilir və şəxsi sözlər ilə problem qeyd edilir;
- **Xatırlama**: əvvəlki öyrənilən məlumatlar xatırlanır.

**Affektiv təlim məqsədləri** müsbət təsir gücünə malik emosional fikirlər və münasibətlərin inkişafına istiqamətlənir. Bu məqsədlərdə inkişaf xüsusiyyətləri ilə praktiki səmərəliliyin əldə olunması yolları göstərilir. Bir çox halda affektiv məqsədlər təlim nəticələrinin əldə olunması üzrə məktəbin fəaliyyət məqsədləri kimi başa düşülür və təhsildə qazanılan səriştələrin praktikada səmərəli tətbiqinə və mənfi təsir vasitələrin aradan götürülməsinə. xidmət edir.

**Affektiv məqsədlər** fərdin duyğuları, düşüncələri və münasibətləri özünü əks etdirir. L.Anderson sosial və emosional məqsədlərin tətbiqi zamanı təlim prosesinin sosial davranışlar və emosiyalar ilə bağlı bilik və bacarıqları əldə edilməsini təklif edir (Sxem 1.3). Buraya həyati bacarıqlar olan problemlərin həlli, tənqidi və yaradıcı düşüncə, qərar qəbul etmə, ünsiyyət qabiliyyəti, fərdlərarası münasibətlərin xüsusiyyətləri, özünüdüşünmə, empatiya, streslə və emosiya ilə mübarizə daxildir. Təlimdə emosional məqsədlər dedikdə şəxsiyyətin formalaşmasında aşağıdakı fəaliyyətlər nəzərdə tutulur:




**Sxem 1.3. Affektiv təlim məqsədləri**

- **Qəbul edir -** bu, stimulun mövcudluğu və şagirdin həssaslığına aiddir - məlumatlılıq, qəbul etmə istəyi və ya seçilmiş diqqət;
- **Cavablandırır -** şagirdin təlim prosesində fəal iştirakı, suallara cavab və hadisələrə reaksiyası;
- **Dəyərləndirir -** şagirdin dəyərə inamı və münasibətə üstünlük verməsi, sadiqliyi, dəyərləri qəbul etməsi və ona üstünlük verməsi;
- **Təşkil edir -** fəaliyyətdə şagirdlərin dəyər sistemini konseptual şəkildə təşkil etmələri;
- **Xarakterizə edir -** şagirdin şəxsi, ictimai və emosional davranışının formalaşdırılmasının təlim nəticələrinin əldə olunmasına yardımı.

**Psixomotor təlimin məqsədləri** - motor bacarıqların əlaqələndirilməsi üzrə əmək bacarığından istifadə yollarının tətbiq edilməsinə əsaslanır. Bu məqsədlər insanın fiziki hərəkətlərə hazır olması, onların ardıcıl fiziki motorikada tətbiqi, icrası, ona uyğunlaşması və yeni yaradıcı fəaliyyəti özündə ehtiva edir. Bu məqsədlərə təbii və fərdi cavablar və ya reflekslər daxil olunmaqla yeni ixtiralar, innovasiyaların kəşfi, hazırlanmış nümunələrin təqdimatı yolları, qazanılmış səriştələr və təlimdə kompleks fəaliyyətlərin birgə nümayişi daxildir. Təlimdə bu prinsipin tətbiqi aşağıdakı mərhələlərdən ibarətdir (Sxem 1.4).




**Sxem 1.4. Psixomotor təlim məqsədləri**

- **Hissetmə -** hərəkətlərin icrasından əvvəl şəxsi imkanlar müəyyənləşdirilir;
- **Hazırolma -** hərəkətlərin icrasına hazırlıq işləri aparılır.
- **Təqlidetmə -** nümayiş etdirilən hərəkətlər təkrarlanır.
- **Mexanizm -** hərəkətlər qaydalara uyğun yerinə yetirilir.
- **İcra etmə -** formalaşdırılmış hərəkətlər nümayiş etdirilir.
- **Uyğunlaşma -** hərəkətin icrası zamanı yaranmış problemin həll edilməsi üçün davranışında dəyişiklik edilir.
- **Yaradıcılıq -** yeni fəaliyyət nümunələri yaradılır.

Təlimin sonunda şagirdlər yüngül motor bacarıqlarını nümayiş etdirərək hərəkət, koordinasiya, manipulyasiya, çeviklik, güc və sürət hərəkətləri kimi fiziki bacarıqları nümayiş etdirirlər. Psixomotor məqsədlər təhsildə fəaliyyətlərin faydalı dayanıqlığının təmin edilməsi və təlimdə qazanılan biliklərin tətbiqi texnologiyası və yüksək davranış mədəniyyətinin formalaşdırılmasına istiqamətləndirilir.

**21-ci əsrin ən mühüm təhsil məqsədləri**

21-ci əsrdə təhsilin məqsədi daha çox informasiya qabiliyyəti, məlumat və anlayışın genişləndirilməsi və cəmiyyətdə qabaqcıl texnologiyaların istifadəsi kimi dəyərləndirilir. Müasir postindustrial dövrdə təhsilin paradiqmaları inkişaf prosesinin qanunauyğunluqlarına əsasən dəyişir və daha yaradıcı məqsədlər daşıyır:



Şəkil 1.6. Sosial mühitdə birgəlik məqsədləri

**Sosial məqsədlər** şagirdlərə öz sosial problemlərin həllində dəyişiklik edərək məhsuldar vətəndaş olmağa kömək edir. Şagirdlərə sağlam həyat tərzi, peşə bacarıqları, iş bacarıqları, valideyn məsuliyyəti və hərtərəfli vətəndaş olma imkanı verilir. Onlar ictimai fəaliyyətdə iştirak etməyə, öz icmalarında ehtiyac və problemlər barədə düşüncəli və məsuliyyətli olmağa təşviq olunurlar (Şəkil 1.6).



Şəkil 1.7. İntellektual məqsədlər

**İntellektual nailiyyət məqsədləri** şagirdlərin akademik bilik və bacarıqlarını orta təhsil və ya əməyə hazırlamaq üçün təminat verir. İntellektual məqsədlər təhsildə ən prioritet məqsədi olaraq, şagirdlərin riyaziyyat, ingilis dili, tarix və təbiət elmlərində yüksək standartlara uyğun yeni səriştələr qazanmasını təmin edir (Şəkil 1.7).




Şəkil 1.8. Dəyərlər üzrə məqsədlər

**Müxtəlif dəyərlər üzrə məqsədlər** şagirdləri məsuliyyətli və vətəndaş olmaq üçün yetişdirməyə xidmət edir. Onlarda cəmiyyətin norma və dəyərlərində məsuliyyət daşımaq hissi yaradır, vətəndaş məsuliyyətini ifadə edən təlim məqsədləri kimi vətənpərvərlik, dürüstlük, əməkdaşlıq, rəqabət qabiliyyəti və mənəvi məsuliyyət dəyərlərinin formalaşmasına kömək edir (Şəkil 1.8).

**İqtisadi rəqabət qabiliyyəti** (sosial səmərəlilik) ifadə edən məqsədlər şagirdləri qlobal iqtisadiyyatda rəqabət qabiliyyətinə malik olan vətəndaş kimi yetişdirir. Bu məqsədlər öyrənənləri yüksək bilik və bacarıqlara yiyələnməyə, əməkdaşlıqda inkişaf etməklə lazımi dəyərlər və sosiallaşmağa istiqamətləndirir (Şəkil 1.9).




**Şəkil 1.9. İqtisadi dəyərlər**

**Fərdi inkişaf məqsədləri** tədris planına uyğun şagirdlərə özünü təqdimetmə, şəxsi dəyəri aydınlaşdırma, ünsiyyət, özünü ifadə etmə bacarıqlarını effektiv inkişaf etdirilməsinə kömək edir. Fərdi inkişaf özü üzərində şəxsi maraq və hisslərini və şəxsi potensiala çatma yollarını təklif edir (Şəkil 1.10).



**Şəkil 1.10. Fərdi inkişaf məqsədləri**

**Sosiallaşma və mədəniyyət məqsədləri** şagirdlərə savadlı və mədəniyyətli vətəndaş olma, bədii əsərlər, ədəbi klassiklər və qərb mədəniyyətinin böyük fikirlərindən faydalanma, müxtəlif dil (xüsusən, xarici dil bilmə), mədəni, köklü öyrənənlər olma, və ölkələrin ənənələri, tarixi, coğrafiya və demokratiyası haqqında məlumatlı olma qabiliyyətini inkişaf etdirir (Şəkil 1.11).



**Şəkil 1.11. Sosiallaşma məqsədləri**

**Bərabər təhsil imkanları verən məqsədlər** bütün şagirdlərin pulsuz təhsil alma, ümumi tədris planı, məktəbə getmə imkanları və maliyyə xərclərinin bərabərliyi təmin edir. Bu məqsədlər, irqi və etnik köklər, cinsi, dini, sosial-iqtisadi səviyyə və ya dilindən asılı olmayaraq bütün uşaqların keyfiyyətli təhsil almalarının vacib olduğunu tənzimləyir (Şəkil 1.12)



**Şəkil 1.12. Bərabərlik məqsədləri**

**Problemləri həll etmə** üzrə olan məqsədlər, şagirdlərə düşüncə və tədqiqat bacarıqlarının necə inkişafı etdirilməsini, problemlərin həll edilməsi üçün həlledici və yaradıcı təfəkkürü formalaşdırır. Problemin həlli bacarıqları, günümüzdəki dəyişikliklərin sürəti, texnoloji inkişaflar və məlumatların bolluğu şagirdlərin ömür boyu öyrənmə vasitələrinin inkişaf etdirilməsini tələb edir (Şəkil 1.13).



**Şəkil 1.13. Problemlərin həlli üzrə məqsədlər**

## Tələbələr üçün fəaliyyətlər

1. Qrup işi. Müzakirə (20 dəqiqə). Qruplara bölünərək flipçatda yazılmış başlıqlar haqqında fikirlərin yazılması tələb olunur.
   - Qrup A: Təhsilin və təlimin məqsədlərinin cəmiyyətdə yaratdığı dəyişikliklər.
   - Qrup B: Məktəbdə təlimin məqsədlərini ardıcıllıqla planlaşdırın.
2. Kiçik qrupda iş (10 dəqiqə). Hər bir komanda üzvlərinə müəyyən edilmiş qaydada kartlar paylanır. Tələbələr hər bir kartda təsvir olunan situasiyaların təhsilin nəzəri və praktiki məqsədlərini cütlükdə şərh edirlər.
3. Kiçik qrupda iş (10 dəqiqə). Təhsilin sosial və təbii məqsədlərini fərqləndirin. Təhsil məqsədlərinin dinamik və fəal bir proses olduğunu əsaslandırın.
4. Qrup işi. Blum taksonomiyasına əsasən hər səviyyə üzrə sualların növü və sözləri seçib kateqoriyaya bölün. Hansı sözlər və verilən sualların növünü, daha yüksək səviyyədə tənqidi düşüncənin qurulması və həvəsləndirilməsinə kömək etməsini müəyyənləşdirin.

| Səviyyələr | Sözlər | Suallar |
|---|---|---|
| Bilik | Kim, nə, niyə, nə zaman, harada, hansı, seç, tap, necə, müəyyən et, göstər, yazın, siyahı tut, uyğunlaşdır, adlandır, əlaqələndir, söylə, xatırla | Nədir ... ?<br>Necədir ... ?<br>Haradadır ... ?<br>Nə vaxt baş verdi?<br>Necə izah edərdiniz ... ?<br>Xatırlaya bilərsənmi? ... ?<br>Sən necə göstərərdin ... ?<br>Seçə bilərsiniz ... ?<br>Hansı ... ?<br>Kim idi ... ? |
| Anlama | | |
| Tətbiq | | |
| Təhlil | | |
| Sintez | | |
| Qiymətləndirmə | | |

5. Ənənəvi və müasir təhsilin məqsədlərini qeyd edin və təhsilin müasir problemini şərh edin (15 dəq.):

| Təhsilin ənənəvi məqsədləri | Təhsilin müasir məqsədləri |
|---|---|
| | |



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**"Məktəbin strateji istiqamətinə uyğun təhsil və təlim məqsədlərini təsvir edir"**

**1. Verilmiş sualları yazılı formada cavablandırın və təqdim edin:**

- Təhsildə şəxsiyyətyönümlü təhsilin məzmunu hansı məqsədləri daşıyır?
- C. Dyu nəzəriyyəsinin mahiyyəti nədən ibarətdir və müasir dövrlə necə əlaqələndirilir?
- Strateji plana uyğun koqnitiv və affektiv məqsədlər hansı şəkildə yerinə yetirilir?
- Psixomotor məqsədlərin qazanılması yolları necə əldə edilir?
- B. Blum taksonomiyası təlimdə hansı dəyişiklikləri yaradır?
- Yeni taksonomiya üzrə təlimdə hansı mərhələ və fəaliyyətlər təşkil edilir?
- Ənənəvi və müasir təlim məqsədləri necə müqayisə edilir?
- 21-ci əsrin təhsil məqsədləri hansı sahələrdə reallaşdırıla bilər?

**2. İdraki məqsədi qeyd edin:**

A) Daha əvvəl öyrənilmiş materialları xatırlamaq;
B) Materialları parçalara ayırmaq;
C) Layihələrin mövzusunu slaydda nümayiş etdirmək;
D) Öyrənilən məlumatların siyahısını hazırlamaq.

**3. Emosional məqsədi qeyd edin:**

A) Yeni tikiləcək bir evin strukturunu hazırlamaq;
B) Mətnin hissələri arasındakı əlaqələri təhlil etmək;
C) Faktlar, anlayışlar, konsepsiyalar və məlumatı yadda saxlamaq;
D) Mövzunun hissələrini müqayisə etmək.

**4. Psixomotor məqsədinin göstəricilərini qeyd edin:**

A) Mətnin məzmununu təhlil və sintez etmək;
B) Mövzu haqqında düzgün və izahlı şərh yazmaq;
C) Mövzunu kompüter proqramında əks etdirmək;
D) Mövzu üzrə şəxsi fikirlərini əsaslandırmaq.

**5. Bilik səviyyəsində şagirdlər nə etməlidirlər?**

A) Məsələni müzakirə etmək;
B) Məlumatı xatırlamaq;
C) Mövzuları kateqoriyalara bölmək;
D) Məsafələri hesablamaq.

## 1.2. Tədris planları və proqramlarının (kurikulum) yerinə yetirilməsi üzrə pedaqoji işçilərin metodiki fəaliyyətini səmərəli istiqamətləndirir

### 1.2.1. Tədris planları və proqramlarının (kurikulum) yeni məzmunu

Məktəbin tədris proqramında (kurikulum) ölkənin təhsil siyasətinin məqsəd və vəzifələri sistemli şəkildə planlaşdırılır. Təhsil proqramı (Milli kurikulum) bir çərçivə sənədi olmaqla yanaşı, eyni zamanda bu proqramda müvafiq təhsil pilləsində tədris olunan fənlər və dərsdənkənar məşğələlərə ayrılan saatların miqdarı da tənzimlənir. Bu baxımdan, ümumi təhsil standartları və proqramı (Milli kurikulum) təhsilalanların fənn bilikləri, sosial bacarıqlar, tənqidi təfəkkür, kommunikativ vərdişlər, yaradıcı təxəyyülünün formalaşmasını özündə əks etdirən bir təlimatdır. Yüksək keyfiyyətli təhsil proqramı (kurikulum), gözləntilərə əsaslanan, dövlət standartlarına uyğun şəkildə aşağıdakı sahələri əhatə edir (Şəkil 1.14):



**Şəkil 1.14. Tədris proqramının yeni məzmun**

- Tədris olunan fənlər üzrə təlim standartlarını və təlim nəticələrini əks etdirir;
- Fənnin tədrisi üzrə məqsəd və vəzifələri müəyyən edir;
- Gözlənilən təlim nəticələrinin əldə olunma yollarını göstərir;
- Təlimdə inteqrativliyin vacibliyini və tətbiqi yollarını izah edir;
- Fənn üzrə təlim tapşırıqları, fəaliyyətləri və əldə olunacaq bacarıqları şərh edir;
- Fənnin tədrisində təlim strategiyalarını və təlimin təşkili yollarını açıqlayır;
- Təlimin planlaşdırılmasında mövzuları və onlara verilən saatları müəyyən edir:
- Fənnin tədrisində tətbiq olanan metod və üsulların seçimini təqdim edir;
- Şagird nailiyyətlərinin qiymətləndirilməsində metod və üsulları təqdim edir;
- Şagird nailiyyətlərinin əldə olunması qaydalarını təsvir edir.

### 1.2.2. Təhsil proqramlarının yerinə yetirilmə (kurikulum) sahələri

Ümumi təhsil müəssisələrinin tədris proqramları (kurikulum) təlim nəticələrinə nail olmaq üçün tədris prosesinin yeni məzmununu, təşkilini, idarə olunmasını, planlaşdırılma yollarını və qiymətlərndiriməsini əks etdirir. Təhsil proqramları (fənn kurikulumlar) aşağıdakı istiqamətdə aparılır (Şəkil 1.15).



**Şəkil 1.15. Tədris proqramının sahələri**

- Ümumi təhsilin səviyyələri üzrə təlim nəticələri və məzmun standartları;
- Ümumi təhsilin hər bir səviyyəsində tədris olunan fənlər;
- Ümumi təhsilin səviyyələri üzrə həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarı;
- Ümumi təhsil sistemində pedaqoji prosesin təşkili prinsipləri;
- Təlim nailiyyətlərinin (nəticələrinin) qiymətləndirilməsi və monitorinqi.

Hər bir təhsil səviyyəsi üzrə təlim nəticələri şagirdlərin tədris ilinin sonunda əldə edəcəkləri bilik və bacarıqlar əvvəlcədən planlaşdırır. Proqramda müəyyən edilən təlim nəticələri, şagirdlərin müxtəlif yaş xüsusiyyətlərinə və anlama səviyyələrinə uyğun dinamik xarakterə malik olur. Bilik və fəaliyyətdən ibarət olan fənn standartları, dövlət tərəfindən qoyulan bir norma və tələb kimi təlim nəticələrinin reallaşdırılmasına xidmət edir və şagirdlərin idraki, emosional və kontekstual fəaliyyətinə uyğun tətbiq edilir. Hər bir standart ölçü dəyərinə malikdir və şagirdlərin nailiyyətlərinin əldə olunmasına xidmət edir.

### 1.2.3. Təhsil proqramı (kurikulum) və planının (silabus) xüsusiyyətləri

Təhsil proqramının yeni məzmunu onun düzgün anlaşılması, tətbiq olunması və qiymətləndirilməsini təmin edir. İlk olaraq, təlim nəticələrinə uğurla nail olmaq üçün müəllimlərə kurikulum və tədris proqramının fərqini izah etmək vacib məsələdir.

Tədris proqramı (silabus) və kurikulumun fərqi (Sxem 1.5).




**Sxem 1.5. Tədrisdə proqram (sillabus) və kurikulumun fərqli xüsusiyyətləri**

### Təhsil proqramının (Kurikulumun) strukturu və xüsusiyyətləri

"Kurikulum" termini latınca "Currere" sözündən götürülmüş, işləmək və davam etmək deməkdir. Tədris kurikulumu konseptual bir xarakter daşıyır və şagirdlərin daha yetkin olması üçün "bilik, bacarıq və təcrübələr" qazanılması anlamına gəlir. Bu baxımdan fənnin tədris kurikulumu aşağıdakı struktura malikdir (Sxem 1.6):

**Fənnin kurikulumu**

↓

**Fənnin tədrisinin məqsəd və vəzifələri**

| Hər təhsil səviyyəsi üzrə tədris olunan fənnin məzmunu | Fənnin tədrisi üzrə təlim strategiyaları | Təhsil pilləsi üzrə məktəbdaxili qiymətləndirmə |
|---|---|---|
| 1. Hər təhsil səviyyəsində fənn üzrə gözlənilən təlim nəticələri;<br>2. Fənn üzrə tədris olunacaq əsas məzmun sahələri;<br>3. Fənn təlim standartları;<br>4. Fənnin inteqrasiyası;<br>5. Fənn üzrə əldə olunacaq səriştələr; | 1. Fənnin tədrisi üzrə təlimin təşkili və idarə olunması prinsipləri;<br>2. Fənnin tədrisi metodologiyası;<br>3. Fənnin tədrisi üzrə təlimin planlaşdırılması;<br>4. Təlim resurslarının adaptasiyası. | 1. Təlimdə qiymətləndir-mənin prinsipləri<br>2. Qiymətləndirmə növləri;<br>3. Qiymətləndirmə prosesinin təşkili;<br>4. Testləşmə və alternativ qiymətləndirmə;<br>5. Şagird nailiyyətlətinin qiymətləndirilməsi. |

**Sxem 1.6. Fənn üzrə tədris kurikulumunun strukturu**

Kurikulumun hazırlanması prosesində üç əsas bölmə üzrə komponentlər müəyyən edilir (Sxem 1.6). Verilmiş strukturunda göründüyü kimi, tədris kurikulumu ilk olaraq, fənnin müasir dövrdə məqsəd və vəzifələrini əsas götürür, onun yeni məzmunu, məqsədi, metodologiyası və qiymətləndirilməsinə əsaslanır. Hər bir komponentin reallaşdırılması üçün ayrılmış vaxta uyğun hədəflər qoyulur və şagirdlərin tədris ilinə dair gözləntiləri müəyyən edilir.

Müxtəlif meyarlara cavab verən komponentləri özündə cəmləşdirən tədris kurikulumunun tərtib edilməsi prosesi xeyli vaxt və öhdəlik tələb edir. Bu məqsədlə, məktəb meneceri, kurikulum dizayn edən təlimatçılar və müəllimlərin tədris planlarının hazırlanmasında aşağıdakı bacarıqları olmalıdır:

- Tədris üzrə dövlət və milli standartlarla tanış olma;
- Fənnin tədrisi məqsədləri, təlimin təşkili tələbləri və verilən tapşırıqlarla tanış olma;

- Digər tədris sənədlərini dizayn prosesində diqqətlə nəzərdən keçirmə;
- Məktəbdə təhsil haqqında mövcud təcrübə, adət və ənənələri öyrənmə;
- Ən yaxşı tədris-tədqiqat nümunələrini müqayisə etməyi bacarma;

Təqdim olunan hər bir sahənin tətbiqi və qiymətləndirilməsi üzrə meyarlar müəyyən edilməlidir ki, sonda təlim nəticələrinin hansı səviyyədə ölçülməsi düzgün aparılsın.

Tədris kurikulumunda məzmun ardıcıllığı, məzmun balansı və ali məktəbə hazırlıq üzrə bacarıqlı şagirdlərin özünü hazır hiss etməsi nəzərə alınmalıdır.

**Məzmun ardıcıllığı –** bu, bir mərhələdən digərinə keçirilən bilik və bacarıqların inkişafı ilə əlaqədardır. Burada fərqli mərhələlərin ardıcıl olaraq bir-birinə uyğun gəlməsi vacib faktor hesab edilir. Şagirdlər hər bir mərhələ üzrə lazımi şəkildə hazırlanmalı və daha da yetkinləşdikcə təlimdə yanaşmalarda dəyişikliklərin gözlənilməsi məqbul hesab edilməlidir. Ardıcıllıq tədris planının eyni məzmunda qalmasının əksinə olaraq tətbiq olunacaq dəyişikliklərin planlaşdırılmasını tələb edir.

**Məzmun balansı –** tədris kurikulumunun məzmununda tarazlığın, yəni balansın gözlənilməsi məktəbin təhsil məqsədləri ilə əlaqələndirilir. Balanslaşdırılmış tədris proqramına riyaziyyat, dil, texnologiya, humanitar elmlər, yaradıcılıq sənəti və bədən tərbiyəsi daxil edilir (Şəkil 1.16). Geniş bir tədris proqramı, öyrənənlərə müxtəlif kontekstlərdən əsas və dəyərli öyrənmə təcrübəsi, mənimsəmə və özlərini inkişaf etdirmə imkanı verir. Ola bilər ki, bəzi fənlər, məsələn, informasiya texnologiyaları xüsusi bir fənn kimi tədris olunmaqdansa, digər fənlərin tədrisində tətbiq olunması daha məqsədəuyğun hesab edilir. Savadlılıq və rəqəmsallığın yalnız dillər və riyaziyyatda deyil, bütün fənn müəllimləri tərəfindən dəstəklənməsi də vacibdir.



**Şəkil 1.16. Tədris proqramında məzmun balansı**

**Ali təhsilə hazırlıq –** şagirdlərin ali təhsil istiqamətində inkişafı üçün tələb olunan xüsusi ixtisaslara hazırlaşması, tədris kurikulumun akademik keyfiyyətlərə uyğun olan fəaliyyət və layihələrdə iştirakı tələb olunur. Bu tip dizayn şagirdlərin repetitor yanında hazırlığını yox, məktəb mühitində əməkdaşlıqda öyrənməsini təmin edir. Bu mərhələdə məktəb geniş fəaliyyət göstərməli və faydalı peşə bacarıqlarının (mühəndis, iqtisadçı, aqronom, neftçi, kimyaçı, ekoloq, bioloq, həkim, müəllim, tarixçi, dilçi, filoloq, rəssam, heykəltaraş, musiqiçi və s.) qazanılmasını daha geniş aspektdə nəzərdə tutan tədris proqramları hazırlamalıdır. Məktəbin təmayüllü siniflərində tədris olunan bu fənlər STEM laboratoriyaları, texnoparklar, istehsalat və layihələr əsasında eksperimentdə aparılması praktiki əhəmiyyət daşıyır. Bu mərhələdə toplanılan formativ qiymətləndirmə balları şagirdlərin sonda ümumi balına əlavə olunaraq onların seçdikləri peşəni mükəmməl mənimsəmələrinə zəmanət verir. Şagirdlərin sonda topladığı bala görə ixtisas və ya peşə seçmələrinin düzgün yanaşma olmadığı, əksinə, seçdikləri peşəyə görə təhsillərini davam

etdirmələri məsləhət görülür.

### 1.2.4. Məktəb tədris kurikulumun hazırlanma mərhələləri

**Mərhələ 1:** Kurikulumun prinsip və məqsədini təyin etmək

Məktəbdə tədris proqramı (kurikulum) tələblərinin son beş il ərzində tətbiq edilməsi nəzərdə tutulmalıdır. Bu prinsiplər məktəbin coğrafiyası, dəyərləri, konteksti, mədəni baxışları, pedaqogikası və ehtiyaclarını əks etdirməlidir. Məktəblər kurikulum prinsiplərinin məqsədlərini ifadə etməyi bilməlidir. Məsələn, bütün mövzuların qiymətləndirilməsi tədris proqramında balanslı bir şəkildə bilik və bacarıqlarla təmin edilməlidir (Şəkil 1.17).




**Şəkil 1.17. tədris proqramında məzmun balansı**

**Mərhələ 2:** Şagird hüququnu inkişaf etdirmək

Məktəb tədris kurikulumu üzrə şagirdlərin hüquqları müəyyənləşdirilməli, maraq və ehtiyacları, yaş xüsusiyyətləri, psixoloji vəziyyəti, bacarıqları, məktəbdənkənar fəaliyyətləri, xüsusi istedad və qabiliyyətləri tədris proqramının məzmununda nəzərə alınmalıdır. Proqram (kurikulum) tələbləri məktəbdə inklüziv təhsilin məzmununda dəyişiklikləri qabaqcadan görən prinsipləri özündə əks etdirməlidir, çünki bu prinsiplər şagirdlərdə sərbəst fikir, düşüncə və tənqidi təfəkkürün inkişafına dəstək verir.

**Mərhələ 3:** Kurikulumun məzmununu inkişaf etdirmək (məzmun və balans)

Məktəblərdə kurikulumun məzmunu bir sıra maraqlı mövzular və layihələrə uyğunlaşdırılmalıdır. Məktəbin tədris proqramının yeni məzmunu cəmiyyət və əmək bazarının tələblərinə cavab verən dəyişkən bir təbiət və dinamikaya sahib olmalıdır. Hər bir məktəbdə əldə ediləcək nailiyyətlərin əhatə dairəsi nəzərə alınaraq, tədris proqramının tarazlığına uyğun gəlməli, strateji qərarlar verilməli, uzun və qısamüddətli plan əsasında həyata keçirilməlidir.

**Mərhələ 4:** Tədris planının (sillabus) hazırlanması

Tədris kurikulumu çərçivəsində uzunmüddətli planların qurulması üçün müəllimlər mövzuların tematik planını hazırlamalıdırlar. Dərsin planlaşdırılması onun məqsədləri, hər bir mövzunun başlanğıc nöqtəsinin ətraflı şəkildə inkişaf etdirilməsi və əhəmiyyətli nəticəsi göstərilməlidir. Tədris planı idraki fəaliyyət ardıcıllığı və təfəkkürün inkişaf dairəsini özündə monitor kimi təsvir etməlidir. Tədris planının hazırlanması üçün müəllim əvvəlcə onun elementlərini və lazım olan mərhələlərini dizayn etməlidir.

**Mərhələ 5:** Resursları seçmək

Kurikulumu tətbiq etmək üçün yüksək keyfiyyətli mənbələr əldə etmək vacib mərhələdir. Məktəblərdə kurikulumların həyata keçirilməsi və onun davamlılığının inkişaf etdirilməsi üçün lazım olan mənbələr əvvəlcədən müəyyənləşdirilməlidir. Yaxşı bir tədris

proqramında keyfiyyətli mənbələrə ehtiyac duyulur. Tədris proqramının səmərəli tətbiqi praktik və texnoloji avadanlıq, uyğun təlim mühiti və tədris resursları daxilində həyata keçirilir.

**Addım 6:** Kurikulumun tətbiqini təhlil etmək və qiymətləndirmək

Bu addımda nəyin yaxşı tətbiq edildiyi və təkmilləşmə qərarları yerinə yetirilir. Tədris planında uşaqların riyazi bilikləri və ya yazı bacarıqlarının inkişaf etdirilməsinə kömək edilməsi yolları təsvir edilməlidir. Məktəb proqramının tətbiqinə nəzarət edən menecer, tədris planını təlimə təsirini mütəmadi olaraq nəzərdən keçirir və hər hansı bir uyğunlaşma və dəyişiklik etməli olduğunu təyin edir. Aparılan sorğular nəzərdən keçirilərkən məktəbdə inkişafa ehtiyac duyulan sahələrə diqqət yetirilir.

**Tədris planının (sillabus) əsas xüsusiyyətləri**

Fənn üzrə tədris planı gündəlik mövzuları əks etdirən icmal şəklində akademik tədris proqramının (kurikulum) tələbləri əsasında hazırlanır və praktiki xarakter daşıyır. Tədris planı, adətən, qeyd olunan dərs haqqında xüsusi məlumat verir və fənn müəllimi tərəfindən hazırlanır. Ümumi bir tədris planı, sözün geniş mənasında, məktəbdə bütün dərslərin siyahısı, tarixi və saatlarını təqdim edir və bu, məktəb rəhbərliyi tərəfindən təsdiq edilir. Əslində plan hər fənnin tədrisini əhatə edəcək mövzuların təsviri, məzmunu və xülasəsidir. Əsas məqsəd hər bir dərsin və bölmənin sonunda şagirdin mövzunu anlaması və hansı inkişaf dinamikasında və ya standarta çatmaq üçün hansı səviyyədə olmasını müəyyən etməkdir (Şəkil 1.18). Tipik bir tədris planında müəllim üçün aşağıdakı metodiki bacarıqlar təklif olunur:



**Şəkil 1.18. tədris planının hazırlanması**

- Təlim üzrə əhatə olunan tematik mövzuların müəyyən edilməsi;
- Təlimin harada və nə vaxt keçirilməsi üçün məlumatların toplanması;
- Xüsusi sinif qaydalarının hazırlanması və s. daxil edilməsi.
- Tapşırıqların yerinə yetirilməsi üçün vaxtın müəyyən edilməsi;
- Fəaliyyət növləri və düzgün metodların seçilməsi;
- Dərs üzrə qiymətləndirmə. növünün seçilməsi.

Gündəlik tədris planında şagirdlərin gözləntilərinə yönəldilmiş tədris planı aşağıdakılar nəzərə alınmalıdır (Şəkil 1.19):

- Şagird maraqları və motivasiyasının yüksəldilməsi;
- Səmərəli təlim resurslarının müəyyənləşdirilməsi;
- Məqsədlərə cavab verən təcrübənin inkişaf etdirilməsi;


**Şəkil 1.19. tədris planının xüsusiyyətləri**

- Əlavə material toplanması və inteqrativliyin təmin edilməsi;
- Tapşırığın xüsusiyyətlərinin açıqlanması;
- Yeni metodlar və texnikaların tətbiq edilməsi;
- Özünüqiymətləndirmənin həyata keçirilməsi;
- Şagirdlərin təcrübəsinin yaradılması.

**Proqram və ya tədris planında vaxtın müəyyən edilməsi**

Planlaşdırma və tədris planı üzərində vaxtın keçirilməsi üçün mərhələlər düzgün təyin edilməlidir. Müəllimin vaxtı necə idarə etməyi öyrənməsi çox vacibdir. Tədris planı hazırlayan peşəkar müəllim, vaxtı mükəmməl keçirməklə ilin sonunadək onun səmərəsini qorumağı bacarmalıdır. Təlimin düzgün plan üzrə qurulması tədrisin yaradıcı sonluqla bitməsinə səbəb olur. Tapşırıqlar, sinif fəaliyyətləri və layihələrin tətbiqi vaxtın səmərəli keçirilməsinə xidmət etməli və planda daha çox vaxt ərzində həyata keçirilməlidir.

**Əks-əlaqə (feedback) və qiymətləndirmələr üçün plan qurulması**

Tədris planını tərtib edərkən qiymətləndirmə və rəy üçün vaxt ayırmağı unutmaq lazım deyil. Şagirdlərin nə dərəcədə inkişaf etməsini ölçməyi bacarmaq lazımdır. Şagirdləri gündəlik dərslər və tapşırıqlarla bağlı söhbətlərə cəlb etmək üçün vaxt müəyyən edilməlidir. Onlardan dərsin mövzusu haqqında fikirlərini öyrənmək üçün təlimin sonunda qiymətləndirmə aparılmalıdır. Təqdim olunan mövzu başa düşülmədiyi təqdirdə, şagirdlərin danışma və müzakirəyə həvəsləndirilməsi tövsiyə olunur. Günün sonunda tədris planı haqqında deyil, təqdim olunan dərslərin nə qədər yaxşı başa düşülməsi barədə söhbət aparılmalıdır.

## Tələbələr üçün fəaliyyətlər

1. Qrup işi. 4 qrupa bölünərək aşağıdakı mövzular üzrə müzakirə təşkil edin:
   - Qrup 1: Tədris proqramı və təlim planlaşdırılmasının məqsədləri;
   - Qrup 2: Tədris proqramında vacib sahələr;
   - Qrup 3. Tədris proqramı və planların müqayisəli xarakterində əsas cəhətlər;
   - Qrup 4. Tədris planının əsas elementlərinə əlavələr və fayda.

2. Cütlər şəklində iş. Tədris proqramı (kurikulum) və tədris planını (sillabus) izah edən terminləri qeyd edin:
   - Tədris kurikulumu - ......................................................................................................................
   - Tədris planı - ...................................................................................................................................

3. Kiçik qruplar şəklində iş. Verilmiş cədvəl üzrə (hər qrupa bir fənn verilir) tədris proqramının ən vacib xüsusiyyətlərini qeyd edin:

| Fənnin təlim nəticələri | Təlim standartları | Fənnə verilən saatlar | Pedaqoji prosesin təşkili | Təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

4. Qrup işi. Tədris proqramı və sillabusların hazırlanmasında tələb olunan cəhətləri təsvir edin:

| | Məzmun | Balans | Bacarıqlar |
|---|---|---|---|
| Tədris proqramı | | | |
| Tədris planı | | | |

5. Kiçik qruplarda iş. Verilmiş fikirləri tamamlayın
   1. Tədris proqramının əhatə dairəsi.........................................................................................
   2. Tədris proqramının məzmunu..............................................................................................
   3. Tədris kurikulumunun yerinə yetirilməsi vaxtı...................................................................
   4. Tədris planının elementləri...................................................................................................
   5. Tədris planının mərhələləri..................................................................................................
   6. Tədris planında əks-əlaqə.....................................................................................................



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Tədris planları və proqramlarının (kurikulum) yerinə yetirilməsi üzrə pedaqoji işçilərin metodiki fəaliyyətini səmərəli istiqamətləndirir”**

**1. Verilmiş sualları cavablandırın:**

- Tədris planı və proqramının (kurikulum) yeni məzmunu hansı məqsədləri daşıyır?
- Tədris proqramını (kurikulum) əhatə edən sahələrə nələr daxildir?
- Ənənəvi və müasir tədris proqramlarını fərqləndirən cəhətlər hansılardır?
- Tədris proqramının məzmununa daxil olunan sahələr necə həyata keçirilir?
- Tədris planının hazırlanması elementləri hansılardır?
- Tədris planında ən çox vaxt sərf edilən sahə hansı mərhələdir?
- Tədris proqramı və planında inteqrasiya necə təmin olunur?
- Tədris planı və proqramının (kurikulum) həyata keçirilməsində müəllimin hansı bacarıqları olmalıdır?

**2. Proqramın məzmununa aid olan səhv (S) və doğru (D) bəndləri müvafiq qaydada qeyd edin:**

| | | |
|---|---|---|
| 1. | Tədris proqramı (kurikulum) ümumi təhsil müəssisəsi tərəfindən hazırlanır. | |
| 2. | Tədris kurikulumunun məzmunu cəmiyyətin tələblərinə uyğun dəyişilir. | |
| 3. | Tədris planı fənn üzrə bilik və məlumatların qazanılmasına istiqamətləndirilir. | |
| 4. | Bütün təhsil səviyyələri üzrə təlim nəticələri və standartlar ümumi xarakter daşıyır. | |
| 5. | Tədris planı (sillabus) müəssisə rəhbərliyi tərəfindən təsdiq edilir. | |
| 6. | Fənlərə verilən saatların miqdarının müəyyən edilməsi məktəbin strateji inkişaf planına daxil edilir. | |
| 7. | Təlimin təşkili prinsiplərində pedaqoji prosesin tamlığı təmin edilməlidir. | |
| 8. | Fənnin tədrisi və ona verilən saatlar proqramın əsas hissəsini təşkil edir. | |
| 9. | Şagird nailiyyətlərinin qiymətləndirilməsi tədris proqramının sahəsinə aid deyil. | |
| 10. | Tədris planının məqsədi standartların reallaşdırılmasına istiqamətləndirilir. | |

**3. Tədris kurikulumunun bölmələrini izah edən termini seçin.**

A) Əsas mövzular;
B) Əsas iclaslar;
C) Əsas mərhələlər;
D) Dərs planları.

**4. Tədris proqram (kurikulumun) funksiyasına aid OLAN cavabı seçin.**

A) Hansı mövzuları öyrədəcəyi və nə vaxt olacağını təşkil etmək;
B) Məktəb rəhbərləri üçün tədrisin təşkilində bir çərçivə təmin etmək;
C) Təlim prosesinin mərhələlərini təşkil etmək;
D) Heç bir funksiyaya xidmət etməmək.

**5. Gündəlik tədris planının məqsədini seçin.**

A) Fənn üzrə ümumi təlim nəticələrinin geniş izahını vermək;
B) Ayrı-ayrı mövzuların spesifik tədrisi metodikasını izah etmək;
C) Müəllimin il ərzindəki bütün fəaliyyətlərini əks etdirmək;
D) Təlimin təşkili prinsiplərini geniş təsvir etmək.

## 1.3. Tədris proqramlarının səmərəli yerinə yetirilməsi üçün tələblərə uyğun dərs cədvəli tərtib edir

### 1.3.1. Məktəbdə dərs cədvəlinin rolu

Məktəbin dərs cədvəli fənnin tədrisinin həftənin günləri ilə necə uyğun olduğunu aydın şəkildə göstərən bir sənəddir. Bir rəsmi sənəd kimi, məktəb cədvəli məktəblə əlaqəli fəaliyyətlərin idarə olunması, şagirdlər, müəllimlər, sinif otaqları və digər proseslər üçün faydalıdır. Cədvəllər məktəb həyatının diqqət mərkəzindədir. Hər gün məktəb icmasının hər bir üzvü tərəfindən istifadə olunur və məktəbin uğurlu fəaliyyətinin əsasını təşkil edir. Cədvəlin təşkili tədris ilinin başlanğıcında ən çox vaxt aparan işlərdən biridir (Şəkil 1.20). İdarəçilər cədvəlin tərtibatında aşağıda qeyd olunan bir çox çətinliklə üzləşirlər:



**Şəkil 1.20. Tədris planının xüsusiyyətləri**

- Otaqlar, müəllimlər və siniflərdə üst-üstə düşmələr ilə daim mübarizə aparılır;
- Uyğun tərtib edilməyən cədvəl istər-istəməz təlimin keyfiyyəti, şagirdlərin psixoloji gərginliyinə və yorğunluğa səbəb olur;
- Düzgün tərtib olunmayan cədvəl təlim məqsədlərinin əldə olunmasında uğursuz nəticələrə səbəb olur.

Bu baxımdan dərs cədvəli məktəb idarəetmə sistemində dərs vaxtının planlaşdırılması üçün yekdil bir tələbdir. Bu yeni bir sinif cədvəli, mövcud bir sinfin ləğv edilməsi və cədvəldə digər dəyişikliklərin edilməsi üçün tətbiq oluna bilər. Dərs cədvəlinin düzgün tərtibatının əsas məqsədləri aşağıdakılardır:

- Müəllim və şagirdlərə hər bir dərs prosesinin dəqiq vaxtı və müddətini bilmə imkanı verilir;
- Vaxtı səmərəli keçirilməsini təmin edir və enerjiyə qənaət edilir;
- İş qrafiki vasitəsi ilə lazımi şəxslər müvafiq yerlərdə, vaxtında və uyğun qaydada yerləşdirilir;
- Şagirdlər, müəllimlər, otaqlar və digər mənbələrin əlaqələndirilməsi koordinasiya edilir;
- Yaxşı öyrənmə vərdişlərinin inkişafı təmin edilir və hər bir mövzuya sərf olunan vaxtın idarə olunması tənzimlənir;
- Tədris planının hazırlanmasında bir rahatlıq və tarazlığın tapılmasında kömək edir;
- Həm şagird, həm də müəllimin diqqəti bir məqsədə yönəldilir.

### 1.3.2. Dərs cədvəlinin tərtibi qaydaları

Tədris proqramı və planının səmərəli tətbiqi və tədrisin keyfiyyətinin yüksəldilməsində ən uğurlu vasitələrdən biri də dərs cədvəlinin uyğun şəkildə tərtibatıdır. Məktəbin cədvəli olmadan öyrənənlərə günə necə hazırlaşacaqları, sinfə keçmədən əvvəl nə qədər vaxt keçirdikləri və müəllimlərinin kim olduğunu bilmək çətin olur. Bu baxımdan dərs cədvəlinin tərtibatında uyğun texniki şərtlərin nəzərə alınması vacibdir. Bu fikirləri əsas tutaraq cədvəlin tərtibatında aşağıdakı elementləri nəzərə almaq lazımdır:

- Müəllim və şagirdlərin sayı;
- Fənlərin sayı;
- Otaqların sayı;
- Məktəbdə dərs yükünün bölgüsü.

### 1.3.3. Dərs cədvəlinin tərtibatında müasir texnoloji modellər

Dərs cədvəlinin bir sıra alternativ elektron proqramlar vasitəsilə hazırlanması təklif olunur və bunun üçün qeyd olunan elektron modullar (Nova-T4 və 6, TimeTabler, GP-Untis, ASC Cədvəli və Excel) kompüterə yüklənir və cədvəllər mükəmməl şəkildə hazırlanır. "İş Qrafiki Meneceri"modulu məktəbin cədvəlini təşkil etmək üçün ideal bir moduldur (2016-Digital School Software TimeTable – YouTube youtube.com).

Çevik və istifadəsi asan olan bu modul əsasında hazırlanmış cədvəl şagird, təlim forması, müəllim, otaq və ya mövzu ilə, hətta təhsil səviyyəsi və tədris ilini tez hazırlaşmaq üçün mükəmməl bir nümunədir (Cədvəl 1.2). İstənilən modeldə dərs cədvəli nümunələri hazırlamaq üçün məktəbin milli-mədəni xüsusiyyətlərini nəzərə almaq lazımdır.

| Məktəb saatları | Bazar ertəsi | Çərşənbə axşamı | Çərşənbə | Cümə axşamı | Cümə |
|---|---|---|---|---|---|
| 1 | Riyaziyyat | Tarix | Fizika | Riyaziyyat | Coğrafiya |
| 2 | Musiqi | İngilis dili | Əl əməyi | Rəsm | İngilis dili |
| 3 | A a dili | Rəsm | Riyaziyyat | İKT | Tarix |
| **Nahar fasiləsi** | | | | | |
| 4 | Fiziki tərbiyə | Riyaziyyat | İngilis dili | Ana dili | Fiziki tərbiyə |
| 5 | İKT | Kimya | Oxu (ədəbiyyat) | Kimya | Oxu (ədəbiyyat) |
| 6 | Fizika | Musiqi | Fiziki tərbiyə | Əl əməyi | Fizika |

**Cədvəl 1.2. Dərs cədvəlində fənlərin sıralanması**

1. Cədvəli yaratdıqdan sonra onu yükləmək və ya idarəetmə məlumat sistemi (MIS) ilə sinxronlaşdırmaq lazımdır. Məktəbin bütün əsas məlumatlarının açarı və bütün mühüm təfərrüatlar məktəb icmasının hər bir üzvü ilə dəqiq şəkildə bölüşülməyə imkan verir;

2. Bu modul vasitəsilə işçi heyəti iclasları, il cədvəlləri və müəllimlərin mövcudluğu, hətta məktəbdə keçirilən hazırlıq kursları cədvəllərə əlavə edilə bilər. Belə cədvəllərdə toqquşma və ya digər problemləri aradan götürmək üçün digər proqramı da yükləmək olur. Elə etmək lazımdır ki, bu proqram vasitəsilə cədvəldə olan dəyişiklikləri hər bir məktəb üzvü görə bilsin;
3. Cədvəl üzrə şagirdlərin digər siniflərə keçirilməsini də həyata keçirmək olur. Bunun üçün müəllimlər bu moduldan istifadə edə bilərlər. Daha sonra istifadəçilərə şagird, müəllim, otaq, fənn, şöbə, il qrupu, tədris dəsti və tədris forması ilə əlaqəli cədvəllər hazırlamağa imkan verən asan istifadə qrafiki də əldə edilə bilər (Cədvəl 1.2).

**İSAMS (Integrated Student Aid Management System) ilə cədvəlin hazırlanması**

Bu modul vasitəsilə cədvəllərin ayrı-ayrılıqda PDF, Excel və HTML sənədləri daxil olunmaqla bir sıra formatlara çevrilə bilər. Bunu yalnız işçilərə göndərməklə yanaşı, eyni zamanda şagird və valideyn portalları və elektron müəllim, elektron şagird və elektron valideyn (iTeacher, iStudent və iParent) tətbiqləri ilə avtomatik olaraq sinxronizasiya etmək olur və buna görə məktəb icmasının bu əsas üzvləri ehtiyac olduqda onları görə bilər.

### 1.3.4. Dərs cədvəlinin tərtibatının səmərəli şərtləri

Bir çox elmi ədəbiyyat və araşdırmada dərs cədvəlinin tərtibatında müəllim və şagirdlərin pedaqoji-psixoloji və fizioloji xüsusiyyətlərinin nəzərə alınması təklif edilir. Dərs cədvəli fənlərin düzgün mənimsənilməsi, vaxtın səmərəli bölünməsi, fiziki və psixoloji amilləri nəzərə alan vacib bir faktor kimi tədrisin keyfiyyətli aparılmasını tənzimləyir (Şəkil 1.21). Buna əlavə olaraq, dərslərin düzgün mənimsənilməsində çətinlik yaradan xüsusiyyətlər nəzərə alınaraq onun düzgün tərtib edilməsi vacib şərt hesab edilir.



**Şəkil 1.21. Dərs cədvəlinin tərtibatı**

**Pedaqoji-psixoloji faktorlar** - fənlərin məzmun fərqi və mənimsənilmə səviyyəsi müxtəlif olduğundan həftə ərzində şagirdlərin təlim fəaliyyətinin keyfiyyəti də eyni səviyyədə olmur. Həftənin əvvəli (1-3 günlər) şagirdlərin təlimdə iş qabiliyyətləri, diqqət və maraqları çox yüksək olur, həftə sonuna yaxın (4-5) isə onların fəaliyyəti müəyyən dərəcədə aşağı düşür, onların diqqəti müəyyən dərəcədə zəifləyir və yorulduqlarından qeyri-ixtiyari olaraq istirahətə hazırlaşırlar. Cədvəldə fənlərin şagird maraqlarına uyğun biri-birinə inteqrasiya edilərək sıralanması tədrisin keyfiyyətinə təsir edir. Bu məqsədlə, dərslərin yaradıcı işlər daxilində keçirilməsi həftəboyu izlənilməlidir. Müəllimlərə aralıq dövrlərində dərs planlarının dəyişdirilməsi və həmkarları ilə əməkdaşlıq etmə imkanı verilir.

### 1.3.5. Dərs cədvəlinin tərtibatının metodiki tələbləri

Müəllimin pedaqoji keyfiyyətini yüksəldən metodiki qabiliyyəti və psixoloji-fiziki vəziyyətinin nəzərə alınması təlimin uğurlu alınmasına gətirib çıxarır. Bu baxımdan həftəlik dərs cədvəli tərtib edilərkən aşağıdakı metodik tələblərin riayət olunması məqsədəuyğun hesab edilir.

Çətin tədris olunan fənlər hesab edilən riyaziyyat, ana dili, tarix, coğrafiya, yuxarı siniflərdə fizika, kimya və astronomiya kimi fənlərin tədrisinin yaradıcı və bəzən də asan fənlər hesab edilən təsviri incəsənət, rəsmxət, fiziki hazırlıq, musiqi və nəğmə, əmək təlimi kimi fənlərlə növbələşdirilməsi lazımdır (Şəkil 1.22). Müşahidələr göstərir ki, çətin fənlər üzrə dərslər II, III və IV məşğələ saatlarında olduqda effektiv nəticə əldə olunur. Tədqiqatçı alimlər qeyd edirlər ki, yazı dərslərinin təşkilində uşaqların fiziki və psixoloji hazırlığı nəzərə alınaraq daha gümrah vaxtlarda aparılması məsləhət görülür. Fiziki tərbiyə, əmək təlimi və rəsm dərslərindən sonra yazı dərslərinin səmərəsi zəif olur. Bu situasiyada hərəkətlərlə orqanizmin əzələ sisteminin həddindən artıq yüksəldilməsi kalliqrafiyaya təsir göstərir.




**Şəkil 1.22. Kimyanın tədrisi üsulları**

1. Çətin fənlərin (coğrafiya, tarix və ədəbiyyat) bir gündə dərs cədvəlində ardıcıl təyin olunması da təlimdə yaxşı səmərə vermir. Fənlər üzrə çoxlu ev tapşırıqlarının da ardıcıl verilməsi şagirdlərin təfəkküründə çaşqınlıq yaradır və fikirləri qarışdırır. Hər bir sinifdə dərslər xarakter və məzmunca müxtəlif olmalıdır, yəni dəqiq fənlər, dillər, ədəbiyyat və ictimai fənlərlə növbələşdirilməlidir.
2. Həftədə iki saata keçirilməsi nəzərdə tutulan məşğələ saatları bir qədər fasiləli olmalıdır ki, onlara ayrılan vaxt ərzində şagirdlər kifayət qədər mükəmməl hazırlaşsınlar. Fənn üzə dərslərə uzun müddət fasilə verildikdə cədvəldəki saatların bərabər bölüşdürülməməsi baş verir və nəticədə şagirdlərin fənnə müntəzəm diqqət yetirməmələri baş verir (Şəkil 1.23).




**Şəkil 1.23. Musiqinin tədrisi üsulları**

3. Paralel siniflərdə dərs deyən müəllimin eyni gündə, eyni fənn üzrə dərsinin təyin edilməsi həm müəllim üçün faydalıdır, həm də siniflər arasında fənnin necə mənimsənilməsi əlaqəsini yaradır. Bu zaman müəllimin məşğələlərə hazırlaşması yüngülləşdirilir və siniflər arasında təhsilalanların əldə etdiyi nəticələrin müqayisə edilməsinə imkan yaradılır.
4. Məktəb cədvəlləri müxtəlif səbəblərdən son dərəcə vacibdir. Heç bir müəllimə eyni vaxtda və ya iki dərs üçün planlaşdırılması onun keyfiyyətli tədrisini təmin etmir. Müəllimlərə hazırlıq dövründə dərs planlarının dəyişdirilməsi və həmkarları ilə əməkdaşlıq etmə imkanı verilir. İş qrafikində şagirdlərə müəyyən bir mövzunun planlaşdırıldığını dəqiq bilmə imkanı verilir. Yaxşı qurulmuş bir cədvəldə müəllimlər və şagirdlər üçün rahat ola biləcək təbii bir ritm və nizam yaradılır.

**Dərs cədvəlinin tərtibatında otaq və kabinetlərin təşkili -** dərs məşğələlərinin uyğun mühitdə və texnologiyalardan səmərəli istifadə edilərək keçirilməsi şagirdlərin təlimə marağını artırır və rəngarənglik yaradır. Eyni sinifdə bütün fənlərin keçirilməsi təlimin məzmununu monoton mühitə yönəldir və müəllimlərin əyanilik və mövcud kabinetlərdən (fizika, kimya, biologiya, informatika, idman zalı və s.) istifadə etmə imkanlarını azaldır. Əgər əyani vəsaitlərin komplekti paralel siniflərdə dərs deyən eyni fənn müəllimlərini təmin etmirsə, onda onların dərsləri cədvəldə müxtəlif saatlarda təyin edilməlidir. Hər bir fənnə dair əyaniliyin olması çox böyük əhəmiyyət kəsb edir(Şəkil 1.24).




**Şəkil 1.24. Dərs cədvəli üzrə kabinetlərin təşkili üsulları**

Beləliklə, səmərəli dərs cədvəlində bütün məktəb proqramının tam, düzgün və əhatəli mənzərəsinin verilməsi və vaxtın səmərəli idarə edilməsi bir normadır. Bir cədvəl vasitəsi ilə müəllimlər və şagirdlərin təlimdə hər bir fəaliyyətə həsr edəcəkləri vaxt əvvəlcədən məlum olur. Cədvəlin əsas uğuru məhz onun əvvəlcədən planlaşdırılması, nizamlı işlərin müntəzəm axarını təşkil etməsidir. Düzgün tərtib edilmiş cədvəl tədrisdə vəzifə laqeydliyi, səylər, inzibatı problemlər və lazımsız fəaliyyətlərin təkrarlanması təhlükəsini aradan qaldırır.

## Tələbələr üçün fəaliyyətlər

1. Təqdim olunmuş cədvəl nümunəsində qaydaları nəzərə alaraq dəyişikliklər aparın.

2. Qrup işi. Karusel üsulu ilə dərc cədvəlində ən vacib cəhətləri qeyd edin.
   - Fənlərin sıralanması________________________________________
   - Otaqların istifadəsi________________________________________
   - Şagirdlərin maraqları________________________________________
   - Proqramın mənimsənilməsi________________________________



3. Vəziyyətin təhlili (Case study)

Qruplara bölünərək aşağıda verilmiş problem situasiyanı birgə həll edin.



**Qrup A.** Verilmiş problem situasiyasını oxuyun və dərs cədvəli üçün təkliflər hazırlayın.

**Qrup B.** Verilmiş problemdəki situasiyanı oxuyun və 12 saata müəyyən edilmiş tarix dərsinin cədvəldə yerini və hansı dərsdən əvvəl və sonra olmasını tərtib edin.

| |
|---|
| Tarix müəlliməsi Lalə müəllimənin həftə ərzində cəmi 12 saat dərsi vardır. Həftənin ikinci günü ayrı-ayrı siniflərdə (6-7-8) 4 dərsi vardır. Birinci dərsə səhər saat 08.00-da başlanır. İkinci dərs 3-cü saat, üçüncü dərsi 4-cü saat, 4-cü dərsi isə 6-cı saatdır. Lalə müəllimə dərsinin bir gündə belə salınmasından narazıdır. Onun işinin keyfiyyətli olması üçün təkliflər hazırlayın. |

4. Layihə: "Uğurlu cədvəl – uğurlu təlim" üzrə plan tərtib edin.

| № | Fənlər | Günlər | Saat | Məqsəd | Keyfiyyətli nəticə |
|---|---|---|---|---|---|
| 1. | | | | | |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |
| 5. | | | | | |

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Tədris proqramlarının səmərəli yerinə yetirilməsi üçün tələblərə uyğun dərs cədvəli tərtib edir"**

**1. Verilmiş sualları cavablandırın:**

- Dərs cədvəlinin uyğun tərtibatı təlimin keyfiyyətinə necə təsir edir?
- Fənlərin mənimsənilmə çətinliyinə görə sıralanması necədir?
- Dərs cədvəlinin tərtibatında metodiki tələblər necə yerinə yetirilir?
- Məktəbdə dərs cədvəli üzrə ən çox yaşanan problemlər hansılardır?
- Tədrisin pedaqoji-psixoloji xüsusiyyətləri dərs cədvəlində necə nəzərə alınır?

**2. Verilmiş səhv (S) və düzgün (D) cavabları seçin:**

| | | |
|---|---|---|
| 1. | Təbiət elmləri dərsləri istisna olunmaqla, bütün mövzular iki ardıcıl saatlarda keçirilməlidir; | |
| 2. | Dərslərin müxtəlif fənn kabinetlərində keçirilməsi öyrənənləri təlimə motivə edir; | |
| 3. | Eyni müəllim eyni sinifdə iki ardıcıl dərs saatında olmamalıdır; | |
| 4. | Fənn üzə dərslərə uzun müddət fasilə verildikdə cədvəldə fənlər müxtəlif saatlarla bölüşdürülür; | |
| 5. | Eyni sinif otağında eyni dərslərin keçirilməsi səmərəlidir. | |

**3. Dərs cədvəlinin tərtibatında hansı variant yanlışdır?**

A) Otaqların sayı;
B) Şagirdlərin sayı;
C) Resursların sayı;
D) Müəllimlərin sayı.

**4. Dərs cədvəlinin tərtibatının ən səmərəli üsulu hansıdır?**

A) Çətin fənlərin tədrisi həftənin əvvəlinə salınmalıdır;
B) Həftə sonu yalnız yaradıcı işlərə həsr olunmuş dərslər keçirilməlidir;
C) Çətin və asan fənlər bir-birinə inteqrasiya edilərək növbəli keçirilməlidir;
D) Çətin fənlərin tədrisi gün ərzində ardıcıl salınmalıdır.

**5. Verilmiş fənlərin gün ərzində düzgün sıralanmasını seçin:**

A) İdman - Ana dili - Riyaziyyat – Fizika;
B) Coğrafiya – Musiqi – Tarix – Rəsm;
C) Kompüter – Riyaziyyat – Kimya – İngilis dili;
D) Kimya – İdman – Həndəsə - Biologiya.

## 1.4. Tədris prosesinin səmərəliliyini artırmaq üçün beynəlxalq təcrübə nümunələrini tətbiq edir

### 1.4.1. Təlimdə beynəlxalq təcrübənin rolu



**Şəkil 1.25. beynəlxalq təcrübə nümunələri**

Qloballaşmanın getdikcə artdığı və rəqabətin gücləndiyi müasir dövrümüzdə inkişafın əsas hərəkətverici qüvvəsi olan təhsilin keyfiyyətinin yüksəldilməsi prioritet məsələlərdən hesab olunur. Bununla əlaqədar, demək olar ki, bütün ölkələrdə təhsilin keyfiyyətinin yüksəldilməsinə təsir göstərən bir çox inkişafyönümlü islahatlar aparılır. Təlimdə beynəlxalq təcrübələrin tətbiqi öz müasirliyi və səmərəliliyi ilə şərtləndirilir və yerli şəraitdə təlimin forma və məzmun cəhətdən yeniləşdirilməsinə istiqamətləndirilir (Şəkil 1.25). Müasir təhsil sistemlərində ən çox tətbiq olunan beynəlxalq təcrübə modellərindən olan STEM - elm, texnologiya, mühəndislik, riyaziyyat (Science, Technology, Engineering, Math), İB - Beynəlxalq Bakalvriat, Rəqəmsal təlim (Digital learning), Distant təlim (Distant learning: Microsoft outlook; Zoom); e-Twinning – cütləşmə modeli və s. daha çox uğur qazanan nümunələrdir. Xarici ölkələrin iş təcrübəsindəki yaradıcı meyllərin öyrənilməsi milli-mənəvi xüsusiyyətlərimizə inteqrasiya edilir və təhsilimizdə əsas maraq doğuran sahələrdən birinə çevrilir. Təhsilin yeni bilik yaradan təcrübələr əsasında öyrənilməsi aşağıdakı məqsədlər daşıyır:

- Ünsiyyət bacarığını formalaşdırmaq üçün qlobal şəbəkə imkanlarından istifadə etmək;
- Beynəlxalq təcrübə - rəqabət qabiliyyətini gücləndirmək;
- Xarici iş təcrübəsinin həyat təcrübəsinə gətirilib çıxarılmasına nail olmaq;
- Təhsildə keyfiyyətə əsaslandırılan beynəlxalq layihələrdə iştirak etmək;
- Tədris proqramının məzmununu beynəlxalq təcrübə nümunələrinə uyğun tərtib etmək.

### 1.4.2. STEM (Science-Technology-Engineering-Math)




**Şəkil 1.26. beynəlxalq təcrübə nümunələri**

STEM - elm, texnologiya, mühəndislik və riyaziyyat modeli təhsildə ən çox tətbiq olunan, çevik və əlçatan nümunələrdən biri hesab edilir. Yuxarı sinif şagirdləri analitik, yaradıcılıq və tənqidi düşünmə qabiliyyətləri ilə təchiz olunaraq sürətlə dəyişilən bir dünya problemləri həll edə bilirlər. (Şəkil 1.26). STEM təhsilində fənlərin sistemli bir yanaşmada öyrənilməsi təqdim edilir. STEM dərsləri üzrə proqramların

tərtibi xüsusi istedadı və bacarığı olan öyrənənlərin maraq və gözləntiləri əsasında hazırlanır və təlim nəticələri onların təməl səviyyəsi üzrə müəyyən edilir. STEM savadına malik olan gənclər məktəb divarlarının xaricindən dünyaya asanlıqla çıxış edə bilirlər. Bu model məktəbəqədər təhsil sistemindən başlayaraq təhsildə ekosistemin inkişafı və innovasiyaların kəşfinə dair əsas bilik və bacarıqları formalaşdırır. STEM təhsil modelinin məzmunu məktəb təhsilində bir fəaliyyət kimi milli səviyyədə beş əsas sahəni müəyyən edir:

- Şagirdlərin STEM qabiliyyəti, arzu və iştirakını artırmaq;
- Müəllimin qabiliyyəti və STEM tədris keyfiyyətini artırmaq;
- Məktəb sistemlərində STEM təhsil imkanlarını dəstəkləmək;
- Təhsil müəssisələrinin biznes və sənaye birlikləri ilə səmərəli əməkdaşlıq etmək;
- Təhsildə güclü dəlillər və sübut bazası yaratmaq.

STEM dərslərinin məqsədi:

- Məntiqi təfəkkürü dəstəkləyən təbiət elmlərinin tədrisini gücləndirmək;
- Layihəyə əsaslandırılan öyrənməni tətbiq etmək;
- Mühəndislik və texnoloji vasitələrdən istifadə edərək real dünya kontekstini təmin etmək üçün problemlər və layihələrin aparılmasını təşkil etmək;
- Şagirdlərin riyazi biliklərinin inkişafı üçün kodlaşdırmadan istifadə edərək real dünya problemlərini düşünmək və həll etmək;
- STEM-lə əlaqəli sahələrdə təhsilalanların maraqlarını artıran, problemini yaxşılaşdıran tədrisin həlli və tənqidi analiz bacarıqlarını formalaşdırmaq.

### 1.4.3. Beynəlxalq Bakalavriat Proqramı (İnternational Baccalaureate)

Dünyanın ən qabaqcıl ölkələrinin təhsil təcrübəsi öyrənilərək tətbiqi yönündə addımlar atan və təhsil sahəsində beynəlxalq institutlarla sıx əməkdaşlıq edən qurumlardan biri də Beynəlxalq Bakalavriat Təşkilatıdır. Beynəlxalq Bakalavriat Təşkilatı 1968-ci ildə Cenevrədə (İsveçrə) Cenevrə Beynəlxalq Məktəbi və Nyu-Yorkda BMT Məktəbinin təşəbbüsü ilə beynəlxalq təhsilin standartlaşdırılması məqsədi ilə yaradılıb. Bu qurumun ölkələrin məktəblərinə təklif etdiyi Beynəlxalq Bakalavriat Proqramı indi dünyada böyük nüfuz və populyarlıq qazanmışdır. Hazırda Beynəlxalq Bakalavriat Təşkilatına dünyanın 144 ölkəsindən 3557 məktəb daxildir və həmin məktəblərdə təşkilatın təklif etdiyi 4 proqramdan biri və ya bir neçəsi üzrə tədris aparılır. İB proqramı üzrə 6 fənn keçirilir və bu fənlərdən 3-ü standart səviyyədə daha dərindən keçirilir. 3 yaşdan 19 yaşadək uşaqlar və məktəbliləri əhatə edən həmin proqramlar aşağıdakılardır:

**1. İbtidai təhsil proqramı (3-12 yaş)**

I - Kiçik (erkən) yaşlı uşaqlar üçün Beynəlxalq Bakalavriat Proqramı (The IB Primary Years Proqramme(PYP). Bu proqramda 3-12 yaşlı uşaqlarda tədqiqatçılıq keyfiyyətinin inkişaf etdirilməsinə istiqamətləndirilib. PYP-nin əsas sahələri dil, sosial tədqiqatlar, riyaziyyat, elm və texnologiya, incəsənət, fərdi, sosial və bədən tərbiyəsidir.

2. **Orta illik proqram (11-16 yaş)**

II - Yeniyetmələr (ümumi orta məktəblər) üçün Beynəlxalq Bakalavriat Proqramı (The IB Middle Years Proqramme). Bu proqram 11-16 yaşlı şagirdlər üçün 8 fənn üzrə təlimin keçirilməsi nəzərdə tutulur: Xarici dil, dil və ədəbiyyat, insan və cəmiyyət, təbiət elmləri, riyaziyyat, incəsənət, fiziki tərbiyə, sağlam təhsil, əl əməyi, və rəsm. Bu onların ənənəvi öyrənilən fənlərlə real aləm arasında əlaqələri dərk etmələri və tənqidi düşünən və mühakimə yürüdən insanlar kimi yetişmələrinə kömək edir.

3. **Diplom Proqramı (16-19 yaş)**

III - Beynəlxalq Bakalavriat Diplom Proqramı (The IB Diploma Proqramme). Bu proqram 16 yaşdan 19 yaşadək şagirdlər (X-XII siniflər) üçün motivasiyalı və balanslaşdırılmış proqramdır və proqram çərçivəsində onlar ali məktəblərə hazırlanır. IB diplomuna layiq görülən şagirdlər fənn imtahanlarından əlavə, üç əsas tələbi yerinə yetirməlidirlər: Geniş esse, bilik nəzəriyyəsi-tənqidi təfəkkür, yaradıcılıq, fəaliyyət və xidmət (Şəkil 1.27).

Fənlər qrupuna aşağıdakılar daxildir: Dil və ədəbiyyata aid tədqiqatlar, xarici dilin qazanılması, fərdlər və cəmiyyətlər.

Eksperimental elmlər: Fizika, kimya, biologiya, komputer elmləri, dizayn texnologiyası, idman və sağlamlıq, ətraf mühit elmi və cəmiyyətlər, standart və yüksək səviyyəli riyaziyyat, cəbr, həndəsə və qrafika.

İncəsənət: musiqi, rəqs, teatr və kinoşünaslıq, rəssamlıq və heykəltaraşlıq.



**Şəkil 1.27. Beynəlxalq bakalavriat proqramının sahələri**

4. **Karyera ilə əlaqəli proqram (16-18 yaş)**

IV - Beynəlxalq Bakalavriat Peşəkar Sertifikatı (The İB Career – related Certificate) Bu 16-19 yaşlı şagirdlər üçün yeni proqram olub peşə hazırlığını nəzərdə tutur.

Beynəlxalq Bakalavriat Proqramının əsas məqsədi şagirdlərin intellektual, sosial, emosional, tədqiqat, müstəqil öyrənmə və mədəniyyətlərarası anlaşma bacarıqlarını inkişaf etdirməkdir: Şəxsi və peşə bacarıqları kursu, xidməti öyrənmə, reflektiv layihə və dil inkişafı. tədrisin ingilis dilində aparılması bütün ölkələrdən olan şagirdlərin əməkdaşlıq və ünsiyyət imkanlarını artırır.

### 1.4.4. Distant təhsilin (Microsoft Outlook, Teams və Zoom) öyrənilməsi yolları

Məktəblərdə tam orta təhsil səviyyəsində təhsil alan şagirdlərə gələcək karyeralarını qurma və beynəlxalq təcrübəni öyrənmə meyllərini gücləndirən vasitələrdən biri də onların məsafəli, yəni distant təhsilə cəlb olunmasıdır.

Məktəb rejimində məsafəli təhsil (distant) proqramı, tədris prosesinin elektron, telekommunikasiya və proqram-texniki vasitələr əsasında təşkil olunma formasıdır və kompüter şəbəkələri vasitəsi vasitəsi ilə operativ və müntəzəm dialoq şəklində uzaq məsafədən həyata keçirilir. Məktəblərdə bu təhsil üçün müəyyən bir nizamda hazırlanmış dərs proqramının olması vacibdir. Bu sistemdə şagirdlərə faks, poçt və ya e-poçt kimi üsullarla ixtisaslı bir müəllim tərəfindən hazırlanan dərslə əlaqədar tapşırıq mövzuları verilir. Daha sonra verilən tapşırıqlar və sınaqlarla bağlı qiymətləndirmələr həyata keçirilir.

Distant şəbəkə təlimi problemi kompleks xarakter daşıyır: Burada psixoloji-pedaqoji, sosioloji və iqtisadi elementlər vardır. Distant təhsilin xarakterik xüsusiyyətlərinə, həmçinin, aşağıdakı məsələlər aiddir:

- Şagirdlərin tək başına təhsilinin reallaşdırılmasına kömək etmək;
- Çeviklik, modulluluq və iqtisadi səmərəlilik yaratmaq;
- Müəllimin yeni rolu və tədrisin səmərəliliyinə nəzarət etmək;
- Təlimin xüsusiləşdirilmiş vasitə və texnologiyalarından istifadə etmək və s..

Uzaqdan öyrənmənin əsas üstünlüyü ondan ibarətdir ki, şagirdə evində rahat öyrənmə imkanı verilir. Distant təhsildə informasiyalar öyrənənlər üçün çap materialları, elektron materiallar, elektron dərslik, kitablar, audio-video disklər, televerilişlər və s. kimi multimedia daşıyıcıları vardır.

### 1.4.5. Təcrübə əsaslı təlim modeli (D.Kolb)

Cəmiyyətdə gedən ictimai-siyasi dəyişmələr, iqtisadi irəliləyişlər, mədəni dünyagörüşün formalaşdırılması, milli-mənəvi dəyərlərin qorunması və vətəndaş məsuliyyəti tədris proqramının yeni məzmununda əks olunur. Bu baxımdan ümumi və peşəkar təhsildə proqramın rolu və ona olan tələblər cəmiyyətin maraqları baxımından dəyişilir.



**Şəkil 1.28. Amerikalı alim Deyvid Kolb**

Amerikalı alim-psixoloq D. Kolb (Şəkil 1.28) öyrənmə üslubları nəzəriyyəsində qeyd olunan məzmunun dörd fərqli təlim üslubunu müəyyənləşdirmişdir: Fərdi, daxili-koqnitiv, sosial təsir və təhsil səviyyəsinə əsaslandırılan müəyyən bir öyrənmə tərzi. D. Kolbın təcrübi öyrənmə dövrü konsepsiyasında təlim prosesi dörd əsas nəzəri hissədən ibarət bir dövrə ayrılır: Konkret təcrübə, reflektiv müşahidə, nəzəri konseptualizasiya və aktiv təcrübə

(Sxem 1.7).

1. **Konkret təcrübə** (yeni bir təcrübə ilə qarşılaşılır və mövcud təcrübə yenidən şərh edilir);
2. **Reflektiv Müşahidə** (xüsusi əhəmiyyət kəsb edən yeni təcrübənin nümayişi);
3. **Nəzəri Konseptualizasiya** (yeni bir fikir meydana gəlir və yeni bir nəzəri anlayışla dəyişdirilməsinə səbəb olur);
4. **Aktiv Təcrübə** (öyrənmək və nəticələrini görmək üçün onları real həyata tətbiq edir).




**Sxem 1.7. Təlim prosesi (D.A.Kolb modeli, 2009)**

### 1.4.6. e-Twining platforması: Məktəblər üçün birlik

XXI əsrin pedaqogikası sayılan e-Twining layihəsi Avropa komissiyasının təşəbbüsü ilə yaradılmışdır və Avropa ölkələrinin məktəbləri üçün vahid bir internet-platformada ünsiyyət qurmaq məqsədilə reallaşdırılır. E-Twinning fəaliyyətində gələcək inkişaf üçün e planlaşdırılır və müxtəlif ölkələrin məktəbliləri ilə ünsiyyət qurulur və bir-birilərinə mədəniyyətlər, tarixlər və insan fəaliyyətinin müxtəlif sahələri haqqında məlumat verilə bilir. E-Twinning layihəsi çərçivəsində hər bir məktəbdə işləyən müəllimlər, idarəçilər və kitabxanaçılar üçün ünsiyyət qurma, əməkdaşlıq etmə, layihələr hazırlama, paylaşma və bir sözlə, bir platforma təqdim edilir. E-Twinning üzrə qazanılan təcrübə aşağıdakılardır (Şəkil 1.29):




**Şəkil 1.29. Elektron cütləşmənin məqsədi**

- Məktəbin məlumat materialları nümayiş etdirilməsi;
- Liderlik bacarığı;
- Rəqəmsal təcrübə;
- E-təhlükəsizlik təcrübəsi;
- Pedaqogikaya innovativ və yaradıcı yanaşmalar;
- Kadrların davamlı peşəkar inkişafının təşviqi;

- İşçi heyəti və şagirdlərlə ortaq təlim təcrübələrinin təşviqi.

Bu təcrübənin tətbiqi iki mərhələdən ibarətdir. İlk mərhələ qeydiyyat, seçim, iştirak və qiymətləndirmə mərhələsidir. Məktəblərin bu prosesə qoşulması aşağıdakı şərtlər əsasında aparılır:

**Mərhələ 1:**

Məktəbin iki il ərzində e-Twinningdə qeydiyyata alınması;

Məktəblə əlaqəli ən azı iki e-Twinning müəlliminin əvvəlcədən seçilməsi;

Layihələr, peşəkar inkişaf və ya digər e-Twinning fəaliyyətlərində iştirakçılar;

Məktəbin tətbiq olunduğu tarixdən etibarən son iki il ərzində Milli Keyfiyyət Etiketi verilən ən azı bir Avropa e-Twinning layihəsində iştirakı.

**Mərhələ 2:**

Bu özünü qiymətləndirmə prosesidir və aşağıdakı sahələri qiymətləndirməyi əsas tutur:

- E-Twinning və məktəbdə e-Təhlükəsizlik şüurunun inkişafı;
- E-Twinning tədris - təlim təcrübələri, fənlərarası tədris və layihələr;
- E-Twinning və müəllimlər, digər məktəb işçiləri üçün strateji peşəkar inkişaf;
- E-Twinning və məktəbin strateji inkişafı.

**Tələblər:**

- Məktəbdə müəllimlər və şagirdlərin internetdən məsuliyyətli istifadəsi barədə məlumatlı olduqlarını sübut edən tədbirlər nümayiş etdirməlidir;
- Məktəbdə e-Twinning fəaliyyətində bir qrup (3 və ya daha çox) qeydiyyatdan keçirilmiş müəllimlər arasında fəal əməkdaşlığın olduğu təbliğ edilməlidir;
- Məktəbdə ən azı 2 layihənin müxtəlif qrup şagirdlərlə çalışdığı təyin edilməlidir;
- İl ərzində məktəbdə iki e-Twinning müəlliminin bir və ya daha çox e-Twinning tədbirində iştirak etdiyi nümayiş etdirilməlidir;
- Məktəbdə e-Twinning rəsmi iştirakı açıq şəkildə göstərilməlidir. Məsələn, bir məktəb e-Twinning fəaliyyətinin təsviri məktəb veb saytında göstərilə bilər və ya e-Twinning fəaliyyəti məktəb təbliğatı, bir sənəd və ya broşürdə göstərilə bilər.

## Tələbələr üçün fəaliyyətlər

1. Qrup işi. İnternetdə dünya ölkələrinin ən yaxşı iki təhsil nümunəsini araşdırın və onların tətbiqi məqsədləri və yollarını cədvələ müvafiq təsvir edin:




2. Distant təhsil haqqında videonu müşahidə edin və onun innovativ xüsusiyyətlərini əks etdirən bir neçə nümunənin təqdimatını hazırlayın.

3. Cütlər şəklində iş. Video-film hazırlanmasında elm, texnologiya, mühəndislik və riyazi biliklərin əlaqəsini verilmiş qutularda təsvir edin:

| Elmi ixtiralar | Texnologiya | Mühəndislik | Riyaziyyat |
|---|---|---|---|
| 1. | 1. | 1. | 1. |
| 2. | 2. | 2. | 2. |
| 3. | 3. | 3. | 3. |
| 4. | 4. | 4. | 4. |

4. İB Beynəlxalq Bakalavriat Proqramı üzrə əldə ediləcək səriştələrin ardıcıllığını müəyyən edin.




5. Fərdi iş. "e-Twinning – məktəblər üçün birlik" layihəsi çərçivəsində yuxarıda verilmiş mərhələlər əsasında bir məktəb layihəsinin planını hazırlayın.

6. D.Kolb nəzəriyyəsinə uyğun bir mövzu seçin və onun təqdim edilməsi planını tərtib edin.

- Real təcrübə nümunəsi________________________________________
- Reflektiv təcrübə__________________________________________
- Nəzəri konsepsiyası________________________________________
- Aktiv təcrübə____________________________________________

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**“Tədris prosesinin səmərəliliyini artırmaq üçün beynəlxalq təcrübə nümunələrini tətbiq edir”**

**1. Verilmiş sualları cavablandırın:**

- Tədrisin səmərəli idarə olunmasında beynəlxalq təcrübənin rolu nədən ibarətdir?
- STEM təcrübəsi şagirdlərin gələcək karyerasında hansı rol oynaya bilər?
- İB məktəb təcrübəsi hansı şərtlərlə tətbiq olunur?
- Məktəblərdə məsafəli təhsilin öyrənilməsi təcrübəsi hansı üsullarla həyata keçirilir?
- Rəqəmsal təhsilin təlimə hansı faydaları vardır və şagirdlərə hansı yollarla öyrədilir?
- E-Twinning layihəsi çərçivəsində məktəb hansı mərhələlərdən keçirilməli və nə kimi təcrübə əldə edilməlidir?

**2. STEM haqqında verilən düzgün cavabı seçin:**

A) Elm, tədris, innovasiya və riyaziyyat;
B) Elm, texnologiya, mühəndislik və riyaziyyat;
C) Cəmiyyət, texnologiya, mühəndislik və marketinq;
D) Cəmiyyət, tədris, mühəndislik və idarəetmə.

**3. Aşağıdakılardan hansı distant təhsilin üstünlüyü deyil?**

A) Bir çox mədəni fərqin öyrənilməsinə istiqamətləndirilir;
B) Şəxsi vaxt çərçivəsində öyrənmə bacarığı verilir;
C) Texnologiya haqqında ətraflı öyrənmə imkanı təmin edilir;
D) Çap və elektron materiallarla təmin edilir;
E) İqtisadi imkanlara daha çox əsaslandırılır.

**4. İB təhsili haqqında düzgün cavabı seçin:**

A) İbtidai və orta təhsil proqramı;
B) Beynəlxalq Diplom proqramı;
C) Beynəlxalq Bakalavriat proqramı;
D) Bakalavriat Diplom Proqramı.

**5. D. Kolb təcrübəsi hansı sahələrə təsir edir?**

A) Koqnitiv, metakoqnitiv, təlimin təşkili və kommunikasiya;
B) Fərdi, daxili-koqnitiv, sosial təsir və öyrənmə tərzi;
C) Şəxsi, idraki inkişaf, mədəni və praqmatik;
D) Fərdi, kommunikativ, əməkdaşlıq və təlim tipləri.

**6. e-Twinning layihəsinə aid OLMAYAN cavabı seçin:**

A) Tarix, mədəniyyət və insan fəaliyyətləri paylaşılır;
B) Avropa komissiyasının təşəbbüsü ilə yaradılır;
C) Rəqəmsal təcrübə əsasında innovasiyaları öyrənilir;
D) Tədris proqramı üzrə keçirilir və saatlar müəyyən edilir;
E) Elektron cütləşmə əsasında qlobal status qazandırılır.

**7. Verilmiş beynəlxalq tədris nümunələrinin reytinq səviyyəsini müəyyən edin və səbəbini izah edin:**

| № | Nümunə | Çox vacibdir | Vacibdir | Az vacibdir | Vacib deyil |
|---|---|---|---|---|---|
| 1. | STEM | | | | |
| 2. | İB | | | | |
| 3. | Distant təlim | | | | |
| 4. | D.Kolb təcrübəsi | | | | |
| 5. | e-Twinning | | | | |

## 1.5. Təlim prosesində müasir təlim texnologiyalarından istifadə yollarını təsvir edir

### 1.5.1. Təlimdə müasir texnologiyalardan istifadə

Təhsil islahatlarında təlimin tamamilə fərqli bir cəhətdən tədris olunduğu göstərilir. Mütərəqqi təhsil təcrübələri eyni səviyyədə düşünən şagirdlərin maraqlarından daha çox fərdi düşünən şagirdlərin ehtiyaclarına yönəldilir. Müasir tədris yolu sorğu, izah, nümayiş və əməkdaşlıq üsullarından istifadə edilərək daha çox fəaliyyətə əsaslandırılır (Şəkil 1.30).



**Şəkil 1.30. müasir texnologiyaların istifadəsi**

Təqdim olunan müasir texnologiyalardan istifadə həm müəllim, həm də şagirdlərin birgə əməkdaşlığı daxilində pedaqoji prosesin tamlığına, yəni təlimin öyrədici, tərbiyəedici və inkişafetdirici xarakterinə əsaslandırılır. Hazırda məktəblərdə daha müasir tədris texnikasına üstünlük verilir. Müasir təlim texnologiyalarından istifadənin əsas məqsədləri aşağıdakılardır:

- Materialı çevik, vizual və cəlbedici şəkildə təqdim etmək;
- Əməkdaşlığı təşviq etmək və sinifdə yeni texnologiyalar tətbiq etmək;
- Şagirdləri zəngin kompüter proqramları ilə tanış etmək;
- Vaxtdan səmərəli istifadə etmək və şagirdlərin real həyatla əlaqəsini yaratmaq;
- Təlimdə texnoloji avadanlıqlardan istifadəni təmin etmək;
- Şagirdlər üçün elektron tədris materialını hazırlamaq.

### 1.5.2. Təhsil texnologiyalarının komponentləri

Pedaqoji texnologiyalara tarixi-nəzəri baxış onun müasirliyini nəzərə alan yeni pedaqoji yanaşmalar və optimal didaktik prinsipləri nəzərə alan "Müəllimlər, şagirdlər, öyrənmə mühiti və təlim tapşırıqları arasında qarşılıqlı əlaqələri" ifadə edir.




**Sxem 1.8. Müasir təlim texnologiyalarının komponentləri (J.Riçard, 2015)**

Buraya təlim texnologiyaları haqqında anlayış, onun strukturu və funksional

komponentləri, onun yaradılması yolları və tətbiqi prinsipləri, fəal və interaktiv təlim metodları və tərbiyə texnologiyaları kimi aktual problemlərin təhlili daxildir (Sxem 1.8). Geniş mənada müəllimlər və şagirdlərin bir araya gəlmələri ilə yanaşı, eyni zamanda sinifdə tətbiq olunan təlim metodları müxtəlif fəaliyyətlərin tətbiqində həyata keçirilir. Müasir təlim texnologiyalarının tərkib hissəsini dəstəkləyən fəaliyyətlər *fəal təlim, konstruktiv model, şagird-şagird fəaliyyəti üzrə təlimatlı yanaşma, bir çox təlim üslubları və müxtəlif qiymətləndirmə üsullarının* tətbiqinə əsaslandırılır.

Pedaqoji texnologiyalarla təlimin yeni məzmunu, təlimin təşkili prinsipləri, formaları, onun idarə olunması, təlim texnologiyaların spesifik əlamətləri, müasir metod və üsulların tətbiqi və təlim prosesinin planlaşdırılması daxil edilir. Müəllim və şagirdlərin qarşılıqlı praktiki fəaliyyəti 50 ildən çox müddət ərzində aparılan tədqiqatlara, yeni təlim texnologiyalarının istifadəsinə və onun altı əsas prinsip əsasında aparılmasına əsaslanır.. Buraya əsasən, *gözləntilər, təlim fəaliyyəti, əməkdaşlıq, qarşılıqlı təsir, müxtəliflik və məsuliyyət* prinsipləri daxildir.

### 1.5.3. Rəqəmsal texnologiyanın tətbiqi üsulları

Rəqəmsal təlim texnologiyasından effektiv istifadə edən texnologiya və ya təlimatla müşayiət olunan hər hansı bir öyrənmə növüdür. Bundan əlavə, rəqəmsal öyrənmə müəllimlər üçün peşə öyrənmə imkanları və şagirdlər üçün fərdi öyrənmə təcrübələrini təmin edir. Rəqəmsal təlimdə şagirdlərin təhsilə cəlbi və uğuru artırılır. Bundan əlavə, həyat üçün vacib olan əməkdaşlıq və komanda işinin inkişaf etdirilməsi bacarıqlar formalaşdırılır (Şəkil 1.31).



**Şəkil 1.31. Rəqəmsal texnologiyanın tətbiqi**

Müasir texnologiyanın istifadə sahələri:

- Zəngin rəqəmsal məzmuna malik tədris planı hazırlamaq;
- Rəqəmsal əsrdə məhsuldar peşə sahibi olmaq üçün öyrənənləri dəstəkləmək;
- Çevik təlimin (Flipped Learning) öyrənilməsini təmin etmək;
- Rəqəmsal təhsil təcrübəsində liderlər olaraq "kiçik alimlər" yetişdirmək;
- Ömürboyu öyrənməni təşviq etmək və dəstəkləmək.

**İnteraktiv lövhə**

"Ağıllı" lövhə hər hansı bir texnoloji sinif üçün tamamilə zəruri olan müasir bir rəqəmsal öyrənmə cihazıdır. Ənənəvi lövhə təlim metodlarının öz üzərinə götürülməsi üçün qurulmuşdur və bu avadanlığın istifadəsi üçün bütün sinif otaqları standart olmalıdır. Ağıllı lövhələr rəqəmsal öyrənmə təcrübəsinin təməl daşıdır. Adətən, lövhə mühazirə və təqdimat hazırlanmasında daha da asanlaşma üçün bir proyektorla işlədilir.

**Şagird bloqunun yaradılması**

Müasir təlim prosesində başqa bir rəqəmsal vasitə (Blogs@Intel) kimi hər şagird elektron bloq yaratması yaradıcılığı formalaşdırır. Bunun üçün hər bir sinfin veb saytında işləməyi təmin etmək olar. Bloq bir növ sosial media vasitəsidir ki, orijinal bir sinif ilə fikir mübadiləsi aparmaq və söhbətə cəlb etmə imkanı verir. Şagird bloqları jurnala bənzəyir və bir sıra "Yazı" bloqda xronoloji qaydada görünür (Şəkil 1.32). Tipik olaraq bloq proqramı istifadə etmək çox asan olmaqla yanaşı, eyni zamanda kifayət qədər çevikdir. Bloqda şagirdlərin gələcəkləri üçün yararlı olacaq rəqəmsal öyrənmə mühiti yaradılır. Bloqun gedişində şagirdlər hər həftə öz bloqlarında layihələr, şəkillər, musiqi parçaları, çıxışlar, video çəkilişlər və müsahibələr yerləşdirə bilərlər.



**Şəkil 1.32. Elektron bloqların yaradılması**

**Sinif Podkastının tətbiqi**

Digər bir rəqəmsal öyrənmə təcrübəsində sinif otağında Podkast yaradılmalıdır. Podkast sözü 2000-ci illərdə “iPod” sözündəki pod (kiçik kapsul) və ‘Broadcast’ (yayın) sözlərinin birləşdirilməsindən ibarət olub hər cür səslərin dinlənilməsidir. Spotify və i-Tunes bu tipdə olan populyar nümunələrdir. Öyrənilən hər hansı bir mövzu üzrə səslərin dinlənilməsidir. Tarix və təbiət fənlərinin mövzuları podkastlar üçün əla ideyalar yaradır. Təlimdə xarici dil mövzuları və kitab müzakirələrini araşdırmaq üçün maraqlı videolar yükləmək səmərəli üsuldur. Digər tərəfdən, şagirdlərin bildikləri mövzulara dair gündəlik podkastları dinləmək faydalı olur.

**Çevik (təkrar) təlim metodu –** bu metod bəzən “Təkrarlanan öyrənmə” (Flipped Learning) metodu kimi elektron texnologiyalar vasitəsilə tətbiq edilir (Şəkil 1.33). Çevik təlim təlimdənkənar fəaliyyətin sinifdə nümayişi kimi tanınan yeni bir pedaqoji yanaşmadır. Şagirdlər sinfə daxil olmamışdan əvvəl öyrənmə materialı ilə tanış olur və öz araşdırmalarını aparırlar. Müəllim öyrənənləri əvvəlcədən növbəti dərsə hazır gəlmələri üçün video və ya digər materiallarla təmin edir ki, onlar mövzu haqqında geniş vaxt çərçivəsində düşünsün və tədqiqat aparsınlar. Sinfə daxil olan zaman hazırladıqları nümunələr ətrafında qruplarda müzakirələr aparılır, yeni biliklər qazanılır və problemlərin həlli yollarını asanlıqla tapılır.



**Şəkil 1.33. Çevik təlim metodu**

**Layihə əsaslı təlim (LƏT) -** müxtəlif elektron resurslar vasitəsilə istənilən problemin araşdırılması və həll edilməsi üçün uzun müddət çalışaraq bilik və bacarıqlar əldə edən bir tədris üsuludur. Layihə əsaslı təlim rəqəmsal vasitələrin (video-kamera, fotoaparat, iphone və ipad) köməyi ilə şagirdlərə orijinal, cəlbedici və mürəkkəb bir sual, problem və ya mübahisənin araşdırılması təmin edilməklə çatdırılır. Layihə əsaslı öyrənmə şagirdlərin tənqidi düşüncə və problemlərin həlli bacarıqlarının inkişaf etdirilməsinə yönəldilmişdir. Bu təlim tipi şagirdlərə layihələr çərçivəsində problemləri həll etmək üçün tədqiqat aparma bacarığı formalaşdırır (Şəkil 1.34).



**Şəkil 1.34. Layihə əsaslı təlim**

**Tədqiqat əsaslı təlim (TƏT) -** təhlil, sintez və qiymətləndirmə kimi fəaliyyətlərlə əlaqəli öyrənənlər və müəllimlərə biliklərin mənimsənilməsi və tətbiq edilməsi imkanı verən bir tədris modelidir. Bu məqsədlə şagirdlər kompüter proqramlarından istifadə edərək elektron təqdimat hazırlayır və araşdırdıqları tədqiqatı müxtəlif şəkillər, vizual görüntülər, animasiyalar, diaqramlar və cədvəllər vasitəsilə təqdim edirlər (Şəkil 1.35). Tədqiqata əsaslanan təlimdə dörd aspekt əhatə edilir:



**Şəkil 1.35. Tədqiqat əsaslı təlim**

- Şagirdlərin anlama bacarığını inkişaf etdirən təlim;
- Əvvəlcədən biliklərin inkişaf etdirilməsi yolu ilə öyrənmə;
- Sosial qarşılıqlı əlaqə prosesini özündə cəmləşdirən təlim;
- Real dünya təcrübəsi ilə əldə olunan mənalı təlim.

Tədqiqat-əsaslı təlimdə konstruktivist fəlsəfənin əsasında orijinal öyrənmə təşviq edilir və araşdırma, təhlil və problem həll etmə bacarıqları formalaşdırılır.

**Multimedia və audio-vizual texnologiyalardan istifadə**

Multimedia və audio-vizual texnologiyalara video-filmlər, televiziya, radio, smartfonlar, i-Padlar və digər vasitələr aiddir (Şəkil 1.36). Bunlar bir çox məktəbdə geniş tətbiq olunur və istifadə olunur. Bunun üçün ayrı bir audio-vizual otaq və ya laboratoriyanın olması tövsiyə olunur. Texnologiyanın geniş istifadəsi ilə uşaqlar daha çevik olur və sərbəst fəaliyyətə cəlb olunurlar. Power Point təqdimatları kimi kompüter əsaslı öyrənməyə çox maraq göstərilir. Bu vasitə ilə şagirdlər komandada işləməyə həvəsləndirilir.



**Şəkil 1.36. Multimediyanın təlimdə tətbiqi**

Problem əsaslı təlim metodu - problem əsaslı təhsil (Problem-based Learning - PBL) tədris planına uyğun bir yanaşmadır. Öyrənənlərə problemin həlli ətrafında yeni üsulların tətbiqi, özünü idarəetmə, təlim strategiyaları, komandada işləmə bacarıqları və inteqrativ biliyin istifadə edilməsinə imkan yaradılır. Şagirdlər özləri üçün vacib olan icma problemlərini həll etməyi daha effektiv şəkildə öyrənirlər. PƏT (PBL) üzrə şagirdlər məlumat mərkəzli və yüksək texnologiyalı cəmiyyətdə yaşama bacarıqlarını aşağıdakı kimi inkişaf etdirirlər (Şəkil 1.37):



**Şəkil 1.37. Problem əsaslı təlimin tətbiqi**

- Komandalarda işlənilir;
- Layihələrin idarə edilməsi və liderlik rolları göstərilir;
- Şifahi və yazılı ünsiyyət qurulur;
- Özünü tanıma və qrup prosesləri qiymətləndirilir;
- Müstəqil işlənilir, tənqidi düşünülür və təhlil edilir;
- Anlayışlar izah edilir və özünə yönəldilmiş təlimə qoşulur;
- Dərs məzmunu real dünya nümunələrinə tətbiq edilir;
- Tədqiqat və məlumat savadlılığı nümayiş etdirilir;
- Fənlər üzrə problemin həllinə cəlb olunur.

### 1.5.4. Tapşırıq əsaslı təlim

Bu metodun əsas mahiyyəti təlimdə öyrənənlərin bir neçə mərhələlərdə tapşırıqlar əsasında müxtəlif bilik və bacarıqlar əldə etmələridir. Bu metodun təlim prosesində istifadəsi elektron üsullarla orijinal tapşırıqların yerinə yetirilməsinə əsaslandırılı.

Müəllimin rolu maraqlı və səmərəli tapşırıqlar və təfəkkürün formalaşdırılmasına əsaslandırılan təlimatlar hazırlamaqdır. Bu təlim metodu, əsasən, üç mərhələdən ibarətdir (Şəkil 1.38):

1. Birinci mərhələ tapşırıqların hazırlanması mərhələsi adlandırılır. Bu zaman müəllim təlimata uyğun şəkillər və posterlərdən istifadə edərək ilkin məlumatları toplayır;
2. İkinci mərhələ tapşırığın qruplar və cütlüklər şəklində yerinə yetirilməsidir. Bu mərhələdə öyrənənlər planlaşdırma, hesabat hazırlama və təqdimat vermə bacarıqları qazanırlar;
3. Üçüncü mərhələdə öyrənilən biliklər (kateqoriyaya bölmə, təsnifat, müqayisə etmə, uzlaşdırma, səviyyələrə bölmə, analiz etmə və yeni məhsul yaratma) əsasında şəxsi məhsullar hazırlanır.



**Şəkil 1.38. Tapşırıq əsaslı təlimin tətbiqi**

Təlimdə səmərəli təlim texnologiyaları hesab edilən kooperativ təlim, rollu oyunlar, simulyasiya, debat, müzakirə, ziqzaq, informasiya boşluqları, karusel, Venn diaqramı, BİBÖ və sairədən istifadə olunması tövsiyə olunur. Onlardan bir neçəsini təqdim edirik:

**Rollu oyun:** Rollu oyunda şagirdlərə dəstəkləyici bir mühitdə fərqli situasiyaların qarşılıqlı şəkildə nümayiş etdirilməsinə imkan verilir. Rollu oyun pedaqogikasında üç əsas tədris sahəsinin effektiv olduğu göstərilir: Affektiv, idrak və davranış (Maier, 2002, Rao & Stupans, 2012). Şagirdlər başqa bir şəxsin rolunun qəbul edilməsinə məcbur edilməklə empatiya və perspektivlik nümayiş etdirilir.

**"Ziqzaq metodu"** şagirdləri qarşılıqlı əməkdaşlıq etməyə və bir-birlərinə güvənməyə kömək edən bir tədris strategiyasıdır. Bu tədris strategiyası daha geniş bir mətnin qısa bir vaxt ərzində mənimsənilməsinin yerinə yetirilməsi üçün səmərəli bir metoddur.

**Ağıl xəritəsi** (Mind Map) mövzuların əlaqəli assosiasiyalarla əhatə olunmuş mərkəzi bir fikri əhatə edən iyerarxik məlumatların vizual şəkildə təqdim edilməsidir (Şəkil 1.39).




**Şəkil 1.39. İdeya xəritəsi üsulu**

- Şagirdlərdə beyin fırtınasına kömək edilir və hər hansı bir fikir, konsepsiya və ya problem araşdırılır;
- Fikir və anlayışlar arasındakı münasibətlər və əlaqələrin daha yaxşı başa

düşülməsinə kömək edilir;

- Yeni fikir və düşüncə proseslərində ünsiyyət qurma asanlaşdırılır;
- Şagirdlərə qeydlər aparma və tapşırıqlar planlaşdırmada kömək edilir.

## Tələbələr üçün fəaliyyətlər

1. Qrup işi. 4 qrupa bölünərək aşağıdakı mövzular ətrafında müzakirə aparın və fikirləri flipçatlarda qeyd edin:

1. Qrup A: Tədqiqat əsaslı təlimdə tətbiq olunan üsullar;
2. Qrup B: Rəqəmsal təlimin tətbiqi metodikası üzrə bir dərsin modeli;
3. Qrup C: Layihə əsaslı təlimin prinsipləri və şagirdlərdə formalaşdırılan bacarıqlar;
4. Qrup D: Tapşırıqlı təlim üsulunun funksiyalarını.

2. Verilmiş şəkil üzrə iki ənənəvi (Ə) və Müasir (M) dövrün təlim texnologiyasını müqayisə edin.




3. Sağlam qidalar haqqında video (https://www.youtube.com/results?search_query=saglam+qidalar) materialı izləyin və qoyulmuş problemi araşdıraraq layihə əsaslı təlim üsulunu tətbiq edin.

   **Tapşırıq 1.** Sağlam qidalar – mənşəyi – vitaminlər – faydası – zərəri

4. Verilmiş cədvəl üzrə tədris üsullarının tətbiqini müzakirə edin.

| Texnologiyalar | Əsas xüsusiyyətlər | Məqsəd | Metodlar | Səmərə |
|---|---|---|---|---|
| Rəqəmsal təlim | | | | |
| Layihə əsaslı təlim | | | | |
| Problem əsaslı təlim | | | | |
| Tədqiqat əsaslı təlim | | | | |
| Çevik təlim | | | | |
| Tapşırıq əsaslı təlim | | | | |
| Rollu oyun | | | | |
| Ağıl xəritəsi | | | | |

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Təlim prosesində müasir təlim texnologiyalarından istifadə yollarını təsvir edir”**

**1. Verilmiş sualları qruplar şəklində müzakirə edərək cavablandırın:**

- Təlim texnologiyalarının komponentlərinin təlimdə əlaqəsi necə başa düşülür?
- Təlim texnologiyalarının səmərəli tətbiqi üçün müəllim ilk olaraq nələri bilməlidir?
- Tapşırıq əsaslı təlim şagirdlərə hansı bacarıqlar verir?
- Tədqiqat əsaslı təlim hansı təhsil səviyyəsində daha çox effekt verə bilər və nə üçün?
- Layihə əsaslı təlimin hansı xüsusiyyətləri vardır?
- Çevik təlimin faydalı cəhətləri hansılardır?
- Problem əsaslı təlimdə hansı çətinliklər ola bilər və nə üçün?
- Rollu oyunu hansı metodlarla daha səmərəli tətbiq etmək olar?

**2. Səhv və düzgün cavabları qeyd edin**

| № | Tədris texnologiyaları | Doğru | Səhv |
|---|---|---|---|
| 1. | Tapşırıq əsaslı təlim orijinal nümunələrə əsaslandırılır | | |
| 2. | Tədqiqatın aparılmasında müxtəlif tapşırıqlar təqdim olunur | | |
| 3. | Layihənin həyata keçirilməsi şagirdlərin məlumat toplama bacarığını artırır | | |
| 4. | Çevik təlimdə şagirdlərin hər şeydən əvvəl dərsdənkənar fərdi fəaliyyəti baş verir | | |
| 5. | İnteqrativ biliklər problemin həllində vacib hesab edilir | | |
| 6. | Tapşırıq əsaslı təlim yalnız mətnlər üzrə tətbiq olunur | | |
| 7. | Şagirdlərin yaradıcı təfəkkürü tapşırıqlı təlimdə formalaşdırılır | | |
| 8. | Rəqəmsal təlimdə təlim məqsədlərinə daha tez nail olmaq olur | | |

**3. Layihə əsaslı təlimə aid OLMAYAN cavabı qeyd edin:**

A) Məlumat xarakterli biliklər verilir;
B) Tədqiqat aparılması tələb olunur;
C) Problemin səbəbi çox mürəkkəb qoyulur;
D) Tənqidi təfəkkür formalaşdırılır.

**4. Rəqəmsal texnologiya haqqında hansı cavab doğru DEYİL?**

A) Şagirdlər bir problemi müəyyən edə bilib onlayn məlumat əldə edə və tapıntıları tətbiq edə bilirlər;
B) Təlim daha çox fərdi şəkildə aparılır və təlim məqsədlərinə uzun müddətə nail olunur;
C) Problemin həllində daha çox yaradıcılıq və cəlbetmə fəaliyyəti tələb olunur;
D) Müəllimlər və şagirdlərin texnologiyanın faydaları haqqında öyrədilməsinə kömək edilir.

## 1.6. Tədrisin keyfiyyət göstəricisi kimi məktəbdaxili qiymətləndirmənin aparılması yollarını şərh edir

### 1.6.1. Tədrisin keyfiyyət göstəricisi – Məktəbdaxili qiymətləndirmə



Şəkil 1.40. Məktəbdaxili qiymətləndirmə

Məktəbdaxili qiymətləndirmə məktəb cəmiyyətinin üzvlərinin (təhsilalanlar, valideynlər, pedaqoji heyət və icma üzvləri) təhsilə cəlbinin qiymətləndirilməsi və möhkəmləndirilməsi ilə yanaşı, eyni zamanda tədrisdə inkişafın qiymətləndirilməsi üçün hazırlanmışdır. Bu prosesdə tədrisin keyfiyyətinin göstəricisi kimi bütün təlim ehtiyaclarının müəyyən edilməsi və həll edilməsi üçün sistemli bir proses kimi mövcud şəraitdə müşahidə olunan boşluqlar doldurulur. Bu qiymətləndirmə müxtəlif formalarla həyata keçirilir və bu prosesdə müasir müəllimin tətbiq etdiyi əsas fəaliyyətlərdən biri kimi mövcud şəraitdə istənilən vəziyyətdə yaradılan ziddiyyətlərin müəyyən edilməsi və ölçülməsi imkanı yaradılır (Şəkil 1.40). Qiymətləndirmədə, eyni zamanda, şagirdlərin ehtiyaclarına cavab verməsi üçün səmərəli təlimin planlaşdırılması və təlim məqsədlərinin müəyyən edilməsində müəllimin növbəti fəaliyyəti tənzimlənir, şagirdlərə öz fəaliyyətlərinin qiymətləndirilməsi və əldə edilən irəliləyişlərin əks etdirilməsi imkanı verilir. Bu baxımdan məktəbdaxili qiymətləndirmədə aşağıdakı məqsədlər həyata keçirilir:

- Təlimdə məsuliyyət hissi yaradılır;
- Akademik nailiyyətlər təkmilləşdirilir;
- Təlim təcrübələri fərdiləşdirilir;
- Mövcud vəziyyətin dəyərləndirilməsinə istiqamətləndirilir;
- Şagirdlərin motivasiyası gücləndirilir və təlimə cəlbi artırılır;
- Özünütənzimləmə və qərar qəbul etmə bacarığı formalaşdırılır.

### 1.6.2. Məktəbdaxili qiymətləndirmənin komponentləri

Məktəbdaxili qiymətləndirmədə şagird nailiyyətlərinin dəyərləndirilməsinin təhsil standartlarına uyğunluğu və xarici qiymətləndirmə ilə pedaqoji proses zamanı aparılan

qiymətləndirmə arasında balanslaşdırma funksiyası yerinə yetirilir. Məktəbdaxili qiymətləndirmə aşağıdakı əsas komponentləri əhatə edir:

- Məqsədlərin formalaşdırılması və məlumatın verilməsi;
- Düzgün bir qiymətləndirmənin seçilməsi;
- Müxtəlif öyrənmə mühitinə imkan verən təcrübələrin yaradılması;
- Öyrənmənin yaxşılaşdırılması üçün rəy və qiymətləndirmədən istifadə edilməsi;
- Qiymətləndirmə metodları və vasitələrinin seçilməsi.

Məktəbdaxili qiymətləndirmənin növünə görə izlənilən yollar:

- Standartlara uyğunluğun müəyyənləşdirilməsi (kurikulum üzrə qiymətləndirmə);
- Ümumi təhsil pillələri üzrə yekun qiymətləndirmənin (buraxılış imtahanlarının) aparılması.

### 1.6.3. Məktəbdaxili qiymətləndirmə prosesinin planlaşdırılması

Məktəbdaxili qiymətləndirmənin aparılması prosesi hər şeydən əvvəl onun planlaşdırılması və təlim ehtiyaclarının müəyyən edilməsidir. Bu proses daim davam edən bir fəaliyyətdir.




**Sxem 1.9. Məktəbdaxili qiymətləndirmənin aparılması yolları**

1. **Qiymətləndirmə məlumatları üzrə təlimatın öyrənilməsi -** bu prosesdə şagirdlərin nailiyyətləri, təlimə münasibətləri, müəllimin hazırlıq səviyyəsi, fənn kurikulumlarının səciyyəvi cəhətləri və təlim resurslarının bölgüsünü əks etdirən məlumatlar və fəaliyyətlərin icra mexanizmləri üzrə məlumatlar əldə edilir (Sxem 1.9);
2. **Məlumatların toplanması mərhələsi** - bu prosesdə məktəbdə şagirdlər arasında anket sorğusunun keçirilməsi və tədrisin keyfiyyətini əks etdirən sinif müsahibələrinin aparılması daxil edilir;
3. **Tədris prosesinin qiymətləndirilməsi mərhələsi** - şagirdlərin fəaliyyətlərinin müşahidəsi, daxili test yoxlamalarının keçirilməsi, tapşırıqların yoxlanılması, layihələrin yerinə yetirilməsi, qiymət cədvəlləri və digər məktəb sənədlərinin təhlili

həyata keçirilir;

4. **Qiymətləndirmə nəticələrinin təhlili mərhələsi -** bu mərhələdə aparılan qiymətləndirmənin nəticələrinin təhlili və məktəbin tədris keyfiyyətinin zəif və üstün cəhətlərinin tapılması və təkmilləşməyə ehtiyacı olan sahələrin müəyyən edilir.

### 1.6.4. Məktəbdaxili qiymətləndirmənin növləri və aparılması yolları

Məktəbdaxili qiymətləndirmə, müəllimlərin formal və qeyri-formal olaraq müntəzəm istifadə etdiyi qiymətləndirmə növüdür. Formal qiymətləndirmə (yaxud yekun qiymətləndirmə) əvvəlcədən planlaşdırılmış vaxt çərçivəsində aparılır və buraya standartlar və yekun mərhələ üzrə hazırlanmış müxtəlif səviyyəli testlər və ya açıq şəkildə hazırlanmış portfolio da daxil edilir. Qeyri-formal qiymətləndirməyə əsasən diaqnostik və formativ qiymətləndirmə növü daxildir. Bu qiymətləndirmə növü məqsədlərə uyğun fəaliyyətin tətbiq edilməsi, irəliləyişlərin izlənilməsi və əks-əlaqənin yaradılmasına istiqamətləndirilir (Şəkil 1.41). Bu proses rəsmi xarakter daşımır və müəllim onu müxtəlif vasitələrlə aparır.



**Şəkil 1.41. Məktəbdaxili qiymətləndirmə növləri**

Məktəblərdə müxtəlif təhsil səviyyələrində məzmun standartlarının mənimsənilməsi üzrə aşağıdakı qiymətləndirmə növləri tətbiq edilir:

- Diaqnostik (ilkin bilik və bacarıqlar);
- Formativ (prosesdə qazanılacaq bacarıqlar);
- Summativ (yekunda əldə olunan bacarıqlar).

Hər bir qiymətləndirmə müəyyən edilmiş qiymətləndirmə prinsiplərinə və təlim məqsədlərinə uyğun tədris prosesində müxtəlif vasitələrlə tətbiq olunur.

### 1.6.5. İlkin səviyyənin qiymətləndirilməsi (diaqnostik qiymtələndirmə)

Bu mərhələdə şagirdlərin ilkin bilik və bacarıqları müəyyən dərəcədə qiymətləndirilir və əsasən, əvvəlki tədris materialının hissələrinin necə mənimsənilməsinə əmin olmaq və təlim prosesinin düzgün qurulması üçün aparılır. Düzgün istiqamətləndirilmiş şagird öyrənilmiş materialın təkrarına vaxt itirmir, həmçinin, onun üçün başa düşülməyən və ya tanış olmayan material qalmır. İlkin səviyyənin qiymətləndirilməsi şagirdlərin sinifdəki fəaliyyətinin müqayisə edilməsi və ya sonrakı inkişafın qiymətləndirilməsi üçün məlumat bazasının yaradılması məqsədilə həyata keçirilir. Burada istifadə olunan suallar əsas psixometrik tələblərə cavab verməlidir. Belə suallar şagirdlərin bilik, bacarıq, qabiliyyət,

şəxsi xüsusiyyətlər, ətrafdakılara münasibət və daxili potensialının üzə çıxarılmasında istifadə olunan bir qiymətləndirmədir. Bu prosesdə müsahibə, anket sorğusu, sual-cavab və şifahi tapşırıqlardan istifadə olunur (Şəkil 1.42).

Diaqnostik qiymətləndirmənin keçirilmə qaydası:

- Diaqnostik qiymətləndirmənin üsul və vasitələri fənn müəllimi tərəfindən hazırlanır;
- Qiymətləndirmə vasitələri standartlar üzrə əldə olunan bilik və bacarıqlar əsasında hazırlanır;
- Məqsədlərə uyğun olaraq iki formada keçirilir - davamlı və qısamüddətli:
- Davamlı qiymətləndirmədə təhsil səviyyəsi, dərs ilinin əvvəlində şagirdlərin bilik və bacarıqları üzrə anket sorğusu və müsahibə üsullarından istifadə edilərək mövcud vəziyyət qiymətləndirilir;
- Qısamüddətli diaqnostik qiymətləndirmə bəhs və bölmənin əvvəlində tapşırıqlar və suallar əsasında aparılan qiymətləndirmədir.




**Şəkil 1.42. Diaqnostik qiymətləndirmə**

### 1.6.6. Prosesin qiymətləndirilməsi (formativ qiymətləndirmə)

Formativ qiymətləndirmə davamlı, dinamik və rəsmi olmayan bir prosesdir və bu proses, şəxsiyyətyönümlü təhsilin ən səciyyəvi atributudur, müəllim-şagird münasibətlərinin “subyekt-subyekt” əməkdaşlığı prinsiplərinin formalaşdırılmasını şərtləndirir. Bu qiymətləndirmə irəliləyişlərin izlənilməsi, təlim texnologiyaları və metodlarının korrektə edilməsi üçün tədris prosesinin gedişində müntəzəm və sistemli şəkildə həyata keçirilir. Prosesdə mütəmadi olaraq şagird fəaliyyətinin inkişaf dinamikası izlənilir və dəyərləndirilir. Buna uyğun olaraq müəllim təlim prosesində aşağıdakı fəaliyyətləri yerinə yetirməlidir (Şəkil 1.43):



**Şəkil 1.43. Formativ qiymətləndirmə**

- Şagirdin fərdi inkişaf göstəriciləri diqqət mərkəzində saxlanmalı;
- Müşahidə edilməli, dinlənilməli və söhbətlər aparılmalı;
- Şagirdlərin işləri nəzərdən keçirilərək dəlillər toplanmalı;

- Şagirdlərin irəliləyişləri aralıq ballar üzrə təmin edilməli;
- Uğur qazana bilməyən şagirdlərin ehtiyacları öyrənilməli;
- Korreksiyaedici formada köməklik göstərilməli.

Formativ qiymətləndirmədə tədris prosesi tənzimlənir və bu baxımdan şagirdlərin faktiki fəaliyyətinin nəticələri müəllim üçün real indikatora çevrilir. Formativ qiymətləndirmədə tətbiq olunan bir neçə strategiyanı təqdim edirik (Cədvəl 1.1):

| № | Üsullar | Tətbiqi metodika |
|---|---|---|
| 1. | Şagird işinin analizi | Şagirdin mövzu ilə bağlı cari bilikləri, münasibətləri, bacarıqları, güclü və zəif öyrənmə üslubları |
| 2. | Raund-Robin çartı | 4 və ya 5 şagirddən ibarət hər qrup üzvləri bir cədvəldə açıq sualın cavabını qeyd edir və mövzuda əldə etdikləri bilikləri bölüşürlər. Sonda cavablar müzakirə olunur. |
| 3. | Strateji sual-cavab | Effektiv formalaşdırıcı qiymətləndirmə strategiyaları üzrə şagirdlərin "Niyə?" və "Necə?" kimi suallara cavab vermələrini tələb edir. |
| 4. | Üç yolla ümumiləşdirmə | 10-15, 30-50 və 75-100 sözdən çox ümumiləşdirmə aparılır. |
| 5. | Üç rəqəmlə gerisayma | Əvvəl məlum olmayan 3 şey, mövzuda şagirdləri təəccübləndirən 2 şey; ə öyrəndikləri ilə istənilən 1 şeyə başlana bilər. |
| 6. | Yaradıcı işin hazırlanması | Mövzunu izah edən bir afişa və ya bir kolaj yaradıla bilər. Mövzu ilə əlaqədar bir drama və ya bir şeir yaradıla bilər. Mövzu ilə əlaqədar şagirdlər tərəfindən əsas təqdimatlar hazırlana bilər. |

**Cədvəl 1.1. Formativ qiymətləndirmə metodları və üsulları**

Formativ qiymətləndirmə davamlı şəkildə aparılır və müəllim öyrənənlərin geriləmə səbəblərinin nədən baş verməsinə və irəliləyişlərə əmin olur. Bu qiymətləndirmə üçün müəllim müşahidə, yazı işləri, sual-cavab, meyar cədvəli, yazılı rəylər (feedback), özünüqiymətləndirmə və digər metodlardan istifadə edir.

Təlimdə formativ qiymətləndirmə strategiyaları:

**Qiymətləndirmə rubrikləri –** təhsil terminologiyasında rubrik "Öyrənənlərin hazırladığı cavabların keyfiyyətinin qiymətləndirilməsi üçün istifadə olunan keyfiyyətə dair təsviri gözləntiləri" bildirən bir vasitədir. Bir çox halda rubriklərdən qiymətləndirmədə ardıcıl meyarların müəyyən edilməsi ilə holistik və analitik rubrik kimi istifadə olunur.

**Holistik rubrik –** şagirdin işi ilə bağlı ümumi təəssürat yaradan sürətli qiymətləndirmədir. Əldə olunan bacarıqların ayrı-ayrılıqda qiymətləndirilməsi yolu ilə şagirdin inkişaf səviyyəsinin qısa müddətdə ümumi şəkildə dəyərləndirilməsidir. Bu rubrikdə şagird işinə ümumi bir mühakimə əsasında 1-6 bal aralığında verilir.

**Analitik rubrik –** şagirdlərin inkişaf səviyyələri bir neçə nailiyyət səviyyəsi üzrə

müəyyən edilir və gözlənilən bacarıqlar uzun müddət ərzində izlənərək qiymətləndirilir. Analitik bal şagirdlərə hər meyar üçün ən azı reytinq balı kimi təqdim edilir. Analitik qiymətləndirmədə müəllimlərə rubriklər əsasında hər meyarla bağlı bəzi rəylər verilməsi üçün imkan yaradılır.

### 1.6.7. Yekun qiymətləndirmə (summativ qiymətləndirmə)

Şagirdlərin verilmiş standartlar və müəyyən edilmiş məqsədlərə nail olunmasını qiymətləndirən yekun proses summativ qiymətləndirmə adlandırılır. Summativ qiymətləndirmə şagirdlər, məktəb və ölkənin təhsil proqramının tərəqqi səviyyəsini yoxlamaq üçün vacib meyar verir. Qiymətləndirmənin bu növü hər bir fənnin məzmun standartlarında göstərilən əsas bilik və bacarıqların əldə olunmasına yönəldilmiş fəaliyyət istiqamətləri ilə təmin edilir. Summativ qiymətləndirmə hər tədris vahidinin sonunda aparılır və şagirdlərin bilik və bacarıqlarını səviyyələr üzrə qiymətləndirir, son imtahan prosesində testlərin nəticələri ümumiləşdirilir və növbəti tədris planlaşdırılması üçün müəllimləri məlumatla təmin edir. Bir fəsil və ya bölmənin sonunda tətbiq olunur (Şəkil 1.44):



**Şəkil 1.44. Formativ qiymətləndirmə**

- Şagirdlərin öyrəndikləri qiymətləndirilir;
- Tam məzmun sahələri əhatə olunur;
- Şagirdlərin anlayışına qiymət verilir;
- Şagird öyrənməsinin məhsulu vurğulanır.

Summativ qiymətləndirmə üsullara aşağıdakılar daxildir:

1. Performans tapşırıqları;
2. Yazı işləri;
3. Şifahi çıxışlar;
4. Son layihələr və ya portfolio;
5. Nailiyyət testləri;
6. Standart testlər.

Yekun qiymətləndirmə vasitələri kimi nailiyyət testləri, esse yazı, təqdimat, portfolio, imtahan sualları və testlərdən ibarətdir. Summativ qiymətləndirmə məlumatları şagird biliyi və təlim hədəfləri arasındakı boşluqları məktəblər tədris səviyyələrini qiymətləndirmək və təkmilləşdirmək üçün aparılır və yeni təlim meyarları hazırlanır.

Beləliklə, Təhsildə qiymətləndirmə, müəllimlərin şagirdlərin akademik hazırlığını, təlim irəliləyişlərini, bacarıqlar əldə etməsini və ya təhsil ehtiyaclarını qiymətləndirmək, ölçmək və sənədləşdirmək üçün istifadə olunan müxtəlif metod və vasitələr mövcuddur. Məktəbdaxili qiymətləndirmə şagirdlərin məktəbdə müxtəlif fənlər üzrə yeni bilik verən bacarıqlarını nümayiş etdirməyə imkan verir və təlim prosesi və məqsədlərə, və təlim standartlara uyğun olub-olmamasını qiymətləndirir.

## Tələbələr üçün fəaliyyətlər

1. **Qrup işi.** 4 qrupa bölünərək məktəbdaxili qiymətləndirmənin aparılmasında planı tərtib edin

- **Qrup A:** Qiymətləndirmə terminlərinin siyahısı və açıqlamaları qeyd edin
- **Qrup B:** Qiymətləndirmədə yaradılan problemləri müzakirə edərək yazın
- **Qrup C:** Qiymətləndirmə növlərinin müqayisə cədvəlini hazırlayın
- **Qrup D:** Məktəbdə qiymətləndirmənin tədrisdə əks olunan ən vacib tərəflərini qeyd edin

2. Məktəbdaxili qiymətləndirmə məqsədi və keçirilmə qaydaları

| Diaqnostik qiymətləndirmə | Məqsədlər | Keçirilmə qaydaları |
|---|---|---|
| Formativ qiymətləndirmə | | |
| Summativ qiymətləndirmə | | |

3. Tələbələrə müxtəlif fənlər üzrə mövzular verilir. Mövzular üzrə diaqnostik, formativ və summativ qiymətləndirmə vasitələrinin hazırlanması tapşırılır.

   **Məsələn:** Riyaziyyat – Çoxluqların öyrənilməsi; Ana dili – Vətənimin sərvətləri

   Coğrafiya: Yaşıl dünya uğrunda; Biologiya –Fotosintez hadisəsi və s.

4. Qiymətləndirmə tapşırıqlarının növlərini aşağıdakı meyarlar üzrə hazırlayın:

- Hafizə.......................................................................................................................................
- Məntiqi təfəkkür....................................................................................................................
- Tənqidi təfəkkür....................................................................................................................
- Yaradıcı təfəkkür...................................................................................................................

5. Tələbələr rənglər üzrə bölünür. Yuxarıda verilmiş mövzular üzrə holistik və analitik rubrikalar hazırlanması tapşırılır.

| Mövzular | Holistik | Analitik |
|---|---|---|
| Çoxluqların öyrənilməsi | | |
| Vətənimin sərvətləri | | |
| Yaşıl dünya uğurunda | | |
| Fotosintez hadisəsi | | |

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Təhsilalanların maraq və ehtiyacları üzrə onların istedad və qabiliyyətlərinin inkişafı yollarını təsvir edir"**

**1. Sualları cavablandırın və təkliflər hazırlayın:**

- Məktəblərdə qiymətləndirmənin aparılması hansı məqsədlərə xidmət edir?
- Məktəb rəhbərliyi bu prosesi hansı şəkildə planlaşdırır?
- Qiymətləndirmənin təlimdə aparılması keyfiyyətə necə təsir edir?
- Formal və qeyri-formal qiymətləndirmənin hansı fərqləri vardır və müəllim bunu necə həyata keçirir?
- Hansı qiymətləndirmə növünü daha vacib hesab edirsiniz və niyə?

**2. Formativ qiymətləndirməyə aid OLMAYAN cavabı seçin:**

A) Şagirdlərin mövzu haqqında əvvəlki bilikləri suallar əsasında yoxlanılır;
B) Şagirdlər güclü və zəif tərəflər və ehtiyac duyulan sahələrin müəyyənləşdirilməsinə kömək edirlər;
C) Şagirdlərin fəaliyyətləri haqqında dəlillər toplanılır;
D) Rubriklər və meyarlar əsasında uyğun rəylər verilir.

**3. Qiymətləndirmə haqqında düzgün OLMAYAN cavabı seçin?**

A) Qiymətləndirmə təlim məqsədləri reallaşdırılır;
B) Şagirdlərin qiymətləndirilməsi üçün təlim məqsədləri əsas istiqamətvericidir;
C) Şagirdlərin gündəlik cavabları testlər vasitəsilə qiymətləndirilməlidir;
D) Qiymətləndirmədə şagirdlərin son nəticələri daha vacib hesab edilməlidir.

**4. Verilmiş cavabların qarşısından qiymətləndirmə növünü qeyd edin:**

1. Təlim zamanı bir şagirdin fəaliyyəti qiymətləndirilir və ümumiyyətlə, təlim müddətində mütəmadi olaraq baş verir________________________________
2. Şagirdlərin təqdimatları üzrə uğurlar ölçülür____________________________
3. Şagirdin güclü və zəif bilik və bacarıqları qiymətləndirilir____________________

**5. Nailiyyət testini təsvir edən düzgün sıranı seçin.**

A) Təlimə adaptasiya olunmasında davranış ölçülür;
B) Şagirdin yeni bir bacarıq öyrənmə qabiliyyəti ölçülür;
C) Öyrənilən mövzular üzrə məzmun bilikləri ölçülür;
D) Testlərin həllində idrak qabiliyyəti ölçülür.

## 1.7. Təlim prosesində təhsilalanların təlim fəaliyyətinin izlənilməsi və nailiyyətlərinin dəyərləndirilməsini həyata keçirir

### 1.7.1. Təlim fəaliyyətinin izlənilməsi və nailiyyətlərin dəyərləndirilməsi

Şagirdlərin irəliləyişlərinin izlənilməsi (formativ qiymətləndirmə) və nailiyyətlərin dəyərləndirməsi təlim fəaliyyətinin effektivliyini ölçməyə xidmət edir. İrəliləyişlərin monitorinqi sinifdə hər bir şagirdin inkişafının hərəkətverici amilinə, təlimin həlledici komponentinə çevrilir. Öyrənənlərin fəaliyyətləri üzrə inkişaf dinamikasının izlənilməsi bir tərəfdən onların təlim ehtiyaclarını müəyyən etməyə, digər tərəfdən nailiyyətlərinin düzgün dəyərləndirilməsinə xidmət edir. Şagirdlərin təlim fəaliyyətinin izlənilməsi və nailiyyətlərin dəyərləndirilməsində aşağıdakı prinsiplərə riayət olunur (Şəkil 1.45):



**Şəkil 1.45. İrəliləyişlərin izlənilməsi**

- Təlim proqramında məqsədəuyğunluq;
- Məlumatların müvafiqliyi və etibarlılıq (proqram tələblərinə uyğunluğu);
- Şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;
- Qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

### 1.7.2. Təlim fəaliyyətinin izlənilməsinin məqsədləri

Formativ qiymətləndirmə təlimin keyfiyyətinin tam təmin olunması məqsədi daşıyır. Təlimdə şagirdlərin biliklərə yiyələnmək, onlardan istifadə etmək, tədris prosesində tətbiq etmək, biliklərin mübadiləsi, əməkdaşlıq bacarıqlarının formalaşması, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir. Bu mənada faktiki olaraq şagirdlərin sinif fəaliyyətlərinin nəticələri müəllim üçün real indikatorlara çevrilir. Fəaliyyətin izlənilməsi qeyri-formal xarakterə malikdir və aşağıdakı məqsədləri vardır (Şəkil 1.46):




**Şəkil 1.46. Fəaliyyətin izlənilməsi sahələri**

- Bütün şagirdlərin irəliləyişlərinin izlənilməsi (monitorinqi);
- Təlim prosesini tənzimlənməsi və qərarların qəbulu;

- Uğur qazana bilməyən şagirdlərin ehtiyaclarına əlavə köməklik;
- Şagirdin təlim nəticələrinin qiymətləndirilməsi.

### 1.7.3. Təlim fəaliyyətinin izlənilməsinin həyata keçirilməsi

Nəticəyönümlü təlimdə şagird fəaliyyətinin izlənilməsi dedikdə, tədris prosesinin və şagirdlərin fəaliyyətinin monitorinqi başa düşülür. Formativ qiymətləndirmə şagirdlərin təlim prosesində irəliləyişlərinin izlənilməsinə və öyrənənlərin inkişafı üçün onlara əlavə impulsun verilməsi barədə təlim ehtiyaclarının müəyyənləşdirilməsinə əsaslanır. Fəaliyyətin izlənilməsi beş əsas strategiya daxilində həyata keçirilir (Sxem 1.10): davranış, sinifdə fəal iştirak və əməkdaşlıq, özünüqiymətləndirmə, şagirdlərin işinin təhlili və irəliləyişləri təmin edən rəylərin verilməsi (feedback).




**Sxem 1.10. Fəaliyyətin izlənilməsi (formativ qiymətləndirmə) strategiyası (K. Lambert, OCPS Curriculum Services, 4/2012)**

**Davranışın izlənilməsi** vacib qiymətləndiriləcək sahə olaraq təlimin tərbiyəedici xarakterini əks etdirir. Yeni biliklərin mənimsənildiyini müşahidə etmək, mövzu üzrə öyrənənlərin hansı yeni davranışlara malik olması ən mühüm qazanılan irəliləyişdir. Özünütərbiyə və özünü idarəetmə fəaliyyətin qiymətləndirilməsinin ən vacib cəhətləridir (Şəkil 1.47)



**Şəkil 1.47. Davranışın izlənilməsi**

**Təlimdə iştirak və əməkdaşlıq** mövzu üzrə biliklərin vaxtında qazanılmasına və ardıcıl bacarıqlar əldə edilməsinə xidmət edir. Şagirdlərin təlimdə iştirakı müəllimin mövzu üzrə tətbiq edəcəyi tapşırıqların sistemli mənimsənilməsinə, bütün şagirdləri vaxtında yeni biliklərlə təmin etməsinə xidmət edir. Təlimdə fəal iştirak müəllimin hər bir şagirdə sərbəstlik verməsi, mübadilə, müzakirə və təqdim etmək bacarıqlarını dəyərləndirməsi məqsədi daşıyır. Sinifdə fəal iştirak şagirdlərin psixoloji hazırlığına müsbət təsir edir və bu zaman müəllim irəliləyişləri və geriləmələrini təyin edir, zəif və üstün cəhətləri asanlıqla müəyyən edir.

**Özünüqiymətləndirmə** öyrənənlərin öz fəaliyyətlərini qiymətləndirməsini həyata keçirmək, şagirdlərdə özünə inam, öz səhvlərini etiraf etmək və səhvlərinin üzərində işləyərək təkmilləşdirmək bacarıqlarını formalaşdırır. Bu proses zamanı fənn bilikləri üzrə keçirilən mövzunun qiymətləndiriləcək komponentləri dəqiq müəyyən edilir, səviyyələr üzrə bu komponentlərin mənimsənilməsinə nail olmaq düşüncələri formalaşdırır. Özünüqiymətləndirmədə şagirdlərin öz ehtiyaclarını təyin etməsi müntəzəm xarakter daşımalıdır (Şəkil 1.48).



**Şəkil 1.48. Özünüqiymtləndirmə**

**Şagirdlərin işinin təhlilində** tətbiq edilən fəaliyyət növlərinin qiymətləndirilməsinin öz xüsusiyyətləri vardır. Mövzular və fəaliyyət tapşırıqları üzrə əvvəlcədən hazırlanmış qiymətləndirmə sxemlərindən və digər diskriptiv (təsviri) qiymətləndirmə üsullarından istifadə olunmaqla, aşağıdakı kimi müxtəlif meyarlarla təsvir edilir:

1. Şifahi cavabların qiymətləndirilməsi cavabların dolğunluğu, əhatəliliyi, konkretliyi, düzgünlüyü, dəqiqliyi, nitqin ardıcıllığı və məntiqindən asılıdır;
2. Yazılı testlərin qiymətləndirilməsi ümumi test tapşırıqlarının, həmçinin mürəkkəblik dərəcəli test suallarının sayından asılıdır;
3. Sinif və müstəqil ev tapşırıqlarının qiymətləndirmə meyarları hər bir tapşırığın əsasını təşkil edən konkret təlim məqsədindən asılıdır. Onların qiymətləndirilməsi daha çox keyfiyyət xarakteri daşıyır;
4. Yaradıcı tapşırıqların qiymətləndirilməsi ideyaların məhsuldarlığından, çevikliyindən, orijinallığından, adekvatlığından və başqa yaradıcı tapşırıqların yerinə yetirilməsi


**Şəkil 1.49. Şagird işinin təhlili**

göstəricilərindən asılıdır (Şəkil 1.49).

**Rəylərin verilməsi (feedback)** və ya əks-əlaqə fəaliyyətin izlənilməsində irəliləyişləri təmin edən ən vacib mərhələdir. Əks-əlaqə şagirdlərin buraxdığı səhvlər üzrə rəy və təkliflərin verilməsi, geridə qalan sahə üzrə tapşırıqların verilməsi və ödənilməsi vaxtın təyin edilməsindən ibarətdir. Rəylər müsbət həvəsləndirici təsirə malik olmalı, fikrin yaradılması məqsədilə həyata keçirilir və bu proses təbii idrak tələbatının formalaşması, öndə olmaq həvəsinin oyanmasına istinad edilir (Şəkil 1.50).



**Şəkil 1.50. Rəylərin verilməsi**

### 1.7.4. Təlim nailiyyətlərinin dəyərləndirilməsi

Formativ qiymətləndirmədən əldə olunan nəticələr sonda şagird nailiyyətlərinin, əldə olunan bilik və bacarıqların kəmiyyətcə qiymətləndirilməsinə əsas verir. Aşağıda təsvir olunan Cədvəl 1.3-də formativ və summativ qiymətləndirmədə formal və qeyri-formal xarakterli qiymətləndirmə üsulları şagirdlərin daha çox praktiki bilik və bacarıqlarını yoxlayır (Şəkil 1.51):


**Şəkil 1.51. Nailiyyətlərin dəyərləndirilməsi**

Göründüyü kimi, fəaliyyətin izlənilməsi üzrə gündəlik qeyri-formal qiymətləndirmə vasitələri kimi istifadə olunan *özünüqiymətləndirmə, sual-cavab,* mövzular *üzrə tapşırıqlar, yazılı rəylər* şagirdlərin yekun dəyərləndirilməsində aşağıdakı kimi sistemli əks-əlaqə yaradır.

| | **Formativ** | **Summativ** |
|---|---|---|
| İnformal | Sual-cavab | Nəzarətsiz Esse |
| | Özünüqiymətləndirmə | Portfolio |
| | Mövzular üzrə tapşırıqlar | Fərdi iş/təqdimat |
| | Yazılı rəy | Müəllim qiymətləndirilməsi |
| Formal | Kvizlər | Qiymətləndirmə standartları |
| | Esse | Test / İmtahan |
| | Şifahi və yazılı tapşırıqlar | Nəzarətli esse |

**Cədvəl 1.3. Fəaliyyətin izlənilməsi (formativ) və nailiyyətlərin dəyərləndirilməsi (summativ)**

**Formal və ya rəsmi qiymətləndirmələrdə** testdən çıxarılan nəticələrə dəstək verən məlumatlar var. Ümumiyyətlə bu tip testlərə standart yanaşma kimi istinad edilir. Bu testlər əvvəllər şagirdlər üzərində sınanmış və şagirdin yaşına görə orta hesabdan aşağı nəticəni dəstəkləyən statistikaya sahibdir. Əldə olunan məlumatlar riyazi cədvəllərdə hesablanır və ümumiləşdirilir. Burada faizlər və ya standart ballar kimi qiymətləndirmələrdən istifadə olunur.

**Qeyri-rəsmi qiymətləndirmələr** məlumat deyil, məzmun və performansa əsaslanan məlumatlardır. Məsələn, çalışmalar üzrə qeydlər qeyri-rəsmi qiymətləndirmələrdir, çünki onlar şagirdin müəyyən bir fəaliyyətini göstərir. Belə hallarda əsasən gündəlik yazılı və şifahi tapşırıqlardan, kiçikhəcmli fəaliyyətlərdən, özünüqiymətləndirmə vasitələrindən istifadə olunur.

### 1.7.5. Qiymətləndirmə standartları

Bu standartlar təhsilin keyfiyyətini qiymətləndirmək üçün məzmun standartlarının müxtəlif səviyyələrdə ölçülməsi üzrə əsas meyarları təyin edir (Şəkil 1.52). Qiymətləndirmə standartları təlim nəticələrinin hansı keyfiyyətlə əldə olunmasını əks etdirir və eyni zamanda şagird nailiyyətlərinin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi üçün istifadə olunan qiymətləndirmə üsulları və vasitələrinin keyfiyyətini təsvir edir. Bu baxımdan, qiymətləndirmə standartları təlim nəticələrinin tam yerinə yetirilməsinə aşağıdakı kimi hazırlanır:




**Şəkil 1.52. Qiymətləndirmə standartları**

- Qiymətləndirmə standartlarına əsasən meyarların və test tapşırıqlarının tərtib edilməsi;
- Qiymətləndirmə meyarlarının səviyyələrin müəyyən edilməsi;
- Qiymətləndirmə üsullarının çevikliyi və uyğunluğunu təmin edən testlərin hazırlanması;
- Oxu və xarici dil standartlarını əks etdirən test tapşırıqları və esse yazı nəticələri üzrə qiymətləndirmə meyarlarının seçilməsi;
- Riyazi standartlar üzrə tapşırıq və kvizlərin tərtib edilməsi;
- Təbiət fənləri standartları üzrə test tapşırıqların hazırlanması.

**Portfolio qiymətləndirməsi** – Portfolio qiymətləndirmə, öyrənənlərin müəllimləri ilə birlikdə hazırladıqları bir qiymətləndirmə formasıdır və klassik sinif testinə alternativdir. Portfolioda şagirdin irəliləyişləri üzrə yerinə yetirdikləri iş nümunələri, irəliləyişlərini əks etdirən nümunələr göstərilir və bunun əsasında yekun qiymətləndirmədə balının hesablanması həyata keçirilir (Şəkil 1.53).



**Şəkil 1.53. Qiymətləndirmə standartları**

### 1.7.6. Nailiyyət testlərinin tərtibatı

Nailiyyətlərin dəyərləndirilməsində testlərin obyektiv tərtibatı və etibarlılığı ən vacib amildir. Etibarlı qiymətləndirmələr xüsusi bacarıqları, strategiyaları və bilikləri dəqiq şəkildə hədəfləyir. Test tərtibinin etik prinsiplərinə riayət olunması, onun elmi-pedaqoji prinsipləri qədər əhəmiyyətli olub, testin etibarlılığını təmin edən amillərdəndir (Şəkil 1.54).



**Şəkil 1.54. Nailiyyət testlərinin tərtibatı**

Etibarlılıq məlumatların keyfiyyətli qəbul edilmiş qərar və fəaliyyətlərinin münasibliyinə təminat verir. Qiymətləndirmə məqsədləri real seçilir və ölçülə bilən xüsusiyyətlər qiymətləndirilir. Şagirdin nailiyyətləri ona yaradılmış imkan daxilində müəyyən sahədə yerinə yetirdiyi konkret tapşırığın səviyyəsinə görə qiymətləndirilir. Tərtibatçi unutmamalıdır ki, test sanki, bir "tərəzi"dir. O, bilik və qabiliyyətləri yoxlamaq, ölçmək üçündür. Şagirdi imtahandan kəsmək məqsədilə testin çaşdırıcı tərzdə tərtib edilməsi etik qaydalara ziddir. Bu baxımdan testlərin müəyyən edilmiş faizlərlə ölçülməsi məqsədəuyğundur (Şəkil 1.55):



**Şəkil 1.55. Qiymətləndirmə ballarının ölçülməsi**

- Sualın tələbləri tam ödənilir (+100%) - bu düz cavabdır.
- Sualın tələblərinin əksər hissəsi ödənilir (+75%)- bu dərin bilik, bacarıq və vərdişləri əsasında təcrid olunan səhv cavabdır.
- Sualın tələbləri daha çox ödənilir (+50%)- bu daha çox bilik və bacarıqlar əsasında təcrid olunan səhv cavabdır.
- Sualın tələbləri qismən ödənilir (+25%)- bu zəif bilik və bacarıqlar əsasında təcrid

olunan səhv cavabdır.

- Sualın tələbləri tamamilə ödənilmir (-100%)- bu asan təcrid olunan səhv cavabdır.

## Tələbələr üçün fəaliyyətlər

1. Qrup işi. Sözləri müvafiq təsnifata aid edin

Sualların müzakirə edilməsi üçün tələbələr qruplarda bölünür və qiymətləndirmə üzrə yazılı terminlər qarışıq şəkildə verilir. Terminlərin fəaliyyətin izlənilməsi və nailiyyətlərin dəyərləndirilməsi üzrə təsnifata bölünməsi tapşırılır.

<table>
<tr><td colspan="2">Müşahidə, rubriklər, esse yazı, tapşırıqlar, izlənilmə, nəticələrin qiymətləndirilməsi, sual-cavab, nümayişlər, qərarların qəbulu, təqdimat, kurs işi, yekun qərar, məlumatların toplanması, portfolio, müntəzəm qeydiyyat, esse yazı, irəliləyişlər, qiymətləndirmə standartları, davranışa nəzarət, test, yazılı rəylər, imtahan, meyarlar, müqayisəli faizlər,</td></tr>
<tr><td>Fəaliyyətin izlənilməsi (formativ qiymətləndirmə</td><td>Nailiyyətlərin dəyərləndirilməsi (summativ qiymətləndirmə)</td></tr>
<tr><td>1.<br>2.<br>3.</td><td>1.<br>2.<br>3.</td></tr>
</table>

Qiymətləndirmə terminlərinin təsnifatı:

2. Tədris olunan istənilən bir mövzunun formativ üsulla qiymətləndirilməsi strategiyasını və qiymətləndirmə üsul və vasitələrini tərtib edin.

   **Mövzu:** “Ətraf mühitin çirklənməsi”.

   1. Fənn – mövzu - qiymətləndirmə üsulu - tapşırıqları – qiymətləndirmə vasitələri
   2.

3. Formativ qiymətləndirmədə təlim ehtiyaclarını ödəmək üçün hansı alternativ üsul və mənbələrdən istifadə olunması təklif edərdiniz?

   1. ______________________________
   2. ______________________________
   3. ______________________________

4. Nailiyyətlərin dəyərləndirilməsi (yekun) qiymətləndirmə üsullarının yerinə yetirilməsi üzrə meyarları təsvir edin.

| Esse yazı | Yazılı test | Şifahi təqdimat | Yaradıcı iş |
|---|---|---|---|
| | | | |



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Təlim prosesində təhsilalanların təlim fəaliyyətinin izlənilməsi və nailiyyətlərinin dəyərləndirilməsini həyata keçirir”**

**1. Verilmiş sualları müzakirə edərək cavablandırın:**

- Təlim fəaliyyətinin izlənilməsi və nailiyyətlərin dəyərləndirilməsi prinsiplərinə necə riayət edilməlidir?
- Təlimdə şagird fəaliyyətlərinin izlənilməsini hansı formada həyata keçirmək olar?
- Fəaliyyətin izlənilməsi strategiyaları hansılardır?
- Formal və qeyri-formal qiymətləndirmə necə tətbiq edilməlidir?
- Sinif qiymətləndirilməsində hansı qiymətləndirmə üsulu daha faydalı hesab edilə bilər?
- Portfolio qiymətləndirməsi necə həyata keçirilməlidir?
- Testlərin tərtibatında suallar və tapşırıqlar necə hazırlanmalıdır?
- Şagirdlərin son nailiyyəti hansı üsullarla qiymətləndirilir?

**2. Formativ qiymətləndirmənin düzgün məqsədi seçin.**

A) Valideynləri şagirdlərin nailiyyətləri ilə məlumatlandırmaq
B) Şagirdləri uğur qazanmaq üçün səmərəli yazılı rəy ilə təmin etmək
C) Məktəbin uğurlarını müqayisə etmək
D) Müəllimlərə strategiyaları yoxlmağa imkan vermək

**3. Formativ qiymətləndirmə üsullarının düzgün sırasını seçin.**

A) Aralıq qiymətləndirməyə hazırlıq üçün aparılır;
B) Sinifdə qiymətləndirmələr, təhlil və müşahidələr aparmaq;
C) Təlim proqramlarının effektivliyini qiymətləndirmək üçün istifadə olunur;
D) Şagirdlərin bacarıqları haqqında qərarlar qəbul edilir.

**4. Formativ qiymətləndirmədə istifadə edilməyən cavabı seçin.**

A) BİBÖ cədvəlində qeydlər;
B) Ümumiləşmiş test;
C) Oxu üzrə tapşırıqlar;
D) Sinifdə sual-cavab.

**5. Doğru və yanlış cavabları qeyd edin:**

| | | **Doğru** | **Yanlış** |
|---|---|---|---|
| 1. | Formal qiymətləndirmə qeyri-formal xarakterə malikdir. | | |
| 2. | Qeyri-formal qiymətləndirmədə standart faizlər və ballardan istifadə olunur | | |

**6. Summativ qiymətləndirilməsi üçün istifadə olunan üsulları seçin.**

A) Özünüqiymətləndirmə;
B) Standartlı testlər;
C) Mövzular üzrə sual-cavab;
D) Tapşırıqlar, icmallar və müşahidələr aparmaq.

**7. Qeyri-rəsmi qiymətləndirmələr müəllimlərə aşağıdakı məlumatları verir:**

A) Məzmun və performans üzrə məlumatlar;
B) Praktik çalışmalar üzrə məlumatlar;
C) Mövzu tapşırıqları üzrə verilən ballar üzrə məlumatlar;
D) Yuxarıdakıların hamısı.

## 1.8. Xüsusi təlimə ehtiyacı olan və təhsildən kənarda qalan şagirdlər üçün fərdi təhsilin təşkili qaydalarını izah edir

### 1.8.1. İnklüziv təhsilin xüsusiyyətləri

Xüsusi təhsil sağlamlıq imkanları məhdud şəxslərə zəruri bilik, bacarıq və vərdişlər aşılamaqla onların cəmiyyətə uyğunlaşdırılması deməkdir. İnklüziv sözü – “include” sözündən götürülüb bütün fərqli qabiliyyətlər, xüsusi istedadı və ehtiyacı olan öyrənənlər və zehni və fiziki qüsurlu fərqlərin təhsilə daxil olunması deməkdir. İnklüzivlik bütün şagirdləri yaşlarına uyğun və müntəzəm olaraq dərslərlə təmin edir, onların fərqli qabiliyyətlərini qarşılayır və şagirdləri məktəb həyatının bütün sahələrində öyrənmə, töhfə vermə və iştirak etmə üçün dəstəkləyir. İnklüziv təhsildə bütün şagirdlərin yerli məktəb icmasında iştirakı tam təmin olunur. Bu, bir sosial model kimi beynəlxalq və milli səviyyədə daha çox qurulan nəzəri və praktiki araşdırmanın yeni bir istiqamətidir (Şəkil 1.58). UNECKO və UNİCEF-in inklüzivliyə aid layihələrində təhsil sistemlərinin normallığını xarakterizə edən xüsusi ehtiyacların müxtəlif tipologiyalarına cavab verilməsi üçün müasir yanaşmalar həyata keçirilir.



**Şəkil 1.58. Təhsildə inklüziv təlimin təşkili**

Cəmiyyətdə sağlamlıq imkanları məhdud bütün uşaqlar məktəbdə təhsil alma hüququ ilə təmin edilməli və bu sahədə olan bütün peşəkar kadrlar öz dərslərini inklüziv yanaşmada, korreksiyaedici xidmət şəraitində yerinə yetirməlidir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların tipik yaşıdları ilə təhsil alması üzrə məsuliyyət mahiyyət etibarı ilə daha çox psixoloq və tərbiyəçilərin üzərinə düşür. Ümumiyyətlə, korreksiyaedici xidmət dedikdə, əvvəlcə onların təhsilə daha tez uyğunlaşdırılması və uşaqlarla effektiv ünsiyyət qurulması müəyyən komponentlərə əsaslanaraq nəzərdə tutulur (Şəkil 1.58).



**Şəkil 1.58. İnklüziv təlimin komponentləri**

İnklüziv təhsilin komponentləri aşağıdakılardır:

- İnklüziv təhsillə əməkdaşlığın olması;
- Qiymətləndirmənin tətbiqi və motivasiyanın yaradılması;
- Fərdi tədris proqramının həyata keçirilməsi;
- Reabilitasiya xidmətinin təmin edilməsi;
- Pedaqoq və psixoloqların rolunun olması;
- Digər xidmətlərin dəstəklənməsi;
- Valideynlərlə əməkdaşlığın qurulması;
- Peşə bacarıqları üzrə təlimin təşkili.

### 1.8.2. Sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili qaydaları

Sağlamlıq imkanları məhdud şagirdlərin təhsili üzrə qaydalar aşağıdakı şəkildə təşkil olunur.

1. Sağlamlıq imkanları məhdud şagirdlərin təhsilin bütün pillələri üzrə inklüziv təhsil hüququnun təmin edilməsi məqsədi ilə normativ hüquqi sənədlərin təkmilləşdirilməsi;
2. Müəssisədə sağlamlıq imkanları məhdud olan şagirdlər haqqında məlumat bazasının yaradılması;
3. Tədris proqramını sağlamlıq imkanları məhdud uşaqların maraq və ehtiyacları, istedadların aşkar olunması əsasında təşkil edilməsi;
4. Sağlamlıq imkanları məhdud olan şagirdlərin istedadının aşkar edilməsi üzrə yeni metodikanın tətbiq edilməsi;
5. Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün optimal təlim modelinin tətbiq edilməsi;
6. Sağlamlıq imkanları məhdud olan şagirdlərdə müxtəlif bacarıqları formalaşdıran pedaqoji kadrların hazırlanması;
7. Sağlamlıq imkanları məhdud şagirdlərin təhsilə cəlb olunması, cəmiyyətə sosial adaptasiyası üzrə maraqlı tərəflər, icma ilə əməkdaşlığın qurulması və maarifləndirə işinin aparılması.

### 1.8.3. Xüsusi istedadlı uşaqlarla işin təşkili qaydaları

1. Məktəblərdə hər hansı sahə üzrə xüsusi istedadı ilə fərqlənən şagirdlər üçün təyin edilmiş fərdi təhsilin təşkilinin təmin edilməsi;
2. Xüsusi istedadlı şagirdlər üçün fərdi təhsil proqramları və tövsiyələrin yerli təhsili idarəetmə orqanları tərəfindən hazırlanması;
3. Xüsusi istedadlı şagirdlər üçün fərdi təhsil texniki, təbiət, humanitar fənlər üzrə xüsusi bilik və bacarıq nümayiş etdirən, çevik təfəkkür, müstəqil öyrənmə, qeyri-standart düşünmə qabiliyyəti və dünyagörüşünün genişliyi ilə fərqləndirilən şagirdlər üçün təşkil edilməsi;

4. İstedadlı şagirdlərlə fərdi dərslər (məşğələlər) aparan müəllimlər tərəfindən 3 aydan bir onların irəliləyişləri və inkişaf perspektivləri barəsində məktəbin rəhbərliyinə yazılı hesabat hazırlanması və məktəb rəhbərliyinin rəyindən asılı olaraq pedaqoji şuraya məlumat verilməsi.

### 1.8.4. Fərdi təhsilin xüsusiyyətləri

Fərdi təhsil, xüsusi təhsil prosesinin dayağıdır. Bu təlim, fiziki və ya əqli məhdudiyyəti olan şagirdlərin ixtisaslaşdırılmış təlimini təmsil edir. Bu şagirdlərin fərdi şəkildə təhsil alması üzrə hazırlanan proqram hər bir şagirdin hazırkı inkişaf səviyyəsini və öyrənmə məqsədlərini təsvir edir.

Robert Şternberq (Şəkil 1.58) fərdi təhsili araşdırarkən, disleksiyalı, anadangəlmə zədə və inkişafla bağlı problemi olan uşaqların daha çox motivasiya edilməsi və öyrənmə üslublarına uyğun daha yaxşı performans göstərilməsini qeyd edir. Buna görə müəllimlərin şagirdləri fərdi təlim imkanları ilə təmin etmələri üçün onların fərdi təhsilinin üstünlüklərindən xəbərdar olmaları vacibdir.



**Şəkil 1.58. Robert Şternberq, amerikalı psixoloq**

Fərdi təhsil proqramı öyrənənlərin güclü və zəif tərəfləri, habelə, xüsusi qabiliyyətini nəzərdə tutan bir proqram nümunəsidir.

Fərdi təhsil proqramı müəllimlər, valideynlər, məktəb menecerləri, əlaqəli xidmət işçiləri və təhsilalanlar arasında fiziki, əqli imkanları məhdud olan uşaqları təhsil nəticələrinin yaxşılaşdırılmasına istiqamətləndirir və onların cəmiyyətin digər üzvləri ilə birlikdə fəaliyyət göstərməsinə fürsət yaradır.

Fərdi təhsilin məqsədi aşağıdakılardır:

1. Sağlamlıq imkanları məhdud şəxslərə zəruri bilik, bacarıq və vərdişlərin aşılanması;
2. Onların cəmiyyətə uyğunlaşdırılmasını, o cümlədən, özünəxidmət vərdişlərinin yaradılması;
3. Əmək fəaliyyəti və ailə həyatına hazırlanmasının təmin edilməsi;
4. Müvafiq normativ baza və müəllim hazırlığının təkmilləşdirilməsi;
5. Dəstək mexanizmlər üzrə akademik və sosial inkişaf üçün şəraitin yaradılması;
6. Fərdi ehtiyaclara uyğunlaşdırılmış dəstək tədbirlərinin təmin edilməsi;
7. Erkən müdaxilə və infrastrukturun uyğunlaşdırılması;
8. İctimai məlumatlılığın artırılmasının təmin olunması.

### 1.8.5. Fərdi təhsilin təşkili qaydaları

Müəssisədə fərdi təhsil təşkili üzrə inkişaf proqramlarının müəyyənləşdirmək, onların fərdi plan əsasında tədris prosesi və tədrisdən kənar sərbəst fəaliyyətlərinin təşkili qaydalarının yaradılması vacibdir. Təhsil müəssisələrində fərdi təhsil əsasən iki istiqamətdə aparılır: təlimdən kənar qalmış şagirdlərin fərdi təhsili; xüsusi istedadlı şagirdlərin fərdi təhsili. Məktəblərdə fərdi təhsil təhsil direktorunun təsdiq etdiyi dərs cədvəli əsasında təşkil olunur və ayrıca tərtib edilmiş jurnalda aparılır.

Xüsusi istedadlı şagirdlər üçün fərdi təhsil əsasən təbiət-riyaziyyat və humanitar fənlər üzrə aparılır. Verilən biliklər şagirdlərdə çevik təfəkkürü, intellektual qabiliyyəti və qeyri-standart düşünmək bacarığını formalaşdırır.

Fərdi təhsildə öyrənməyi inkişaf etdirmək və əməkdaşlığı təşviq etmək üçün ən yaxşı təcrübələrdən istifadə etmək lazımdır: problemin həlli, eksperiment, biliklərin transferi.

Müəllimlərin fərdi təhsildə şagirdlərin fiziki xüsusiyyətləri, zəka, qavrayış, cinsiyyət, qabiliyyət, öyrənmə tərzini bilməsi vacibdir. Nəzərə almaq lazımdır ki, belə öyrənənlər fərdi fərqləridır. Bu fərdi fərqləri nəzərə alaraq təsirli və məhsuldar bir təlim-tədris prosesi planlaşdırıla bilər. Bəzi hallarda, birgə əməkdaşlığı təşviq edərək fərdi öyrənməyi ortaq öyrənməyə çevirmək olar.

Fərdi təhsil üzrə təlimdən kənar qalan şagirdlərin aşağıdakı müstəsna kateqoriyaları da ola bilər:

- Öyrənmə qüsuru olanlar;
- İnkişaf və öyrənmə pozulmaları olanlar;
- Emosional və davranış əlilliyi olanlar;
- Autizmli uşaqlar;
- Ünsiyyət pozulması (nitq və dil pozulması) olanlar;
- Eşitmə qüsuru olanlar;
- Görmə qüsuru olanlar;
- Fiziki və sağlamlıq pozulmaları olanlar;
- Kompleks pozulmaları olanlar;
- İstedad və xüsusi istedadlara sahib olanlar.

Verilmiş Sxem 1.11-ə əsasən fərdi təhsilin təşkili aşağıdakı dövriyyə əsasında həyata keçirilir: **Məlumat toplamaq:**

- Şagird qeydlərini nəzərdən keçirmək;
- Valideynlər, şagird, məktəb işçiləri və digər mütəxəssislərlə məsləhətləşmək;
- Şagirdlərin müşahidəsi ilə məlumat toplamaq;
- Məlumatları birləşdirmək və qeyd etmək.




**Sxem 1.11. Fərdi təhsilin təşkili qaydaları (E-Guide to teaching in the 21 century, 2011)**

**İstiqamət təyin etmək:**

- FTP (Fərdi Təhsil Proqramı) üzərində işə başlamaq (məsələn, məlumatlarınızı qeyd edin, müvafiq qiymətləndirmə);
- Məlumatları sadalamaq;
- Şagirdlərin ehtiyac sahələrini göstərmək;
- Ortaq bir yanaşma qurmaq – FTP hazırlamaq üçün komanda təşkil etmək.

**Şagirdləri xüsusi təhsil proqramı üzrə inkişaf etdirmək:**

- Proqramdan imtina, dərslərin əvəz edilməsi, diplom və ya sertifikat üçün uyğunluq barədə qərarları qeyd etmək;
- Yaşayış yerlərini müəyyənləşdirmək;
- Tədris strategiyası və qiymətləndirmə metodlarını müəyyənləşdirmək;
- Qiymətləndirmə, hesabat və nailiyyətlər barədə məlumatları qeyd etmək;
- FTP-nin inkişaf mərhələsi haqqında məlumatları qeyd etmək (valideyn/şagird məsləhətləşmələrinin təfərrüatlarını daxil edilməklə) və direktorun təsdiqini təmin etmək.

**FTP tətbiq etmək:**

- Tamamlanmış FTP-nı şagird, valideynlər, məktəb işçiləri və digər peşəkarlarla bölüşmək (16 yaş və daha yuxarı olduqda valideynlər və şagirdə bir nüsxə təqdim etmək);
- FTP-ni idarə etmək və tətbiq etmək;
- Şagirdlərin irəliləməsini davamlı olaraq qiymətləndirmək;

- FTP-ni zəruri hallarda tənzimləmək (hədəflər, gözləntilər, yaşayış yerləri, tədris strategiyası və sairədə hər hansı bir dəyişiklik olan halda);
- Şagirdin öyrənməsini qiymətləndirmək və valideynlərə hesabat vermək.

**FTP-ni nəzərdən keçirmək və yeniləmək:**

- Hər hesabat dövrünün əvvəlində təlim gözləntilərini yeniləmək;
- FTP-ni mütəmadi olaraq nəzərdən keçirmək və düzəlişləri qeyd etmək;
- İbtidai məktəbdən orta məktəb və ya başqa məktəbə keçid planı hazırlamaq.

### 1.8.6. Fərdi təhsil üzrə işin planlaşdırılması mərhələləri

Fərdi təhsil proqramı mərhələlər üzrə təşkil edilməlidir (Şəkil 1.59):



**Şəkil 1.59. Fərdi təhsilin planlaşdırılması**

1. Dövlət tərəfindən inklüziv təhsilin uğurlu şəkildə həyata keçirilməsi üzrə normativ sənədlərin təkmilləşdirilməsi;
2. Xüsusi metod, vasitə və qiymətləndirmə meyarlarının hazırlanması;
3. Psixoloji işin səmərəli təşkili üzrə tibbi-pedaqoji ekspertlərin təlimdən keçirilməsi və təkmilləşdirilməsi;
4. İnklüziv təhsildə standartlara uyğun yeni təlim texnologiyalarının tətbiqi;
5. İnklüziv təhsilin təşkili ilə bağlı maddi-texniki bazanın genişləndirilməsi və modernləşdirilməsi;
6. Sağlamlıq imkanları məhdud insanların təhsili üzrə nəqliyyat vasitələri, reabilitasiya avadanlıqları və digər yardımçı vəsait, texnologiya və didaktik materiallarla təchiz edilməsi;
7. İnklüziv təhsil üzrə kadr hazırlığını təmin edən pedaqoji tədris proqramlarının xüsusi modullarla keçirilməsi;
8. Təşkilati tədbirlər çərçivəsində sağlamlıq imkanları məhdud şəxslərin peşə və əmək vərdişlərinə yiyələndirilməsi;
9. İnklüziv təhsildə müxtəlif peşələr üzrə xüsusi məktəblər, inteqrasiyalı və xüsusi internat məktəbləri və ilk peşə-ixtisas təhsili müəssisələrində tədris emalatxanalarının yaradılması;
10. İnklüziv təhsil müəssisələrində keyfiyyət meyarları və monitorinq mexanizminin hazırlanması və tətbiq edilməsi.

**Fərdi təhsili tədris edənlər**

Qiymətləndirmə qrupu aşağıdakı mütəxəssisləri əhatə edə bilər:

- Sinif müəllimləri;
- Psixoloq və xüsusi pedaqoq;

- Fiziki terapevt,
- Bir nitq terapevti və loqoped;
- Görmə və ya eşitmə mütəxəssisi;
- Digərləri (uşağın xüsusi ehtiyaclarından asılı olaraq).

Fərdi təhsil əlçatanlıq və təlimat yerlərinin müəyyən edilməsi ilə xarakterizə olunur.

1. Əlçatanlıq əlilliyi olan şagirdlərin məkanlar və ictimaiyyətə qoşulması üçün lazım olan məlumatlar və kommunikasiyalara çıxışının təmin edilməsini nəzərdə tutur. Amma bu əlçatanlığın fayda verməsi üçün bir sıra standartlara əsaslandırılmalıdır.
2. Təlimat yerləri müəyyən bir vəziyyətdə lazım olduqda zəruri və uyğun dəyişiklik və düzəlişlər deməkdir.

Fərdi təhsildə şagirdlərin təliminin təmin edilməsi üçün tələb olunan yerlərin siyahısı aşağıdakıları əhatə edir:

**Təlimat yerləri:** Şagirdlərin təlim və tədris planı ilə irəlilədilməsi üçün tələb olunan tədris strategiyaları aşağıdakılardır (Şəkil 1.60):

- Dost/ həmyaşıd repetitorluğu;
- Uşaqların müəyyən edilməsi üzrə qeydlərin aparılmasına yardım və qeydlərin təkrarlanması;
- Müxtəlif qabiliyyətli uşaqların qruplaşdırılması;
- Qrafik işlərin öyrədilməsi;
- Manipulyativ maddələr və əl materiallarına nəzarət;
- Tez-tez fasilələrin təmin edilməsi.



**Şəkil 1.60. Fərdi təhsilin təmin edilməsi**

**Ətraf Yerləşdirmə**: Sinif və məktəbin fiziki mühitində dəyişikliklər və ya dəstək:

- Alternativ iş sahəsi;
- Strateji yerləşmə və təlimatçıya yaxınlıq;
- Audio-vizual vasitələrin yüksək tonda işlədilməsinin azaldılması;
- Fon səs-küyünün minimuma endirilməsi və səssiz rejim;
- Xüsusi işıqlandırma.

**Qiymətləndirmə yerləri:** Qiymətləndirmə fəaliyyətində düzəlişlər aparmaq və şagirdlərin öyrənməsini nümayiş etdirməsi üçün tələb olunan metodlar:

- Uzadılmış müddəti təyin etmək;
- Alternativ parametrlər müəyyən etmək;
- Tez-tez fasilələr təşkil etmək;
- Şagirdin öz işinə diqqətini artırmaq;

- Öyrənmə prosesi üçün əlavə vaxt ayırmaq;
- Qiymətləndirmə vasitələri artırmaq.

Beləliklə, xüsusi təhsilə ehtiyacı olan və təhsildən kənarda qalan şagirdlər üçün fərdi təhsilin təşkili onun düzgün planlaşdırılmasından, effektiv təşkili və uyğun strategiya ilə həyata keçirilməsindən asılıdır. Qeyd olunan təlimatları həyata keçirmək gələcək cəmiyyətimizdə inklüziv təhsilin məktəblərimizin ayrılmaz bir hissəsi olduğunu təsdiqləyəcək, uşaqlarda özünəinamı artırar və digər tipik inkişaf edən uşaqlarla bərabərhüquqlu edər.

## Tələbələr üçün fəaliyyətlər

1. Qrup işi. Tələbələrə fərdi təhsilin təşkilinin planlaşdırılmasını hazırlamaq tapşırılır. Karusel üsulu ilə qrup üzvləri müxtəlif fikirlər əlavə edirlər.

| 1. Məlumat toplama | 2. İstiqamət götürmə | 3. FTP hazırlama | 4. FTP həyata keçirmə | 5. FTP –nı nəzərdən keçirmə və yeniləmə |
|---|---|---|---|---|
| | | | | |

2. Aşağıda verilmiş tapşırıqları yerinə yetirin və qrup üzvlərinə təqdim edin.

**Qrup A.** İnklüziv təhsilin sahələri üzrə təkliflər hazırlayın.

**Qrup B.** Fərdi təhsilin həyata keçirilməsi üzrə fəaliyyət və qiymətləndirmə meyarları hazırlayın.

| Fərdi təhsilalma sahələri | Təlim strategiyası | Fəaliyyətlər |
|---|---|---|
| Sağlamlıq imkanları məhdud olanlar | | |
| Xüsusi istedadı olanlar | | |
| Təhsildən kənarda qalanlar | | |

3. Fərdi təhsil sahəsini təkmilləşdirmək üçün bildiyiniz müasir inklüzivlik terminlərin mənalarını yazılı müəyyən edin.
    1. Reabilitasiya –
    2. İnklüzivlik –
    3. İnteqrasiya –
    4. Oriqami –
    5. Loqopediya –
    6. Fiziki qüsur –
    7. Disleksiya –

4. Layihə: Xüsusi təlimə ehtiyacı olanlar və təhsildən kənarda qalan uşaqlarla işin təşkili üzrə fəaliyyət planını aşağıdakı cədvələ uyğun qeyd edin:

| İnklüziv təhsilin sahəsi | Çətinliklər | Risklərin həlli | Təkliflər |
|---|---|---|---|
| Sağlamlıq imkanı olmayanlar | | | |
| Xüsusi istedadı olanlar | | | |
| Təhsildən kənarda qalanlar | | | |

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Xüsusi təlimə ehtiyacı olan və təhsildən kənarda qalan şagirdlər üçün fərdi təhsilin təşkili qaydalarını təqdim edir”**

**1. Sualları düzgün cavablandırın:**

- İnklüziv təhsilə hansı sahələr daxil edilir?
- Xüsusi istedadlı uşaqlar üçün hansı fənlər tədris olunur?
- İnklüziv təhsil uğurlu tədrisə necə kömək edir?
- İnklüziv təhsil əldə etmək üçün hansı addımlar atılır?
- Fərdi təhsilin təşkili qaydaları hansı sahələri əhatə edir?
- Fərdi təhsilin planlaşdırılmasında mərhələlər hansıdır?
- Xüsusi ehtiyacı olan və təhsildən kənar qalan uşaqlarla işin həyata keçirilməsi hansı məqsədlər daşıyır?

**2. Fərdi təhsilin təşkilinə aid səhv (S) və düzgün (D) cavabları seçin.**

1. Uzun müddət təhsildən kənarda qalmış şəxslər üçün tətbiq edilən təhsil formasıdır;
2. Xüsusi istedadı ilə fərqləndirilən şagirdlərə verilən təqaüd formasıdır;
3. Ödənişli əsaslarla təşkil edilən xüsusi təhsil formasıdır;
4. İcbari təhsil formasıdır.

**3. İnklüziv sinfin düzgün açıqlamasını seçin.**

A) Yalnız mədəni fərqlərin daxil olunduğu sinifdir;
B) Fərqli fərdlərin daxil olunduğu sinif mühitidir;
C) Şagirdlərin müxtəlif potensialları az nəzərə alınır;
D) Eyni tədris proqramı əsasında aparılır.

**4. İnklüziv təhsilə yardım göstərən beynəlxalq təşkilatları seçin.**

A) Uşaq Hüquqları Konvensiyası və Birləşmiş Millətlər Təşkilatı;
B) İnsan Haqları Konvensiyası və Avropa Şurası;
C) Birləşmiş Millətlər Uşaq Fondu, Birləşmiş Millətlər Elm və Təhsil və Mədəniyyət Fondu;
D) Avropa İnsan Haqları Məhkəməsi və Avropa Birliyi.

# TƏLİM NƏTİCƏSİ 2

## TƏDRİS PROSESİNDƏ PEDAQOJİ-PSİXOLOJİ YANAŞMALARI TƏTBİQ ETMƏK

## 2.1. Şəxsiyyətyönümlü təhsilin prinsiplərini təcrübədə tətbiq edir

### 2.1.1. Şəxsiyyətyönümlü təhsilin əsasları

Müasir dövrdə təhsilin rolu və əhəmiyyəti daha fərqli baxışlara uyğun olaraq cəmiyyətin iqtisadi və sosial irəliləyişlərini tələb edir və əmək bazarında səriştəli mütəxəssislərə tələbatı artırır. Bu baxımdan müasir məktəb və onun ənənəvi sələfi arasında fərq onunla səciyyələnir ki, köhnə məktəbin hədəfləri yalnız biliklərin təməlinə və onun təqdim edilməsinə əsaslanır. Əsrin ilk onillikləri təhsildə özünəməxsus şəxsiyyətin xarakterini formalaşdıran motivlərin davamlılığı (Webb, 1915) ilə səciyyələndirilir. Bundan əlavə, şəxsiyyət və zəka, motivasiya və nailiyyət yönümlü əlaqələri əhatə edən problemlərin ortaya çıxarılması aktuallıq təşkil edir (Şəkil 2.1).



**Şəkil 2.1. Təhsildə şəxsiyyətyönümlü yanaşmanın öyrənilməsi**

Yeni məktəbin məqsədləri şagirdlərin həyatında arzu olunan dəyişikliklərin təməlinə söykənir və şəxsiyyəti dəyişdirən məqsədlərə xidmət edir. Maraqların və istedadların bölüşdürülməsi əvvəlki məlumat və biliklər üzərində yeni biliyin istehsalı önə çəkilir. Yeni biliklərin töhfə verməsi üçün ortaq bir təlim mühiti yaratmaqla yanaşı, eyni zamanda şagirdlərə öz nəticələrini izləmək imkanı yaradır. Bu baxımdan şəxsiyyətyönümlü təhsilə tələbat yaranır. Bu isə fərdin şəxsiyyəti, xarakteri, düşüncəsi, məkanı, bacarığı və vərdişləri ilə təhsilə bağlıdır. Şəxsiyyətyönümlü təhsilin məqsədləri aşağıdakı kimi xarakterizə olunur:

- Yeni bilik və bacarıqların təlim şəraitində daha səmərəli qazanılması;
- Yeni davranış, yanaşma və ya anlayışların əldə edilməsi;
- Fərdlər və qrupların qarşılıqlı əlaqəsi və yüksək səviyyəli səriştələrin aşkarlanması;
- Öyrənənlərin həyati bacarıqlarının inkişaf etdirilməsi ilə onlarda milli və bəşəri dəyərlərin formalaşdırılması;
- Fiziki, zehni, emosional-sosial və hərəki vərdişlərin inkişaf etdirilməsi.

Qeyd olunan bu məqsədlər ailə, cəmiyyət, dövlət, məktəb və müəllimin birgə fəaliyyəti üzrə dəyərlərin əldə edilməsi və şəxsiyyətin formalaşdırılmasına xidmət etməlidir (Sxem 2.1).




**Sxem 2.1. Şəxsiyyətyönümlü təhsilin yaradılmasının dəstək qrupları (UNESKO-2015)**

## 2.1.2. Şəxsiyyətyönümlü təhsilin psixoloji və pedaqoji prinsipləri

Şəxsiyyətyönümlü təhsilin prinsipləri müasir islahatların məktəbdə əmək bazarına daxil olma imkanlarını təmin etməlidir. Müasir təhsildə iqtisadi və sosial irəliləyişlər arasındakı əlaqənin yaradılması şəxsiyyətyönümlü təhsildə mərhələlər üzrə həyata keçirilir. UNESKO-nun 2015-ci il təhsil hesabatı üzrə müasir təhsilin mərhələləri aşağıdakı prinsiplər üzrə təyin edilmişdir (Şəkil 2.2):

1. Şəxsiyyətyönümlü təhsil – bilik almaq (learning TO KNOW) üçündür:




**Yaddaş** **Təsəvvür** **Səbəb** **Problemin həlli** **Tənqidi düşüncə**

**Şəkil 2.2. Şəxsiyyətyönümlü təhsildə biliyin qazanılması yolları**

Dünyanı kəşf etmək üçün şagirdlər yeni bilik və vasitələr əldə edir və tədqiqat prosesinə qoşulurlar. Bu mənada yaddaş, yeni düşüncə, axtarış səbəbi, problemin həlli, məntiqi və tənqidi düşünmə kimi səriştələr formalaşdırılır (Şəkil 2.2).

2. Şəxsiyyətyönümlü təhsil – *öyrənilənləri yerinə yetirmək* (learning TO DO) üçündür:



**Uyğunlaşmaq və dəyişmək** **Bacarıqlardan səriştəyə** **Təcrübədə tətbiq etmək**

**Şəkil 2.3. Şəxsiyyətyönümlü təhsildə biliyin tətbiqi yolları**

Ənənəvi təhsildən fərqli olaraq şəxsiyyətyönümlü təhsildə təkcə biliklər əldə olunması deyil, vacib tələblərdən biri də yeni şəraitə uyğunlaşma, qazanılan xırda bacarıqlardan səriştələr qazanma və təcrübədə onları tətbiq etmək tələb olunur (Şəkil 2.3).

3. Şəxsiyyətyönümlü təhsil - birgə yaşamaq üçün (learning TO LİVE) öyrənmək;



**Şüur və anlayışlı olmaq**



**Dəyərləndirmək**



**Əməkdaşlıq etmək**



**Konfliktləri həll etmək**

**Şəkil 2.4. Şəxsiyyətyönümlü təhsildə birgə yaşamağı öyrənmə yollar**

Müasir təhsil kimi şəxsiyyətyönümlü təhsilin ən vacib prinsiplərindən biri də şüurlu və anlayışlı olmaq, bir-birini dəyərləndirmək, əməkdaşlıq etmək və konfliktlərin həllində birgə qərar verməyi öyrənməkdir (Şəkil 2.4)

4. Həyatda şəxsiyyət kimi yetişmək və dəyərli bir insan olmaq (learning TO BE) prinsipi



**Virtual şəxs olmaq**



**Sosial rollarda öhdəlik və məsuliyyətli olmaq**



**Potensialını inkişaf etdirmək**

**Şəkil 2.5. Şəxsiyyətyönümlü təhsildə insan olma yolları**

Son mərhələ kimi, müasir şəxsiyyətyönümlü təhsildə cəmiyyət üçün hərtərəfli insan olmaq, qlobal aləmə daxil olmaq, həyatda şəxsi sosial rolunu müəyyən etmək və potensial gücü artırmaq, ömür boyu və davamlı öyrənməyə qoşulmaq tələb olunur (Şəkil 2.5). Qeyd olunan bu prinsiplər təhsildə, xüsusilə də, məktəblərdə psixoloji və pedaqoji baxımdan spesifik təlim prinsipləri ilə uyğunlaşdırılmalı və tədris kurikulumundakı kimi əks olunmalıdır.

Təlimin aşağıdakı psixoloji prinsipləri qeyd olunur:

1. Şagirdlərin zəka və qabiliyyət haqqında inancları və ya qavrayışları, onların idraki fəaliyyətləri və öyrənmələrinə təsir göstərilməsi;
2. Təlimdə ümumi inkişaf mərhələləri ilə məhdudlaşdırılmayan idraki inkişaf fəaliyyətinin öyrənilməsi;
3. Təlim prosesinin bir çox sosial kontekstdə təşkil edilməsi;
4. Kontekstə əsaslandırılan təlimdə öyrənmənin ümumiləşdirilməsi və

asanlaşdırılması;
5. Təcrübə əsasında uzunmüddətli bilik və bacarıqların əldə edilməsi;
6. Şagirdlərə aydın, izahlı və vaxtında cavab verilməsi üçün motivasiyanın yaradılması;
7. Şagirdlərin özünü tənzimləməsinə kömək edilməsi və özünə inamına nail olunması;
8. Şagird yaradıcılığının təşviq edilməsi və öyrənənlərin maraq və ehtiyaclarının nəzərə alınması;
9. Çətin tapşırıqlar qarşısında yaradıcılıq hədəflərini nəzərə alan fəaliyyətin göstərilməsi;
10. Şagirdlərin gözləntiləri nəzərə alınaraq təlim imkanları və təlim nəticələrinə təsirin göstərilməsi;
11. Fərdlərarası münasibətlər və ünsiyyət vasitəsilə şagirdlərin sosial-emosional inkişafına təsirin göstərilməsi;
12. Mənəvi rifah, təhsil fəaliyyəti, öyrənmə və inkişafa təsirin göstərilməsi;
13. Sinifdə sosial qarşılıqlı münasibətlər, davranış prinsipləri və effektiv sinif təlimlərindən istifadə edilərək öyrətmə;
14. Səmərəli sinif idarəçiliyi üzrə yüksək gözləntilərin təyin edilməsi və ünsiyyətin artırılması, ardıcıl müsbət münasibətlərin qurulması və şagird fəaliyyətinə yüksək səviyyədə dəstəyin verilməsi;
15. Formativ və summativ qiymətləndirmələrdən başqa, daha fərqli yanaşma və şərhlərə yer verilmək;
16. Şagirdlərin bilik və bacarıqlarının keyfiyyət standartlarına əsaslandırılan qiymətləndirmə ilə ən yaxşı şəkildə ölçülməsi;
17. Qiymətləndirmə prosesində şagirdlər və valideynlərin məlumatlarla təmin edilməsi.

Pedaqoji prinsiplərə aşağıdakılar daxildir:

Şəxsiyyətyönümlü təhsilin prinsipləri nəticəyönümlü, şagirdyönümlü, tələbəyönümlü, inkişafyönümlü, inteqrativ, innovativ və bərabərhüquqlu olmaqla təhsil prosesində öyrənənlərin imkanları aşağıdakı şəkildə istiqamətləndirilir (Şəkil 2.6):



**Şəkil 2.6. Təhsildə pedaqoji prinsiplər**

1. Təhsilin dövlət standartı və proqramının (kurikulum) təlim nəticələrinə uyğunluğu;
2. Təlimin məqsədyönlü, öyrədici, inkişafetdirici və tərbiyəvi xarakterə malik olması;

3. Öyrənənlərin potensial imkanlarını nəzərə alan və onların fəaliyyətinə əsaslandırılan təlim prosesinin təşkili;
4. Bərabərhüquqlu təlim imkanları, qarşılıqlı əməkdaşlıq və müsbət atmosferin yaradılması;
5. Təlimin inkişafyönümlü xarakterə malik olması və yeni biliyin yaradılması;
6. Təhsil və təlimdə müasir informasiya texnologiyalarının səmərəli tətbiq edilməsi;
7. Təlimdə inteqrativliyin tətbiqi və vahid dünyagörüşün formalaşdırılması;
8. Müasir qiymətləndirmə mexanizmlərinin tətbiqi və təhsilalanların bilik və bacarıqlarına qoyulan səviyyələrin dəyərləndirilməsi;
9. Təlimin yaradıcı fəaliyyətə istiqamətləndirilməsi və kreativ səriştələrin formalaşdırılması.

### 2.1.3. Şəxsiyyətyönümlü təhsilin prinsiplərinin təcrübədə tətbiqi yolları

Təlim nəticəsi və standartlar hər bir şagirdin bir tədris vahidinin sonunda, əvvəlcədən müəyyən edilmiş və sonda əldə edəcəyi səriştələrə necə nail olmasını açıq şəkildə ifadə edir. Təlim nəticələri, bilik, bacarıq və dəyərlərin şagirdlər tərəfindən əldə olunmasına əsaslandırılır və təlimin məzmunu əhatə edilir. Təlim nəticələri şagirdlərin potensial imkanları və maraqlarını ifadə edir. Bu məqsədlər üzrə müəllim həm təlimin mahiyyəti, həm də nəticələrin əldə olunması yollarını planlaşdırır və hər tədris vahidi üzrə nəticələri meyarlara uyğun tətbiq edir. Tədrisin məzmunu üzrə nəticələr:

- İstifadə olunan tədris strategiyaların səmərəliliyi təmin edilməli;
- Təlim fəaliyyəti və tapşırıqlar səriştələrin qazanılmasına xidmət etməli;
- Müvafiq qiymətləndirmənin aparılmasına imkan yaradılmalı;
- Yekun qiymətləndirmə elan edilməli.

Şagirdlər üçün təlim nəticələrinin toplusu aşağıdakıları təmin edir:

- Təlimdə şagirdləri özünüfəaliyyətə əsaslandırılmalı;
- Şagirdləri tədqiqatlara yönəltməli və onların qiymətləndirilməsinə kömək edilməli;
- Məktəb üzrə şagirdin əldə etdiyi nailiyyətləri birləşdirən ümumi səviyyə olmalı.
- Şəxsiyyətyönümlü təhsilin prinsiplərinə daha dərindən diqqət yetirilməli:

1. **Məqsədyönümlü - pedaqoji prosesin tamlığı** öyrədici, tərbiyəedici və inkişafetdirici prinsipinin təcrübədə tətbiqi. Bu prinsipin tətbiqi təlimin yeni biliklərin kəşfi və öyrəniləcək mövzuların öyrədici, tərbiyəedici və inkişafetdirici olması ilə izah olunur. Təlimin kompleks şəkildə tətbiqi onun müxtəlif səviyyələri və mərhələləri arasında davamlılıq prinsipini həyata keçirərək məqsədlər və fəaliyyətlərin qiymətləndirilməsini reallaşdırır.

2. **Öyrənənlərin potensial imkanları** prinsipi tədrisdə şagirdlərin maraq və tələbatlarının ödənilməsi onların istedad, qabiliyyət və potensial imkanlarının inkişafına yönəldilir. Təlim cütlər, qruplar və kollektiv şəkildə təşkil olunur,

qarşılıqlı əməkdaşlıq və nizam-intizam şəraitində formalaşdırılır və şagirdlərin fəaliyyətinə əsaslandırılan qaydalar üzrə tətbiq edilir (Şəkil 2.7):

- Şagirdlərə sərbəst şərait və seçim verilir;
- Təlimdə açıq suallardan istifadə edilir və aydın təlimatlarla təmin edilir;
- Qruplarda birgə əməkdaşlıqda layihə aparılmasına həvəsləndirilir;
- Reflektor fəaliyyətə həvəsləndirilir və fərdi şəkildə özünü təqdim edən tapşırıqlar hazırlanır;
- Öyrənənlər icma əsaslı fəaliyyətlər və təlimi-xidmət layihələrinə cəlb edilir.



**Şəkil 2.7. Öyrənənlərin potensial imkanları**

3. **Öyrənənlərin maraq və ehtiyaclarının nəzərə alınması prinsipi.** Təhsildə şagirdlərin iştirakı onların təlim zamanı mövzuların həyatla əlaqəsi, baş verən hadisələrə maraq, cəmiyyətin tələblərinə uyğun prioritet sahələrə göstərdikləri diqqət və marağın olmasıdır. Bu zaman şagirdlər təhsilalma bacarıqlarını təyin edir, təlimdə özləri üçün prioritet tapşırıqlar müəyyən edir, müxtəliflik yaratma yollarını öyrənir və dostları ilə birgə öyrənmək, müəllimlə birgə təlimin planlaşdırılmasında iştirak etmələrini özləri təmin edirlər. Bu prinsip onları təhsildə daha fəal öyrənmək, inkişaf etməyə motivasiya edir, yeni səylərin yaradılması və öyrənmə enerjinin artırılmasına gətirib çıxarır.

4. **Təlimdə yeni biliklərin istehsalı prinsipi.** İnkişaf etməkdə olan tədris prosesi fərdlərə diqqət yetirmək və öyrənənlərin fəaliyyətini fərqləndirmək üçün azad seçim şəraiti yaradır. Bu zaman şagirdlərin idrak fəallığı izlənilir, nailiyyətləri təhlil edilir və bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsi yeni formulların kəşf edilməsi ilə tənzimlənir. Alternativ olaraq təhsilalanların inkişafa meylliliyi onların müxtəlif layihələr, olimpiadalar və müsabiqələrdə iştirakı, gələcək karyeralarının təyin edilməsi və digər stimulverici fəaliyyəti nəzərdə tutur.

5. **İnklüziv təlim imkanları,** qarşılıqlı əməkdaşlıq və müsbət atmosferin yaradılması üçün bütün şagirdlərə eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanlarının nəzərə alınması ilə tənzimlənir. Təlim zamanı müəllim bütün fərqli öyrənənlərə fərdi yanaşma tərzi nümayiş etdirir və onları tapşırıqlarla təmin edir və müxtəlif bacarıqlar qazanılmasına şərait yaradır. Eyni zamanda təlimdə bərabər imkanlar məqsədlərə nail olunması üçün maneələrin aradan götürülməsi deməkdir. Bu xüsusiyyətlərə irqi, sosial-iqtisadi bərabərlik, cinsi, dini və gender müxtəlifliyi daxildir.

6. **Təhsil və təlimdə müasir informasiya texnologiyalarının səmərəli tətbiqi.** Tədris və təlim prosesinə bir sıra fəaliyyətlərdə informasiya və kommunikasiya texnologiyalarının sistemli şəkildə daxil edilməsi rəqəmsal təhsil məzmununu əks etdirir. Şəxsiyyətyönümlü təhsilin ən vacib prinsiplərindən olan informasiya-texnologiyalarının təlimdə tətbiqi üçün artırılan ehtiyacların təmin edilməsi müasir təlimin ən vacib tələbidir. Təlimdə İKT-nin tətbiqi daha yaxşı rəqəmsal bacarıqlar, müntəzəm inzibati vəzifələrə yardım etmə, effektiv tədris- təcrübənin modelləri və simulyasiyalarını təmin etməklə yanaşı, eyni zamanda qarşı tərəfi üzbəüz və ya məsafəli dəstək şəbəkələri ilə təmin edir.

İKT müəllim və şagirdləri məlumatlar əldə etmək, onları idarə etmək, manipulyasiya etmək, müstəqil və fəal öyrənməyə həvəsləndirir (Şəkil 2.8). Şagirdlərin problemləri uzaqdan öyrənmələri kimi özəl məsuliyyətə cəlb edilmələri üçün təlimdə İKT-nin rolu çox əhəmiyyətlidir.



**Şəkil 2.8. Təlimdə İKT-nin tətbiqi**

7. **Təlimdə inteqrativliyin tətbiqi və vahid dünyagörüşün formalaşdırılması.** İnteqrasiya bilik və bacarıqların sistemli olaraq ardıcıl inkişaf xətti, təlim nəticələri və standartların hər bir təhsil səviyyəsi üzrə dinamikasının izlənilməsi, inkişaf etdirilməsi və məzmun sahələrinin bir-birinə təsirinin nəticəsidir (Şəkil 2.9).

İnteqrasiya olunmuş dərslər şagirdlərə tədris sahələri arasında qarşılıqlı əlaqələri görmə imkanı verir. Müxtəlif tədris sahələri üzrə inteqrativ dərslər sinifdə birgə şəkildə əlaqəli bir mövzu ətrafında bacarıqların inkişafına əsaslandırılır. İnteqrasiyada öyrənənlər məhdudiyyətlər olmadan tədqiqat aparma istəklərini də təmin edir və mövzular haqqında məlumatları toplama, onları tədqiq etmə, dəqiqləşdirmə və təqdim etmə imkanı qazanır.



**Şəkil 2.9. Təlimdə İnteqrativliyin təminatı**

İnteqrativlik, eyni zamanda sintetik qabiliyyəti formalaşdırır. Sintetik qabiliyyət, adətən, yaradıcılıq kimi yeni və maraqlı fikirlər yaratma qabiliyyətidir. Bu zaman müəllim öyrənənlərlə müxtəlif obyektlər arasında sintetik düşündürücü əlaqələr yaradılmasına aid tapşırıqları reallaşdırır.

Analitik qabiliyyət, adətən, təlimdə yaradıcı fərdlər arasında tənqidi düşünmə

bacarıqları əsasında kəşf edilir. Burada öyrənənlər mövzu üzrə fikirləri təhlil edir, qiymətləndirir və yaradıcı ideyaların təsirlərini araşdırmaqda analitik bacarıqlardan istifadə edirlər.

Praktiki qabiliyyət - nəzəriyyəni praktika və mücərrəd fikirləri praktik nailiyyətlərə çevirmə qabiliyyətidir. Təlimdə praktik bacarıqlar təqdimatların hazırlanması, müzakirə və təcrübələrin tətbiqi ilə reallaşır. Praktik qabiliyyətdən potensial auditoriyaya malik ideyaların tanınması üçün də istifadə olunur.

Beləliklə, şəxsiyyətyönlü təhsil prinsiplərinin tətbiqi öyrənənlərin təlim nəticələri üzrə yeni bilik və bacarıqlar, onların maraq və ehtiyacları üzrə inkişafyönlü təlim prosesi, inteqrativlik, yaradıcı düşüncəni formalaşdıran və təlimi təkmilləşdirən qiymətləndirmə prosesini özündə əks etdirir.

## Tələbələr üçün fəaliyyətlər

1. Qrup işi. Müzakirə (20 dəqiqə)

Üç qrupa bölünərək şəxsiyyətyönümlü təhsilin əsas məqsədləri və prinsipləri üzrə təqdim edilmiş fəaliyyət nümunələri ilə tanış olun və sualları müzakirə edin.

2. Karusel üsulu. Verilmiş cədvəldə təhsilin məqsədləri üzrə fəaliyyətləri qruplar arasında ötürərək bir-bir qeyd edin və təqdim edin.

| Bilik almaq | Biliyi tətbiq etmək | Birgə yaşamaq | Səriştəli olmaq |
|---|---|---|---|
| 1.<br>2.<br>3. | 1.<br>2.<br>3. | 1.<br>2.<br>3. | 1.<br>2.<br>3. |

3. Qrup işi. Təqdim edilmiş cədvəl üzrə əsas fikirləri qeyd edin:

| | Xüsusiyyətlər | Problemlər | Strategiyalar |
|---|---|---|---|
| Məqsədyönlü təlim | | | |
| Şagird fəaliyyətli təlim | | | |
| İnteqrativ təlim | | | |
| Kreativ təlim | | | |

4. Təqdim olunmuş situasiya ilə tanış olun və situasiyadakı problemin həllinə uyğun rollu oyun nümayiş etdirin

| |
|---|
| Rollu oyun:<br>Müəllim: İki şagird ayrı-ayrı masalarda çalışırlar. Bir şagird kiçik dağıdıcı davranışla məşğuldur və digər şagird sərbəst şəkildə tapşırıq üzərində çalışır. Müəllim çətin və pozucu davranışı olan şagirdə yox, digər məşğul şagirdə daha çox pozitiv münasibət göstərir.<br>Məsləhətçi: Çətin davranışı olan şagirdi təlimə cəlb etmək üçün təkliflərinizi hazırlayın və öz rolunuzu nümayiş etdirin. |

5. Ənənəvi və müasir təhsilin prinsiplərini Venn diaqramında müqayisə edin (15 dəqiqə):



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**"Şəxsiyyətyönümlü təhsilin prinsiplərini təcrübədə tətbiq edir"**

1. Verilmiş sualları yazılı formada cavablandırın və təqdim edin:

- Təlim nəticələrinin müəyyən edilməsi hansı meyarlara əsaslandırılır?
- Şəxsiyyətyönümlü prinsiplərin əsas vacib sahələri hansıdır?
- Məqsədyönlü prinsiplər təlimdə hansı dəyişikliklər yaradır?
- Öyrənənlərin maraq və ehtiyacları hansı yollarla təyin edilir?
- İnkişafyönümlü təlimi necə tətbiq etmək olar?
- Qiymətləndirmə növlərinin tətbiqi təhsilalanlarda hansı səriştələr formalaşdırır?
- Kreativlik təlimdə necə tətbiq olunur və hansı sahələri inkişaf etdirir?

2. Verilmiş cavablarda şəxsiyyətyönümlü təhsilin prinsiplərini düzgün seçin. Bir mövzu ətrafında müxtəlif bacarıqların qarşılıqlı əlaqəsi hansı prinsipin tətbiqini əks etdirir?

A) Maraq və tələblərin nəzərə alınması;
B) İnteqrativliyin tətbiq olunması;
C) İnkişafyönlü məqsədlərin müəyyən edilməsi;
D) Təlim nəticələrinin əldə olunması.

3. Özünüqiymətləndirmə

1. Təhsilin və təlimin prinsipləri anlayışı nə deməkdir?
2. Şəxsiyyətyönümlü təlim prinsiplərini beş əsas məqsəd üzrə müəyyən edin:
   **(S)** Spesifik (kim, nə, harada, nə vaxt, nə üçün)..........................................................
   **(M)** Ölçülə bilən (nə qədər və necə)..........................................................................
   **(A)** Əldə oluna bilən cəhəti (qazanılan uğur)...............................................................
   **(R)** Real cəhəti (əlçatan və uyğun)..............................................................................
   **(T)** Vaxtında tətbiq olunma (müəyyən edilən müddətdə)..............................................

## 2.2. Tədris prosesini təhsilalanların yaş, fizioloji və psixoloji xüsusiyyətlərinə və potensial imkanlarına uyğun təşkil edir

### 2.2.1. Tədris prosesinin pedaqoji-psixoloji xüsusiyyətləri

Müasir təlim prosesində məqsədəuyğun şəkildə təhsilalanların yaş, fizioloji, psixoloji, fərdi xüsusiyyətləri, potensial imkanları nəzərə alınaraq sürətlə dəyişən dünyada gedən proseslərin izlənməsi, həyatda baş verən problem və inkişaf tendensiyalarının başa düşülməsi, habelə, qiymətləndirilməsi üçün təmin edilir. Təlimdə təhsilalanların yaş, fizioloji və psixoloji xüsusiyyətlərinin nəzərə alınması həmçinin, öyrənənlərin maraq və ehtiyaclarını qarşılayır. (Şəkil 2.10).

Erkən yetkinlik uşaqlıq və yeniyetməlik dövrü arasında yerləşdirilən böyümə və inkişafın fərqli bir dövrüdür. Həyatın bu əlamətdar mərhələsində 10-15 yaşlarında gənc yeniyetmələr sürətli və əhəmiyyətli inkişaf dəyişikliyi yaşayırlar. Gənc yeniyetmələrin bənzərsiz inkişaf xüsusiyyətlərini başa düşmək və onlara cavab vermək orta səviyyəli təhsildə əsas yer tutur. Əgər uşağın tələblərində yaş dəyişiklikləri və fərdi keyfiyyətlər nəzərə alınmazsa, o zaman onun davranışı düzgün formalaşdırıla bilməz. Uşaq özünə hörmətini itirmədən uğursuzluq və ya məyusluqla necə davranacağını öyrənməlidir. İnsanın düzgün davranışı daha çox kollektivdə və birgə əməkdaşlıqda tez formalaşdırılır. Təlimdə şagirdlərin yaş, psixoloji və fizioloji xüsusiyyətlərinin öyrənilməsinin əsas məqsədləri aşağıdakılardır:



**Şəkil 2.10. Şagirdlərin psixoloji və fizioloji xüsusiyyətləri**

- Şagirdlərin yaşının onların fiziki və psixoloji inkişafı ilə əlaqələndirilməsi;
- Öyrənənlərin fiziki sağlamlığına xidmət edən səmərəli təlim şəraitinin qurulması;
- Qazanılan bilik, bacarıq, vərdişlər, münasibətlər, maraq və digər şəxsi xüsusiyyətlərin öyrənilməsi;
- Şəxsi potensialın üzə çıxarılması və psixoloji dəstəyin artırılması.

### 2.2.2. Təhsilalanların yaş, fizioloji və psixoloji xüsusiyyətləri

Yaş xüsusiyyətlərinin nəzərə alınması – şəxsiyyətin inkişafında ən vacib pedaqoji prinsiplərdən biri hesab edilir. Alman dilçisi E. Lennenberq (Şəkil 2.11) kritik hipoteza nəzəriyyəsində qeyd edir ki, fizioloji xüsusiyyətlər bir insanın fiziki funksiyalarına aiddir. Onların danışma orqanları və beyinləri daha çevikdir, tələffüz və intonasiya ilə danışmaq

daha asandır (Lenneberg, Penfield & Roberts, 1960). O, şəxsiyyətin fizioloji xarakterini kritik hipotez nəzəriyyəsinə əsasən təsvir edərək qeyd edir ki, kritik yaşa çatmamış uşaqlar fiziki və bioloji cəhətdən yetişməmiş və böyüklər ilə müqayisədə nevroloji üstünlüklərə malikdirlər.



**Şəkil 2.11. E.Lenneberq, alman dilçi alimi**

Tədris prosesində təhsilalanların psixoloji xüsusiyyətləri onların yaş və fizioloji inkişafına uyğun zehni proses- zehni funksiyanın yerinə yetirilməsi ilə şərtləndirilir. Bunlar qavrayış, yaddaş, düşüncə, təsəvvür, inam, düşünmə, iradə və duyğularda yaradılan dəyişiklərlə əlaqədardır. Buna uyğun olaraq şagirdlərin öyrənmə davranışı əvvəlki davranışdan təsirlənən bir dəyişikliklərin yaranması ilə izah olunur. Digər tərəfdən, yetkinlər danışma orqanlarında daha az çevik və daha çox məhduddur.

### Akselerasiya və deselerasiyanın fiziki inkişafda rolu

Öyrənənlərin yaş və fizioloji inkişafında akselerasiya və deselerasiya kimi mühüm hadisələr nəzərə alınmalıdır. Akselerasiya (latın dilində "Akselerasio" sürətlənmə deməkdir) – uşaq və yeniyetmə yaşında fiziki və psixi inkişafın sürətləndirilməsi, deselerasiya isə nitqin inkişafının azaldılması deməkdir (Şəkil 2.12).



**Şəkil 2.12. Fizioloji inkişafda akselerasiya və deselerasiya elmi**

Akselerasiya və deselerasiyanı bioloqlar orqanizmin fizioloji yetişdirilməsi, psixoloqlar, psixoloji funksiyaların inkişafı, müəllimlər isə şəxsiyyətin mənəvi inkişafı və sosializasiyası ilə bağlayırlar. Akselerasiya nə qədər fiziki inkişafın sürətli tempi ilə assosiasiya olunursa, o qədər də orqanizm və şəxsiyyətin sosializasiyasının fizioloji proseslərin uzlaşdırılması ilə də assosiasiya olunur və deselerasiyanın baş verməsi, yəni ünsiyyətin azaldılması ilə nəticələndirilir. Orqanizm və bədən psixi funksiyalar yetişdirilməsindən daha tez inkişaf edir ki, burada başlıca cəhət intellektual, sosial və mənəvi keyfiyyətlərdir.

On üç-on beş yaşlarda olan qızlar və on dörd-on altı yaşlarda olan oğlanlarda orqanizmin, əsasən, fizioloji inkişafı başa çatır və onlar artıq yetkinləşirlər. İnkişaf etmiş

orqanizmin yaş xüsusiyyəti onun fizioloji tələbləri və sosial inkişafından geri qalır və inkişafda olan fizioloji tərəflər ziddiyyətlə üzləşir. Bu zaman yeniyetmələr fizioloji yüklənməyə davam gətirə bilmir və bu halda psixoloji gərginlik yaşayır və deselerasiyaya uğrayır. Çox vaxt axtarıb tapdığı yol onun möhkəmləndirilmiş təfəkkürünə uyğun gəlmir və davranışda xeyli çətinliklər yaradır. Bu baxımdan təlimdə yaş xüsusiyyətləri fiziki, sosial, emosional və intellektual səviyyə olmaqla tətbiq edilir.

**Yaş xüsusiyyətləri üzrə şagirdlərin inkişaf dinamikası: Nümunə olaraq (12-15 yaş)**

Fiziki xarakter:

- Hər iki cinslər arasında cinsi yetkinlik və böyümə nümunələrinin genişliyi əks olunur;
- Fiziki görünüşdə sürətli dəyişikliklər baş verir.

Sosial xarakter:

- Qarşı tərəflə birgə vaxt keçirilməsində maraqlı olma;
- Valideynlərdən çox digər cütlüklər axtarılır;
- Təkliflər daha tez qəbul edilir və güvənilir;
- Böyüklərdən gələn hazır qərarlardan imtina edilir və şəxsi fikirlərə üstünlük verilir;
- Şəxsi səlahiyyətlər və ailə dəyərləri haqqında suallar verilir.

Emosional xarakter:

- Həmişə şəxsi fikirlər ilə mərkəzdə olma istənilir;
- Bəzən fiziki görünüşlərindən utanırlar;
- Valideyn fikirlərini şəxsi fikirlərdən uzaqlaşırlar;
- Müstəqil olmağa çalışsalar da, valideynlərin köməyinə ehtiyac duyulur (Şəkil 2.13).



**Şəkil 2.13. Fiziki, sosial və emosional xarakterlər**

İntellektual inkişaf:

- Hadisələr haqqında abstrakt düşünülür və fərziyyələr irəli sürülür;
- Hadisələrin səbəb və təsirindən istifadə edilərək şəxsi bacarıqlar inkişaf etdirilir;
- Nəticələr təsəvvür edilir və fərziyyələrə meyillilik yaradılır.

Qeyd olunan fikirlər şagirdlərin yaş xüsusiyyətləri üzrə onların emosional zəka inkişafının psixoloji rifahının yüksəldilməsinə səbəb olduğunu təsdiq edir (Sxem 2.2):




**Sxem 2.2. Emosional zəkanın psixoloji rifahın yüksəldilməsinə təsiri yolları**

Orta məktəbdə yeniyetmələrin emosional xüsusiyyətləri:

- Yetkinliyə "Fırtına və stress" dövrü kimi baxış şişirdilir;
- Buna baxmayaraq, bəzi şagirdlər narahatlıq, özünə aşağı hörmət və depressiya ilə qarşılaşır;
- Orta məktəb şagirdləri eqosentrik düşüncənin davamlı təsiri nəticəsində tez-tez özünü dərk edən və özünə meylli insanlardır.

Orta məktəbdə yeniyetmələrin idrak xüsusiyyətləri:

- Orta məktəb şagirdləri açıq, dəstəkləyən və intellektual cəhətdən stimullaşdırılan bir sinif mühitinə ehtiyac duyurlar;
- Şəxsi effektivlik intellektual və sosial davranışa mühüm təsir göstərir.

Orta məktəbdə yeniyetmələrin fiziki xüsusiyyətləri:

- Şagirdlərin əksəriyyəti fiziki yetkinlik yaşında daha emosional olur;
- Bir çox gənc cinsi əlaqəyə meylli olur, lakin bu tendensiya xarakteri daşımamalıdır;
- Yeniyetmələr üçün erkən evlilik qəbuledilməz dərəcədədir və xəstəliklərin nisbəti orta məktəb şagirdləri üçün də yüksəkdir.

Orta məktəbdə yeniyetmələrin sosial xüsusiyyətləri:

- Valideyn və digər böyüklər uzun məsafəli planlara təsir göstərə bilərlər;
- Həmyaşıdların dərhal vəziyyətinə təsir göstərilə bilər;

- Qızlar oğlanlara nisbətən dostluq mövzusunda daha çox narahatlıq keçirirlər;
- Dərsdən sonra öz arzusu ilə əməyə və işləməyə cəlb olunur;
- Bir çox orta məktəb şagirdi məktəbdən sonra işə qəbul olunur;

Orta məktəbdə yeniyetmələrin intellektual xüsusiyyətləri:

- Bir çox psixiatrik pozğunluq ya yetkinlik dövründə görünür və ya aşkar olunur;
- Yetkinlik dövründə ən çox yayılmış emosional pozğunluq depressiyadır;
- Depressiya şiddətlənərsə, o zaman intihar barədə düşünülə bilər.

**Tədrisin fərdi potensial imkanlarına uyğun təşkili**

Düzgün qurulan təlim prosesində şagirdlərin potensial imkanlarından maksimum istifadə edilərək onların fəaliyyəti stimullaşdırılır, təşkil edilir və tənzimlənir, bununla da uşaqların inkişafına səmərəli təsir göstərilir. Tədris prosesində bu fəaliyyət aşağıdakı qaydada təşkil edilir (Şəkil 2.14):



**Şəkil 2.14. Təlimdə fərdi potensialın nəzərə alınması**

1. Əvvəlcə şagirdləri səmərəli təlimə cəlb etmək üçün müəllimlər fərqli öyrənmə hədəfləri və ya məqsədlərini müəyyən etməlidirlər. Şagirdlərə dərsin məqsəd və vəzifələrini bilmə imkanı verilir ki, nəticələr nail olma yolları və vasitələri haqqında onlar daha yaxşı qərarlar qəbul etsinlər;

1. Müəllim şagirdlərin maraqlarına uyğun təlimdə yeni yanaşmalar və tədris strategiyalarını seçməli və aydın təlim hədəfləri təyin etməlidir. Müəllim şagirdlərə yeni biliklərlə əvvəlkilər arasındakı əlaqələri görmək, düşüncələr tətbiq etmək və nəticə etibarilə tənqidi və yaradıcı düşünməyə kömək edə bilər;
2. Sinif otağının müxtəlif formalarda (qruplaşdırma, tam sinif və oturma tərzləri kimi dəyişikliklər) olması qrup və cütlər şəklində iş, kollektiv müzakirə və fərdi işlərin təşkili tədris strategiyalarının təmin edilməsini asanlaşdırır;
3. Müəllim qabaqcadan təcrübəyə əsasən bilməlidir ki, təlimin idarə olunmasında dərslər və fəaliyyətlərin planlaşması, müəllimin şagirdlə qarşılıqlı əlaqəsi, öyrənmə və tədris resursları, effektiv öyrənmə və tədrisə təsir göstərən digər amillər olmadan avtomatik olaraq istənilən nəticəyə gəlmək mümkün deyil;
4. Şagirdlərin fərqli öyrənmə üslubları (vizual, auditor və hərəki) ilə bağlı ehtiyaclarının həll edilməsi üçün müəllimlər audio, vizual, şəkil, qrafika, mətnlər və digər öyrənmə materiallarının istifadə edilməsinə təşviq olunur;
5. Müəllimlər sorğu aparmaqla öyrənənlərə ilkin biliklərini müəyyən etmək və yeni düşüncə qabiliyyətlərini inkişaf etdirməyə imkan yaratmalıdırlar. Onlar şagirdlərə

özlərini açıq şəkildə ifadə etmək, kooperativ öyrənmə yolu ilə öz işlərini sinifdə bölüşmək və özünə inamını artırmağa təşviq edə bilərlər;

6. Müəllimlər şagirdlərin potensial imkanlarından istifadə etmələri və daha geniş biliklər əldə etmələri üçün onların cəmiyyətin digər üzvləri və icma ilə əlaqələri və sinifdənxaric fəaliyyətini genişləndirməlidirlər;
7. Müəllim şagirdləri tədris prosesində fəaliyyətlərin qiymətləndirilməsi üzrə formal rəylərlə (feedback) təmin edə bilərlər. Rəylər onların güclü və zəif tərəflərini müəyyən etmək və onların təlim fəaliyyətini daha da yaxşılaşdırmaq üçün növbəti mərhələdə nə edəcəkləri barədə məlumat verməlidir. Verilən rəylər şagirdlərin özlərinə olan hörmətini artırmalıdır.

## Tələbələr üçün fəaliyyətlər

1. Qrup işi. Müzakirə (20 dəqiqə). 3 qrupa bölünərək tədrisin pedaqoji-psixoloji xüsusiyyətləri üzrə sahələr və mövcud problemləri flipçatlarda müəyyən edin. Səbəb və nəticə modeli üzrə bu problemlərin baş vermə səbəbləri və nəticələrini müzakirə edin. Problemlərin həlli yollarını təklif edin.

2. Verilmiş cədvəl üzrə tapşırığı yerinə yetirin:

| Sahələr | Problemlər | Səbəb | Nəticə | Problemin həlli |
|---|---|---|---|---|
| Yaş | | | | |
| Fizioloji | | | | |
| Emosional zəka | | | | |
| Psixoloji rifah | | | | |

3. Qrup işi. Akselerasiya və deselerasiyanın arasında baş verən fizioloji və psixoloji hadisələr, onların baş vermə səbəbləri, üstün və qeyri-üstün cəhətləri və təlimə təsirini qruplar şəklində müzakirə edin və təqdim edin.

Akselerasiya → Deselerasiya

Fiziki-psixolji hallar

Təlimə təsiri

4. Təqdim olunan hər bir yaş dövründə baş verən fiziki, sosial, emosional və intellektual inkişaf xüsusiyyətlərini verilmiş situasiyalar üzrə təqdim edin:

| | 11-14 yaş | 15-18 yaş |
|---|---|---|
| Fiziki | | |
| Sosial | | |
| Emosional | | |
| İntellektual | | |

5. Tədris prosesində şagirdlərin fərdi imkanlarını nəzərə alan elementləri açıqlayın.
   - Məzmun;
   - Strategiya;
   - Təlimin təşkili;
   - Təlim fəaliyyətləri;
   - Qiymətləndirmə.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**“Tədris prosesini təhsilalanların yaş, fizioloji və psixoloji xüsusiyyətlərinə və potensial imkanlarına uyğun təşkil edir”**

1. Qrup işi. Sualları müzakirə edin və cavablandırın:

- Təlim prosesində yaş xüsusiyyətləri necə nəzər alınmalıdır?
- Şagirdlərin fizioloji inkişafı onların psixoloji vəziyyətinə necə təsir edir?
- Akselerasiya müasir dövrdə elmdə nə ilə nəticələndirilir?
- Yaş həddi üzrə psixoloji inkişaf halları ailə, cəmiyyət və təhsildə necə əks olunur?
- Təlimdə fərdi imkanların məzmunu, strategiyası, təşkili və qiymətləndirilməsi necə həyata keçirilir?

2. Verilmiş fikirlər üzrə Səhv (S) və Düzgün (D) cavabları qeyd edin:

| | | |
|---|---|---|
| 1. | Şagirdlərin yaş xüsusiyyətləri onların psixoloji inkişafında özünü əks etdirmir. | |
| 2. | Öyrənənlərin bioloji və fizioloji inkişafı tədrisdə tədrisin keyfiyyətində dəyişiklər yaradır. | |
| 3. | Tədris proqramı öyrənənlərin yaş, fizioloji və psixoloji tələblərinə yox, fərdi imkanlarına görə tərtib edilir. | |
| 4. | Bütün təhsil səviyyələri üzrə təlim nəticələri və standartlar şagirdlərin psixoloji inkişafına təsir edir. | |
| 5. | Akselerasiya və deselerasiya hadisəsi şagirdlərin daha çox informasiya əldə etmələrini sürətləndirir. | |
| 6. | Şagirdlərin valideynlərinin fikirlərini özlərindən uzaqlaşdırmaları onların emosional xarakterini əks etdirir. | |
| 7. | Təlimin təşkili öyrənənlərin fərdi potensial imkanlarını nəzərə almalıdır. | |
| 8. | Fənnin tədrisində şagirdlərin öyrənmə üslubları eyni xarakter daşıyır. | |
| 9. | Tədris prosesində əvvəlki biliklərin yeniləri ilə əlaqələndirilməsi yaradıcı fikir formalaşdırır. | |
| 10. | Təhsilalanların fəaliyyətlərinə rəylərin verilməsi onların növbəti inkişafını təmin edir. | |

3. Verilmiş pedaqoji-psixoloji xüsusiyyətlərin reytinq səviyyəsini müəyyən edin və səbəbini izah edin:

| № | Xüsusiyyətlər | Çox mühümdür | Mühümdür | Az mühümdür | Mühüm deyil |
|---|---|---|---|---|---|
| 1. | Yaş | | | | |
| 2. | Fizioloji | | | | |
| 3. | Psixoloji | | | | |
| 4. | Fərdi imkanlar | | | | |

## 2.3. Təhsilalanların motivasiyasını yüksəltmək üçün müsbət psixoloji təlim mühiti yaradır

### 2.3.1. Təlimdə motivasiyanın rolu

Motivasiya hərəkəti tamamlamağa gətirib çıxaran daxili bir impulsdur və uzun müddət ərzində müsbət davranışı enerjiyə yönəldir, idarə edir və davam etdirir. Təlimdə motivasiyanın rolu təlim nəticələrinin əldə olunmasında ən faydalı üsul hesab edilir. Təlimdə motivasiyanın olması arzu olunan məqsədlərin reallaşdırılmasında aktiv bir prosesdir (Şəkil 2.15).




**Şəkil 2.15. Təlimdə motivasiyanın rolu**

Təlim məqsədlərinə uyğun fəaliyyətləri davranışlarda daha effektli nümayiş etdirmək üçün motivasiya enerji verən, yönəldən və davam etdirən bir strategiya üsuludur.

Təlim mühiti müsbət və ya mənfi, səmərəli və ya səmərəsiz ola bilər. Təlimdə müsbət psixoloji mühitin yaradılması üçün motivasiya güclü və yararlı bir vasitə hesab edilir.

Motivasiya hansı bir fəaliyyətin mexanizmini işə salan sövqedici qüvvədir. Bu baxımdan motivasiya 2 əsas prinsip əsasında qurulur:

- Problemlilik;
- Məqsədyönlülük.

Problemlilik baxımından motivasiya təlimdə baş verən narahatlıqların nəzər alınması və mənfi çalarların aradan götürülməsinə xidmət edir.

Məqsədyönlülük prinsipinə uyğun motivasiyanın yüksəldilməsi aşağıdakılardır:

- Müsbət təlim mühitinin təminatı üçün təlimin düzgün planlaşdırılması;
- Təlimdə bütün öyrənənlərin qüvvələrinin nəzərə alınması;
- Aydın və maraqlara uyğun təlim tapşırıqlarının hazırlanması;
- Fərdi və qrup fəaliyyətlərinin dəyərləndirilməsi;
- Şagirdlərlə mənalı və hörmətli münasibətlərin inkişaf etdirilməsi;
- Psixoloji problem və çətinliklərin öz həllini tapması.



**Şəkil 2.16. Zoltan Dörneyi, dilçi-psixoloq**

### 2.3.2. Motivasiyanın yüksəldilməsi yolları

Macar dilçi alimi Z. Dörneyi (Şəkil 2.16) öz tədqiqatlarında qeyd edir ki, təlimdə dəyişiklik yaradan proseslərin sıralanması

motivasiyanın gücü sayəsində baş verir və bu proseslərin səviyyəsini üç əsas komponentin bir-birindən fərqləndirilməsi ilə ölçülür:

1. Təlimin təşkilində tədris planı, tədris materialları, metodu və təlim məqsədləri xüsusi motivasiya komponentlərinin olması;
2. Müəllimin şəxsiyyətinə, tədris tərzinə, rəyinə və öyrənənlərin əlaqələrinə aid xüsusi motivasiya komponentlərinin olması;
3. Öyrənənlərin dinamikası ilə bağlı sinfin xüsusi motivasiya komponentlərinin olması.

Sinifdə motivasiyanı təsvir etmək üçün dörd əsas amili olan - maraq, uyğunluq, gözləntilər və məmnunluğa nail olmaq lazımdır. Bunun üçün hər şeydən əvvəl dərsdə müəllimin öz gözləntilərini müəyyən etmə, xarici və daxili motivasiyanın növləri, tətbiqi yolları, təlimdə idraki prosesləri izləmə, narahatlıq yaradan sahələri araşdırma və nailiyyətə gedən yolu tapma bacarığı olmalıdır (Sxem 2.3).




**Sxem 2.3 Təlimdə müsbət psixolji mühitin yaradılması yolları (Z. Dorneyi, 2012)**

**Daxili motivasiya** təlimdə yaradılır və tapşırıqların yerinə yetirilməsində şagirdləri dəyərləndirmə, fərqli işlər haqqında rəy yazma və rəhbərlik tərəfindən “Həftə və ayın ən yaxşı şagirdi” adına layiq görmə üsulu kimi tətbiq edilir. Mükafatlandırmada müsbət davranış möhkəmləndirilir və şagirdlər dərsin sonunda öyrənmə arzusunu özündə birləşdirirlər.

**Xarici motivasiya** məktəb tərəfindən şagirdlərin nəticələrinə görə müəyyən edilir. Tədrisi, davranışı, ünsiyyəti və yaradıcı fəaliyyətinə görə bir mükafat proqramı kimi xarici ölkəyə səyahət, əlavə bonuslar və tərifnamələrin verilməsi və digər motivasiya nümunələri tətbiq edilir.

**Müəllimlər** motivasiyanın yaradılmasında məqsədləri nəzərə almalı və onun əhəmiyyətini başa düşməlidirlər. Təcrübəli müəllim motivasiya xarakterli təşəbbüslərin irəli sürülməsini çox vacib hesab edir. Təşəbbüsün əsas məqsədi stimullaşdırmaq və öyrənmə fəaliyyətini asanlaşdırmaqdır. Şagirdlərin motivasiya edilməsi üçün bir sıra aşağıdakı strategiyalar tətbiq edilir:




**Şəkil 2.17. Təlimdə motivasiyanın yaradılması yolları**

- Öyrənənlərin maraqları üzrə sorğu keçirmək (hobbilər, kitablar, filmlər və

idman);
- Şagirdləri yaxından tanımaq;
- Sərbəst nümunələrdən istifadə etmək;
- Müxtəlif şagird fəallığını təmin edən təlim fəaliyyətlərini tətbiq etmək;
- Düzgün performans hədəflərini təyin etmək;
- Şagirdləri öz məqsədlərini təyin etməyə həvəsləndirmək (Şəkil 2.17).

**İdraki prosesin** izlənilməsi motivasiyada davranışın düşüncə ilə təyin olunması ilə müşahidə olunur. Sosial idrak nəzəriyyəsi öyrənənlərin inanc və gözləntilərini nəzərdən keçirir, təlimə həvəsləndirmə və bəzən cəzalar öyrənənlərin motivasiyasına təsir edir və birbaşa davranışlara səbəb olur. Bəzən ailə və cəmiyyətdə gedən hadisələrin davranışlara təsiri təlimdə daha tez üzə çıxarır. Bu məqsədlə üzə çıxarılan mənfi təsirlərin aradan qaldırılması üçün təlimdə şagird gözləntilərinə cavab verən fəaliyyətlər tətbiq edilir, bu zaman onlar fəal və təlimə maraqlı olur, problemin həllində dərsin planı, məqsədləri, sxemlərə və digər atributlarına uyğun təşəbbüs göstərir, azad fikirli və inamlı olurlar. Müəllimin idrak fəallığının izlənilməsi şagirdlərdə özünəgüvən və qərar qəbulunda sərbəst olmanı formalaşdırır.

**Narahatlıq və nailiyyətlərin** müəyyən edilməsi motivasiyada gözlənilən cəhətlərdir. Burada narahatlığı yaradan səbəbləri kəşf etmək və şagirdlərin böyük qrupların qarşısında çıxış etmələri üsullarını bilmək faydalı olur:
- Tapşırıqların qeyri-müəyyən tərtib edilməsi;
- Fənlər üzrə ağır yüklü çalışmaların olması;
- Vaxtın azlığı və prakitiki işin zəif olması;
- Yaradıcı işə az vaxt verilməsi.

Buna uyğun olaraq təlimin təşkilində gərginliyini azaltmaq üçün buzqıranlardan istifadə etmək, fəallığı artıran tapşırıqlar hazırlamaq, təlimatları aydın izah etmək, daha çox kommunikativ çalışmalar hazırlamaq, müxtəlif stimullaşdırıcı vasitələrdən istifadə etmək şagirdləri təlimə daha tez motivə edir. Şagirdlərin özünü tənzimləməsi, imtahan sualları və testlərinə uyğun alternativ nümunələr hazırlamaq, təlimdə musiqi, simvol, şəkillərdən istifadə və audio-video nümunələrinin nümayişi, nailiyyətlərin əldə olunmasında özünə güvənin yaradılması motivasiyanın təmin olunmasında ən səmərəli tətbiq üsullarıdır.

### 2.3.3. Motivasiyanın yaradılması yolları

Robert Marzanoya görə, (Şəkil 2.18), "Müəllim və şagirdlər arasındakı müsbət əlaqələr üçün təlimdə təsirli dəyişikliklərə istinad edir. Qarşılıqlı münasibət güclüdürsə, təlim strategiyaları bir o qədər təsirli görünür". O, şagirdlərin etimadını qazanmaq və onlar üçün mənalı olanları öyrənməyin çox səmərəli yollarını təklif edir:



**Şəkil 2.18. Robert Morzano, dilçi-alim**

1. **Şagirdlərə ən çox nəyi qiymətləndirdiklərini göstərmə imkanı vermək.** Doğru şəkildə təsvir olunan sənət layihəsində şagirdlər özləri siluetlərini kəsib maraqları və vacib təcrübələrini təmsil etmək üçün onu simvollarla bəzəyirlər. Bu, dərs ilinin başlanğıcında şagirdlərin həyatı ilə bağlı faydalı məlumatların əldə edilməsi üçün istifadə oluna biləcək əyləncəli bir üsuldur. Bir nümunəni müəllim özü etməlidir ki, şagirdlər da onun haqqında məlumat əldə edə bilsinlər.
2. **Şagirdlər haqqında dəqiq məlumatlar toplayaraq daha yaxşı qərar vermək.** Şagirdlər haqqında məlumatları onlayn şəkildə tərtib etmək, onların maraqlarına uyğun sinif layihələri hazırlamaq və qiymətləndirmələr aparmaq lazımdır. Şagirdləri şəxsi yaradıcılıq layihələrinin həyata keçirilməsinə həvəsləndirmək, şəxsi məktəb proqramlarına beynəlxalq layihələr daxil etmə yollarını inkişaf etdirmək və layihələrdə fəal iştirak etmə imkanı qazandırmaq lazımdır.
3. **Şagirdlərdən gözləntilərini soruşmaq və onlara cavab vermək.** Hörmət qazanılması üçün şagirdlərə səmimi maraq göstərildikdə onlar əllərindən gələni etməyə hazır olacaqlar. Əllərindən gələni etmək üçün şagirdlərə müəllimin vacib bir faktor olmasını sübut etmək lazımdır.
4. **Şagirdlərə öyrənmək istədikləri seçimləri vermək.** Yəqin ki, şagirdlərin öz öyrənmə mövzularını seçmələrinə icazə vermək çətin deyil. Bir çox hallarda müəllim şagirdlərinə öz seçim fəaliyyətlərini onların fərdi seçimlərinə uyğunlaşdırmağa imkan verir.
5. **Şagirdlərlə özünüqiymətləndirmənin aparılmasını təşkil etmək.** Şagirdlərdən necə öyrənmələrini dəlillər əsasında əldə etmək çox faydalı olur və onlar öz təlim fəaliyyətlərindən necə faydalandıqları, gözləntiləri, zəif və üstün cəhətlərini təqdim edirlər. Özünüqiymətləndirmə öyrənmə nümayiş etdirməyin yollarının təklif edilməsi üçün istifadə olunan ən səmərəli vasitədir.

### 2.3.4. Müsbət psixoloji təlim mühitinin yaradılması

**Müəllimlərin davranışları**

Müəllimlərin sinif otağı üçün yüksək standartların olmasına daha çox həssas olması, sinif otağında aydın səs tonuna malik olması, şagirdlərlə ədalətli davranması və qaydalara riayət etməyə çalışması əsas keyfiyyətlərdir. Sinif mühitinə təsir edən bir çox faktordan biri müəllimin təlimi səmərəli idarəetmə davranışıdır (Şəkil 2.19).




**Şəkil 2.19. Müsbət psixoloji təlim mühitinin yaradılması**

Bu davranış şəxsiyyətin xarakteri və sinif mühitinə də təsir göstərir. Xüsusilə, müəllimin inandırıcı nitqi, savadlı və məlumatlı olması şagirdlərdə müəllimə qarşı inam yaradır. Eyni zamanda, müəllimin yumor hissinə malik olması, lazım gəldikdə zarafatlar etməsi, optimist xarakteri və digər şəxsi xüsusiyyətləri təlim boyunca təlim mühitini yüngülləşdirir və təhsilalanları təlimə daha tez motivə edir.

**Şagirdlərin davranışı**

Çətin davranışlı şagirdlər təlim mühitinə psixoloji cəhətdən mənfi təsir edir. Sinifdə fəal və intizamlı şagirdlərlə işin planı əməkdaşlıq, qarşılıqlı hörmət və ehtiram şəklində qurulur. Müəllimin çətin şagirdlərlə iş planının olması və müxtəlif səmərəli vasitələrdən istifadə etməsi faydalı nəticələr verir. Dərs zamanı nizam-intizamı pozan şagirdlərin replikalarına çox diqqət yetirməmək, daxili aləmlərində olan yaxşı keyfiyyətlərini aşkar edib, fərdi xüsusiyyətlərini nəzərə alan tapşırıqlar tərtib etmək, bacardıqları işə cəlb etmək, sinifdənxaric fəaliyyətdə ünsiyyət qurmaq və hər hansı problemlərinin həllində onlara dəstək olmaq bəzən bu problemləri asanlıqla həll edə bilir. Bir çox halda mentorun məsləhətlərini dinləmək və məktəb psixoloqu və valideynlə əlaqə saxlamaq, çətin uşaqların təlimə cəlb olunmasında yaxşı nəticələr verir.

**Sinif partalarının düzülüşü**

Sinifdə müxtəlif şəkilli formalarda partaların düzülüşü, şagirdlərin masalar ətrafında oturuşu və fərqli dizaynlı sinif otaqları da müsbət təlim mühitinin yaradılmasına təsir edir. Sinif partalarının ənənəvi düzülüşü, adətən, yorğunluq, passivlik və hərəkətsizlik yaradır. Dairəvi masalarda qarşı-qarşıya oturma və cüt yerlər öyrənənləri sərbəst işə motivə edir və onlar hərəkətli olurlar. Z. Dörneyi qeyd edir ki, hərəkətli və ayaqüstü vəziyyətdə insanın idrak fəallığı daha çox olur. Bununla birlikdə, şagirdlərin birlikdə öyrənmə mühitində qarşılıqlı təsir və komanda işi daha asan olur (Şəkil 2.20).




**Şəkil 2.20. Sinif partalarının düzülüşü**

**Vaxtın idarə edilməsi**

Vaxt yalnız sinifdə keçirilən vaxt deyil, həm də sinfin keçirdiyi gündür (Şəkil 2.21).



**Şəkil 2.21. Vaxtın idarə edilməsi**

Sinifdə keçirilən vaxt, öyrənmə mühiti, öyrənənlərin davranışı və öyrənməsinə təsir edən əsas cəhətlərdən biridir. Vaxtın səmərəli idarə olunması üçün müəllim təlimin mərhələlərini vaxta uyğun planlaşdırmalı, fəaliyyətlərin tətbiqi müddətini müəyyən etməli, daha çox vaxtı öyrənənlərin iştirakına yönəltməli və vaxt tapıb onların diqqət və qayğısına böyük təsir göstərməlidir. Dərsin ayrı-ayrı sinif otaqlarında keçirilməsi vaxtın səmərəli idarə olunmasına müsbət təsir edir. Məsələn, səhərdən günün sonuna qədər eyni sinifdə təlim aparılan vaxt çox az məhsuldar olur.

Beləliklə, təlimdə motivasiya təhsilalanlarla əlaqəli olub, onları təlim prosesində iştirak etmək arzuları ilə təmin edir. Təlim prosesində motivasiyanın yaradılması psixoloji amil kimi böyük əhəmiyyət kəsb edir. Motivasiyanın növlərinin öyrənilməsi və onun şagirdlərdə yaratdığı müsbət nəticələr, yüngül təzahür formaları təlim prosesində davamlılıq və faydalı təsirlərin əks olunmasına gətirib çıxarır.

## Tələbələr üçün fəaliyyətlər

1. Qrup işi. Karvan metodu. Müzakirə (20 dəqiqə)

Sinif divarından üç flipçat asılır və üzərində yazılır.

1-ci flipçat: Motivasiyanın təlimə təsiri yolları.................................................................................

2-ci flipçat: Təlimdə yaradılan psixoloji narahatlıqların səbəbləri.....................................................

3-cü flipçat: Motivasiyanın növləri və tətbiqi yolları..........................................................................

Tələbələr 3 qrupa bölünür və hər bir qrup üzvlərinə ayrı-ayrı rəngdə markerlər təqdim olunur (qırmızı, göy və yaşıl) və 20 dəq. ərzində divardan asılmış suallar bir-bir cavablandırılır. Cavablar təkrarlanmama şərti ilə flipçatda yazılır. Sonda rənglərə uyğun ən yaxşı cavablar seçilir, qrupun işi dəyərləndirilir və müzakirə edilir.

2. Cütlər şəklində iş. Müsbət psixoloji təlim mühitinin cəhətlərinə aid 3 əsas fikri müəyyən edin və əsaslandırın:

A) Şagirdlərlə iş:
B) Müəllimin davranışı:
C) Sinfin quruluşu:
D) Vaxtın idarə olunması:

3. Fərdi iş. “Mənim ehtiyaclarım və problemim” (kiçik həcmli esse)

1. Məktəbdən ən çox gözlədiyim ehtiyaclarım.........................................................................................
   ...................................................................................................................................................
2. Məktəbdə uğurlarımın əldə olunmasının əsas səbəbi............................................................................
   ...................................................................................................................................................
3. Müəllimin hansı davranışı məni dərsə həvəsləndirir.............................................................................
   ...................................................................................................................................................
4. Dərs zamanı narahatçılığımın əsas səbəbi...........................................................................................
   ...................................................................................................................................................
5. Dərsdə fiziki yorğunluğumun səbəbi...................................................................................................
   ...................................................................................................................................................

4. Verilmiş iş fəaliyyətində hansı motivasiya üsulundan istifadə edərdiniz?

Hər bir iş sahəsinə uyğun motivasiya vasitələrini sxemləşdirin və ayrılıqda təsvir edin.

| Sahə həkimi | Məktəb polisi | Bələdiyyə nümayəndəsi | Şirkət resepşnı |
|---|---|---|---|
| | | | |

# Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**“Təhsilalanların motivasiyasını yüksəltmək üçün müsbət psixoloji təlim mühiti yaradır”**

**1. Verilmiş sualları müzakirə edin və cavablandırın:**

- Təlimdə daha çox nədən həvəsləndirici səbəblər hansıdır?
- Daxili motivasiya nə zaman tətbiq edilir?
- Müəllimin gözləntilərinə nələr daxildir?
- Dərsdə hansı mənbələrdən istifadə bəyənilir?
- Ən məhsuldar dərs necə olmalıdır?
- Dərs zamanı narahatlıq yaradan səbəblər hansıdır?
- Dərsin səmərəli təşkilində hansı motivasiya üsullarından istifadə etmək olar?

**2. Verilmiş cədvəl üzrə motivasiya üsullarının istifadə səviyyəsini müəyyən edin:**

| № | Təlimin təşkilində motivasiya növləri | Çox üstün | Orta üstün | Az üstün | Üstün deyil |
|---|---|---|---|---|---|
| 1. | Kollektivdə oyunların təşkili | | | | |
| 2. | Video-roliklərin nümayişi | | | | |
| 3. | Musiqi parçalarının səsləndirilməsi | | | | |
| 4. | Açıq sualların cavablandırılması | | | | |
| 5. | Şagirdlərlə fərdi söhbətlər | | | | |
| 6. | Qrup işlərinin təşkili | | | | |
| 7. | Cütlər şəklində müzakirə | | | | |
| 8. | Simvol və atributlardan istifadə | | | | |
| 9. | Qiymətləndirmə və rəylərin verilməsi | | | | |

**3. Müəllimin gözləntilərinə aid OLMAYAN cavabı seçin.**

A) Öyrənənlərlə fərdi iş planı tutmaq;
B) Şagirdlərin ən maraqlı fəaliyyətlərini öyrənmək;
C) Öyrənənlərlə birgə təlimin vaxtını təyin etmək;
D) Hər bir öyrənənin fərdi qabiliyyətini müəyyən etmək.

**4. Şagirdlərə öyrəndikləri haqqında özünüqiymətləndirmə imkanı verilməlidir:**

Doğru ☐ Səhv ☐

**5. Təlimdə motivasiya üçün şagird fəaliyyətlərinin vaxtı müəyyən edilə bilməz:**

Doğru ☐ Səhv ☐

**6. Xarici motivasiyada istifadə OLUNMAYAN nümunəni seçin.**

A) Şagirdlərə nümunəvi nəticələrinə görə tərifnamə vermə;
B) Mövzu üzrə suallara və tapşırıqlara görə dəyərləndirmə;
C) Öyrənənləri yaradıcı işinə görə mükafatlandırma;
D) Son nəticələrə uyğun əlavə bonuslar vermə.

## 2.4. Təlimin məqsədlərinə uyğun psixoloji dəstək vasitələrini müvafiq şəkildə tətbiq edir

### 2.4.1. Təlimə dəstək vasitələri

Ümumi təhsil müəssisələrində pedaqoji prosesin sistemli idarə olunmasının dəstəklənməsi və yeni yanaşmaların məktəblərdə çevik tətbiqinin təmin olunması ən uğurlu nəticələrə gətirib çıxarır (Şəkil 2.22).



**Şəkil 2.22. Pedaqoji prosesin dəstəklənməsi**

Məktəbdaxili və məktəblərarası öyrədici mühitin zənginləşdirilməsi, təlimin keyfiyyətinin artırılması və şagirdlərin fəaliyyətinin düzgün istiqamətləndirilməsinə təsir edir. Təlimin psixoloji dəstəyi bütün şagirdlərin məktəbdə uğur qazanmalarına imkan verəcək fiziki, sosial, emosional və intellektual imkanları təmin edən strategiyalar və vasitələrdir. Məktəblərdə tədris prosesində öyrənənlər hər hansı bir qərarvermə prosesinin ayrılmaz hissəsini təşkil etməlidirlər.

Təhsildə psixoloji dəstək təhsil prosesinin inkişafına kömək edən bir sıra məqsədlərə nail olmağı hədəfləyir, o cümlədən:

- Təlim məqsədlərinə uyğun bütün şagirdlərə bərabər dəyər verilməsi;
- Şagirdlərin qabiliyyətindən asılı olmayaraq ehtiyaclarının nəzərə alınması;
- Müxtəlif sahələrdə ən yaxşı proqramın hazırlanması üçün təcrübələrin aparılması;
- Öyrənənlərin davranışının başa düşülməsi və şərh edilməsi;
- Şagirdlərin zəkasının öyrənilməsi üçün müxtəlif testlərin aparılması.

### 2.4.2. Təlimə psixoloji dəstək vasitələrinin tətbiqi

Müasir tədris - təlim prosesi, məqsədlər, ona uyğun fəaliyyətlərin ardıcıl tətbiqi onun psixoloji dəstəyinin əhəmiyyətinə əsaslandırılır və təlimin sistemli və dinamik mənzərəsini yaradır. Aşağıdakı psixoloji dəstək vasitələri təlim məqsədlərinin əldə olunmasına xidmət edir (Şəkil 2.23):




**Şəkil 2.23. Psixoloji dəstəyin tətbiqi mərhələləri**

Şagirdlər üçün yüksək gözləntilərin olması üçün onlara lazım olan əlavə dəstəyin təmin olunması vacibdir. Şagirdlərə təlimdə qazandıqları dəyərlərin görülməsi və müvəffəqiyyət qazanma imkanı verilməlidir ki, öz uğurlu nəticələrini görən zaman təhsilə inamları artırılsın və psixoloji dəstəyin olduğu hiss etdirilsin. Belə olan halda, onlar daha çox yeni biliklər qazanmaq və yaradıcı işə motivasiya olunurlar. Psixoloji dəstək şagirdlərin intellektual öhdəliklərini yaxşılaşdırır və onları öz dəyərləri və gələcək planları barədə düşünməyə təşviq edir. Adətən, valideynlər uşağın bir və ya daha çox çətinlik üzündən öyrənə bilmədiyini aşkar etdikdə ona akademik olaraq necə kömək etmək lazım olduğu və bu çətinliklərin uşağın psixoloji rifahına mənfi təsirini unudurlar. Bəzi araşdırmalara görə, öyrənmə çətinliyi olan bir uşağın üzləşə biləcəyi bir çox psixoloji, emosional və davranış çətinliyi vardır:

- Özünəinamın azalması;
- Narahatlıq səviyyəsinin artması;
- Təklik hissinin artması;
- Kədər və ya gərginlik;
- Davranış problemləri;
- Baş ağrısı və ya mədə ağrısı kimi fiziki simptomlar;
- Çalışma arzusunun itirilməsi.

Psixoloji dəstək zorakılığın bəzi göstəricilərini (məsələn, ağlamaq və narahatlıq) müşahidə etmək və anlamağı asanlaşdırır. Zorakılığın dərəcəsini öyrənmək və onunla mübarizə aparmaq müəyyən səviyyədə problemləri həll etməyə kömək edir.

### 2.4.3. Müəssisənin təhsilalanlara psixoloji dəstəyinin prinsipləri və tətbiqi vasitələri

Psixoloji dəstək prinsipləri fəaliyyətin əsas beş sahəsində təşkil edilməlidir: İdrak və öyrənmə, motivasiya, sosial və emosional ölçülər, kontekst, öyrənmə və qiymətləndirmə (Şəkil 2.24).

Şagirdlər akademik müvəffəqiyyət qazana bilmək üçün təlimdə özlərini həm fiziki, həm də zehni olaraq təhlükəsiz hiss etməli, həm müəllimlər, həm işçilər, həm də digər şagirdlərlə əlaqəli olmalıdırlar. Məktəbin ilk vəzifəsi təhsilalanlarla aşağıdakı şərtlərlə tanış olmaq və onları tanımaqdır:

- Şagirdlərin fiziki və psixoloji vəziyyətinin təyin edilməsi;



**Şəkil 2.24. Psixoloji dəstək vasitələri**

- Fiziki cəhətdən sağlamlığı məhdud şagirdlərin ehtiyac və maraqlarının müəyyən edilməsi və onların gələcək planı, potensialı, maraqları və məqsədlərinin öyrənilməsi;
- Şagirdlərin ailələri ilə birgə onların arzuları, məqsədləri, güclü və zəif cəhətləri və ehtiyaclarının müəyyən edilməsi;
- Lazım olan yerlərdə şagirdlərin tibbi, şəxsi, fiziki, psixoloji və təlim ehtiyaclarını müəyyən edən məsləhətçi ekspert və psixoloqun dəstəyinin təşkil edilməsi;
- Şagirdlərin ehtiyacları dəyişdiyi zaman da davam edən məsləhət saatlarının təmin edilməsi;
- Təhsilalanların dəstəklənməsi üçün lazım olan tənzimləmə prosesinin müəyyənləşdirilməsi üçün qiymətləndirmənin aparılması;
- Qiymətləndirməyə cəlb, məktəb tədbirlərində iştirak, davranış dəstəyi, tibbi ehtiyaclar və ya təlim dəstəklərinin müəyyənləşdirilməsi.

### 2.4.4. Təlim məqsədlərinə uyğun psixoloji dəstəyin təşkili yolları

**İdraki məqsədlər** üzrə psixoloji dəstək vasitələri

Buraya öyrənənlərin idraki fəallığının izlənilməsi üzrə məntiqi düşüncə və düşüncələrin yenilənməsi üçün fəaliyyətləri daxil edilir. Mövzunun anlaşılmasına aid tapşırıqlar, məlumat ətrafında yeni biliklərin qazanılması və problemlərin həlli və digər fəaliyyətlər aiddir. İdraki məqsədlərə xidmət edən fəaliyyətlər öyrənənləri məntiqi düşünməyə həvəsləndirir və problemlərin həllində özünəgüvən hissi yaradır. Bu dəstək vasitələri şagirdlər arasında narahatlığın aradan qaldırılmasına, çətin problemlərin həlli və sərbəst işinə davam etdirilməsinə kömək edir (Şəkil 2.25).



**Şəkil 2.25. Psixoloji dəstəyin yolları**

Bu fəaliyyətlərə aşağıdakılar daxildir:

- Mətnlərin dinlənilməsi, sualların cavablandırılması və tapşırıqların həlli;
- Mövzu haqqında müxtəlif söz və ifadələr və terminlərin toplanması;
- Hadisələr üzrə səbəb və nəticələrin müəyyən edilməsi və həlli;
- Açıq suallar, əşya və hadisələr haqqında məlumatlar və şəkillərin təsvirindən istifadə;
- Düşüncə, yaddaş, diqqət, dilin inkişafı, əşya və hadisələrin tanınması və müqayisəsi.

**Sosial–kultural** məqsədlər üzrə psixoloji dəstək vasitələri aşağıdakılardır:

Sosial-kultural məqsədlər şagirdlərin mədəni dünyagörüşü və media vasitələri ilə

bağlı müsbət təcrübələrinin bölüşdürülməsi, filmlər və ya televiziya verilişlərinə münasibət, müvafiq musiqi duyumu və digər sosioloji komponentlər daxil edilir. Bu baxımdan bu vasitələrin tətbiqi ilə şagirdlərin kultural baxışları genişləndirilir, orijinal nümunələrlə işləmə həvəsləri artırılır və onlarda sosial dünyagörüş formalaşdırılır. Bu dəstək vasitələrinə aşağıdakılar daxildir (Şəkil 2.26):

- Fiziki sağlamlığı məhdud uşaqlarla birgə layihələrin təşkil edilməsi və onların əməkdaşlığa həvəsləndirilməsi;
- Təlimdə autentik, yəni orijinal çalışmalar, multimedia və vizual vasitələrdən geniş istifadə edilməsi;
- Dünya ölkələrinin tarixi, mədəniyyəti, adət-ənənələri və təhsil sistemi haqqında rəngarəng nümunələrin tətbiq edilməsi;
- Ailə-məktəb-cəmiyyət mövzularının debatı və kollektiv müzakirənin həyata keçirilməsi;
- Ətraf mühit, sağlam həyat tərzi və qlobal problemlər üzrə layihələrin təşkil edilməsi;
- Öyrənənlərin hüquq və məsuliyyətlərini əks etdirən foto sərginin keçirilməsi.



**Şəkil 2.26. Təlimin sosial-kultural məqsədləri**

**Kommunikativ məqsədlərə** xidmət edən psixoloji dəstək

Bu məqsədlərə xidmət edən dəstək vasitələri təlimdə müxtəlif üsul və vasitələrlə inkişaf etdirilir. Kommunikasiyada öyrənənlər utancaqlıq və qorxudan kənarlaşaraq nitq qabiliyyəti, sərbəst fikir söyləmə və ünsiyyət qurma səriştəsi əldə edirlər (Şəkil 2.27).



**Şəkil 2.27. Təlimdə kommunikasiyanın yaradılması**

Burada müxtəlif şəkillər, həyat hadisələri və qlobal problemlərin həlli onlara özlərini qlobal cəmiyyətin bir üzvü kimi hiss etməyə vadar edir. Şagirdlərdə özünəinamı möhkəmləndirən fikrin əsaslandırılması, tənqidi yanaşma və bir-birini dəyərləndirilmə onlarda qorxu və həyəcanı aradan götürür. Qorxu və həyəcanı götürən fəaliyyətlər aşağıdakı kimi xarakterizə olunur:

- Qrup işləri və cütlərin fəaliyyətinin təşkili;
- Müzakirə və dialoqlar, müsahibələr və rollu oyunların təşkili;
- Rollu oyunlar, musiqili çıxışlar, təqdimatlar və əl əməyi işlərinə cəlb olunma;
- Sosial şəbəkədən səmərəli istifadə etmə və rəqəmsal texnologiyanın sirləri ilə tanış

olma;
- Özünü dəyərləndirmə və özünə güvəni artıran qiymətləndirmə üsullarının tətbiqi.

### 2.4.5. Təlimin səmərəli təşkili və resursların təmin edilməsi

Məktəbdə təlim məqsədlərinə uyğun təlimin səmərəli təşkili psixoloji dəstəyin təmin olunmasında əsas şərtdir və buna aşağıdakılar daxildir:

- Təlim prosesinin uğurla başa çatdırılması üçün planlaşdırmanın tətbiq edilməsi və şagirdlərə təlimin məqsədinin əvvəlcədən elan edilməsi;
- Təlimdə iştirak və davamiyyətin vacibliyini göstərən sinif qaydaları ilə şagirdlərin məlumatlandırılması;
- Şagirdin öyrənilməsi üçün zəruri avadanlıq, köməkçi texnologiya və ya əlavə resursların təlimdə tətbiq edilməsi;
- Təlim otağının şagirdlərin maraq və ehtiyacları istiqamətində təyin edilməsi və təlimə hazırlanması;
- Yaş səviyyəsinə uyğun öyrənmə tapşırıqları, resursları və öyrənmə materiallarının tərtib edilməsi;
- Fərdi təhsil nəticələrində yüksək gözləntilərin təmin edilməsi üçün mövcud nailiyyət səviyyələrinin müəyyən edilməsi.

## Tələbələr üçün fəaliyyətlər

1. **Qrup işi.** Üç qrupa bölünərək müxtəlif situasiyaları əks etdirən dəstək vasitələri ilə tanış olun. Psixoloji dəstək vasitələri haqqında fərqli yanaşmaları qeyd edin:

- Qrup 1. Məktəbin şagirdlərə psixoloji dəstək vasitələrini qeyd edin;
- Qrup 2. Tədris prosesinin məqsədlərə uyğun dəstək vasitələrini seçin;
- Qrup 3. Kəmiyyət və keyfiyyət əsaslı dəstək vasitələrini tərtib edin.



2. Təlim məqsədləri üzrə psixoloji dəstək vasitələrini cədvəl üzrə qruplaşdırın:
   1. Həyat hadisələri haqqında suallar;
   2. Xarici ölkənin coğrafi relyefi və ərazisini izah etmək;
   3. Telekonfrans keçirmək və televiziya verilişlərini müqayisə etmək;
   4. Rəngli kartlar əsasında dialoq qurmaq;
   5. İdman sahəsində terminləri tanımaq və oyun daxilində replikalar söyləmək;
   6. Sosial şəbəkələrdə yeni fikir təqdim etmək;
   7. Kompüterdə animasiyalar hazırlamaq;
   8. Qrupda musiqili çıxış hazırlamaq və təqdim etmək.

| İdraki məqsədlər | Sosial-kultural məqsədlər | Kommunikativ məqsədlər |
|---|---|---|
| | | |

3. Verilmiş vəziyyəti təhlil edin və təkliflər hazırlayın (Case study):

Kənd məktəbinə yeni müəllimə təyin olunur. Məktəbin ilk görünüşü müəllimənin xoşuna gəlsə də, ilk gündən özünü tək və köməksiz hiss edir. Amma müəllimə məqsədi və planını artıq əvvəlcədən hazırlamışdır. O, qarşısına qoyduğu məqsədə nail olmalı idi. Müxtəlif siniflərdə dərs saatı müəyyən edildikdən sonra işə necə başlanmasına çətinlik çəkir. Müəllimənin işinə necə başlaması üçün psixoloji dəstək və hansı dəstək vasitələrinin tətbiq etməsi üzrə təkliflərinizi hazırlayın.



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Təlimin məqsədlərinə uyğun psixoloji dəstək vasitələrini müvafiq şəkildə tətbiq edir”.**

**1. Təhsilalanlara psixoloji dəstək haqqında verilmiş suallar əsasında “Analitik hesabat” hazırlayın.**

- Müəssisənin hansı dəstək xidmətləri vardır və onlar təhsilalanlara necə xidmət edir?
- Müəssisənin təhsialanlara psixoloji dəstəyi onların davranışında hansı dəyişikliklər yaradır?
- Fiziki sağlamlığı məhdud şagirdlərə hansı psixoloji dəstək daha vacibdir və nə üçün?
- İdraki, sosial-kultural və kommunikativ məqsədlər üzrə hansı psixoloji dəstək vasitələri vardır?
- Şagirdlərin psixoloji çətinlikləri təlimdə necə həll olunur?

Hesabatın qiymətləndirilməsi meyarları:

- Məzmunun əhatəliliyi;
- Problemin qoyuluşu;
- Ardıcıl fikirlər;
- Faktlar və təcrübələr;
- Mövzunun faydası;
- Nəticə və təkliflər.

**2. İdraki, sosial-kultural və kommunikativ məqsədlər üzrə göstərilən psixoloji dəstək vasitələrinin tətbiq səviyyəsi reytinq cədvəlini hazırlayın.**

Vasitələr:

| Çox az mühüm | Mühüm | Çox mühüm |
|---|---|---|
| 1.<br>2.<br>3. | 1.<br>2.<br>3. | 1.<br>2.<br>3. |

**3. Fiziki sağlamlığı məhdud şagirdlərlə birgə iş hazırlamaq psixoloji dəstək vasitələrinə aid edilir.**

Doğru ☐ Səhv ☐

**4. Təlim məqsədləri üzrə psixoloji dəstək vasitələrinin düzgün sırasını seçin.**

A) Məktəbə şagird qəbulu – valideynlərin iclasını təşkil etmək;
B) Musiqi parçasına qulaq asmaq – birlikdə musiqi parçasını təqdim etmək;
C) Dərsdə ev tapşırıqları üzrə səhvlərlə məşğul olmaq – fərdi çalışmaq;
D) Əvvəlcə videonun mətnini yazmaq - video film zamanı dialoq qurmaq.

**5. Psixoloji dəstək təlim məqsədlərinə uyğun necə tətbiq edilir?**

A) Şagirdlərin cavablarını nəzərə almaqla;
B) Ev tapşırıqların verilməsi ilə;
C) Şagirdləri fəaliyyətə cəlb etməklə;
D) Şagirdlərin sayına uyğun otaq təmin etməklə.

## 2.5. Təlimin müxtəlif formaları üzrə təhsilalanların yaradıcılıq və müstəqilliyini stimullaşdıran vasitələri təqdim edir

### 2.5.1. Təlimdə yaradıcılıq və müstəqillik

Müasir məktəblərdə çox vaxt nəzarət olunan öyrənənlər sinifdənkənar həyatda müstəqil düşüncələri olan gənc yetkinlərdir. Sərbəst düşünmə və hərəkət etmə bacarığı hər bir şagirdin öyrənə biləcəyi ən əhəmiyyətli bacarıqlardan biridir (Şəkil 2.28).

Bu gün hər birimiz müstəqil etik və sosial dünyanın diqqət mərkəzində olan bir mədəniyyətin kökündə yaşayırıq. Bəzən bütün təhsilalanların nümayiş etdirməkdə olan irəliləyişinin təmin edilməsi üçün ən doğru yol, onlara müstəqil düşünməyi öyrətməkdir. Müstəqil düşüncə yaradıcılığa gedən yolu təyin edir və insanları optimist və innovator yetişməyə sövq edir.



**Şəkil 2.28. Şagirdlərin yaradıcılıq və müstəqilliyi**

**Yaradıcılıq işlərinin təşkili məqsədləri**

Yeni yanaşmalarda təlim prosesi qruplar, cütlər, kollektiv və fərdi təlim formalarında birgə yeni fikirlərin kəşfi və tədqiqatların axtarışına yönəldilir. Belə təlim formaları öyrənənlərin təfəkkürü və düşünmə tərzinin formalaşdırılması və yaradıcı işin təşkilinə istiqamətlənir. Yeni təlim formaları rahat və təhlükəsiz bir mühitdə təşkil olunur ki, yaradıcılıq sərbəst şəkildə həyata keçirilsin və qarşıya çıxarılan risklər azaldılsın (Şəkil 2.29).




**Şəkil 2.29. Təlimdə yaradıcı işlərin təşkili**

Yaradıcı işdə öyrənənlər:

- Anlayış zənginləşdirilir və həyat asanlaşdırılır;
- Yenilik qəbul edilir və zövqlü fikirlər olur;
- Yaradıcı olmağa meyllilik olur;
- Hamının qarşısında şəxsi səhvlər etiraf edilir.

Yaradıcılıqğa həmişə təxəyyüllə başlanır və tarix də göstərilir ki, bizim təsəvvür etdiklərimiz daha sonra həqiqətən yaradılır. Yaradıcı işlərin tətbiqi üçün müəllim hər şeydən əvvəl məqsədləri müəyyən edir və müvafiq mərhələlərin tətbiqini planlaşdırır.

### 2.5.2. Yaradıcı işlərin planlaşdırılması və stimullaşdırıcı mərhələlər

**Planın tərtibi.** Təlimdə fəaliyyətlər tətbiq edilərək şagirdlərin seçimləri, maraq dünyası və yaradıcı işə olan baxışlarının müəyyən edilməsi üçün plan tərtib edilir. Müəllim öyrənənlərin sadə yaradıcı təcrübələrinə uyğun üsul və vasitələri seçir, şagirdlərə öz

maraqları daxilində mövzu seçimi, yerinə yetirəcəkləri tapşırıqlar və məkanı təmin etmək məqsədilə tədris planlarını tərtib edir.

Çin psixoloqu, elmi yaradıcılıq mərkəzinin rəhbəri, Vayqo Penq (Weiguo Pang, Şəkil 2.30) məktəblərdə yaradıcı işin təşkili mexanizmini təqdim edərək qeyd edir ki, ilk mərhələdə təlim prosesinin təşkilində maraq və müstəqil fikirlərin təyini baş verir, ikinci mərhələ şagirdlərin təcrübə üzrə yeni ideyalar toplamaları, vasitələr seçməsi və nəhayət, sonda yaradıcı işin müstəqil şəkildə tətbiqi və nümayişi ilə başa çatdırılır (Sxem 2.4).




Sxem 2.4. Yaradıcı təlimin tədrisi metodikası



Şəkil 2.30. Vayqo Penq, (Weiguo Pang), çin psixoloqu, tədqiqatçı alim

**Müxtəlif təlim formaları üzrə yaradıcı fəaliyyətin təşkili**

Buraya şagirdlərin şəxsi yaradıcılığına müvafiq maraqlı və dəyərli yollarla tədqiq edilməyə imkan verən təlim fəaliyyətləri daxil edilir. İlk olaraq, şagirdlərin müxtəlif oxu və yazı fəaliyyəti inkişaf etdirilir. fiziki işə cəlb edilir, məsi, texnologiya və animasiyanın hazırlanmasına həvəsləndirilir müxtəlif səslər, qrafika, diaqram və rənglərin kəşfi ilə sonda konstruktivist bir yaradıcı insan olmağa nail olunur (Sxem 2.5). Fəaliyyətlər müxtəlif təlim formalarında şagirdlərin maraqlarına və ehtiyaclarına görə təşkil edilir və yaradıcı prosesdə digər bilik və bacarıqlardan istifadə edilir.

Amerikalı pedaqoq və alimlər, Alison Osvald və Ceymi Adelson öyrənənləri yaradıcılıq və müstəqilliyi inkişaf etdirən vizual, auditor və hərəki öyrənənlər kimi qruplaşdırır və müxtəlif vasitələr seçərək qabiliyyətləri inkişaf etdirir. O, təklif edir ki, şagirdlərə necə düşünməyi öyrətmək, şagirdlərə nəyi düşünməyi öyrətməkdən daha vacibdir.

**Vizual öyrənənlər,** adətən, məlumatı real obyektlərdən - şəkillər, fotolar, diaqramlar, xəritələr üzəri, rəngli kağızlar, afişa və elanlardan öyrənməkdən zövq alırlar. Çox vaxt belə öyrənənlər müəllimi müşahidə edərək daha çox öyrənirlər. Vizual öyrənənlər fəaliyyətlərinin sinifdə tez başlayıb tez də bitirirlər.

**Auditor öyrənənlər:** Audio-video çalışmaları, şer, musiqi, hekayə söyləmə, təqdimat, caz musiqisi və müzakirə üsulu ilə öyrənənlər. Belə öyrənənlər zarafatlar etməyi xoşlayır, yaradıcı olur, sözləri ritmik səslərlə tələffüz edir, yaxşı rol ifa edir və qrup lideri olurlar.




**Sxem 2.5. Yaradıcılıqda təlimin tədrisi sahələri**

**Hərəki öyrənənlər:** Rollu oyunlar nümayiş etdirmək, rəsm şəkilləri çəkmək, xəritə hazırlamaq, plakat və parçadan kəsiklər hazırlamaq, lövhədə işləmək, musiqi altında idman hərəkətləri göstərmək, jestlər və mimikalarla hekayə söyləmək, qaçaraq imla yazmaq, fiziki hərəkətlə mövzunu təqdim etmək və digər fəaliyyətlər aiddir.

Buna görə də müəllim dərs planı tərtib edərkən şagirdlərin hansı öyrənənlər qrupuna aid olduğunu müəyyən edir və dərs planında bunu nəzərə alaraq məqsədləri, fəaliyyət növü, iş üsulu və mənbələrini seçir.

**Yaradıcı işlərin və müstəqilliyin stimullaşdırıcı vasitələri**

Yaradıcılıq çətin əldə olunan düşünmə bacarığıdır və stimullaşdırıcı vasitələrlə həyata keçirilir. Buraya əl işi, musiqi, incəsənət nümunəsi, əyləncə, texnologiya və digər aspektlərin həyata keçirilməsi daxil edilir və qiymətləndirilir (Şəkil 2.31). Öyrənənlərin yaradıcılığının necə inkişaf etdirilməsi və yetişdirilməsi üçün psixoloqlar və pedaqoqlardan bəzi təkliflər təqdim edilir:



**Şəkil 2.31. Yaradıcı işlərin tətbiqi yolları**

1. **Öyrənənlər tərəfindən sualların verilməsi**

Kollektiv və ya koopertaiv təlim formasında şagirdlərin sual vermələrinə şərait

yaradılması təfəkkürü işə salan ən effektli bir üsuldur. Çox vaxt təlimdə sualların müəllim tərəfindən verilməsini gözləyən şagirdlər sərbəst düşünə bilmirlər. Onların suallarına əks reaksiya vermək və onlara tez cavab verməyə tələsmək bəzən onlarda axtarış aparmağın da qarşısını alır. Sual-cavabda bu instinktə qarşı çıxmağa çalışmaq lazımdır. Bunun üçün onlara müxtəlif illüstrasiya və ya şəkillər təqdim edilir ki, onun ətrafında özləri suallar hazırlasınlar. Bununla yanaşı, eyni zamanda onlara sual verilməsi üçün kifayət qədər cəsarətli olma və suallara mümkün qədər tez cavab tapılması üçün cəsurluq nümayiş etdirilməlidirlər.

Dərs zamanı yaradıcı təfəkkürü inkişaf etdirmək üçün tapşırıqlara "Yaratmaq", "Dizayn", "İcad etmək", "Təsəvvür etmək" "Güman etmək" kimi sözlər əlavə etmək və "Mümkün qədər çox həll yolu tapmaq" və ya "Yaradıcı olun!" kimi təlimatları əlavə etmək yaradıcılıq qabiliyyətini artıra bilər.

**2. Təcrübələrdə birgə öyrənmə fəaliyyətinin təşkil edilməsi**

Təcrübə aparmaq cütlər və ya qruplar şəklində əl-ələ verilərək birgə öyrənmə mühiti yaradır. Belə mühitdə onlara dərslik və kitablardan çox təcrübə, və axtarışda öyrənmə imkanı verilərsə, onda daha yaxşı innovativ fikirlər toplayırlar.

Məsələn, 5-ci siniflərdə şagirdlər kağızlardan hər kəsə həndəsi əsaslı uşaqlıq şəkilləri, robotlar və əjdahaların göstərilməsi üçün işə həvəsləndirilir və sonra bütün sinfə bu işlərin niyə bəyənildiyinin izah etmə imkanı əldə edilir. 6-ci sinifdə təbiət üzrə süxurların öyrənilməsində şagirdlər müxtəlif rəngli süxurların bərkliyinə, rənginə və formasına görə tapıb fərqləndirirlər. 7-8-ci siniflərdə donan mayelərin siyahısı hazırlanır: Su, sirkə, yapışqan, şüşə təmizləyici, diş pastası və kağız. Təcrübələrdən belə qərara gəlinir ki, qələm, silgi və kitablar bərk maddələrdir. Ertəsi gün digər tapılan yeniliklər, kağızın nə üçün sərt və sirkənin donmadığına dair müzakirələr edilir və maraqlı söhbətlər aparılır.

**3. Məşhur innovatorlarla tanışlığın olması**

Bu zaman şagirdləri kollektiv olaraq məşhur innovatorlarla görüşdürmək və onları tanıtdırmaq lazımdır.

Öyrənənlər innovator olmaq üçün onların keçdiyi təcrübə ilə tanış olur və hansı fəaliyyətlərin vacibliyini öyrənirlər. Onlar təlimdə innovatorların video nümunələrində həvəsləndirici nitqinə qulaq asır və öz yaradıcı işlərinə daha maraqlı olurlar (Şəkil 2.32).



**Şəkil 2.32. Yaradıcı iş nümunəsi**

**4. Yaradıcı sinif mühitinin yaradılması**

Bu işin təşkilində sinif tam olaraq yalnız yaradıcı olmaq üçün təşkil edilmir. Bunun əvəzinə, şagirdlər öz imkanlarının öyrənilməsi üçün texnologiya və təchizatla təmin edilir ki, öz işlərini hazırlaya və vasitələri düzgün seçə bilsinlər. Bəzən kiçik mərkəzlər, sərgi, əl işləri dərnəklərinin sinif otağına yaxın və məktəbin koridorlarında stolüstü və divarda olması digərlərini də müstəqil işə stimullaşdırır. Məsələn, əgər otaq STEM sinif otağı kimi yaradılırsa, o zaman şagirdlər üçün otağın küncündə onların yaradıcı işləri üçün boş yer verilir ki, işlərini orada nümayiş etdirə bilsinlər.

**5. İnnovasiya və yaradıcılığa zaman ayrılması**

Şagirdlərin yaradıcı bir məkana sahib olmağından əlavə, yenilik və yaradıcılığa da vaxt ayırmaları vacib şərtdir. Vaxt ərzində təyin edilmiş cədvəl üzrə dərs günlərində müəyyən standart çərçivədə məşğul olunması planlaşdırılır. Cədvəldə hər günün yenilikləri üçün bir yer buraxılır ki, bu səhifə müəllim üçün naməlum qalır. Yəni şagirdlər hansı yeniliyin əldə olunması haqqında qabaqcadan məlumatlanmır. Sonda qeyd olunan məhsul hamı üçün sürpriz və yeni olur. İnnovasiya üçün vaxtın çox verilməsi və düzgün gün rejiminin təyinatı sonda produktiv işin səmərəli nəticəsi ilə başa çatdırılır.

**6. Öyrənənə seçim azadlığının verilməsi**

Mümkün şəraitdə öyrənənlərə seçim azadlığı verilir. Məsələn, yaradıcı iş üzrə layihə mövzusu təyin edilən zaman onlara öz seçimini etmə imkanı verilir. Əgər bir şagird texnologiya, digəri elmi sahə, o birisi isə riyazi hesablama üzrə yaradıcı iş hazırlayırsa, onda onlara müstəqil imkanlar verilir.

**7. Əməkdaşlığın təşviq edilməsi**

Yenilikçi olmaq üçün əməkdaşlıqda fəaliyyət göstərmək lazımdır. Bir komandada fikirləri bölüşdürmək və problemləri həll etməklə söhbət edərək yaradıcı və yenilikçi olma ehtimalı daha çoxdur. Müxtəlif yaradıcı işlər əməkdaşlıqda paylaşıldıqda daha çox təkliflər meydana çıxır.

**8. Öyrənənlərin digər vasitələrlə həvəsləndirilməsi**

Yaradıcı işin möhkəmləndirilməsi üçün şagirdlərin fiziki-psixoloji cəhətdən yaradıcı qidalanması vacibdir. Bu qidalanma yaradıcı işlərin təşkilində yorğunluğun aradan götürülməsində sinifdə yaradıcı həvəsləndirmələrin müsbət təsiri olur. Musiqi parçalarının səsləndirilməsi, incəsənət əsərlərinin nümayişi və yaradıcılığın görülməsi üçün sinifdənkənar söhbətlər sanki onların yeniliklə qidalanması təəssüratını bağışlayacaq.

**9. Yaradıcı işdə iddialı olmağın göstərilməsi**

İstər müəllim, istərsə də şagirdlər yeniliyin kəşf olunması və yaradıcı işin hazırlanmasında müstəqilliyi iddialı şəkildə göstərməlidirlər ki, onların ətrafdakılara inamlı və qərarlı olduqları hiss olunsun (Şəkil 2.33).



**Şəkil 2.33. Yaradıcılıqda müstəqilliyin stimullaşdırılmas**

Müstəqilliyin stumullaşdırılmasında şagirdlərə müəllim tərəfindən iddialı olma şərtləri izah edilir ki, onlar özlərində inam hissi yarada bilsinlər. Belə şərtlərə "Mənim işim daha çox yenidir", "Bu, yeni bir addım olacaq", "Yarışın qalibi olmalıyam" və digər psixoloji ruhlandırıcı ifadələri iri kağızlarda yazıb otağın divarından asmaq lazımdır.

**10. Qiymətləndirmənin hər mərhələdə yenilənməsi**

Yaradıcı işin təşkilində şagird fəaliyyəti və müstəqilliyi qiymətləndirilərkən daha çox performansa əsaslandırılan qiymətləndirmələr, və ya innovasiyaları təsvir edən rubriklərdən istifadə edilməsi səmərəli nəticələrdir.

| Yaradıcı işin adı | Vacib sahə | Məqsədlər | Fəaliyyətlər/vaxt | Məhsul |
|---|---|---|---|---|
| Heyvanların ömrü | Biologiya | Təbiəti qoruma | Məlumat/Təcrübə | ???? |
| 10% | 10% | 15% | 20% | 30% |

**Cədvəl 2.1. Yaradıcı işin qiymətləndirilmə nümunəsi**

Verilmiş cədvəl 2.1-ə uyğun qiymətləndirmə gözləntiləri mərhələ-mərhələ əldə edilməlidir.

Beləliklə, təlimdə yaradıcı işlərin və müstəqilliyin stimullaşdırılması şagirdlərdə bu belə vasitələrin sinif otağına daxil edilməsi ilə onların yenilikçi və yaradıcı olmalarına kömək edəcək. Şagirdlər öz potensialı və gələcək həyatında görəcək işlərin vacibliyini dərk edəcəklər. Yaradıcılıq əldə etmək ən çətin və ən çox axtarılan düşüncə bacarığıdır. Bunu musiqidə, əyləncədə, texnologiyada və varlığımızın digər aspektlərində qiymətləndiririk. Təxəyyül və yaradıcılıq gələcəyə can atan əlamətlərdir. Hər ikisi də şagirdləri ruhlandırmağa xidmət edir və tədrisin hər hissəsinə inteqrasiya olunmalıdır.

## Tələbələr üçün fəaliyyətlər

http://www.speedofcreativity.org/2015/11/24/video-production-class-links-resources/

1. **Qrup işi.** Üç qrupa bölünərək təlimdə yaradıcı işin və müstəqilliyin yaradılması yollarını əks etdirən video materialı izləyin və aşağıdakı plan üzrə müzakirə təşkil edin.

Qrup 1. Yaradıcı işin məqsədləri;

Qrup 2. Yaradıcı işi stimullaşdıran cəhətlər;

Qrup 3. Yaradıcı işlərin növləri və qiymətləndirilməsi.

**2. Verilmiş yaradıcı iş üzrə fəaliyyətlərinizi müəyyən edin.**
Yaradıcı iş: Verilmiş nümunə üzrə 5 yol fikirləşin.



A. Dünyanı hava çirklənməsindən necə xilas etmək olar.....
1. Maşınların hərəkətini dayandırmaq və piyada gəzmək;
2. ........................................................................................................
3. ........................................................................................................
4. ........................................................................................................
5. ........................................................................................................

B. Yaradıcılıq üçün 5 əsas cəhəti və imkanı qeyd edin
1. ........................................................................................................
2. ........................................................................................................
3. ........................................................................................................
4. ........................................................................................................

**3. Sülh haqqında rəsm müsabiqəsi üçün dostunu yaradıcı işə həvəsləndirmə yollarını izah edin və təqdimat hazırlayın.**



- Sülh haqqında suallar hazırlayın;
- Sülh mövzusuna aid olan məlumatlar toplayın;
- Yaradıcı iş üzrə komanda üzvlərini müəyyən edin;
- İşin yaradılması üçün icra vaxtını müəyyən edin;
- Rəsm əsərinin yaradılması üzrə vasitələr seçin;
- İddialı olmaq üçün ifadələr hazırlayın;
- Yaradıcı işin qiymətləndirilməsi üsulunu tərtib edin.



**4. Ən məşhur innovatorlar haqqında təqdimat hazırlayın və təqdim edin.**

Plan:

1. İnnovatorun işinin adı;
2. Yaradıcı işin tətbiq olunduğu sahə;
3. İnnovasiyanın yaradılması yolları;
4. İnnovasiyanın faydası.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**"Təlimin müxtəlif formaları üzrə təhsilalanların yaradıcılıq və müstəqilliyini stimullaşdıran vasitələri təqdim edir"**

**1. Sualları müzakirə edin və təkliflər hazırlayın:**

- Yaradıcı iş təlimdə nə qədər vacibdir?
- Yaradıcı işin tətbiqində müstəqil fəaliyyət necə təmin edilir?
- Birgə fəaliyyətdə yaradıcı işin keyfiyyətləri nədir?
- Yaradıcı işi stimullaşdıran yollar şagirdlərin davranışında nə kimi dəyişikliklər yaradır?
- Təlimdə yaradıcı işin təşkilində müəllim və şagirdlərin rolu necə balanslaşdırılır?

**2. Düzgün cavabı seçin:**

Vizual öyrənənlər şer, musiqi, hekayə söyləmək və təqdimat hazırlamağa həvəsli olurlar.

Doğru ☐ Səhv ☐

**3. Sinifdə yaradıcı olmaq üçün nə lazımdır?**

A) Vaxt və pul;
B) Əlaçı olmaq;
C) Yeniliyə riskli və ambisiyalı yanaşmaq;
D) Həddən artıq cəhd göstərmək.

**4. Düzgün yaradıcı işi seçin:**

A) Esse yazmaq;
B) Kağız üzrə test etmək;
C) Poema və rəsm hazırlamaq;
D) Musiqi dinləyən zaman qeydlər aparmaq

**5. Təlimdə yaradıcı və müstəqil işin qiymətləndirilməsi üzrə təsvirləri cədvəldə yazın:**

| Yaradıcı iş | Əhatə etmir | Az əhatəli | Əhatəli | Çox əhatəli |
|---|---|---|---|---|
| Maraqları ifadə edir | | | | |
| İstifadə sahəsi | | | | |
| Məqsədlərə uyğunluğu | | | | |
| Dəyişkənliyi | | | | |
| Vaxta uyğunluğu | | | | |
| Təlimdə faydası | | | | |

## 2.6. Təhsilalanların maraq və ehtiyacları üzrə onların istedad və qabiliyyətlərinin inkişafı yollarını təsvir edir

### 2.6.1. Təlimdə istedad və qabiliyyətin inkişafı

İstedad insan dərketməsinin dialektikası və bəzən ən yüksək zirvəsi hesab olunur. İstedad insana bəxş edilən xəzinə və unikal genetikanın məhsulu kimi dəyərləndirilsə də, onun inkişaf etdirilməsi çox vacib hesab edilir. İstedad güclü bacarıqlara sahib olan şəxsin idraki, sosial, intellektual və praqmatik qabiliyyətlərinin uyğun şəraitdə faydalı bir məhsul təqdim etməsidir (Şəkil 2.34).




**Şəkil 2.34. İstedad və qabiliyyətin inkişafı**

**Tərcümə:** Talant - İstedad

Psixoloji xüsusiyyətlərə nəzər yetirsək, o zaman istedad və qabiliyyətlərin qazanılmasının şəxsiyyətin fərdi-psixoloji xarakterinə təsir etdiyinin şahidi olarıq. Onların daxili hiss, həyəcan, düşüncə, təfəkkür və təxəyyülünün məhsulu kimi insanı digərlərindən fərqləndirir.

İstedad və qabiliyyətlər aşağıdakı inkişaf dinamikasına daxildir:

- Maraq və arzular daxilində baş verir;
- Həm fizioloji, həm də bioloji faktorlara əsaslanır;
- Fərdi-psixoloji inkişafa təsir edir;
- Təfəkkürün və təxəyyülün məhsulu kimi dəyərləndirilir.

Şagirdlərin istedad və qabiliyyətlərə yiyələnmələri insanın inkişafında müşahidə olunan səriştələrin ən yüksək nöqtələrdə ifadə olunur, və xarici və daxili motivasiyanın və öyrədici-yaradıcı mühitin təsiri nəticəsində daim formalaşdırılan bir harmonik fəaliyyətdir. Düşünsək ki, insan uşaq vaxtı maraq göstərdiyi sahəni sonradan uyğun bir mühitdə təsiredici vasitələrlə inkişaf etdirərsə, bu onun qazandığı qabiliyyət və istedada sahib olmasına yol açır. Burada genetikanın təsirini danmaq əlbəttə düzgün deyil, çünki ailə mühiti, davranış və cəmiyyətə yaradıcı töhfə vermə uğurlu həyat fəlsəfəsi kimi öz mədəni kökünə bağlılığı və ən yaxşı dəyərləri insandan insana ötürür. Bu harmoniya yalnız təhsilin davamlı inkişafı sayəsində növbəti nəsillərə ötürülürsə, o zaman gələcək həyat simvolik olaraq öz yeni fəlsəfəsi və yeni insanını yarada biləcək.

### 2.6.2. Təlimdə istedad və qabiliyyətin inkişafı məqsədləri

Təlimdə əqli istedadı olan öyrənənlərin bacarıq və qabiliyyətlərinin formalaşdırılması bir sıra unikal məqsədlərə əsaslandırılaraq aşağıdakı fərqli xüsusiyyətlərə malikdir:

- Böyük həcmli informasiya və zəngin söz ehtiyatına malik olma;
- Səbəb-nəticə əlaqələrinin qurulması və nəticə çıxarıla bilməsi;
- İnformasiyaların inteqrasiya və sintez edilərək mürəkkəb ideyaların anlaşılması;

- Fərqlər görülərək ziddiyyətlərə həssaslıq göstərilməsi;
- İnformasiya axtarışında alternativ yollardan istifadə edilməsi;
- Prosesin, eləcə də onun nəticəsinin qiymətləndirilməsi və hipotez qurulub mühakiməsi ilə seçilməsi.

Amerikalı psixoloq V. Ştern əqli istedadı belə təsvir edir: "Əqli istedad - şüurlu surətdə öz təfəkkürünü yeni tələblərə yönəltmək, yeni məsələlər və tələblərə uyğunlaşma kimi ümumi əqli qabiliyyətdir, amma onun sonradan davamlılığı təlimdə tətbiq olunan fəaliyyətlərdən asılıdır". Bu mənada, müəllimin tətbiq edəcəyi fəaliyyətlər onların təfəkkürünü sürətli və çevik edir və zəngin təxəyyülə yönəldir. Təlim fəaliyyətinin nəticəsində istedadlı şagirdlərin orijinal birmənalı olmayan ideyalar yürütmələri, hadisələrə intuisiyası və estetik dəyərləri diqqəti cəlb edir. İstedadlı uşaqlar emosional sahənin xüsusiyyətləri ilə də seçilirlər: daxili motivasiyaya malikdir, mənəvi problemlərin analizinə həssas yanaşır, kinayəsiz və istehzasız yumor hissinə malikdir, davranış və təfəkkürdə müstəqildir və sağlam rəqabəti qəbul edirlər.

### 2.6.3. Müxtəlif istedad və intellektlərin inkişafı yolları

21-ci əsrin çağırışları təhsilalanın dərk etməsinə və istedadlı olmasına istiqamətlənmişdir. İstedadlarla aparılan iş üzrə dünyanın qabaqcıl təcrübəsinin öyrənilməsi və tətbiqi şagirdlərin maraqlarına uyğun bir çox qabiliyyətlərin qazanılması yollarını araşdırır. Tədqiqat zamanı məlum olur ki, insanlar müxtəlif seçimli intellekt tipinə malikdir.

**Çoxşaxəli intellekt tipləri (Multiple İntelligence) nəzəriyyəsi**

Müxtəlif intellektlərin aşkarlanması, inkişaf etdirilməsi və istifadə edilməsi biliklərin mənimsənilməsini, yaddaşda daha uzun müddət saxlanılmasını təmin edir. Təlimdə öyrənənlərin istedad və qabiliyyətlərinin aşkar edilməsində Harvard Universitetinin professoru Doktor Hovard Qardnerin (Şəkil 2.35) "Çoxşaxəli intellekt nəzəriyyəsi" dünya təcrübəsində geniş yayılmağa başladı və bu intellekt strukturu modeli istedad anlamının məzmununu daha da dəqiqləşdirdi. Müasir təsəvvürlərə görə, istedad anlamını koqnitiv qabiliyyətlərə aid edirlər, inkişafın bütün digər tərəflərini isə talant termini ilə təhlil edilir.



**Şəkil 2.35. Hovard Qardner, amerikalı psixoloq**

Qeyd etmək lazımdır ki, intellektin inkişafı prosesində bütün psixi funksiyalar qarşılıqlı əlaqədədir. Onun fikrincə, istedadlı adam öz imkanlarını tam şəkildə yalnız qavrayış, təfəkkür, emosiyalar və başqa funksiyaların inteqrasiyası vasitəsilə reallaşdıra

bilər. Qardnerin 9 intellekt növü fərdin unikal qabiliyyətlərini və onun intellektual bacarıqlarını müxtəlif formada nümayiş etdirməsi ilə müəyyən edilir.

H. Qardner nəzəriyyəsi daha geniş şəkildə təklif edir ki, "hamımız dünyanı dil, məntiqi-riyazi analiz, məkan təmsilçiliyi, musiqi təfəkkürü, bədənin problemlərini həll etmək və ya şeyi düzəltmək üçün istifadə ediriksə, digər fərdlərin anlayışı və bilikləri ilə tanıya bilmək üçün anlayışımızı inkişaf etdirməliyik. Fərqli insanların olduğu yerlərdə bu ağılların gücü və bu cür zəkaların müxtəlif vəzifələri yerinə yetirməsi, müxtəlif problemlərin həlli və müxtəlif sahələrdə irəliləməsi üçün birləşdirmək yolları"-nı bilmək lazımdır.

Bu nəzəriyyənin insan intellektində kəşfi onun təhsildə inkişafını və qazanılmasını təsdiq edir və qabiliyyətli insanın yetişməsinin zəruri olduğunu sübut edir.

### 2.6.4. H. Qardnerin çoxşaxəli intellekt tipləri

1. **Verbal-linqvistik intellekt** (yaxşı inkişaf etmiş verbal qabiliyyət və sözlərdə səslər, məna və ritmə həssaslıq).

Linqvistik qabiliyyəti qazanan şagirdlər ana dili və ədəbiyyat dərslərində daha çox uğur əldə edir, söz oyunlarını sevir, sözlərin mənasını öyrənmək və onlardan nitqlərində istifadə etməyə meylli olur və suallar verərək oxuduqları və eşitdiklərindən zövq alırlar (Şəkil 2.36). Onların ən çox sevdikləri məşğuliyyətlər müxtəlif hekayələri oxumaq, öz hekayələrini uydurmaq, lüğət hazırlamaq və şerlər yazmaqdır. Linqvistik biliklərin tətbiqində şagirdlərdə hekayə yazmaq, gündəlik öz xatirələrindən ibarət jurnal yazmaq və onlara esse tipli tapşırıqlar vermək daha məqsədəuyğundur (Şəkil 2.37).




**Şəkil 2.37. Linqvistik intellekt tipi**




**Şəkil 2.36 H.Qardnerin çoxşaxəli intellekt tipləri**

**2. Riyazi-məntiqi intellekt** (konseptual və abstrakt düşünmə qabiliyyəti, məntiqi və ədədi nümunələri tanımaq və seçmə bacarığı). Riyazi-məntiq qabiliyyəti güclü olanlar məntiqi şəkildə həyat hadisələri və əşyalar arasında əlaqəni tapır, səbəb-nəticə əlaqəsini asanlıqla müəyyənləşdirir və müxtəlif nəzəriyyələr irəli sürürlər. Belə şagirdlər informasiyanın parçaları arasında əlaqə qurma və bu əlaqələri riyazi fiqurlar və sxemlərlə ifadə etmə bacarığına sahib olduqları üçün hekayələr xəritəsi və diaqramlar vasitəsilə əsər haqqında ətraflı təsəvvür yaratmağa nail ola bilərlər (Şəkil 2.38).



**Şəkil 2.38. Riyazi-məntiq intelekt tipi**

**3. Məkan-vizual intellekti** (şəkil və rəsmlər ilə düşünmə və dəqiq və abstrakt şəkildə vizuallaşdırma bacarığı) olan insanlar rəsmlər, şəkillər və cizgilərlə düşünür və xəyalında gördükləri rəsmləri sözə çevirə bilirlər (Şəkil 2.39).


**Şəkil 2.39. Məkan vizual intelekt tipi**

Həmçinin, dinlənilənlərin beyində rəsmi qurulur və öyrənilənlərin məlumatlarının xatırlanması üçün bu rəsmlərdən istifadə edilir. Rəsm çəkmək belə şagirdlərin sevdikləri iş olduğundan bu tapşırıq onların düşünmə prosesindəki fəaliyyətini stimullaşdırır. İdeyalar xəritəsinin yaradılması, şəkillərin təsviri, mətnlərin təsvirə çevrilməsi və digər fəaliyyətlərin tətbiqi belə intellekti daha tez aşkar edir.

**4. Bədən-kinestetik intellekti** (şəxsin öz bədən hərəkətləri və əşyaları məharətlə idarə etmə qabiliyyəti). Kinestetik qabiliyyət insana hərəkət, jest və mimikalar vasitəsilə özünü ifadə etmə imkanı verir. Belə insanlar obyektlərə toxunmaq, daim hərəkətdə olma və rəqs etməyə meyillidirlər (Şəkil 2.40).


**Şəkil 2.40. Bədən-kinestetik intellekt tipi**

Lakin belə şagirdlərin zəka ilə bədənin harmoniyasına nail ola bilmək bacarıqlarından

istifadə edərək onların imkanlarını hərəkətli səhnəciklərdə, rollu oyunlarda reallaşdırmaq lazımdır.

5. **Musiqi-ritmli intellekt** (ritm, keyfiyyətli səs və keyfiyyətli ton yarada bilmə və musiqini dəyərləndirə bilmə qabiliyyəti). Musiqili-ritmik qabiliyyətə sahib olanlar səslər və ritmlərlə düşünür və özləri də ritmlər yaradırlar. Onlar hər bir şeydə musiqi və ritm axtarırlar (Şəkil 2.41).



**Şəkil 2.41. Musiqili-ritm intelekt tipi**

Hadisələrin musiqilər və melodiyada ifadə olunması kimi fəaliyyətlərin hazırlanması səmərə verir.

6. **Fərdlərarası intellekt** (digərlərinin əhval-ruhiyyəsi, motivasiyası və istəklərini müəyyənləşdirə bilmə və ona uyğun şəkildə cavab vermə qabiliyyəti). Şəxslərarası qabiliyyətə sahib olanlar qrup içində çalışmaq, digər insanlarla ünsiyyət qurmaq, dinləmək və danışmağı sevirlər (Şəkil 2.42).



**Şəkil 2.42. Fərdlərarası intelekt tipi**

Onlar özlərini başqalarının yerinə qoyma, onları anlaya bilmə və ətrafdakıları inandırma bacarığına malikdirlər. Rollu oyunlar, debatlar, müzakirələr və komanda işini təlimdə tətbiq etməklə öyrənənlərin bu intellektini reallaşdırmaq mümkün olur.

7. **Fərd daxili intellekt** (öz daxili hissləri, dəyərləri, inancları və düşünmə proseslərini anlamaları və onları aydın şəkildə hiss etmə qabiliyyəti). Bu qabiliyyətə malik insanlar tənha çalışmaqdan zövq alır, azadlığa meylli olur və cəmiyyətdən kənarda qalmağa üstünlük verirlər. Qarşılarına hədəflər qoymaq və xəyallar qurmağı sevir və hər şeydə özlərindən bir parça tapmağa çalışırlar. Fərdi işlər, əl əməyi və çıxışların hazırlanması belə intellekti daha tez aşkar edir (Şəkil 2.43).



**Şəkil 2.43. Fərddaxili intelekt tipi**

8. **Naturalist intellekt** (bitkilər, heyvanlar və təbiətdəki digər obyektlərin müəyyənləşdirmə və kateqoriyalara bölə bilmə qabiliyyəti). Naturalist qabiliyyəti güclü olan insanlar təbiətdəki canlıları tanımaq və canlıların yaranması, ömrü, yaşadığı yeri və qidaları haqqında düşünməyə meyllidirlər (Şəkil 2.44).

Bu intellekti olan insanlar təbiətin insan üzərində, ya da insanın təbiət üzərindəki təsirini araşdırırlar. Təlimdə ətraf mühit layihələrinin hazırlanması, təbiət haqqında vizual görüntülərin nümayişi və ekskursiyaların təşkili naturalist intellekti yaradan vasitələrdir.



**Şəkil 2.44. Naturalist intelekt tipi**

9. **Ekzistensial intellekt** (insan varlığı barədə dərin suallar vermə qabiliyyəti). Belə insanlar həyatın mənası, insanların planetə gəlişi və ölümün labüdlüyü haqqında araşdırmalar aparırlar (Şəkil 2.45).

Həyatda inanclara bağlılıq və canlı varlıqlar və insan taleyinin yerlə-göylə və bürclərlə əlaqəsi düşünülür. Bu tip intellekt təlimdə fəlsəfi və dini baxışları formalaşdıran mətnlərin oxunuşu, fantastik filmlərin nümayişi və ümumbəşəri dəyərləri öyrədən müzakirələrin təşkili ilə aşkar edilir.



**Şəkil 2.45. Ekzistensial intellekt tipi**

### İstedad və qabiliyyətlərin inkişafında fəaliyyətlərin rolu

Təlimdə istedad və qabiliyyətlərin inkişafı şagirdlərin idraki fəaliyyət ardıcıllığına əsaslandırılır. Müxtəlif inteqrativ fəaliyyətlər, müxtəlif intellekti əks etdirən mətnlər, tədqiqat yönümlü layihələr, çevik təlim metodunun tətbiqi və zehni və fiziki əmək məhsulunun hazırlanması qabiliyyətlərinin aşkara çıxarılmasında ən faydalı fəaliyyət nümunələridir. Psixoloji tədqiqatlar və pedaqoji təcrübə göstərir ki, bəzən əvvəllər müəyyən bir fəaliyyət sahəsində şəxsi bacarıqsızlıq ilə başqalarından fərqləndirilən bir şəxs təlim nəticəsində vərdiş və bacarıqlara çox sürətlə yiyələnərək bir səriştə qazanılır və onda başqalarına nisbətən daha artıq qabiliyyət üzə çıxarılır. Maraqlı fəaliyyətlərin və tapşırıqların tətbiqi, uzunmüddətli müşahidələr, şagirdlərin özləri və valideynləri ilə söhbətlər, tapşırıqlar, testlər əsasında şagirdin hansı qabiliyyətə malik olduğunu müəyyənləşdirmək və bunun əsasında da hansı dərketmə üsulunun faydalı olacağını meydana çıxartmaq mümkündür.

## Tələbələr üçün fəaliyyətlər

1. **Debat (20 dəq.).** İki qrupa bölünərək istedad anlayışı haqqında problem sualı müzakirə edin:

"İstedad genetika, yoxsa zehni fəaliyyətin məhsuludur?"

Qrup A: İstedad genetikanın məhsuludur. Arqumentlər hazırlayın və təqdimat zamanı inandırıcı arqumentlər gətirin.

Qrup B: İstedad zehni fəaliyyətin məhsuludur. Arqumentlər hazırlayın və təqdimat zamanı inandırıcı arqumentlər gətirin.

2. **Ziqzaq oxu (20 dəq.)**

İstedad və qabiliyyətləri aşkar edən intellekt tiplərini əks etdirən mətn seçilir. Mətndə obyektləri anladan ifadə və terminlər seçilir, obyektlərin və insanların sayı müəyyən edilir və hadisələrin baş verdiyi məkan, orada iştirak edən insanların qarşılıqlı əlaqəsi və müxtəlif yanaşmalar təsvir edilir.

Yaradıcı iş: Verilmiş nümunə üzrə əsas intellekt tiplərini seçin və əsaslandırın.

- Linqvistik intellekti aşkar edən elementlər:
- Riyazi-məntiq intellekt elementləri:
- ........................................................................ :

3. **Situasiyanın təhlili – 20 dəq.** (Case Study). Verilmiş mətni oxuyun və rəssam S. Dalinin intellekt tipi müəyyən edilərək istedadın qazanılması yollarını təqdimat şəklində hazırlayın.

Məşhur Avropa rəssamı Salvador Dali öz əsərlərini arzu və təsəvvürlərin məhsulu kimi təqdim edir. Rəsm əsərlərinin birində daha çox təbiət mövzuları, illüstrativ ev əşyaları olan stol, kreslo, divar saatı, əriyən şam, açıq pəncərə, kiçik heyvanlar, parlaq dəniz və uzaqda isə zəif parlayan günəş təsəvvür edilirdi. Məşhur rəssam öz əsərlərində daha çox yuxuda gördüklərini təsvir edir və gələcək həyatında ümidlərinin gözəl sonluqla bitəcəyinə ümid edirdi. O, arzularının gerçəkləşməsi üçün hansı intellekt tipini inkişaf etdirməli idi?



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Təhsilalanların maraq və ehtiyacları üzrə onların istedad və qabiliyyətlərinin inkişafı yollarını təsvir edir”**

1. **Sualları cavablandırın və təkliflər hazırlayın:**
   1. İstedadın inkişaf etdirilməsi təlimdə hansı psixoloji irəliləyişlər yaradır?
   2. İstedad və qabiliyyətlər hansı fəaliyyətlərlə təmin edilir?
   3. H. Qardnerin 9 intellekt tipi öyrənənlərə hansı yollarla tətbiq edilməlidir?

2. **Öz intellektini müəyyən etdir (10-20-30-40-50-60-70-80-90-100):**

**A.**

- Təsnifat mənə yeni məlumatların mənasını verməyə kömək edir..........................................;
- Ekoloji məsələlər mənim üçün vacibdir..........................................;
- Bir bağçada işləməkdən zövq alıram..........................................;
- Milli parklarımızın qorunmasının vacib olduğunu düşünürəm..........................................;
- Hər şeyi ierarxiyalara qoymaq mənim üçün anlamlıdır..........................................;
- Heyvanlar mənim həyatımda vacibdir..........................................;
- Evimdə təkrar emal sistemi vardır..........................................;
- Biologiya, botanika və ya zoologiya öyrənməkdən zövq alıram..........................................;
- Mənadakı incə fərqləri götürürəm..........................................;
- Ümumi bal.......................................... .

**B.**

- Xarici dillər məni maraqlandırır;
- Kitab, jurnal və veb saytları oxumaqdan zövq alıram;
- Bir jurnal yazıb saxlayıram;
- Söz bulmacaları mənə xoşdur;
- Qeydlər götürməyim xatırlamaq və anlamağa kömək edir;
- Məktublar və ya e-poçt vasitəsilə dostlarımla səmimiyyətlə əlaqə qururam;
- Fikirlərimi başqalarına izah etmək mənim üçün asandır;
- Zövq üçün hekayə yazıram;
- Tapmaca, anagramlar və çaşqın sözləri tapmaq əyləncəlidir;
- Mən çox danışmaq və debatlarda iştirak etməyi xoşlayıram;
- Ümumi bal.

## 2.7. Sinifdənxaric və məktəbdənkənar işlərin aparılmasını təşkil edir

### 2.7.1. Təhsildə sinifdənxaric və məktəbdənkənar işlərin məzmunu

Məktəbdənkənar fəaliyyətlər məktəb həyatının vacib hissəsidir. Dərsdənkənar işlər yalnız dərsdən kənarda həyata keçirilən fəaliyyətlərdir (Şəkil 2.46).

Bu fəaliyyətlərə sənət, atletika, klublarda yarışlar, musiqi ilə məşğul olmaq, rəsm sərgiləri təşkil etmək və digər işlər daxildir. Məktəbdənkənar fəaliyyətlərdə rəhbərliyin, müəllimlərin və şagirdlərin maraqları və səyləri əlaqələndirilir və şagirdlərdə liderlik və idarəetmə vərdişləri formalaşdırılır. Bu cəhətdən sinifdənxaric işin təşkili və məktəbdənkənar tədbirlərin əhəmiyyəti daha çoxdur.



**Şəkil 2.46. Məktəbdənkənar fəaliyyətlərin tətbiqi**

Sinifdənxaric və məktəbdənkənar iş üzrə fəaliyyətlər öz növbəsində şagirdlərdə həvəs, canlılıq, müsbət düşüncə və komanda ruhu təbliğ edir və ictimai şüuru inkişaf etdirir. B. Reevesə (2008) görə, şagirdlərin məktəbdənkənar fəaliyyətlərə cəlb edilməsi və davamiyyət, davranış və akademik performans arasında güclü bir əlaqə vardır. Müasir şəraitdə sinifdənxaric işlərin həyata keçirilməsinin bir sıra pedaqoji-psixoloji məqsədləri vardır və işin əsas məzmunu öyrənənlərin təlimdənkənar fəaliyyətində əməyə hazırlıq, zehni, fiziki, əxlaqi, estetik, sosial, iqtisadi və ekoloji mədəniyyətinin formalaşdırılmasına xidmət edir.

Pedaqoji məqsədlər:

- Dəyərli təcrübə qazanma qabiliyyəti artırılır;
- Məsuliyyətli olma və problemləri effektiv şəkildə necə həll etmə öyrədilir;
- Ünsiyyət bacarıqları inkişaf etdirilir;
- Öyrənənlər cəmiyyətə cəlb etmə və qarşılıqlı əlaqələr qurmaya həvəsləndirilir;
- Şagirdlərin sosial şəbəkəsi genişləndirilir;
- Şagirdlərin öz üstünlükləri və istedadları aşkar edilir;
- Cəmiyyətə dəyərli bir töhfə verilməsinə çağrılır.

Psixoloji məqsədlər:

- Fiziki, psixoloji, etik, akademik, vətəndaş, sosial, estetik, mədəni istirahət və intizam dəyərləri kimi dəyərlər inkişaf etdirilir;
- Şəxsiyyətin zehni, emosional, sosial, mənəvi və estetik inkişafı asanlaşdırılır;
- Şagirdlərin təlimə marağı artırılır, öyrənmə üçün motivasiya təmin edilir və özünəinam gücləndirilir;
- Müxtəlif təbəqələrdən olanların özlərini tənha hiss etməməsi üçün sağlam rəqabət ruhunun inkişafına kömək edilir;

- Dəyərlər və başqalarının fikirləri və hisslərinə hörmət hissi aşılanır, qərar vermə mükəmməl edilir və mənsubiyyət hissi inkişaf etdirilir.

### 2.7.2. Sinifdənxaric və məktəbdənkənar işlərdə müəllimin rolu

Sinifdənxaric və məktəbdənkənar tədbirlərdə müəllimin özünə müsbət təsir edilir və müəllimə proqrama ciddi əməl edilməsi ilə şagirdləri maraqlandıran əlavə ədəbiyyat oxutmada, teatr, kinofilmlər, tarixi abidələr və muzeylərə baxmağa məsləhət görülməsində sərbəstlik verilir. Sinifdənxaric işlərin formaları çox müxtəlif və rəngarəngdir. Lakin yadda saxlamaq lazımdır ki, müəllim sinifdənxaric işlərin bu və ya digər formasını seçərkən və mövzuları müəyyənləşdirərkən yerli şərait, məktəbin tələbatı, şagirdlərin maraq, yaş, bilik səviyyəsi və bir sıra digər məsələlərin mütləq nəzərə alınması vacib şərtdir.

### 2.7.3. Sinifdənxaric və məktəbdənkənar işlərin növləri

Məzmun və fəaliyyət baxımından sinifdənxaric iş ilə məktəbdənkənar təhsil arasında fərqlər vardır. Bu tipli tədbirlər məktəbin tədris proqramına daxil deyil, könüllülük prinsipinə əsaslandırılır və bir növ sinifdə aparılan işlər davamı etdirilir. Deməli, sinifdənxaric və məktəbdənkənar tədbirlərdə yalnız şəxsi formasına görə tədris prosesindən fərqləndirilir, məzmununa görə isə bu proseslə birləşdirilir.

Sinifdənxaric iş ümumtəhsil məktəblərində təlimdənkənar fəaliyyət kimi proqram materialının daha geniş səviyyədə mənimsənilməsi istiqamətində həyata keçirilir. Məktəbin tədris proqramı (kurikulumu) və məktəbdənkənar fəaliyyətlər təlim nəticələrinə uyğun davamlı bağlılığı təşviq edir. Sinifdənxaric iş məktəb, icma və sosial əsaslı fəaliyyətlərə bölünür və kütləvi tədbir və fərdi iş kimi qruplaşdırılır.

Məktəb əsaslı fəaliyyətlərə aşağıdakılar daxildir:

- Bədii mətnlərin oxunması və kitab müzakirələrinin keçirilməsi;
- Musiqi festivalları, ədəbi-bədii gecələr, dram mərkəzləri və bədii əsərlərdən səhnəciklərin hazırlanması;
- Müsabiqə və yarışlar, kviz oyunu, viktorina və fənn gecələrinin təşkili;
- İdman oyunları üzrə yarışların təşkili və həyata keçirilməsi;
- Robotçuluq, üzgüçülük, tennis, voleybol və basketbol oyunları.

İcma əsaslı fəaliyyətlərə aşağıdakılar daxildir:

- Valideynlərin iştirakı ilə debatlar, dairəvi masalar və əxlaqi söhbətlərin təşkili;
- Ekskursiyalar, tarixi yerlərə səyahət və həftəlik məktəb bülletenləri;
- Oyun-səyahətlərin təşkili (məktəb turizmi, idman kompleksi və ətraf mühiti müşahidə əsasında).

Sosial əsaslı fəaliyyətlərə aşağıdakılar daxildir:

- Əl əməyi, yaradıcılıq işləri üzrə rəsm sərgiləri, ətraf mühit və sosial layihələrin təşkili;
- Sinif və məktəb fəalları dəstəsinin işinin təşkili (nəzarət rejimi, kitabların təmiri,

ictimai-faydalı əmək və s.);
- Müxtəlif mövzulara aid layihələrin aparılması.

Məktəbdənkənar iş bəzən könüllülük prinsipi əsasında qurulur və ailə, təhsil müəssisələri, ictimai təşkilatlar, yaradıcılıq birlikləri, cəmiyyətlər, fondlar, əmək kollektivləri ilə birlikdə, həmçinin, ayrı-ayrı vətəndaşların köməyi ilə aparılır.

Dərsdən sonra şagirdlərin asudə vaxtlarının səmərəli təşkili və məqsədyönlü tədbirlərin planlaşdırılması əsasında həyata keçirilir. Plan üzrə məktəbdənkənar təhsil müəssisəsi seçilir və tədbirin məqsədi müəyyən edilir. Buraya yeniyetmə gənclərin meyl, maraq və ehtiyaclarını ödəyən məktəbdənkənar təhsil müəssisələri daxildir.

Məktəbdənkənar işin təşkili aşağıdakı məkanlarda təşkil edilir:

- İctimai təşkilatlar, yaradıcılıq birlikləri, gənclər birliyi və idman cəmiyyətləri;
- İntellektual səviyyələri ölçən laboratoriyalar və istehsal təcrübə sahələri;
- Texnoparklar, ekoloji mərkəzlər və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirən mədəniyyət mərkəzləri;
- Fiziki cəhətdən öyrənənlərin sağlam böyümələri üçün əyləncəli təlim kafeləri və studiyaları.

Məsələn, məktəbdənkənar təhsil müəssisəsi kimi “Ekoloji tərbiyə və təcrübə mərkəzi”ndə öyrənənlərdə ekoloji təfəkkür, ekoloji mədəniyyət və ətraf mühitə məsuliyyət formalaşdırılır. Şəhər ətrafında zibilliklərin təmizlənməsi üzə məktəblilərlə birgə “Yaşıl dünya” və “Təmiz ada” adlı layihələrin təşkili üzrə aparılan faydalı işlər daxildir.

Ekoloji tərbiyə və təcrübəçilik mərkəzlərinin kompleks fəaliyyət proqramında ekoloji dərnəklərin fəaliyyəti, məktəblilərin asudə vaxtlarının səmərəli təşkili, onların təbiətsevərlik, təbii sərvətlərə qayğı və vətənpərvərlik ruhunda tərbiyəsi, ekoloji kütləvi tədbirlərin keçirilməsi, ekskursiya və ekspedisiyaların təşkili və digər məsələlər əhatə edilir.

Məktəbdənkənar təhsil müəssisələrinə aşağıdakılar daxildir: Uşaq-gənc yaradıcılıq sarayları və evləri, klublar, bədii, estetik, texniki, ekoloji, turizm və diyarşünaslıq yönümlü mərkəzlər, uşaq və gənclər üçün idman və şahmat məktəbləri və s. Məktəbdənkənar təhsil müəssisələrində məşğul olan uşaqlar və şagirdlər məktəbdənkənar təhsil müəssisələrinin xidmətlərindən istifadə edirlər.



**Şəkil 2.47. Yaradıcılıq işlərinin həyata keçirilməsi**

**Gənclərin Yaradıcılıq sahələri üzrə** məktəbdənkənar işi, əsasən, müxtəlif dərnək və yaradıcılıq mərkəzlərində fəaliyyət göstərir (Şəkil 2.47).

“Xalçaçılıq”, “Dram”, “Bədii özfəaliyyət”, “Məktəb teatrı”, “Rəqs”, “Gənc idmançılar”, “Naxışlı tikmə”, “Texniki estetika”, “Fortepiano”, “Xor”, “Musiqi alətlərində ifa”, Coğrafiya-diyarşünaslıq”, “Pantomima teatrı”, “Coğrafiya-diyarşünaslıq”, “Smart Foto qalereya”, “Ağac

üzərində oyma", "Modelçilik" və digər yaradıcılıq mərkəzlərində şagirdlərin məktəbdənkənar işi həyata keçirilir və yeni səriştələr formalaşdırılır.

**Texniki Yaradıcılıq Mərkəzləri (Texnopark)** məktəbdənkənar işin təşkilində səmərəli fəaliyyət göstərən müəssisələrdir.

Buraya əsasən, 21-ci əsrin tələblərinə uyğun "Kompüter proqramları", "Rəqəmsal texnologiya", "Əyləncəli fizika", "Gənc dizaynerlər", "Robot texnikası", "Gəmi, avto və raket texnologiyası", "Elmi-texnoloji laboratoriya" və "Elektron məişət texnologiyası" kimi mərkəzlərdə öyrənənlərin məktəbdənkənar işinə hərtərəfli dəstək verilir (Şəkil 2.48).



**Şəkil 2.48. Yaradıcılıq mərkəzləri**

### 2.7.4. Sinifdənxaric və məktəbdənkənar işin faydası

1. Sinifdənxaric və məktəbdənkənar işdə akademik səriştələr təkmilləşdirilir. Bu fəaliyyətlərdə iştirak etmək beyin fəaliyyətini artırır və vaxtı optimallaşdırmaq və düzgün idarə etməyə kömək edir. Məsələn, idmanla məşğul olmaq yüksək dözümlülük və çətinlik qarşısında dözümün cəmləşdirilməsi öyrədiləcəkdir. Debatların təşkilində sərbəst fikir ifadə etmə imkanı verilir, əməyin insan həyatında rolu haqqında layihələr həyatda zəhmətsevərlik və əməyə dəyər verməyin yolu göstərilir və idman oyunları şagirdlərə sağlam və enerjili olmağa kömək edir. Bu fəaliyyətlər öyrənənlərə səmərəli təhsil almaqda və imtahanlar zamanı çətinliyi aradan götürməkdə kömək edir.
2. Sinifdənkənar fəaliyyətlərdə maraqlar araşdırılır və daha geniş perspektivlər yaradılır. Şagirdlər bir çox fərqli fəaliyyətlərdə iştirak etdikləri zaman öz maraqlarını araşdırmaq həvəsi və fürsəti qazanacaq və üstəlik maraqlar üzrə dünyagörüşlərini genişləndirəcəklər. Məsələn, sinifdə çox vaxt kobudluq edən şagirdlər sinifdənxaric fəaliyyətdə daha ünsiyyətcil olur, bir-birinə dəstək verir, çətin işlərdən uzaq dura bilmir, digərlərinin davranışlarından nümunə götürür və özünəhörmət qazanırlar.
3. Sinifdənxaric işdə yüksək özünəhörmət bacarıqları formalaşdırılır. Məsələn, tutaq ki, riyaziyyat fənnindən çox yaxşı nəticələriniz vardır və müəllim belə şagirdlərin yarışlarda iştirak etməyini təşviq edir. Məktəb komandası təşkil edilir və uşaqlar bu komandaya qoşulur. Riyaziyyat olimpiadası üçün məşqlərə başlanaraq prosesdə əyləncəli riyaziyyatın nədən bəhs etdiyi və uşaqların istedadlı olmasında onun rolu qeyd edilir.
4. Sosial imkanlar genişlənir. İstənilən hər bir sinifdənkənar işdə sosial imkanlar genişləndirilir, şagirdlərin sosial şəbəkədə fəaliyyətinin genişləndirilməsi üçün bir fürsət təmin edilir və bu da onların gələcək karyeraları üçün əlverişli imkan yaradır.

Əlavə olaraq, məktəbdənkənar fəaliyyətlərdə dostlaşma və müxtəlif xarakterlərlə daha dərindən tanış olma şansı qazanılır. Məsələn, məktəbdə icma xidməti göstərən həmyaşıdlarla dostluq qurmaq, birlikdə könüllülər klubuna başlamaq və cəmiyyətə təsir göstərmək də onlara kömək edəcəkdir.

5. Təlimdə məhsuldar fasilələr yaradılır. Bəzən şagirdlər təlimi yalnız məktəbə getmək, ev tapşırıqları etmək və dərsdən sonra yatıb dincəlmək kimi fəaliyyətlərlə yerinə yetirməklə monoton həyat tərzi keçirmiş olurlar. Bunun əksinə olaraq, məktəbdənkənar məşğələlərdə öyrənənlər əyləncəli bir dünyaya daxil olur və daha çox düşünmə və yenilik tapmağa sövq edilir.
6. Mühüm həyati bacarıqlar inkişaf etdirilir. Sinifdənxaric məşğələlərin ən böyük üstünlükləri öyrənənlərə aşağıdakı "Real dünya" bacarıqları verir.

Bu bacarıqlara daxildir (lakin bununla məhdudlaşmır):

- Məqsəd, təyinetmə;
- Komanda işi;
- Zamanın idarə olunması;
- Prioritetləşdirmə;
- Problemin həlli;
- Analitik düşüncə;
- Rəhbərlik-liderlik;
- İctimai nitqin formalaşması.

Ümumiyyətlə, öyrənənlər dərsdənkənar fəaliyyətlərə nə qədər çox səy göstərsələr, bu bacarıqları bir o qədər səmərəli inkişaf etdirəcək, öz seçiminə həvəsli olacaq, komanda işi, problem həll etmə və analitik düşünmə bacarıqlarını inkişaf etdirəcək.

## Tələbələr üçün fəaliyyətlər

1. **Qrup işi (20 dəq.).** Tələbələr qruplara bölünür və hər qrupa flipçat, marker verilir.
Flipçatı iki hissəyə bölün:
1. Qrup A.: Məlumat Vərəqindəki təlim nəticələrindən istifadə edərək sinifdənxaric işin növünü müəyyən edin və məqsədləri izah edin.
2. Qrup B.: Sinifdənxaric iş üzrə fəaliyyətləri müəyyən edin- nümunələri qeyd edin, onların şagirdlərə verəcəyi faydanı izah edin

2. **Müzakirə (15 dəq.).** Tələbələrdən fərdi olaraq öz sinifdənxaric iş və məktəbdənkənar fəaliyyət proqramında görəcəkləri fəaliyyətlərində sadaladıqları siyahıları qruplari ilə bölüşmələrini xahiş edin.

| Dərsdənkənar fəaliyyətlər | Məktəbdənkənar fəaliyyətlər |
|---|---|
| 1.<br>2.<br>3. | 1.<br>2.<br>3. |

3. **Hörümçək toru oyunu (20 dəq.)**
Qruplara hörümçək diaqramları olan vərəqlər təqdim olunur. Verilmiş Hörümçək toruna uyğun orta dairədə seçdiyiniz sinifdənxaric işi qeyd edib, kvadratlarda fəaliyyətləri, romblarda isə bacarıqları yazırsınız. Sonra hörümçək diaqramlarını bir-birilərinə təqdim edərək işləri müqayisə edirsiniz.



4. **Fərdi iş.** Verilmiş cədvəl üzrə sinifdənxaric işin növünü və fəaliyyəti həftə üzrə təyin edin (yaradıcılıq işləri, oxu, musiqi, idman, gəzinti, əl əməyi, rəsm, layihə növləri və s.).

| Fəaliyyətin növü | Bazar ertəsi | Çərşənbə axşamı | Çərşənbə | Cümə axşamı | Cümə | Şənbə |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**"Sinifdənxaric və məktəbdənkənar işlərin aparılmasını təşkil edir"**

1. **Sualları cavablandırın və ən vaciblərini müzakirə edin:**

- "Sinifdənxaric iş və məktəbdənkənar fəaliyyət tədris proqramı ilə necə əlaqələndirilir?"
- Sinifdənxaric işlə məktəbdənkənar fəaliyyət arasında hansı fərqlər vardır?
- Sinifdənxaric işlərin tədrisin keyfiyyəti üçün ən faydalı cəhətləri hansıdır?
- Dərsdənkənar və məktəbdənkənar işlərin növləri bir-biri ilə necə fərqləndirilir?

2. **Təlimdə sinifdənxaric işdə tədris proqramı davam etdirilir və təlim nəticələrinə uyğundur:**

Doğru ☐ Səhv ☐

3. **Məktəbdənkənar fəaliyyətə nə aiddir?**

A) Pantomima teatrı;
B) Ədəbi-bədii gecələr;
C) Tarix muzeyinə səfər;
D) Xalçaçılıq dərnəyi;
E) Ekoloji mərkəzi;
F) Oxu müsabiqəsi.

4. **Düzgün variantı - işi seçin: Sinifdənxaric iş...**

A) Şagirdləri fərdi işləməyə sövq edir;
B) Müxtəlif dərketmə tipi olan insanlara aid edilir;
C) Müxtəlif təcrübələr və qabiliyyətləri təkmilləşdirir;
D) Müəllim nəzarəti altında həyata keçirilir.

5. **Təlimdə sinifdənxaric və məktəbdənkənar işi verilmiş meyarlar üzrə qiymətləndirin:**

| Sinifdənxaric və məktəbdənkənar iş | Fəaliyyət növü | Məqsəd | Vaxt və məkan | Nəticə və fayda |
|---|---|---|---|---|
| İdman yarışları | | | | |
| Oxu müsabiqəsi | | | | |
| Texnopark | | | | |
| Rəqs dərnəyi | | | | |
| Robotçuluq laboratoriyası | | | | |

## 2.8. Təhsilalanların peşə bacarıqlarını formalaşdıran yaradıcı işlərin həyata keçirilməsi planını tərtib edir

### 2.8.1. Peşə bacarıqları və yaradıcı işlərin təlimdə əhəmiyyəti

İnsanların öz həyatlarını yaxşılaşdırmaq və dəyişdirmək üçün istifadə etdikləri üsul və qaydalar texnologiya adlandırılır. Texnologiyanın cəmiyyətdə rolunun gündən-günə artdığı hiss olunduqca daha çox peşə bacarıqlarının qazanılması tələb olunur (Şəkil 2.49).



**Şəkil 2.49. Peşə bacarıqlarının seçilməsi**

Əsrin ortalarında işçi qüvvəsinin ehtiyaclarının nə olacağını əvvəlcədən bilməsək də, onların dəyişdiyi və texnoloji inkişaf sürəti ilə dəyişilməyə davam edəcəyini bilirik. Təlimdə texnoloji inkişafın peşəyönümlü sahələrə inteqrasiyası yaradıcı işlərin həyata keçirilməsinə imkan yaradır. Bu məqsədlə peşə bacarıqlarının tədrisi təhsilalanların orta təhsildən sonra uğur qazanmaları vacib məqsəd daşıyır. Peşə bacarıqları təliminin məqsədləri aşağıdakılardır:

- Öyrənənləri iş həyatına hazırlamaq, iş tapmaq və işə müraciət etməyi;
- Şagirdlərin cəmiyyətdə əl əməyinə sevgisi və innovator düşüncəsini inkişaf etdirmək;
- İstehsalat sektorunda fəaliyyət və mühəndislik işinin sirlərinə bələd olmaq;
- İnşaat sənayesinə həvəsləndirmə;
- Səhiyyə və sosial yardımlara qoşulma;
- Qida xidmətləri, otelçilik və turizm işinə cəlb etmə;
- Mühasibatlıq, hesablama və xərcləri bölüşdürmə;
- Kosmetologiya və saç stilisti işinə cəlb etmə;
- Kompüter və nəqliyyat sənayesinə maraq oyatma.

Məktəblərimizdə IX-XI siniflər üzrə tədris olunacaq peşə bacarıqları formalaşdıran yaradıcı işlərin həyata keçirilməsinə məktəb illərindən başlanma çox vacib addımdır.

### 2.8.2. Peşə bacarıqları üzrə yaradıcı təlim metodları

Yaradıcı təlimdə şagirdlərin təxəyyül və tənqidi düşüncə tərzindən istifadə edərək risk götürə bildikləri və müstəqil və çevik olduqları fikirlərin yeni və mənalı formalarını yarada biləcəkləri öyrədilir. Öyrənilənlərin təkrarlanması əvəzinə, şagirdlər bir problemin müxtəlif həllini tapma bacarıqlarını inkişaf etdirməyi öyrənirlər.

Məktəbdə Problem Əsaslı Öyrənmə şagirdlərə tədqiqat işlərini öyrətmək üçün səmərəli təlim metodudur. Bu metod vasitəsilə şagirdləri müstəqil təlim fəaliyyətlərinə layihə nümunəsi əsasında müşahidə və təhlillər aparmağa cəlb etmək lazımdır. Bu təlim tipində şagirdlərin yaradıcılıq fəaliyyəti aktivləşdirilir və müxtəlif mövzularda onlar öz

axtarışları haqqında hekayələrinin təqdimatını hazırlayırlar. Peşə və yaradıcı təlimin aşağıdakı səriştələri formalaşdırmaq sahələri (Sxem 2.6) vardır:




**Sxem 2.6. Peşə bacarıqları üzrə yaradıcı təlimin sahələri**

Yaradıcı fəaliyyət üçün təlimdə şagirdlərin dil, sosial-emosional, hesablama, incəsənət, elmi bilikləri təcrübədən keçirmə və motorik bacarıqların formalaşdırılması nəzərdə tutulur. Gənc yeniyetmələrin rəsmlərinin ecazkar yaradıcılığı, səhnədə dramatik oyunu və ünsiyyətdə icad olunan dili tez-tez qeyd edilməlidir. Şagirdlər rənglər, mövzular və xəyali şəkildə istifadə etdiklərini şifahi şəkildə ifadə edirlər. Müəllimlər onların sənətdə bacarıqları, elmi təcrübələri və problemlərə yaradıcı reaksiyaların dəstəklənməsində mühüm rol oynamalıdırlar.

### 2.8.3. Peşə bacarıqları və yaradıcı təlimin sahələri

Qeyd olunan peşə bacarıqları və yaradıcı işin tədrisi təlimdə şagirdlərin sinifdə, sinifdənxaric fəaliyyətdə, öyrənmə təcrübəsi və iş dünyası ilə əlaqəli əsas bacarıqlar əldə etmə imkanı verən praktik məzmuna malikdir. Peşə təhsili üzrə bacarıqlar bəzən karyera və texniki təhsil almaqda formalaşdırılır (Şəkil 2.50).



**Şəkil 2.50. Yaradıcı təlim sahələri**

Buraya aşağıdakı bacarıqlar daxildir:

- Emal texnologiyaları;
- Texnika elementləri;
- Məişət mədəniyyəti;
- Qrafika bacarığı.

### 2.8.4. Emal texnologiyaları işinin planlaşdırılması

Şagirdlərin peşələrlə tanış edilməsi onların ilkin bacarıqları və elementar əmək vərdişlərinə yiyələnmələrini təmin edilir (Şəkil 2.51).

Şagirdlərə gündəlik həyat, məişət və digər hallarda materiallar, enerji, informasiyaların mübadiləsi və istifadəsi prosesində emal texnologiyalarına aid bacarıq və vərdişlərin aşılanması zəruri hesab olunur. Bu peşə bacarıqları üzrə şagirdlər məmulatın texniki və bədii konstruksiya edilməsinin əsas prinsipləri ilə yaxından tanış olur, estetik və dizayn tələblərinə uyğun müxtəlif məmulatlar hazırlayırlar. Əldə olunacaq peşənin xarakterindən asılı olmayaraq şəxsi həyat şəraitinin yaxşılaşdırılması üçün materialların emalı texnologiyaları üzrə aşağıdakı məqsədlər üzrə yaradıcı işlərə qoşulur:



**Şəkil 2.51. Emal texnologiyalarının təşkili**

- Emal texnologiyaları bir-birindən fərqləndirilir və onların özünəməxsus xarakterik cəhətləri şərh edilir;
- Emal prosesi üçün lazım olan materiallar çeşidlənir və istifadə üçün hazırlanır;
- Emal zamanı hazırlıq- kəsmə, biçmə, tikmə və birləşdirmə bacarıqları nümayiş etdirilir;
- Fərdi qaydada, habelə qrup tərkibində müxtəlif məmulatlar hazırlanır;
- Emal prosesində təhlükəsizlik və sanitariya-gigiyena qaydalarına əməl edilir;
- Emal edilən hazır məmulatlar təqdim edilir;
- Bitkilərin becərilməsi və ev heyvanlarına qulluq texnologiyaları üzrə bacarıqlar nümayiş etdirilir.

### 2.8.5. Texniki elementlər üzrə işin planlaşdırılması

Bu peşə bacarıqlarına müasir texniki qurğular və konstruksiyalar haqqında ilkin məlumatların verilməsi və bu sahədə müvafiq bacarıq və vərdişlərin mənimsənilməsi nəzərdə tutulur (Şəkil 2.52).

Şagirdlərdə texnika aləmi, maşınların növləri və təyinatı, hissələrin birləşdirilməsi, maket və onlara verilən tələblər (iqtisadi, ekoloji və estetik) və texnika üzrə kütləvi peşələr haqqında bacarıqlar formalaşdırılır. Onlar gündəlik həyatda olan texnoloji maşınlar,



**Şəkil 2.52. Texniki qurğulardan istifadə**

aparatlar, aqreqatlar, alətlər, onların növləri, quruluşu və iş prinsipi ilə tanış olur, detal, mexanizm məişətdə istifadə olunan texniki avadanlıqların tətbiqi haqqında biliklərə yiyələnir, avadanlıqların quruluşu və iş prinsiplərini öyrənərək onları idarə etməyi bacarırlar. Bütün bunlar onlarda məişət mədəniyyətini formalaşdırır. Bu məqsədlə öyrənənləri aşağıdakı yaradıcı işlərə cəlb etmək lazımdır:

- Texnoloji maşınlar, cihazlar və alətləri təsnif etmək, texnoloji maşınların növləri, quruluşu və iş prinsipini şərh etmək və onların kinematik sxemini çəkmək;
- Məişətdə texnoloji maşınlar, cihazlar, qurğular və alətləri hazırlamaq və onlara qulluq etmək;
- Elektrik enerjisinin mahiyyəti, onun alınması, ötürülməsi və istifadəsi yolları, elektrotexniki, radioelektron və avtomatik cihazlar və qurğuların iş prinsiplərini şərh etmək;
- Elektron, radioelektron, elektrik məişət cihazlarından istifadə etmə və onlara xidmət göstərmə bacarıqlarını nümayiş etdirmək.

### 2.8.6. Məişət mədəniyyətinin planlaşdırılması

Bu peşə sahəsi üzrə şagirdlər qazanılmış bilik və bacarıqlar vasitəsilə həyatda insana lazım olan davranış qaydalarına riayət etmə, ailə və onun büdcəsinin idarə olunmasında iştirak etmə, təhlükəsizlik və sanitariya-gigiyena qaydalarına riayət etmə, sadə təmir-tikinti işlərini yerinə yetirmə və bitkilərə qulluq etmə vərdişləri qazanırlar.

Eyni zamanda şagirdlərdə ailə-məişət mədəniyyəti ənənələri, interyer tərtibatı, dizayn, habelə ictimai yerlərdə (evdə, nəqliyyatda, məktəbdə, qonaq getdikdə və s.) davranış və ünsiyyət qaydalarına əməl etmək, öz iş və yaşayış yerlərini təşkil etmək vərdişləri aşılanır. Öz iş və yaşayış yerlərini təşkil etmək vərdişləri, məişət fəaliyyəti sahələri aşağıdakı kimi təşkil edilir (Şəkil 2.53).



**Şəkil 2.53. Məişət fəaliyyəti sahələri**

- İctimai yerlərdə mədəni davranış və ünsiyyət qaydaları şərh edilir;
- Təlim-tədris, yaşayış yeri və interyerin tərtibatı ilə bağlı təqdimatlar edilir və tərtibat prosesində dizayn bacarıqları nümayiş etdirilir;
- Ailə və onun büdcəsinin idarə olunması haqqında fikirlər şərh edilir;
- Xəstəlik və zədələnmələr zamanı ilkin tibbi yardım göstərmə qaydalarının mənimsədildiyi nümayiş etdirilir;
- Sadə təmir-tikinti və dekorativ-bəzək işləri yerinə yetirilir.

### 2.8.7. Qrafika peşəsi üzrə yaradıcı işin planlaşdırılması

Bu peşə bacarıqlarına yiyələnmək üçün məmulatın hazırlanmasında, ilk növbədə,

onun eskizi, sxemi, texniki rəsmi, çertyoju və təlimat xəritəsini çəkmək və oxumaq lazım gəlir (Şəkil 2.54).

Elektron qurğulardan istifadə edildikdə onlardakı xırda nasazlıqların axtarılıb tapılması və aradan qaldırılması üçün onların sxemini oxuma bacarığı tələb olunur. Bu peşə üzrə fəaliyyətlər şagirdlərdə məmulatın təsviri, sxemi, çertyoju, forma və ölçülərinin müəyyənləşdirilməsi və hazırlanacaq məmulatlara dizayn vermə bacarıqlarının formalaşdırılmasına yönəldilmişdir. Şagirdlər aşağıdakı yaradıcı işlərin yerinə yetirilməsinə cəlb olunurlar:

- Əşyanın qrafik təsviri, detalların çertyoju və əşya və detalların texnoloji xəritələri çəkilir və məmulatın texniki spesifikasiyası şərh edilir;
- Detalların birləşdirilməsi çertyojları və yığma çertyojları yerinə yetirilir.


Şəkil 2.54. Qrafika işinin planlaşdırılması

Beləliklə, təlimdə peşə bacarıqlarını formalaşdıran yaradıcı təlimin mahiyyəti onun yeni məzmunu, uyğun metodikası, müxtəlif sahələrdə səmərəli və sistemli tətbiqi texnologiyasından asılıdır. Bu sahədə intellektin artırılması şagirdlərin fərdi maraqlarına üstünlük verilməsi ilə şərtləndirilir.

## Tələbələr üçün fəaliyyətlər

1. **Müzakirə (25 dəq.)** Tələbələr 3-4 qrupa bölünür və təqdim olunan cədvəl üzrə tapşırıqlar yerinə yetirilir.
   Verilmiş cədvəl üzrə peşə bacarıqlarının sahələri və həyata keçirilməsi yollarını müqayisə edin.

| Sahələr | Metodlar | Əldə olunan bacarıqlar |
|---|---|---|
| Yaradıcı təlim | | |
| Emal texnologiyası | | |
| Texniki avadanlıqlar | | |
| Məişət fəaliyyətləri | | |
| Qrafika sənəti | | |

2. **Qrup B:** Texniki elementlərə aid alətlərin növlərini təsnif edin və nümunələr gətirin.

| 1. Əl alətləri | 2. Mexaniki alətlər | 3. Texnoloji vasitələr |
|---|---|---|
| .......................... | .......................... | .......................... |

**Qrup C:** Məişət qaydalarını şərh edin.

| 1. Ailə büdcəsi | 2. İlk tibbi yardım | 3. Dekorativ-bəzək |
|---|---|---|
| .......................... | .......................... | .......................... |

**Qrup D:** Düzbucaqlı məmulatların qrafik təsviri və texnoloji xəritəsini yaradın (qapı, pəncərə, kitab və otaq).

| 1. Detalları | 2. Çertyoju və görünüşü | 3. Quraşdırma qaydaları |
|---|---|---|
| .......................... | .......................... | .......................... |

3. **Verilmiş peşələr üzrə yaradıcı işin planını tutun.**

| Elektrik | Kompüter mexaniki | Ev təmirçisi | Ev dizayneri |
|---|---|---|---|
| 1. | 1. | 1. | 1. |
| 2. | 2. | 2. | 2. |
| 3. | 3. | 3. | 3. |



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Təhsilalanların maraq və ehtiyacları üzrə onların istedad və qabiliyyətlərinin inkişafı yollarını təsvir edir"**

**1. Sualları müzakirə edin və cavablandırın:**

- İstedad və qabiliyyətlər maraq və ehtiyaclar üzrə necə müəyyən edilir?
- Peşə bacarıqlarının inkişafında texnologiyanın rolu nədir?
- Emal texnologiyaları hansı sahələrdə fayda verə bilər?
- Texnoloji avadanlıqların iş prinsipi nədir?
- Ailə büdcəsinin yaradılması yolları hansıdır?
- Qrafika sənətinin hansı bacarıqları formalaşdırılır?
- Məişət obyektlərinin dizaynı və dekorasiyası üçün hansı bacarıqlar vacib hesab edilir?
- İstedad və qabiliyyətlər daha hansı sahələrdə inkişaf etdirilə bilər?

**2. Aşağıdakılardan hansı peşə bacarıqlarına aid DEYİL?**

A) Əməliyyat prosesi üçün kompüterin hissələri birləşdirilir;
B) Bitkilər və heyvanlara qulluq texnologiyası təqdim edilir;
C) Ailə haqqında maraqlı kitabların və filmlərin siyahısı hazırlanır;
D) Evin dekorasiyası üçün lazım olan əşyalar düzgün seçilir.

**3. Verilmiş peşələr üzrə yaradıcı işlərin səviyyəsini müəyyən edin.**

| № | Yaradıcı işlər | Çox vacibdir | Vacibdir | Az vacibdir | Vacib deyil |
|---|---|---|---|---|---|
| 1. | Elektrik xətlərinin birləşdirilməsi | | | | |
| 2. | Ad günü masasının bəzədilməsi | | | | |
| 3. | Televiziya kanallarının sıralanması | | | | |
| 4. | Ailə büdcəsinin düzgün istifadəsi qaydaları | | | | |
| 5. | Evdə sanitariya-gigiyena qaydalarına aid təqdimatın hazırlanması | | | | |
| 6. | Qonaq otağının uyğun qaydada dizayn edilməsi | | | | |
| 7. | Küçə davranışlarına aid buklet hazırlanması | | | | |
| 8. | Üçbucaqlı əşyaların şəkillərinin hazırlanması | | | | |
| 9. | İlkin tibbi yardım yollarının nümayiş etdirilməsi | | | | |

# TƏLİM NƏTİCƏSİ 3

## NİZAM-İNTİZAM QAYDALARINA RİAYƏT OLUNMASINA RƏHBƏRLİK ETMƏK

## 3.1. Məktəbdaxili nizam-intizam qaydalarını əməkdaşlıq şəraitində uşaq hüquqlarının müdafiəsi prinsipləri əsasında hazırlayır

### 3.1.1. Nizam–intizam qaydalarının rolu

Məktəbdaxili nizam-intizam qaydaları şagirdlərin təhlükəsiz və sağlam təlim mühitində təhsil almaq və tədris prosesinin təhlükəsizliyinin təminatına əsaslanır (Şəkil 3.1). Məktəblərin qaydalara sahib olmasının əsas səbəbi şagirdlərin intizamlı olmalarıdır.

Bu qaydalar hər bir şagirdin uğurlu təlimə, normal öyrənmə mühitinin yaradılmasına, hüquqlarına hörmət edilməsinə, davranış mədəniyyətinin və ünsiyyət bacarıqlarının inkişafına istiqamətləndirilmişdir. Məktəbdə nizam-intizam qaydaları vacibdir və qaydalara əməl olunması şagird intizamının təmin olunmasına imkan yaradır. Qaydaların əsas məqsədləri bunlardır:




**Şəkil 3.1. Məktəbdaxili nizam-intizam qaydaları**

**TƏRCÜMƏ:** DİSCİPLİNE – NİZAM-İNTİZAM

- Sağlam təlim və tədris mühiti yaradılır;
- Tədris nizamlı təşkil edilir və keyfiyyəti qorunur;
- Şagirdlərə məktəb binalarında yaxşı davranma imkanı verilir;
- Şagirdlərin böyüklər kimi həyata hazırlanmasına kömək edilir.

Bu qaydalar şagirdlərin inkişafının cəmiyyətin bir problemi olmasını əsas tutaraq Cenevrə Uşaq Hüquqları Bəyannaməsi (CUHB) ilə təsbit edilmişdir. Uşaq hüquqlarına görə uşaqların gələcəkdə cəmiyyətin fəal üzvü olmaları və qanunlara əməl etmələri elə məktəb dövründə fərdidən ümumiyə doğru inkişaf etdirilməlidir.

### 3.1.2. Nizam-intizam qaydalarının komponentləri

Nizam-intizam qaydaları müşahidə və fəallığın dialektiv vəhdəti kimi şagirdlərin fiziki, fizioloji, davranış və psixoloji xüsusiyyətləri, davamlı böyümə və şüurunun formalaşdırılmasına xidmət edir.

Öyrənənlərin fiziki və emosional rifahı üçün təmiz və sağlam mühit vacibdir. Amerikalı alim Laurens Famer (Lawrence Farmer, 1999) məktəbdə təhlükəsiz mühitdə şagirdlərin davranış modelinin əsas komponentlərini aşağıdakı prinsiplərə uyğun şəkildə təqdim edir (Sxem 3.1):

1. Şagirdlərin hüquq və məsuliyyətləri;
2. Məktəbdə fiziki və psixoloji mühitin olması;
3. Valideyn və uşaqlar arasında müsbət, dəstəkləyici və sevgi münasibətləri.




**Sxem 3.1. Məktəbin təhlükəsiz davranış modeli (1999)**

**Məktəbdə fiziki mühit qaydaları**

Məktəbdə təhlükəsiz, təmiz və rahat şəraitdə yaradılan fiziki mühit şagirdlərin müsbət məktəb mühitinə verilən töhfədən xəbər verir. Bu həm şagirdin nailiyyəti, həm də davranışında əks olunur. Fiziki mühitə məktəbin aşağıdakı sahələri daxildir:

- Fiziki olaraq binanın saxlanması, istilik sistemi və otaqların rahatlığının səviyyəsi;
- Şagirdlərin rahatlığını təmin edən otaqlar, kabinetlər və laboratoriyalar;
- Səliqəli parta, lövhə, şkaflar və əyani vəsaitlər;
- Ətrafdakı səs-küy, işıqlandırma səviyyəsi və qapalı mühitdə havanın keyfiyyəti.

**Psixoloji mühit qaydaları**

Məktəbdə təhlükəsiz psixoloji bir mühitin təmin edilməsi üçün münaqişələr sülh yolu ilə həll edilməlidir. Bəzən məktəbdə diqqət çatışmazlığı pozğunluğu, hiperaktivlik və ya emosional pozğunluqla necə əlaqəli bir çox məlumatlar əldə edilir. Münaqişələri sülh yolu ilə həll etmək iqtidarında olmadıqlarını hiss edən şagirdlər kömək üçün məktəb psixoloquna müraciət etməlidirlər. Onlar hərəkətləri üçün məsuliyyət daşıyır və hər halda fiziki və ya şifahi təcavüzdən qaçmaq lazım olduğu və fiziki və ya şifahi təcavüzə yol verilməyəcəyini bilməlidirlər.

### 3.1.3. Məktəbin nizam-intizam qaydalarının tətbiqi

Məktəbdaxili qaydalar nəzakət, sağlam düşüncə və şəxsi təhlükəsizliyə əsaslanır və öyrənməyə dəstək olmaq üçün hazırlanır. Məktəb qaydaları uzun müddət cəmiyyətlə tərəfdaşlıq şəraitində qurulmuşdur. Bunlar ən geniş mənada məqbul davranış standartları, geyim və fərdi təqdimat baxımından məktəb gözləntilərini əks etdirir.

Məktəbdə şagirdlərin düşdükləri çətinliklərə görə nizam-intizam qaydaları tərbiyəvi yolla tətbiq edilir. Hər bir şagirdin təhsil alma hüququ olsa da, məktəbdə qaydanı pozduqda, başqalarının öyrənməsini çətinləşdirdikdə və ya təhlükəli bir hadisə törədikdə, nəticədə həmin şagird sinifdən çıxarıla bilər. Çox ağır hadisə törətdikdə, məktəbdənkənar müəssisədə təhsili təxirə salınaraq, problemin həlli yolları araşdırılır. Bunun üçün hər il şagirdlərin məktəb qaydaları ilə tanış olması vacibdir. Onlara qaydaların pozulması baş verdikdə nə olacağı söylənilməlidir.

Aşağıdakı qaydalar nizam-intizamın qorunmasına xidmət edir:

- Davamiyyət (məktəbə getmək və vaxtında orada olmaq);
- Dərsdən yayınma halları (bir müddət sinif və ya məktəbdən çıxmaq).

### 3.1.4. Şagirdlərin məsuliyyətləri

- Mütəmadi olaraq məktəbdə və təlimdə iştirak etmə, təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmə;
- Məktəbə gecikməmə, dərslərin başlanmasından əvvəl məktəbə gəlmə;
- Məktəbdə müəyyən olunmuş xarici görünüş tələblərinə riayət etmə;
- Məktəbin əmlakına və avadanlıqlarına ehtiyatla yanaşma, məktəbin binası və onun ərazisində təmizlik və intizama riayət etmə;
- Başqalarının təhsil alma hüququna hörmət etmə (Şəkil 3.2);
- Digər təhsilalan və pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşma;
- Dövlət, cəmiyyət, ailə və özünə münasibətdə şəxsi məsuliyyətini dərk etmə, qanunvericiliyə, etik normalara və təhsil prosesi ilə bağlı qaydalara əməl etmə.
- Məktəbin əmlakına dəymiş zərərə görə maddi məsuliyyəti şagirdlərin valideynlərinin (qanuni nümayəndələrinin) üzərinə qoyma;



**Şəkil 3.2. Şagirdlərin davranış məsuliyyətləri**

### 3.1.5. Məktəbli forması

Şagirdlərin məktəbdə olduqları zaman hər cəhətdən məktəblə əlaqəli olmaları, məktəbi təmsil edən məktəb forması geyinmələri, səliqəli və rahat üslubda görünmələri məktəb qaydalarına əməl etmələrinin təcəssümüdür (Şəkil 3.3).


**Şəkil 3.3. Məktəbli formasına nəzarət**

Şagirdlərin xarici görünüşünə qarşı tələblər məktəbin daxili nizam-intizam qaydaları ilə tənzimlənə bilər. Adətən şagirdlərin xarici görünüşləri üzrə qaydalar aşağıdakı kimi təqdim edilir:

- Məktəbi təmsil edərkən şagirdlər hər zaman təmiz və səliqəli olmalıdırlar;
- Məktəb forması təmiz, səliqəli və ütülənmiş olmalıdır. Cırıq paltar, qısa ətək, hündürdaban ayaqqabı ilə məktəbə gəlmək yolverilməzdir; İri ölçülü bəzək

(zərgərlik) əşyaları taxılmamalıdır;
- Şagirdlərin saçları - oğlanlarda səliqəli qısa saç kəsimi, qızlarda saç düzümü səliqəli şəkildə olmalıdır;
- Əllər və dırnaqlar qısa kəsilməli və təmiz olmalıdır;
- Şagirdlərin saç və geyim rəngləri təbii rəngə uyğun olmalı və heç bir kosmetik boya və ya bəzək-düzəyə icazə verilməməlidir.

### 3.1.6. Davranış qaydalarının tətbiqində valideynlərin rolu

Davranışında valideynlər maraqlı tərəf kimi məktəbdə nizam-intizam qaydalarını - sosial qaydaları təsdiqləməli və uşaqların mənafeyinə uyğun məktəblə əlaqə yaratmalıdırlar (Şəkil 3.4).

**Davamiyyətə nəzarət qaydaları**

Valideynlər övladlarının 5 yaşdan 18 yaşına qədər və ya məzun olana qədər məktəbə getmələrini təmin etmək üçün məsuliyyət daşıyırlar. Uzun müddət dərsdə iştirak etməyən şagirdin davamiyyəti haqqında valideynlər rəsmi sənəd təqdim etməlidirlər. Üzrlü səbəbdən təlimdə iştirak etməməsi uzun sürən xəstəlik, məktəbin dəyişilməsi və ya ünvanın dəyişilməsi ilə izah oluna bilər. Bu məqsədlə, valideyn əvvəlcə şagirdin davamiyyətinin pozulmaması üçün xəstələnmə, başqa məktəbə keçmə və ya yaşadığı ünvanı dəyişməni sübut edən sənədlə müraciət etməlidir.



**Şəkil 3.4. Davamiyyətə nəzarət qaydaları**

**Üzrlü səbəblər**

Şagirdlər yalnız uzun sürən xəstəlik səbəbindən məktəbə gəlmirsə, məktəb rəhbərliyi onun evdə təhsilini təmin edir. Əgər üzrlü səbəbdən daha çox dərs və gün buraxılarsa, o zaman məktəbə həkimdən yazılı bir qeyd verilməlidir. Digər fövqəladə hallarda (xəstələnmə və digər səbəblər) az dərs buraxılmaqla bir günlük (4 saat) qısa müddətli icazə üçün ərizə ilə yazılı müraciət edilə bilər və bu halda şagirdə buraxılan dərslər üçün əlavə dərs məşğələlərində iştirak edilməklə icazə verilir.

**Üzrsüz səbəblər**

Üzrsüz səbəblərdən dərslərdə iştirak etməyən şagirdlərin müəyyən olunması müxtəlif şərtlərlə izah edilir. Uzun müddət üzrsüz səbəbdən dərs buraxan və ya çətin şagirdlər məktəbdən azad olunurlar. Digər üzrsüz səbəblərdən dərslərdə iştirak etməyən şagirdlərə müəyyən qədər həssas yanaşılır. Şagirdlərin üzrsüz dərsdən qalmaları araşdırmaya görə 4 əsas səbəbdən ola bilər:

1. Heç bir səbəb olmadan dərsdə iştirak edilmirsə;

2. Şagirdin dərsdə iştirak etməməsi yazılı şəkildə izah edilmirsə;
3. Bir tədris ilində daha çox araşdırılmamış dərslər buraxılmış olarsa, onda bu səbəbdən üzrsüz səbəbdən qaydalar pozulmuş olur. Belə hallarda əlavə tapşırıqların verilməsindən istifadə olunur. Üzrsüz səbəblərdən dərslərdə iştirak etməyən şagirdlərə məktəb meneceri tərəfindən buraxılan dərslər üzrə tapşırıqların yerinə yetirilməsi verilir. Belə olan hallarda, bəzən şagirdlərə məktəbdə buraxılan dərslər üzrə məsləhət saatlarında iştirak etmək və bundan aldıqları faydanı qısa şəkildə şərh etmək tapşırılır.

**Dərsdən yayınma**

Məktəbdə davranış qaydalarında dərsdən yayınma çox ciddi bir problemdir. Bu problemin həll edilməsi üçün aşağıdakı qaydaların həyata keçirilməsi tələb olunur:

- Valideynlərə bildirilir ki, uşaqların dərsdən yayınması səbəbləri haqqında sənəd təqdim edilsin və ya məktəblə əlaqə saxlanılsın;
- Məktəbdə yetkinlik yaşına çatmayan uşaqlar təhlükə törədərlərsə, əvvəlcə valideynə məlumat verilir, nəticə olmadıqda təhlükə törədən şagird haqqında məktəb polisinə təqdimat göndərilir;
- Məktəbdə şagirdin uzun müddət davranışı pozması müşahidə olunarsa və valideynin laqeydliyi baş verərsə, o zaman məktəbdə ailə və uşaq problemləri komitəsinə (AUPK) yazılı təqdimatla müraciət edilir və ciddi problemin baş verməsi barədə məlumat göndərilir.

### 3.1.7. Məktəbdə qadağalar haqqında olan qaydalar

Məktəbdə nizam-intizama nəzarət mexanizmlərinə eyni zamanda şagirdlərin təhlükəsizliyini təmin edən davranışlar da daxildir. Təhlükəsizliyin təmin olunması üçün məktəbdə bəzi qadağalar müəyyən edilir və məktəb foyesində bu qadağalar şagirdlərə xəbərdarlıq olaraq uyğun işarələrlə nümayiş etdirilir (Şəkil 3.5):



**Şəkil 3.5. Şagird təhlükəsizliyini təmin edən qadağalar**

Şagirdlərə qadağandır:

- Tənəffüs zamanı qadağan edilmiş yerlər hesab edilən çardaq, zirzəmi və məktəb mətbəxində gəzmək;
- Tənəffüs zamanı məktəbin binasını tərk etmək və ya darvazanı aşmaq;
- Pəncərə altı üzərində oturmaq və nəfəslikləri açmaq;
- Şüşə alətlər, qurğular və kimyəvi məhsullar olan fizika və kimya laboratoriyalarında əşyalara toxunmaq;

- Yeməkxanada spirtli içkilərdən istifadə etmək;
- Məktəbə kimyəvi maddələr, dərman, bıçaq və ya digər təhlükə törədən əşyaları gətirmək;
- Siqaret, tütün, kibrit, yanacaq, partlayıcı və təhlükəli materiallardan istifadə etmək;
- Video kameralar, telefonla şantaj etmək, qadağan olunmuş saytlar və ya hər hansı bir təhqiramiz materialları nümayiş etdirmək;
- Məktəbə bahalı velosiped, aksesuarlar və digər avadanlıqları gətirmək.

Beləliklə, nizam-intizam qaydalarının dəyişdirilməsi və məktəblərdə müxtəlif səmərəli üsullarla tətbiqi  şagirdlərin düzgün davranışının fizioloji və ya psixoloji problemlərlə istiqamətlənir. XX əsrin nizamlı və intizamlı öyrənənləri özlərinin gələcək karyeralarında, əmək bazarı mühiti və iş rejimində, şəxsi həyatlarında və icma ilə ünsiyyətində, cəmiyyətdə məktəb intizamının silinməyən izləri özünü göstərir və bununla da, təhsilin şəxsiyyətin formalaşmasında köklü bir baza olduğunu sübut edir.

## Tələbələr üçün fəaliyyətlər

**1. Müzakirə (25 dəq.). Əqli hücum**

Tələbələr 3-4 qrupa bölünürlər və hər tələbəyə müxtəlif davranış pozulmasını göstərən şəkillər təqdim edilir. Məsələn, məktəbdə pəncərənin kənarında oturmaq, dərs zamanı məktəb həyətində siqaret çəkmək, məktəb yeməkxanasında telefonla oynamaq və s.. Müzakirə aşağıdakı sahələr üzrə aparılır.

1. Davranışın pozulmasının növü: ..........
2. Cəza növü: ..........
3. Şagirdlərin hüquq və məsuliyyətləri: ..........
4. Məktəbin fiziki və psixoloji mühiti: ..........
5. Valideynlərin dəstəyi: ..........

**2. Cütlər şəklində iş. Məktəb qaydalarının hazırlanması**



**A.** Məktəb davranış qaydalarını yazılı şərh edin:
Fiziki qaydalar: ____________________
Psixoloji qaydalar: ____________________
Sosial qaydalar: ____________________

**B.** Məktəblərdə müəllimlər üçün dörd davranış qaydası hazırlayın. Məsələn: Dərslər zamanı müəllimlərin qışqırmalarına icazə verilmir

**3. Rollu oyun.** Qrup şəklində qərar vermə - pis davranışa görə uyğun cəzanın verilməsi.
İki qrupa bölünün və cəza növlərini seçib qeyd edən eksperti təyin edin. Hər kəsin fikirlərinin nəzərə alan bir sədr təyin edin. Fəaliyyətin sonunda bütün qrupların cəza növlərini müqayisə edin və ən yaxşısını seçin.

**4. Situasiyaların təhlili (Case Study) – 25 dəq.**

Mətni oxuyun və Freyanın davranışına və məktəbin qaydalarına aid təkliflər hazırlayın.
Şotlandiyadan olan 15 yaşlı şagird Freya Macdonald İngiltərə məktəbində təhsil alır. O, dərslərindən əla qiymətlər alır, məktəb layihələrində fəal iştirak edir və bəzi müəllimlərinin sevimlisinə çevrilir. Amma Freya məktəbə son modaya uyğun geyimdə, saçları qırmızı rəngə boyanmış, dizləri yırtıq cins şalvar və əlində son model telefonla gəlir. Tənəffüs zamanı məktəb dəhlizində telefonundan yüksək musiqi parçaları səsləndirir və bəzən də xoşagəlməz hərəkətlər edir. O, bu görünüşü ilə digər şagirdlərin hiddətinə səbəb olur. Dərs saatlarından sonra o, davranış qaydalarını pozduğu üçün məktəbdə saxlanır. Freya dərsdən sonra məktəbdə saxlanılmasından şikayət edir. Buna görə o, orta məktəbin nümayəndələrini günahlandırır və onları yuxarı orqanlara şikayət edir. Yeniyetmə hesab edir ki, bir şagirdin məktəb binasında istəklərinə qarşı saxlanması qanuni deyil. Freyanın probleminin həll olunması üçün Rollu Oyun təşkil edin və situasiyanı təhlil edərək məktəbdə davranış probleminin həlli yollarını hazırlayın.

## Qiymətləndirmə

Qiymətləndirmə aşağıdakı meyarlara əsasən həyata keçiriləcək

**“Məktəbdaxili nizam-intizam qaydalarını əməkdaşlıq şəraiti və uşaq hüquqlarının müdafiəsi prinsipləri əsasında hazırlayır”**

**1. Verilmiş sualları müzakirə edin və cavablandırın:**

- Məktəbin nizam-intizam qaydaları hansı formada planlaşdırılır?
- Nizam-intizam qaydalarında uşaq hüquqları necə müdafiə edilir?
- Valideynlər uşaqların davranışı prosesində necə fəaliyyət göstərirlər?
- Məktəbdə qadağan olunan qaydalara necə əməl edilir?
- Məktəbin fiziki mühitində hansı qaydalar əhatə edilir?
- Məktəbdə cəza formaları hansı şəkildə tətbiq olunur?

**2. Aşağıdakı variantlardan hansı fiziki mühitə aid DEYİL?**

A) Rahatlığı təmin edən otaqlar, kabinetlər və laboratoriyalar;
B) Şagirdlərin müsbət davranışı və fiziki görünüşü;
C) Məktəbin tədris və istirahət zonası;
D) Təlimdə istifadə olunan elektron resurslar.

**3. Məktəbdə nizam-intizam qaydalarına aid üç əsas qaydanı qeyd edin:**

1. ____________________________________________
2. ____________________________________________
3. ____________________________________________

**4. Qrup işi. Verilmiş sahələr üzrə fikirləri qeyd edin və müzakirə edin:**

| № | Sahələr | Problemləri | Həlli yolları |
|---|---|---|---|
| 1. | Nizam-intizam qaydaları | | |
| 2. | Məktəbin fiziki mühitinin təminatı | | |
| 3. | Tədrisdə psixoloji mühitin təminatı | | |
| 4. | Valideynlərin davranış məsuliyyəti | | |
| 5. | Şagirdlərin məsuliyyətləri | | |
| 6. | Məktəb rəhbərliyinin öhdəlikləri | | |
| 7. | Davamiyyət | | |
| 8. | Məktəbdən qovulma | | |
| 9. | Dərsdən yayınma | | |
| 10. | Məktəbli forması | | |

## 3.2. Təhsilalanların tərbiyə, özünütərbiyə və yenidəntərbiyəsi istiqamətində müvafiq yanaşmalar tətbiq edir

### 3.2.1. Təhsilalanların (şagirdlər) tərbiyə, özünütərbiyə və yenidəntərbiyəsi

Tərbiyə davranışda inkişaf, müsbət davranış, geniş əxlaqi dəyərlərə hörmət, cəmiyyətin inkişafında mütərəqqi düşüncəyə malik və müsbət möhkəmləndirmə, modelləşmə və ailə dəyərlərinin qorunmasını nəzərdə tutan vasitələr başa düşülür (Şəkil 3.6).


**Şəkil 3.6. Şagirdlərin tərbiyə olunması yolları**

Şagirdlərin *tərbiyəsini* təkmilləşdirmək üçün nizam-intizamın üç növünü nəzərə almaq lazımdır:

1. Profilaktik;
2. Dəstəkləyici;
3. Korreksiyaedici.

**Profilaktik intizam –** şagirdlərin xoşagəlməz rəftarının qarşısını almaq üçün görülən tədbirlərdir.

**Dəstəkləyən intizam –** şagirdlərin əvvəlki vəziyyətlərinə qayıtmalarına kömək etməklə özünə nəzarət etmələri üçün görülən tədbirlərdir.

**Korreksiyaedici intizam –** şagirdlər sinif və ya məktəb qaydalarına əməl etmədikdə görülən tədbirlərdir.

Buna uyğun olaraq, öyrənənlərin tərbiyə, özünütərbiyə və yenidəntərbiyəsi ciddi bir istiqamət kimi məktəbin təlim-tədrisi inkişaf planında əsas yer tutur. Şagirdlərin tərbiyəsi, özünütərbiyə və yenidəntərbiyəsi mövzusu uzun zaman effektiv nizam-intizamın yaradılmasında daha çox müşahidə olunmuşdur.



**Sxem 3.2. Şagirdlərin tərbiyə olunması istiqamətləri**

Şagirdlərin tərbiyəsi, özünütərbiyəsi və yenidəntərbiyəsi (Sxem 3.2) şəxsiyyətyönümlü təhsildə pedaqoji prosesin tamlığı və tərbiyəedici xarakterə malik olması

kimi başa düşülür. Təlim prosesində öyrənənlərin tərbiyə edilməsi kimi tərbiyə mövzusu ayrılıqda düşünülmür və bu proses şəxsiyyətin fəal-interaktiv təlimdə və əməkdaşlıqda düzgün inkişafı ilə nəticələndirilir.

Bu baxımdan şagirdlərin düzgün tərbiyəsi aşağıdakı hallardan asılıdır:

- Nizam-intizam məsələlərinin idarə olunmasının mütəşəkkil olması;
- Təlimin interaktiv şəkildə öyrədici və inkişafetdirici xarakterdə olması;
- Şagirdlərdə müsbət keyfiyyətlərin ortaya çıxarılması və onlara istiqamətlərin verilməsi;
- Xoşagəlməz halların əvvəlcədən görülməsi və problemlərin vaxtında həll olunması;
- Şagirdlərin davranışına dair hesabatların hazırlanması;
- Təlimdə özünütərbiyə strategiyasının səmərəli tətbiq edilməsi;
- Davranış qaydalarının pozulması hallarında yenidəntərbiyə mexanizminin işə salınması.

Nizam-intizam şagirdlərə qaydalara əməl etməyi öyrədir və bu qaydalara uyğun özlərini necə yetişdirmək həm məktəb, həm müəllim və həm də şagirdlərin özlərini necə tərbiyə etmələri ilə əlaqələndirilir. Uşinski öz tədqiqatlarında yazır ki, müəllimin beynində dumanlı olan bir şey şagirdin beynində zülmətə çevrilir. Bu baxımdan şagirdlərin tərbiyəsində müəllimin şəxsi keyfiyyətləri daha çox nəzərə alınmalıdır.

### 3.2.2. Şagirdlərin özünütərbiyəsinin inkişafı

Özünütərbiyə bir inkişaf növü kimi, şəxsiyyətin inkişafının müəyyən səviyyəsi, onun özünüdərki və davranışın digər insanların davranışı ilə müqayisədə təhlilini nəzərdə tutur. Şəxsi potensial imkanları obyektiv qiymətləndirmə və hərəkətlərdə çatışmazlıqları görə bilmə – yetkin insanların işidir və onların daxili tərbiyələrinin təşkilinin əsasını təşkil edir. Adından məlum olduğu kimi, burada məqsəd şagirdlərdə daxili intizamın inkişafına kömək etməkdir. Öz intizama sahib olduqda şagirdlər öz hərəkətləri üçün nəzarət və məsuliyyət daşıyacaqlar. Şəxsi nizam-intizama fikir verilərkən yeniyetmələrin yemək pozulmaları, asılılıqlar, siqaret, içki və digər mənfi vərdişlərin aradan qaldırılması çox vacibdir. Özünütərbiyə eyni zamanda düzgün gün rejimi daxilində daha yaxşı təhsil almaq, hər hansı bir bacarığı əldə etmək, özünü inkişaf etdirmək və mənəvi böyümə və düşüncə tərzində uğur qazanmaq üçün vacib bir tələbdir.

**Özünütərbiyədə istifadə olunan yeni üsullar**

Həqiqət budur ki, özünü tərbiyə etmə fikri bir xüsusiyyət deyil və öyrənilmiş bir bacarıqdır. Bəzi tədqiqatçı psixoloqlar özünütərbiyənin beş yolunu təklif edirlər: *qəbuletmə, iradə, zəhmət, çalışqanlıq və əzm* (Şəkil 3.7).




**Şəkil 3.7. Özünütərbiyə üsullarının tətbiqi**

**TƏRCÜMƏ:** SELF-CONTROL – ÖZÜNƏ NƏZARƏT

Aydındır ki, bir çox insan öz intizamını necə artırmağı bilmir. Özünütərbiyəni inkişaf etdirməyin yeganə yolu intensiv təcrübədən keçməkdir. Şagirdlərin davranışlarının düzgün

formalaşdırılması və ya tərbiyəsi fiziki və mənəvi inkişafa təsir edən müxtəlif tipli məntiqi və yaradıcı çalışmalar və inkişafyönümlü fəaliyyət vasitəsilə həyata keçirilir.

### Özünütərbiyə strategiyaları

Özünü tərbiyələndirmək, özünü inkişaf etdirmək və hədəfə çatmaq üçün yeni düşüncə, hərəkət və danışma vərdişləri yaradan seçmə dərslərin təşkilini səmərəli üsul hesab etmək olar. Belə dərslərdə özünü tərbiyə etmək üçün vəzifə yönümlü tapşırıqlar seçilir. Şagirdlər özünü tərbiyə etməkdən imtina etmək əvəzinə, müsbət səy göstərməyə həvəsləndirilməlidir.

### Gün rejimini planlaşdırmaq

- Şagirdi gün rejimini planlaşdırmağa həvəsləndirmək lazımdır. Planlaşdırma ən vacib işlərə diqqət yetirməyə kömək etməkdə başa çatdırmaq və işə başlamağa diqqəti yönəltməklə süründürməçiliyin qarşısını ala bilir. Bu zaman tapşırıqların və onun yerinə yetirilməsi vaxtının verilməsi vacibdir. Vaxtı müəyyən etmək gündəlik gücdən istifadə etməyə imkan yaradır (Şəkil 3.8);
- Bir gün daha çox saat sərf etmək əvəzinə, həftənin hər günü üçün normal ölçüdə tapşırıqları müəyyən etmək lazımdır. Hər şeydən əvvəl vaxt ayırmadan yerinə yetiriləcək tapşırıq üçün qarşıya bir məqsəd qoymaq səmərəsiz olur.



**Şəkil 3.8. Gün rejiminin düzgün qurulması**

### Vaxtı idarə etmək

Vaxtı idarə etmək üçün şagird əvvəlcə öz davranışını müəyyən etməlidir. Özünü idarə edə bilməyən şagird vaxta nəzarət edə bilməz. Buna vəzifə yönümlü özünütərbiyə ilə başlamaq lazımdır. Özünə nizam-intizam qurarkən şagird vaxt idarəçiliyi qurur, tapşırıqlara nəzarət etdiyi zaman özünütərbiyəni artırmış olur və zaman idarəçiliyini qurarkən özünəinam yaradır.

### Gün ərzində görüləcək işlər

- Tapşırıqlar üzrə iş gününü cədvələ salmaq;
- Müəyyən edilən gün ərzində yerinə yetiriləcək tapşırıqlar və onlara sərf olunan vaxtı qeyd etmək;
- Görüləcək digər işləri siyahıya almaq və ən vaciblərinə dərhal başlamaq;
- Vərdişin yararlı olub olmadığını görmək üçün bir neçə gün seçmək;
- Vərdişlərin zamanla formalaşdırılmasını ölçmək və lazımi vaxt və vərdişi qeyd

etmək.

Alman tədqiqatçısı V. Hofmana görə (Wilhelm Hoffman, 2013) insanların özünütərbiyəsi üçün bu yollar onu streslərdən uzaq və həyata şən olmağa sövq edir. Nizam-intizam özünəinamı artırır - özünüzü, duyğularınızı, əhvalınızı və hərəkətlərinizi idarə etmək inam və hörmətinizi artırır.

Özünütərbiyə üzrə ən yaxşı vərdişləri inkişaf etdirməyin yolları:

- Şəxsi zəif tərəfləri bilmək;
- Ətrafdakıların diqqətini cəlb edib-etməmək;
- Aydın hədəfləri təyin etmək və bir icra planı qurmaq;
- Şəxsi tərbiyəni inkişaf etdirmək;
- Yeni vərdişlər yaratmaq;
- Uyğun olmayan davranışları təxirə salmaq;
- Özünü bağışlamaq;
- Uğurları müəyyən etmək və ölçmək;
- Stressi necə idarə etməyi öyrənmək;
- Tez-tez və sağlam qidalar yemək;
- Kifayət qədər yatmaq və idman etmək.

### 3.2.3. Yenidəntərbiyədə korreksiyaedici və ya bərpaedici yanaşma

Yenidəntərbiyə və ya bərpaedici intizam şəxsiyyətin xarakterində gedən gizli və uzunmüddətli prosesdir, çünki bəzən uşaqlarda müxtəlif xarakter baxımından müəyyən lazımi keyfiyyətlər inkişaf etməmiş səviyyədə olur. Belə hallarda bərpaedici intizam xarakterinə malik olan yenidəntərbiyə sosial cəhətdən təqdir olunmayan davranışların, şəxsiyyətin mənfi keyfiyyətlərinin və hər hansı hüquqa zidd hərəkətlərin aradan qaldırılmasına böyük rol oynayır. Bərpaedici intizamın məqsədi:

- Şagirdlərin zərərli davranışının aradan qaldırılmasına yönəlir;
- Davranışda korreksiya etmə və əlavə davranışlar formalaşdırır;
- Problemi həll etmə keyfiyyətləri və vərdişləri həyata keçirir;
- Sosial kompetensiyaları olmayanları öyrətmək üçün bir fürsət yaradır;
- Cəzalardan daha çox davranışları dəyişdirməkdə daha təsirli olur;
- Vasitəçilik və ya barışıq strategiyası kimi işləyir;
- Empatiya, mərhəmət və münaqişələrin həlli bacarıqları kimi əsas sosial kompetensiayalar daha da inkişaf etdirir.

Bəzən yenidəntərbiyədə cəzalar nə qədər təsirli bir vasitə olsa da, bu, yaxşı intizamın cəzalarla əlaqəli olduğunu ifadə etmir. Şagirdlərin hərəkətlərində baş verən xoşagəlməz hallar yenidən tərbiyə edildikdə və ya özünütərbiyə vasitəsilə həyata keçirildikdə sonda nəticə uğurlu alınır. K.D. Uşinski yazırdı ki, hər şeydən əvvəl mənfi vərdişlər xeyirxah vərdişlərin formalaşdırılması ilə ləğv edilə və müsbət xeyirxah vərdişlər mənfi vərdişlərin əvəzi kimi çıxış edə bilər. Məktəblərdə yenidəntərbiyə işləri Zehr (1990) və bir çoxunun

rəhbərliyi ilə beynəlxalq miqyasda həyata keçirilmişdir. Yenidəntərbiyə üzrə bərpaedici təcrübələr və üsullar şagirdlər arasındakı qarşıdurma, bir-birinə yönəldilmiş günahlandırma və cəzalandırma ilə deyil, münasibətləri bərpa etmək ədalət prinsipinə əsaslandırılır.

Beləliklə, bərpaedici fəaliyyətlərə məruz qalmaq, məsələn, təbiəti müşahidə etmək daha təsirli idraki fəaliyyət və daha çox zehni enerji, dinclik və təravət hissi ilə əlaqələndirilir (Şəkil 3.9). Məktəb miqyasında bərpaedici davranış təcrübələri aşağıdakı yanaşmalarla tətbiq olunur:



**Şəkil 3.9. Yenidəntərbiyənin düzgün qurulması yolları**

- Əvvəlki vəziyyətə qayıtmaq üçün bərpa olunmuş hesabatlar hazırlamaq;
- Psixoloqun dəstəyi ilə söhbətlər aparmaq;
- Sinif müzakirələri və məktəb forumları keçirmək;
- Qonaqlıq mühiti yaratmaq və könüllü üzvləri dəvət etmək;
- Həmkarlar komitələrinin görüşünü yaratmaq;
- Bərpa görüşləri və barış dairələri yaratmaq;
- Bərpaedici qrup və cütlüklərin davranış mövzularına dair konfrans keçirmək;
- Konfranslarda giriş çıxışları və vasitəçi konfransları təşkil etmək;
- Valideynlər və ya qəyyumların məktəb icmasında iştirakını təmin etmək;
- Sinifdə mövzunun dərinliyini araşdıran müzakirə dairələri yaratmaq.

Nəticə olaraq qeyd etmək lazımdır ki, tərbiyə işində müəllimin nəzarəti ilə yanaşı, şagirdləri də özünənəzarətə, özünütərbiyə və özünüqiymətləndirməyə cəlb etmək əhəmiyyətlidir. Tərbiyə prosesi o zaman səmərəli olur ki, müəllim şagirdlərdə özünütərbiyəyə tələbat formalaşdırsın.

## Tələbələr üçün fəaliyyətlər

1. **Qrup müzakirəsi.** 4 qrupa bölünün və verilmiş mövzu haqqında fikirlərinizi yazılı təqdim edin:

**Qrup A.** Dərs prosesində sizi hirsləndirən və halınızı pozan 5 fikri qeyd edin. Bu halların başvermə səbəbi və həlli yollarını yazın.

**Qrup B.** Profilaktik intizama aid hansı intizam qaydaları daxildir?

**Qrup C.** Dəstəkləyən intizam hansı situasiyalarda fayda verir?

**Qrup D.** Korreksiyaedici intizamın hansı nəticələri olur?

**2. Özünütərbiyə üzrə verilmiş fikirlərdən qısa mətn tərtib edin:**

Özünütərbiyə nə kimi görünür? Özünü idarə edən şagirdlər:

1. Hərəkət etməzdən əvvəl düşünürlər;
2. Xasiyyətlərinə nəzarət edirlər;
3. Yaxşı seçim edirlər;
4. Plan və tapşırıqlarla davam edirlər;
5. Heç kim axtarmadığı halda belə davranırlar.

**3. Özünütərbiyə davranış modelini tamamlayın:**

➢ Özünüzdə gördüyünüz 3 əsas pozitiv hərəkət

1. ..............................................; 2. ..............................................; 3. .............................................. .

➢ Özünüzdə gördüyünüz 3 əsas neqativ hərəkət

1. ..............................................; 2. ..............................................; 3. .............................................. .

**4. Özünütərbiyə strategiyaları üzrə verilmiş fikirləri tamamlayın:**

| Özünütərbiyə strategiyaları | Fəaliyyətlər | Qazanılan vərdişlər | Çətinliklər |
|---|---|---|---|
| Gün rejimini planlaşdırmaq | | | |
| Vaxtı idarə etmək | | | |
| Gün ərzində görüləcək işlər | | | |

**5. Yenidəntərbiyə üzrə verilmiş yarımçıq fikirləri tamamlayın:**

1. Dostlarda heyran olduğum xüsusiyyətlər bunlardır:____________________________________
2. Dostlarımla etmək istədiyim bəzi şeylər:____________________________________________
3. Dostumu sevirəm, çünki: ______________________________________________________
4. Dostlarımın yanında olarkən duyduğum hisslər:________________________________________
5. Dostlarımla birgə etdiyim fəaliyyətlər:_____________________________________________
6. Mən yaxşı bir dost olduğumu hiss edirəm, çünki:______________________________________

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**"Təhsilalanların tərbiyə, özünütərbiyə və yenidəntərbiyəsi istiqamətində müvafiq yanaşmalar tətbiq edir"**

**1. Sualları müzakirə edin və cavablandırın:**

- Şəxsiyyətyönümlü təhsildə tərbiyə işi təlimdə necə inkişaf etdirilir?
- Nizam-intizam növlərinin şagirdlərin tərbiyə olunmasında hansı rolu vardır?
- Şagirdlərin tərbiyə olunması istiqamətləri bir-birini necə tamamlayır?
- Özünütərbiyə strategiyaları şagirdlərdə hansı keyfiyyətləri yaradır?
- Yenidəntərbiyə üsulları hansıdır və necə həyata keçirilir?
- Yenidəntərbiyə hansı vərdişləri formalaşdırır?

**2. Verilmiş fəaliyyətləri Özünütərbiyə (Ö) və Yenidəntərbiyə (Y) üzrə cavabları qeyd edin:**

| | |
|---|---|
| 1. Gün rejimi hazırlamaq və fəaliyyətlər üçün vaxtı təyin etmək | |
| 2. Davranış dəyişiklikləri haqqında hesabat hazırlamaq | |
| 3. Psixoloqlarla evdə söhbətlər təşkil etmək | |
| 4. Təbiəti müşahidə etmək və zehni fəaliyyət göstərmək | |
| 5. Gündəlik fəaliyyətləri siyahılaşdırmaq | |
| 6. Xoşagəlməz vərdişləri yada salmamaq | |
| 7. Valideyn-məktəb müzakirələrində olmaq | |
| 8. Duyğular, hərəkətlər və əhvalı idarə etmək | |
| 9. İnciyən dostları evə dəvət edib maraqlı söhbətlər etmək | |
| 10. Bütün günü kompüterin qarşısında oturmağı təbiətdə olmaqla əvəz etmək | |

**3. Özünütərbiyə və yenidəntərbiyə üzrə üç əsas qazanılan vərdişi tətbiq səviyyəsinə görə qeyd edin:**

Özünütərbiyə

1. ______________________________
2. ______________________________
3. ______________________________

Yenidəntərbiyə:

1. ______________________________
2. ______________________________
3. ______________________________

## 3.3. Nizam-intizam qaydalarının səmərəli tətbiqi yollarını şərh edir

### 3.3.1. Məktəbdə nizam-intizam qaydalarının rolu

Məktəblərin nizam-intizamı, şagirdlərin davranışının tənzimlənməsi, məktəbdə cəzalar və intizam strategiyaları sistemi və düzgün davranış kodunu xatırladan bir qaydalar toplusudur. Bu qaydaların vahid strukturda tətbiqi məktəb rəhbərinin, pedaqoji və işçi heyətinin, valideynlərin, psixoloqun və maraqlı tərəflərin birgə səmərəli işini əks etdirir (Şəkil 3.10).



**Şəkil 3.10. Məktəbdə nizam-intizam qaydaları**

Məktəblər təlim və tədrisin keçirildiyi məkan olmaqla nizam-intizam qaydalarının birgə əməkdaşlıqda düzgün tətbiqi və tədrisin səmərəli təşkilinə xidmət edir. Bəzən nizam-intizam prosesində çatışmazlıqlar daha çox üstünlük təşkil edir. Məktəb intizamına təsir edən amillər, əsasən, bunlardır: *Müəllimdə liderliyin olmaması, mövcud təhsil sistemi, şagirdlərdə davamlı idealın olmaması, iqtisadi çətinliklər, ünsiyyətin olmaması, müəllimin xoşagəlməz davranışı və s..*

Düzgün tətbiq olunan intizam bəzən çox sərt və ya sərt qəbul edilir. Çətin bir nizam-intizam şagirdin tapşırığı yerinə yetirməsinə müvəffəq ola bilsə də, üsyankar və hörmətsiz davranış, özünə hörmətin aşağı olma və hirslənməyə səbəb ola bilər. Nizam-intizamın birgə tətbiqi şagirdlərin ev tapşırıqlarını yerinə yetirmələri, mövzuları nəql etmələri və öz uğurları ilə fəxr etmələri istiqamətində yox, onların şəxsi xarakterinə və keyfiyyətli davranış mədəniyyətinə təsir etməsi kimi başa düşülür. Bu baxımdan məktəb intizamının əsas məqsədləri aşağıdakı fəaliyyətləri nəzərdə tutur:

- Rəhbərlik, uşaq birlikləri və işçi heyətinin qarşılıqlı ünsiyyətdə nizam-intizam prosesinə dəstəyini gücləndirmək;
- Müəllimlərin və psixoloqların davranışa nəzarətini təlim mühitində formalaşdırmaq;
- Valideynlərin səyi ilə davranış problemlərini həll etmək və şagirdləri intizam ruhunda tərbiyə etmək;
- Müəllimlə əməkdaşlıqda şəxsi davranışda müsbət dəyişiklik yaratmaq;
- Şagirdlərin özünüidarə orqanlarında müstəqilliyini təmin etmək;
- İctimai təşkilatların və maraqlı tərəflərin davranışa münasibətini dəyərləndirmək;
- Şiddətli davranışla əlaqəli ciddi davranış hədəflərini məğlub etmək.

Təhsildə nizam-intizamın uyğun qaydalara əsasən tənzimlənməsi şagirdlərin bir şəxsiyyət kimi yetişdirilməsi və həyatda uğur qazanmaları üçün məktəb idarəçilərinin, müəllimlərin, valideynlərin və maraqlı tərəflərin birgə səyi nəticəsində həyata keçirilir. Maraqlı tərəf kimi ictimai təşkilat nümayəndələrinin şagirdlərlə görüşü və intizam müzakirələrinə dəvət olunması təqdirəlayiqdir. Burada təşkilatlar tərəfindən istehsalat təcrübəsinin şagirdlərin əmək davranışının təkmilləşdirilməsi üzrə layihə təklifləri, mükafatlandırma, çətin davranışı olan şagirdlərə sponsorluq və s. daxildir.

### 3.3.2. Rəhbərlik və işçi heyəti tərəfindən nizam-intizam qaydalarının idarə olunması

Müəssisədə nizam-intizamın birgə əməkdaşlıqda tətbiqi üzrə direktorun rolu liderlik, müəllim qiymətləndirilməsi, təhsilalanların davranışı və digər bir çox məsələni əhatə edir (Şəkil 3.11).




**Şəkil 3.11. Nizam-intizam qaydalarının idarə olunması**

**Tərcümə:** Discipline – Nizam-intizam

Rəhbərlik və işçi heyətin davranış və idarəetmə bacarıqlarını müəyyən edir:

- Dərs qaydalarını ilin əvvəlindən təyin etmək;
- Dərs ilinin əvvəlindən gözləntilər və hədəfləri müəyyən etmək;
- Şagirdləri nizam-intizam qaydaları ilə tanış etmək;
- Davranış üzrə nəzarət prosedurlarını bilmək;
- Müsbət intizam texnikalarına sahib olmaq;
- Yanlış davranışların əsas səbəblərini araşdırmaq;
- Konfliktlərin həlli üzrə məsləhət şuraları yaratmaq;
- Şagirdlər üçün fərqli planlar hazırlamaq;
- Şagirdlərlə davranış hesabatı hazırlamaq;
- Ən yaxşı davranış nümunələrinin nümayişini təşkil etmək;
- İctimai təşkilat nümayəndələrini məktəbin davranış qaydaları ilə tanış etmək.

### 3.3.3. Məktəb direktorunun nizam-intizamda rolu

- İnnovativ intizam təcrübələri üçün aydın və müntəzəm olaraq bir görüntü ilə ünsiyyət qurur;
- Məktəb icmasının bütün üzvləri, işçiləri, şagirdləri və ailələri cəlb edir;
- Ədalətli məktəb qaydaları hazırlayır;
- İntizamla əlaqəli məlumatların nəzərdən keçirilməsi üçün təhsilalanlar və işçi heyətdən ibarət bir komanda yaradır;
- Məktəbdə nizam-intizam siyasətini yoxlayır və yenilikçi bir baxışla tövsiyələr verir;

- Qanun pozuntularının nəticələri ədalətli və ardıcıl şəkildə idarə edir;
- Məlumatların məktəbdə nizam-intizamın şagird demoqrafiyası ilə (cins, etnik, əlillik və dil öyrənən status) necə idarə olunduğu öyrənilir;
- İnnovativ davranış idarəetmə təcrübələri işçilərin peşəkar inkişafı üçün bir mövzu olaraq prioritetləşdirilir;
- İnnovativ davranış idarəetməsinin təmin edilməsi üçün mütəmadi və sistematik olaraq müəllimlər və məktəb işçilərinə nəzarət edilir;
- Təcrübələr əsasında dərhal rəy verilir və əlavə dəstək (məsələn, məşqçi) əlavə edilir.

### 3.3.4. Məktəbdə Davranışın İnkişaf Planı

Rəhbərliyin dəstəyi şagirdləri təhsilə inamlı baxmağa sövq edir və davranış planı üzrə məktəb işçi heyəti və maraqlı tərəflərin gözləntilərini müəyyənləşdirir. Bunlar tədris prosesi, şagirdlərə xidmət sahələri və məktəbdə davranışa dair gözləntilərdir. Məktəbdə şagirdlər üçün ümumi davranışlar aşağıdakı prinsiplərə uyğun olmalıdır:

- Məktəbdə dərs bitənə qədər məktəb binası və onun ərazisində rahat və təhlükəsiz şəraitdə qalmalı və qorunmalıdır;
- Şagirdlər düzgün vahid məktəb geyimində olmalı və onlarda gözlə görünməyən və korlanmamış şagird şəxsiyyət vəsiqələri olmalıdır;
- Şagirdlər məktəb ərazisində olan parklar və yaşıl ərazilərdə azad və piyada gəzməlidirlər;
- Təqdim olunan bütün sinif qaydalarına əməl etməlidir;
- Sinif yoldaşları ilə birgə dərsdə vaxtında olmalı və təlimə başlamalıdırlar;
- Təlim müddətində sinifdən kənarda olduqda təyinat yeri göstərən bir planlayıcı keçidi və ya zəng icazəsi olmalıdır;
- Məktəb koridorlarında saqqız çeynəmə və kobud danışma olmamalıdır;
- Ayaqyolu, məhdud olmayan ərazilər və məktəbin idarə binasında uzun müddət dayanılmamalıdır;
- Məktəb binasında şəxsi əşyalar baxımsız qoyulmamalıdır;
- Məktəb polisi tərəfindən şagirdlərin mobil telefonları söndürülür və ya təlimdə istifadəsinə icazə verilmir;
- Bütün təhlükəsizlik qaydaları və etik dəyərlərə əməl edilməlidir.

### 3.3.5. Məktəbdə davranışın formalaşdırılma yolları

**Müəllimlərə dəstək işinin təşkili**

Müəllimləri nizam-intizam qaydalarına riayət olunmağa cəlb etmək onlarda etibarın yaranması üçün daha yaxşı ünsiyyət qurmağa imkan verir və bu da lazım gəldikdə müəllimə olan bəzi konstruktiv tənqidləri təmin etməyə müsbət əlaqə yaradır. Həqiqət budur ki, bəzi müəllimlər hətta bir qədər kənarda qalan hər şagirdi öz vəzifəsindən kənarda tutmaqla nizam-intizam prosesindən uzaqlaşırlar.

**Sinifdə nizam-intizamın yaradılması və müəllimin rolu**

1979-cu il tarixli bir araşdırmada amerikalı psixoloq, Frederik Jones (Şəkil 3.12) dərs vaxtının təxminən 50 faizi uşaqların davranışlarına həsr olunduğundan vaxtın boşa getdiyini qeyd edir və bu prosesin təlimdə formalaşdırılması yollarını təklif edir.



**Şəkil 3.12. Frederic H. Jones, amerikalı psixoloq**

Psixoloq alim qeyd edir ki, müəllimin fərqli mövzu və fəaliyyətlərə diqqət yetirməsi bu problemi asanlıqla həll edir. Təlimdə şagirdləri qruplara bölərək, onlarla daha maraqlı ünsiyyət qurmaq, ehtiyac olduqda kömək göstərmək və eyni zamanda digər şagirdlərin də maraqlarına diqqət yetirmək imkanı olur. Bu zaman davranış təlim mövzusu daxilində əks olunaraq, fəaliyyətlərin "üst-üstə düşməsi" səmərəliliyinə imkan verir və şagird davranışları düzgün idarə olunur. Bu yanaşmada müəllim aşağıdakı davranış qaydalarını bilməlidir:

- Şagirdlərlə yaxından tanış olmaq;
- Sinif davranış qaydaları hazırlamaq və sinfi nizamlı saxlamaq;
- Sinifdə effektiv intizam proqramını həyata keçirmək üçün fəaliyyətlər tətbiq etmək;
- Sinifdə fəal nəzarəti təmin etmək və fəaliyyətdə ardıcıl olmaq;
- İntizam prosedurlarına dair tapşırıqlar tərtib etmək;
- Sinifdəki sosial və fiziki mühitə verdiyi xüsusi töhfələrə görə şagirdlərə orijinal təriflər təqdim etmək;
- Şagirdlərə kütləvi şəkildə töhmət verməkdən çəkinmək və diqqətlə düşünərək, davranışları barədə şagirdlərlə fərdi şəkildə danışmağın yollarını tapmaq;
- Problemli davranışlar yarandıqda, şagirdlərin məktəb xaricində qarşılaşacaqları çətinliklər barədə peşəkar şəkildə soruşmaq;
- Şagirdləri nümayiş etdirmədikləri davranış üzrə vaxtı müəyyən etmək;
- Şagirdlərə məktəb mühitinə töhfə vermək üçün orijinal imkanlar vermək və bununla da qaydaları pozan davranışa ehtiyacı azaltmaq;
- Şagirdin köməyə ehtiyac duyduğu bacarıqları (məsələn, qəzəbi idarə etmək; münaqişəni idarə etmək) diqqətlə düşünərək, davranışlar üzrə təhsilalanlarla fərdi şəkildə danışmağın yollarını tapmaq.

F. Jonesin arqumentinə əsasən müəllimlər bu üsulları tətbiq etməklə məhdudiyyətləri aradan götürür və həvəsləndirmə metodlarından istifadə etməklə tərbiyəedici prinsipləri həyata keçirirlər:

- Məktəbdə müsbət nizam-intizam mühiti yaratma və davranış qaydaları üzrə bütün məktəb idarəçiləri, problemlərin həlli, peşə məsuliyyəti, şagird hüquq və məsuliyyətləri və digər mövzular üzrə təlimlər həyata keçirilməlidir (Şəkil 3.13);
- İnkişafa uyğun davranış təlimatlarına uyğun sosial-emosional təlim və şagirdlərə dəstək və dövlət səviyyəsində yardımlar artırılmalıdır;
- Məktəb intizam məlumatlarını birgə təhlil etmək və həll etmək üçün vaxt ayrılmalıdır;




**Şəkil 3.13. Davranış qaydalarının tətbiqi**

- Şagird davranışına nəzarət etmək üçün bilik və təcrübəyə sahib olan məktəb işçiləri - məsləhətçilər, psixoloqlar, tibb bacıları və məktəbin sosial işçiləri problemin həllinə cəlb edilməlidir;
- Məktəbin davranış planının təkmilləşdirilməsi və ya həyata keçirilməsində valideyn, şagirdlər və məktəb kollektivindən başqa, yardımçı heyət kimi hüquq mühafizə orqanlarının işçiləri və digər icma üzvləri də iştirak etməlidir.

Sinif otaqlarında şagirdlərin intizam probleminin aradan qaldırılması üçün effektiv davranış strategiyaları təklif edilir. Bu strategiyalar şagirdlərə problemi həll etmə və danışıq üsulları daxilində səhv davranışlarını dəyişdirmələrinə kömək etməklə yanaşı, eyni zamanda ehtiyacları qarşılamağın yollarını tapmaq üçün imkan yaradır. Sinifdə davranış nəticələrinə görə rənglər sistemi:

- Yaşıl əla davranışdır (dəyər = 4);
- Sarı yaxşı davranışdır (bir xəbərdarlıq dəyəri ilə = 3);
- Qırmızı zəif davranışdır (iki xəbərdarlıq ilə = 2);
- Mavi, həqiqətən, qəbuledilməz bir davranışdır (üç xəbərdarlıq ilə dəyər = 1).

Sinifdaxili davranışların mərhələlərlə həlli (Cədvəl 3.1) verilmiş rənglərlə idarə olunursa, o zaman daha yaxşı nəticə verir.

| Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Mərhələ 4 | Mərhələ 5 | Mərhələ 6 | Mərhələ 7 |
|---|---|---|---|---|---|---|
| Qeyri-verbal replikalar Aydın qaydalar | Müsbət şifahi yönləndirmə; yenidən cəlbetmə və məhəl qoymama | Xatırlatma və xəbərdarlıq | Təbii və məntiqi nəticələr və sarı vərəq | Güzəştlərin ləğvi və məhdudlaşdırma | Neqativ nəticələr Qırmızı kart və valideyn konfransının çağırılması | Yeni strategiyanın sınaqdan çıxarılması və mükafatlandırma |

**Cədvəl 3.1. Sinifdaxili davranışların iyerarxik həlli yolları**

Beləliklə, məktəbdə daxili nizam-intizamın sistemli idarə olunması və vahid dəstək qüvvələrinin birgə dəstəyi (Cədvəl 3.2) onları bu prosesdə özlərinin tənqidi düşünmələri, vəziyyətləri təhlil və problemləri həll etmələri və müvafiq qərarlar qəbul etmələrini təmin edir.

| Konfliktlər | Həlli yolları |
|---|---|
| Ən yaxşı sinif uğrunda olan konfliktlər | Şagirdlərin müsabiqə və valideyn arzusu ilə |
| Ev tapşırığı yerinə yetirilməsi üzrə | Valideyni məlumatlandırma və valideyn-müəllim əməkdaşlığı |
| Qruplarda razılaşmamalar | Mediasiya və tərəflər arasında vasitəçilik |
| Dərs zamanı qiymətləndirmədə narazılıq | Özünüqiymətləndirmə və meyarlara əsasən qiymətləndirmə |
| Üzrsüz səbəblərdən dərsdən qalma | Valideynlə görüş, cəza tədbirinin görülməsi və psixoloqun rəyi |
| Müəllimə hörmətsizlik | Psixoloqun müdaxiləsi, güzəştə getmə və psixoloji tapşırıqlar |
| Sinif yoldaşlarına kobudluq | Tərəflər arasında barışıq və oyunların tətbiqi |
| Məktəbdən çıxarılma | Rəsmi şəkildə sənədin verilməsi |

**Cədvəl 3.2. İntizamın qaydaya salınmasında konfliktlərin həlli**

## Tələbələr üçün fəaliyyətlər

1. **Qrup işi (25 dəq.).** 3 qrupa bölünərək aşağıdakı tapşırıqları yerinə yetirin:

**Qrup A.** Sinifdə çətin şagirdlərin davranışlarını müəyyənləşdirin və mətn üzrə nizam-intizam planından istifadə edərək şəxsi yeni davranış planını hazırlayın. Planda pozitiv yanaşmaları təqdim edin.

**Qrup B.** Məktəbdə nizam-intizam qaydalarının pozulması şərtlərini izah edin və işçi qrupu və maraqlı tərəflərin vəzifələrini müəyyən edin.

**Qrup C.** Təhsildə ənənəvi və müasir nizam-intizam proseslərini müqayisə edin və faktlarla əsaslandırın.

2. **Kollektiv müzakirə (20 dəq.).** Cütlüklərə ayrılıb məktəbdə davranış prosesində yaranan çətinliklərin siyahısını tərtib edin. Müəllimlərin davranış qaydalarını necə tətbiq etmələri haqqında rəy bildirin. Məktəbdə son dəfə üzləşdiyiniz problem barədə danışın.

3. **Tədqiqatyönümlü yazı (20 dəq.).**

**A.** Nizam-intizam mövzusunda mətn yazı yazmaq üçün aşağıdakı yazı üsullarını araşdırın:

- Məktəblərdə nizam-intizamla əlaqəli söz ehtiyatını hazırlayın;
- Öz ölkələrinizdəki məktəblərin nizam-intizamı ilə digər ölkələrin məktəblərindəki nizam-intizamı müqayisə edin.

**B.** Aşağıdakı cədvəldə müvafiq qeydlər aparın:

| İntizam məsələləri | Cəzalar |
|---|---|
| 1. ____________________ | 1. ____________________ |
| 2. ____________________ | 2. ____________________ |
| 3. ____________________ | 3. ____________________ |

4. **Verilmiş cədvəl üzrə işçi heyətinin və maraqlı tərəflərin intizam prosedurunda vəzifələri müəyyən edin:**

| Məktəb rəhbəri | Uşaq birliyi | Müəllimlər | Psixoloq | Valideynlər | İctimai təşkilatlar |
|---|---|---|---|---|---|
| 1.<br>2.<br>3. | 1.<br>2.<br>3. | 1.<br>2.<br>3. | 1.<br>2.<br>3. | 1.<br>2.<br>3. | 1.<br>2.<br>3. |

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**"Nizam-intizam qaydalarının səmərəli tətbiqi yollarını şərh edir"**

**1. Sualları cavablandırın və məzmun əsasında təqdimat hazırlayın.**

- Müasir məktəbdə nizam-intizam qaydalarının pozitiv təsiri nədən ibarətdir?
- Nizam-intizam qaydalarının zəif tətbiqi hansı neqativ təsirlər yaradır?
- İşçi heyətinin intizam proseduruna nəzarəti keyfiyyətə necə xidmət edir?
- Müəllimin sinif davranış qaydaları hansı sahələri əhatə edir?
- Məktəbdə əsas konfliktlərin başvermə səbəbləri nədir?

**2. Cümləni tamamlayan düzgün variantı seçin:**

"Bunu bilmək vacibdir ki, məktəb nizam-intizamı_______________deyildir və sui-istifadə___________deyildir":

A) Məcburi və intizam;
B) Sui-istifadə və intizam;
C) Tələb olunur və zəruri;
D) Yuxarıdakıların heç biri.

**3. Uşaqlar kimi seyr edərək daha çox öyrənirlər?**

A) Dostlar;
B) Ailə üzvləri;
C) Müəllimlər;
D) Yuxarıdakıların hamısı.

**4. Valideyn uşağa gözləntiləri yerinə yetirmək üçün vaxt və nə verməlidir?**

A) Cədvəl;
B) Əyləncə;
C) Vəzifələr;
D) Yuxarıdakıların hamısı.

**5. Təlimdə intizamın inkişafına aid OLAN cavabı seçin;**

A) Şagirdləri sualları cavablandırmağa həvəsləndirmək;
B) Qrup işlərində bir-birinin fikirlərini dinləmək;
C) Davamiyyət barədə söhbətlər aparmaq;
D) Valideynləri dərsə dəvət etmək.

## 3.4. Məktəbdaxili nizam-intizam və müəllimlərin etik davranış qaydalarına riayət olunması yollarını təqdim edir

### 3.4.1. Məktəbdə etik-davranış qaydaları

Nizam-intizam və etik davranış qaydaları tərbiyə və təhsilimizdə bir əxlaqi fəlsəfi termin kimi mənəvi dəyərlər və prinsiplərə məxsus bir nəzəriyyədir (Şəkil 3.14).




**Şəkil 3.14. Məktəbdə etik davranış qaydaları**

Məktəblərin etik davranış qaydalarında təhsildə *qanunun aliliyi, vicdanlılıq, peşəkarlıq və fərdi məsuliyyət, loyallıq, mədəni davranış, qərəzsizlik, gender bərabərliyi, ictimai etimad, konfidensiallıq və münasibətlərin tənzimlənməsi* kimi sahələr əhatə edilir.

Etik davranış qaydalarında düzgün və yanlış davranış anlayışlarını sistemləşdirmək, müdafiə etmək və tövsiyə etmək əhatə edilir. Peşəkar etik davranış kodeksi müəllimlərin qarşısında duran əsas vəzifələri müəyyən edir, öyrənənlərin həyatındakı rolunu müəyyənləşdirir, təlimdə rəhbər kompas rolu oynayır və aşağıdakı məqsədləri daşıyır:

- Etik davranış qaydalarına riayət təmin edilərək təhsilalanların etik normaların tətbiqi üzrə bilik artırılır;
- Tədrisin keyfiyyəti artırılır və təhsilalanların bütün hüquqları qorunur;
- Müəllim davranışının tənzimlənməsi və nəzarəti artırılır;
- Şagirdlər müəllimlərin etik olmayan davranışlarından qorunur;
- Müəllim peşəsinin müsbət imici təbliğ edilir;
- Müəllimlər arasında peşəkar şəxsiyyət hissi təbliğ edilir;
- Müəllimlik peşəsinin şərəf və ləyaqətinin qorunmasına çalışılır.

### 3.4.2. Etik davranış qaydalarının xarakterik xüsusiyyətləri




**Sxem 3.3. Təhsildə etik-davranış qaydalarının tətbiqi istiqaməti**

Tədqiqatçı filosoflar təhsildə etik davranış qaydalarını araşdırarkən etik nəzəriyyənin üç ümumi mövzu sahəsi üzrə inkişaf etdirilməsini təqdim edirlər: Metaetika, normativ etika və tətbiqi etika (Sxem 3.3).

**Metaetika –** əxlaqi təkliflərin nəzəri mənası, istinadı və həqiqət dəyərlərinin müəyyənləşdirilməsinə aiddir. Metaetika anlaşılan, bilinən və nəyin doğru və səhv olduğundan danışılarkən nəyin nəzərdə tutulduğunu izah edən fəlsəfi etikanın bir qoludur.

**Normativ etika –** əxlaqi cəhətdən necə davranmaq lazım olduğu düşünülərkən ortaya çıxarılan suallar toplusunu araşdıran etikanın bir qoludur.

**Tətbiqi etika –** etik nəzəriyyəni real vəziyyətlərdə tətbiq edən nizam-intizamdır. İntizam mühəndislik etikası, bioetika, geoetika, ictimai xidmət etikası və iş etikası kimi bir çox ixtisas sahəsinə malikdir.

### 3.4.3. Etik davranış qaydaları üzrə məktəb rəhbərliyi və işçi heyətinin vəzifələri

Hər bir məktəb rəhbəri və işçi heyətinin peşə davranışları etik normalara uyğun olmalıdır. Etik davranış qaydaları təlimin altı xüsusiyyətinə - mənəvi düşünmə, empatiya, bilik, düşüncə, cəsarət və şəxsiyyət bacarıqlarına görə qiymətləndirilməsinə xidmət edir (Şəkil 3.15).



**Şəkil 3.15. Təhsildə etik və qeyri etik normalar**

Təhsildə etik və qeyri etik qaydalar düzgün davranışın əsas kodeksləridir. Bu kodekslərə uyğun nəyin normalara uyğun olub-olmamasını göstərir, hər bir fəaliyyətdə ehtiyatlı davranmağı öyrədir və təhsildə hüquqların müdafiəsini tənzimləyir. Təhsil və təlimi idarə edənlər bu normalara əməl etməyi özündə bir peşə məsuliyyəti kimi görməlidirlər. Bəzi normalar aşağıdakı kimi təqdim edilir:

1. İrqi, dini, cinsi, milli mənşəyi, ailə vəziyyəti, siyasi baxışları, sosial və ya mədəni mənşəyinə görə heç bir şagird təlimdə iştirak etməkdən haqsız yerə kənarlaşdırılmamalı;
2. Hər bir şagirdin təlimdən faydalanmaları imkanı rədd edilməməli və ayrı-seçkiliyə məruz qoyulmamalı;
3. Şagirdlərin müstəqil fəaliyyətdən çəkindirməmə təşəbbüsünə hörmətlə yanaşılmalı;
4. Şagirdlərin fərqli baxışlara sahib olması əsassız olaraq rədd edilməməli;
5. Şagirdlərin irəliləmələri ilə əlaqəli mövzu bilərəkdən pozulmamalı və ya təhrif edilməməli;
6. Şagirdlərin təhsil, sağlamlıq və təhlükəsizliyə zərərli olan şəraitdən qorunmaları üçün səy göstərilməli;

7. Şagirdlər utanc və ya hörmətsizliyə qəsdən məruz qoyulmamalı;
8. Təlim zamanı şagirdlərin qeyri-etik və təhqiramiz ifadələr işlətmələrinə yol verilməməli;
9. Şəxsi üstünlük üçün şagirdlərlə peşəkar münasibətlərdən istifadə edilməməli;
10. Peşə xidməti zamanı auditoriyada xoşagəlməz davranışları olan şagirdlərin adları və onlar haqqında olan məlumatlar açıqlanmamalı.

### 3.4.4. Müəllimlərin təlimdə etik davranış qaydalarına əməl etmələri

Müəllimlərin etik davranış qaydaları prinsiplərinə uyğun tələbləri şagirdlərlə qarşılıqlı münasibətlərin xüsusiyyətlərini müəyyən edir və onları tənzimləyir. Müəllim peşə fəaliyyətində aşağıdakı etik davranış prinsiplərini gözləməli və tələblərə ciddi şəkildə əməl etməlidir. (Müəllimlərin etik davranışı. Qaydaları - Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 may 2014).

- **Qanunun aliliyi –** beynəlxalq müqavilələrin tələbləri, insan hüquqları və demokratik prinsiplərə əməl etməyə borclu olunmalıdır;
- **Vicdanlılıq –** müəllim sinfi "Əsir auditoriya" hesab etməməli və şəxsi inanclarını şagirdlərə yönəltməməlidir;
- **Peşəkarlıq və fərdi məsuliyyət –** müəllim peşəkar fəaliyyət və şəxsi nümunə ilə şagirdlər, valideynlər və məktəb kollektivində nümunə olmalıdır;
- **Loyallıq –** müəllim onun peşə vəzifəsinə aid olmadığı hallarda işlədiyi və digər rəhbərlərin fəaliyyəti ilə əlaqədar tənqidi ictimai mülahizələr və çıxışlardan çəkinməlidir;
- **Mədəni davranış –** müəllim şagirdlər, rəhbərlik və həmkarları ilə davranışında nəzakətli, xeyirxah, diqqətli və təmkinli olmalıdır. Müəllim peşə fəaliyyəti ilə əlaqədar iradlar və tənqidi fikirləri qəbul etməli, qiymətləndirməli və onlardan düzgün nəticə çıxarmalıdır;
- **Qərəzsizlik –** müəllim peşə vəzifəsini yerinə yetirərkən qərəzsiz olmalı və irqinə, etnik mənsubiyyətinə, dilinə, cinsinə, sosial mənşəyinə, dinə münasibətinə, əqidəsinə və ictimai mənsubiyyətinə görə şagirdlərə təlim prosesində fərq qoymamalıdır;
- **Konfidensiallıq –** qanunla nəzərdə tutulmuş hallar istisna olunmaqla, müəllim peşə vəzifələrinin icrası ilə bağlı şagirdlərin, valideynlərin, habelə kolleqaların şəxsi həyatı barədə ona məlum olan məlumatların konfidensiallığını təmin etməlidir (Şəkil 3.16).



**Şəkil 3.16. Müəllimlərin etik-davranış qaydaları**

Hər şeydən əvvəl müəllimlər sinifdə və valideynlər və həmkarları ilə davranışlarında bütövlük, qərəzsizlik və etik davranış nümayiş etdirməlidirlər.

**Müəllimlərin etik davranışında peşə öhdəliyi məsuliyyətləri**

Təhsil müəllim peşəsinin xidmətlərinin keyfiyyətinə inanaraq bu peşəyə millətin və vətəndaşların davranışına müsbət təsir edən və peşə standartlarının yüksəldilməsinə inanan bir bəşəri faktor kimi inanır. Şagirdlərin bilik və bacarıqlarına uyğun təlim məqsədləri və fəaliyyətləri planlaşdırmaq, etik qaydaları təşviq edən tapşırıqlar yaratmaq, təlimdə etik davranış nümayiş etdirmək və şagirdləri praktikaya həvəsləndirmək üçün müəllim nümunəvi modellər nümayiş etdirməlidir.

### 3.4.5. Təlimdə pozitiv etik davranış mühitinin yaradılması

Müəllimlər tərəfindən etik davranış qaydalarına əməl olunma rəhbərlik tərəfindən təhlil edilir və bu qaydalar üzrə müəyyən edilmiş tədbirlər görülür. Etik davranış mühitinin yaradılmasına şagirdlərin bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün təlim planının hazırlanmasından başlanır. Beləliklə, təlimlər şagirdləri öyrənmək, böyütmək və inkişafa çağırmalıdır. Müəllimlər şagirdlərin vaxtlarının, səylərinin və gücünün itirilməməsi üçün etik məsuliyyət daşıyırlar. Davis və Ludvigson (1995) məktəbdə akademik etibarsızlığın artırılmasının əsas səbəbini etik davranış qaydaları üzrə təlimat standartlarının olmaması ilə əlaqələndirirlər (Şəkil 3.17).



**Şəkil 3.17. Təlimdə etik mühitin yaradılması**

**Etik davranışla bağlı təlimatın hazırlanması**

Etik davranışı təşviq edən bir təlim mühiti səmərəli təlimatın tətbiqinə əsaslandırılır. Təlimata əsasən aşağıdakı prinsiplər yerinə yetirilməlidir:

- Şagirdlərin etik davranışları barədə təsəvvürlər yaratmaq;
- Etik qaydalara riayət etmə yolları haqqında məlumat vermək;
- Hər bir şagirdin etik davranması üzrə öz gözləntilərini bilmək;
- Şagirdləri tərbiyə edən davranış kodları tərtib etmək.

**Etik davranışın pozulması halları:**

- Dərs zamanı bir-birindən köçürmə;
- Müəllim və valideyni aldatma;
- Başqasının fikirlərini rədd etmə və ya təhrif etmə;
- Ayrı-seçkilik və qəsdən şəxsiyyəti hörmətsizliyə məruz qoyma;
- Digərlərinin fikirləri və ideyalarını öz işində tətbiq etmə;

- Dostunun davranışında olan çatışmazlıqları ətrafa yayma.

Bu pozuntuların baş verməsi "Şərəfli olma" əxlaq kodeksinin pozulması deməkdir. Şagirdlər "Hər kəsin aldadıldığı"na inansalar, onda da aldatma ehtimalı daha yüksək olar. Bu səbəbdən etik təlimatların təlimdə istifadəsi çox böyük əhəmiyyət daşıyır.

**Təlimatın faydalı təsiri:** Bu təlimat onların davamlı olaraq vicdanlı davranmalarının ən vacib amili kimi həmyaşıdlarının davranışlarını qavramaları və müsbət və mənfi davranışlara dəyər vermələrinə təsir edir.

**Etik-davranış qaydaları üzrə strategiyaların hazırlanması**

Sillabuslar və tədris planlarına etik davranışları təşviq edən ifadələr daxil edilməlidir. Bununla yanaşı, eyni zamanda bu ifadələr etik davranışların öyrənmə və akademik inkişafı üçün vacibliyə yönəldilməlidir. Buna görə sinif otağında etik davranış gözləntiləri və etik davranışı təşviq edən ifadələr dərs proqramında yerləşdirilməli, sinifdə müzakirə edilməli və möhkəmləndirilməlidir. Təlimdə etik davranışı inkişaf etdirən strategiyalar aşağıdakılardır (Şəkil 3.18):



Şəkil 3.18. Etik davranış kodu

- Etik ifadələrin siyahısını tərtib etmək;
- Etik gözləntiləri dərs planında işıqlandırmaq;
- Etik davranışa dair video nümunələr nümayiş etdirmək;
- Müstəqil oxu, Ziqzaq oxu və sual-cavab;
- Qrafik cədvəllər üzrə anlayışların qruplaşdırılması;
- Dəyirmi masa müzakirələri;
- Rollu oyun kartları və vəziyyətlərin təhlili;
- Müstəqil layihələr və formal yazı nümunələri.

### 3.4.6. Təlimdə etik davranış prinsiplərinə riayət etmək

**1. Etik modelə uyğun rəhbərlik prinsipi**

Şagirdlər müəllimin davranışını müsbət görməlidirlər. Bunun üçün pedaqoq həqiqi qayğıkeşlik, etibar və uşaqla hörmət əlaqəsini inkişaf etdirməlidir. Uşaq müəllimin davranışından sonra öz davranışını modelləşdirəcəkdir (Şəkil 3.19).


Şəkil 3.19. Etik davranış prinsipləri

2. **Fərdin ləyaqəti və dəyərinə hörmət prinsipi**

Sinif müzakirələrində fərqli düşüncələri inkişaf etdirmək məqsədilə hər bir şagirdə öz fikirlərini aydın şəkildə ifadə etməyə imkan verilməlidir. Sərbəst fikirlərin ifadə olunmasına şərait yaratmaq etikanın, vicdanın, bütövlüyün və hörmətin ən gözəl nümunəsidir (Şəkil 3.20). Müdaxilə şagirdə fərdi olaraq öz ləyaqətini alçaltmadan nəzarəti müsbət hiss etmə imkanı verməlidir.




**Şəkil 3.20. Sərbəst düşüncənin ifadə olunmasına münasibət**

3. **Təlim məqsədlərini şagirdlərin mədəni xüsusiyyətlərinə uyğunlaşdırmaq**

Şagirdlər təlimdə müasir təcrübələrdən faydalı şəkildə təsirlənməli və səmərəli bacarıqlara sahib olmalıdırlar. Tətbiq edilən təcrübə şagirdin inkişaf səviyyəsinə uyğundursa, o zaman mənalı görünür və onlar tərəfindən müsbət qarşılanır. Bəzən təcrübələr müasir davranışları etik normalar daxilində formalaşdırır və onun davamlılığını tələb edir.

4. **Yüksək gözləntilərə nail olma prinsipi**

Müəllimlər şagirdlərə hər bir şagirdin qabiliyyətinə inamını nümayiş etdirməli və onlardan ən yüksək nailiyyət tələb etməlidirlər. Gözləntilər şagirdlərin maraq və ehtiyaclarını müdafiə etməli və onların davranışına müsbət təsir etməlidir.

5. **Empatiya göstərmə prinsipi**

Problemlərini obyektiv şəkildə nəzərdən keçirilməsi üçün müəllim, şagirdlərin duyğuları daxilində obyektiv düşünməyə mane olmamalıdır. Hər bir şagirdin daxili aləmini hiss etmək, onun dərsdənkənar problemlərinə dəstək vermək və onların çətinliklərini hiss etmək və həll etməyə kömək edir.

6. **Mənəvi zərər verməmə prinsipi**

Hər şeydən əvvəl başqalarının hisslərinə toxunmaq və əqidəsinə zərər vermək özünü riskə atmaq hesab edilir. Dərs prosesi təkcə təlim fəaliyyəti ilə deyil, gözlənilən sualların cavabları ilə yaxşı hazırlanmış dərsə hazır olmaq etik davranışın daha yaxşı formalaşdırılmasına təsir edir. Təlimdə yazılı tapşırıqlar və ya imtahanlar üzrə qiymətləndirmənin izah edilməsi, təlimin məzmununun yaxşıca əhatə edilməsi, asta öyrənənlərə səbrlə yanaşılma və onların fikirləri və inanclarına hörmət edilməsi kimi qarşılanır.

7. **Fəaliyyətdə azadlıq və müstəqillik prinsipi**

Bu prinsip şagirdlərə mümkün qədər müstəqil fəaliyyət göstərmələrinə icazə verir. Uğursuzluq və ya mənəvi zərərin qarşısının alınması üçün məhdudiyyətlər müəyyənləşdirilsə, o zaman şagirdlər öz hərəkətlərinin məntiqi nəticələrini anlayacaqlar. Bu özünə güvən və müstəqilliyi inkişaf etdirmək üçün çox səmərəlidir.

**8. Faydalılığı tətbiq etmə və normallaşma prinsipi**

Faydalılıq uşağın mümkün qədər normal bir mühitdə işləməsini təmin edir. Başqalarının sağlamlığı və rifahına töhfə vermə və şagirdlərin dərs materialını anlamaları üçün aşağıdakı etik fəaliyyətlər tətbiq edilir:

- Tədris prosesi və mövzuya həvəs göstərmək;
- Tapşırıqlar üçün dəqiq gözləntiləri təmin etmək;
- Öyrənənlər arasında əməkdaşlığı təşviq etmək;
- Onlara mövzunu ən yaxşı yollarla öyrənməkdə kömək etmək;
- Tənqidi düşüncə və məzmun sintezi üzrə akademik bacarıqları formalaşdırmaq;
- Etik davranışda çətinlik çəkən tələbələrlə iş planı hazırlamaq.

**9. Ədalətli olma prinsipi**

Təlimdə ədalət və bərabərlik prinsipini nümayiş etdirmək üçün aşağıdakı fəaliyyətləri təlimata daxil etmək lazımdır:

- Bütün şagirdlərin sinif daxilində iştirakını təmin etmək;
- Əvvəlcədən şagirdləri mövzu üzrə məqsəd və vəzifələrlə təmin etmək;
- Uyğun qiymətləndirmə vasitələrindən istifadə etmək;
- Şagirdlərin mövzu barədə biliklərini ədalətli qiymətləndirmək;
- Sinifdə bərabərhüquqlu imkanlar yaratmaq;
- Xüsusilə, mübahisəli məsələlərə balanslı baxışlar təmin etmək.
- Müdaxilə ədalətli olmalı və uşağın məktəbdə uğur qazanmasına imkan verməlidir.

**10. Davranış dəyişikliyi yaradan rasional planlaşdırma prinsipi**

Yeni etik davranış nümunələri uşaqların sinifdəki qayda pozulmasına mane olan bir davranış olmalıdır. Müəllimin etik mülahizələri davranışın dəyişdirilməsinə nail olmalı və təlimdə yeni strategiyanın həyata keçirilməsi ilə yeni müsbət davranış dəyişikliyi yaratmalıdır.

**11. Razılıq prinsipi**

Müəllim şagirdlərlə əlaqəli şəxslərə inzibati idarəetmə prosedurları barədə məlumat verməli və davam etmək üçün razılıq almalıdır. Bu təcrübə davranış müdaxiləsi ilə bağlı qarşıdurmaların qarşısını almağa kömək edəcəkdir.

Beləliklə, təlimdə nizam-intizam və etik davranış qaydalarına əməl edilməklə müəllim və şagirdlərin təlimdə rolunun müəyyən edilməsi mümkün olur. Nəticə olaraq, etik qaydaların pedaqoji-psixoloji xüsusiyyətləri şəxsiyyətin formalaşdırılmasına əsaslandırılır. Məktəbin bir intellekt məkan kimi etik qaydalara əməl etməyə sövq edilməsi və qarşılaşdığı problemlərin həllində rolu məhz onun intizam qaydalarına uyğun düzgün fəaliyyətidir.

## Tələbələr üçün fəaliyyətlər

1. **Qrup işi (20 dəq.).** İki qrupa bölünün və etik davranışa dair tapşırıqları yerinə yetirin:

- Təhsildə etik davranış qaydalarını müəyyən edin;
- Etik davranış qaydalarına dair söz və ifadələri qruplaşdırın;
- Şagirdlərin nümayiş etdirdikləri müsbət davranışları sadalayın.

2. **Cütlükdə dialoq (25 dəq.).**

Tələbələr iki qrupa bölünürlər və 1-ci qrup üzvlərinə etik-davranış haqqında suallar, 2-ci qrup üzvlərinə isə sualları cavablandırmaq tapşırılır. Qrup üzvləri üz-üzə sıra ilə durur və fəaliyyət başlayırlar. Daha sonra 1-ci sıradakılar yerlərini dəyişir və fəaliyyətini davam etdirirlər. Belə şəkildə daha çox məlumat öyrənilir.

Fikirlər:

- Şagirdlərin dərs zamanı daha çox pozduqları etik davranışları qeyd edin;
- Etik problemləri əhatə edən fərqli baxışları izah edin;
- Etik davranışa uyğun ən uğurlu sinif qaydalarını şərh edin;
- Şagirdlərin ləyaqətini uca tutan strategiyaları söyləyin.

3. **Yazı fəaliyyəti: Karusel oyunu (20 dəq.).** Şəxsi təlim fəaliyyətini əks etdirən etik davranış qaydaları üzrə planın hazırlanmasını təklif edin. Başlıqlar:
    1. Məqsədlər____________________________________________
    2. Prinsiplər____________________________________________
    3. Fəaliyyətlər__________________________________________
    4. Nəticələr_____________________________________________

4. **Rol oyun kartları (20 dəq.).** Müxtəlif situasiyaları təsvir edən kartları hazırlayın və kəsin. Rollu oyun oynamaq üçün cütlər və ya üçlüyə işləmək üçün paylayın.

| | |
|---|---|
| **Dürüstlük**<br>Testi yazarkən 2 sualın cavabını dostunuzdan köçürürsünüz. Sizin nəticələriniz dostunuzun cavablarından yüksək olur və dostunuz buna məyus olur. Buna necə qiymət verirsiniz? | **İnklüzivlik**<br>Sinfinizə gələn yeni şagird danışarkən dilində qüsurun olması hiss olunur və şagirdlərin bəziləri onun nitqinə gülürlər. Hansı yollar onu utandırmaqdan xilas edə bilər? |
| **Empatiya**<br>Şagirdlərdən biri ailəsində kiminsə xəstə olması ilə narahat olduğunu hiss etdirir. Bu onun dərsdən geri qalmasına səbəb olur. Dostunuza dəstək olmağı necə düşünürsünüz? | **Hörmət**<br>Dostlarınızdan biri yeni film hazırlamaq üçün layihə hazırlayır. Siz ondan xahiş edirsiz ki, sizi də dəvət etsin. Amma o sizin qoşulmağınıza etiraz edərək gecikdiyinizi bildirir. |

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**"Məktəbdaxili nizam-intizam və etik-davranış qaydalarına riayət olunması yollarını təqdim edir"**

**1. Sualları kollektivdə müzakirə edin və cavablandırın:**

- Təhsildə davranış qaydaları nəyə xidmət edir?
- Etik davranışa uyğun əsas sinif qaydaları hansıdır?
- Dərs zamanı şagirdlər bir-birindən köçürürlərsə, onda hansı üsullar tətbiq edilir?
- Etik davranış strategiyaları şagirdlərdə hansı davranış dəyişikliyi yaradır?
- Şagirdlərin fərqli baxışları etik problemləri necə yaradır?
- Şagirdlərə mənəvi dayaq verməyi necə düşünürsünüz?
- Təlimdə ədalətli olmaq deyəndə nələri düşünürsünüz?
- Etik davranış problemləri üzrə planlaşdırmaya nələr daxildir?

**2. Etik davranışa dair doğru (D) və səhv (S) tezisləri qeyd edin:**

| | | |
|---|---|---|
| 1. | Etik qaydalar məktəbdə davranış pozuntusundan dərhal sonra tərtib edilməlidir | |
| 2. | Müəllim etik davranışa dair xüsusi fəaliyyətlər tətbiq etməlidir | |
| 3. | Təlimdə qiymətləndirmə şagirdlərin müstəqil fəaliyyət prinsipini yerinə yetirir | |
| 4. | Müəllim ayrılıqda hər hansı bir şagirdə üstünlük verməməlidir | |
| 5. | Yeni təcrübələr şagirdlərin davranışında çətinliklər yaradır | |
| 6. | Etik qaydalar mövzuların məqsədlərinə daxil edilməlidir | |
| 7. | Şagirdlərə digərinin nümunəvi davranışını xatırlatmaq lazımdır | |
| 8. | Etik qaydalar sonda mədəniyyət davranışını formalaşdırır | |

**3. Cümləni tamamlayın:**

Müəllim şagirdi uğurlarına görə təriflədi, çünki o ...

A) Dərslərini hamıdan yaxşı hazırlayırdı;
B) Dostlarından fərqli cavablar verirdi;
C) Tapşırığı dostları ilə birgə yerinə yetirmişdi;
D) Fərdi layihə planı hazırlamışdı.

**4. Cümləni tamamlayın:**

Sinifdə müəllimə hörmətsizlik edən şagirdi ...

A) Dərhal cəzalandırmaq və məktəbdən kənarlaşdırmaq lazımdır;
B) Fəaliyyətə cəlb etmək və məhəl qoymamaq lazımdır;
C) Qırmızı kart göstərib danlamaq lazımdır;
D) Qaydaları oxumağı tapşırmaq lazımdır.

## 3.5. Təhsilalanlar arasında hüquq pozuntuları, fiziki, psixoloji və cinsi zorakılıq hallarına qarşı geniş miqyaslı profilaktik və maarifləndirici tədbirləri təşkil edir

### 3.5.1. Təhsilalanların hüquq pozuntuları və zorakılığa məruz qalmaları

Hər bir uşağın fiziki və psixoloji zorakılıqdan azad yaşama hüququ vardır. BMT-nin Uşaq Hüquqları Konvensiyasında (UHK) dövlətlərdən uşağın zorakılıqdan qorunması üçün bütün lazımi tədbirlərin görülməsi tələb edilir. Uşaqlar məktəbdə yaşlarından, dillərindən və mədəniyyətlərindən asılı olaraq müxtəlif yollarla zorakılığa məruz qalırlar (Şəkil 3.21).



**Şəkil 3.21. Təhlükəsiz məktəblər**

Məktəblərdəki zorakılıq ümumi məktəb iqliminə zərər verən və şagirdlərin təhlükəsiz bir mühitdə təhsil alma hüquqlarını pozan qorxulu bir münasibətdir. Zorakılıq olan bir mühitdə uşaqlar təlim nailiyyətləri və ictimailəşməni uğurla yerinə yetirə bilməzlər. Zorakılığın qarşısının alınması və aradan qaldırılmasında təhsil mühüm rol oynayır. Təhsildə hüquq pozuntusuna və zorakılığa qarşı aparılan maarifləndirmə işlərinin məqsədləri:

- Məktəbdə baş verən xüsusi məktəb təhlükəsizliyi böhranları ilə əlaqədar məktəbdaxili prosedurlar hazırlamaq;
- Şagirdlərin və məktəb işçilərinin təhlükəsizliyini təbliğ etmək üçün metodlar axtarmaq;
- Məktəb cinayətləri və zorakılıq hadisələri ilə bağlı profilaktik işlər həyata keçirmək;
- Nizam-intizam və ya təhlükəsizlik problemləri ilə bağlı hesabat sistemləri həyata keçirmək.

Rəsmi statistikaya görə, ümumi təhsildə hüquq pozuntuları və zorakılığın əsas səbəbləri anti-sosial davranış, ailədə nəsil boşluqlarının baş verməsi və yetkinlik yaşına çatmayanların cinayətidir. Avropa Şurasında uşaqlara insan hüquqları və demokratik vətəndaşlıq haqqında maarifləndirmə yolu ilə məktəblərdə zorakılığın aradan qaldırılması hədəflənir.

### 3.5.2. Təhsildə zorakılıqların növləri və başvermə səbəbləri

Məktəblərdəki zorakılıq uşaqlara qarşı təzyiqlərin ən görünən formalarından biridir: Psixoloji zorakılıq, o cümlədən, şifahi təhqir; cinsi zorakılıq, o cümlədən, təcavüz və cinsi təcavüz; kiberhücum da daxil olunmaqla bir çox zorakılıq forması daxildir. Cinsi və sosial normalar və gəlir bərabərsizliyi, məhrumiyyət, marginallaşma kimi geniş struktur və

kontekstual amillər kimi fiziki, psixoloji və cinsi zorakılıqlar daxildir. Uşaqların yaşadığı fiziki, cinsi, emosional, psixoloji, mənəvi, mədəni və ya şifahi zorakılıq ya bir dəfə baş verə bilər, ya da aylar-illərlə davam edə bilər (Şəkil 3.22).

Bundan əlavə, məktəbdə zorakılıq psixoloji çatışmazlıqlar səbəbindən yarana bilər. Məktəb zorakılığının başqa bir səbəbi zorakı mediadır. Bəzən zorakı televiziya proqramlarının və video oyunların təsiri cəmiyyətdə, əsasən, qiymətləndirilmir. Televiziyada təbliğ olunan dayaz proqramlar və şou biznesin mənfi təsirləri zorakılığı yaradan səbəblərdəndir.



**Şəkil 3.22. Məktəbdə zorakılığın başvermə səbəbləri**

### 3.5.3. Fiziki zorakılığın başvermə səbəbləri və nəticələri

Fiziki zorakılıq bədəni təmas yolu ilə başqa bir insana və ya heyvana xəsarət və ya travma verən hər hansı bir qəsdən edilən hərəkətdir. Məktəbdə fiziki zorakılıq, o cümlədən, şagirdlərin biri-birinə zərər yetirən hücumlarının səbəbləri araşdırılmalı və belə təhlükəli halların olmamasına səy göstərilməlidir (Şəkil 3.23).



**Şəkil 3.23. Fiziki zorakılığın nümunələri**

Məktəbdə fiziki zorakılıq hadisələri aşağıdakı xoşagəlməz nəticələrə gətirib çıxarır:

- Bədən cəzalarına məruz qalma;
- Məktəb şagirdləri arasındakı zorakılıq meyllərinin artırılması;
- Şagirdlərin məktəb işçilərinə fiziki hücumlar etmələri.

*Fiziki zorakılıq* yaranmasına səbəb olan ailə üzvlərindən, müəllimlərdən və ya həmyaşıdlarından olan uşaqlara qarşı zorakılıq onların emosional və fiziki sağlamlığına zərər verir. Qışqırma, kobud münasibət göstərmə, sərt tənqid etmə və şəxsiyyəti ləkələmə kimi emosional zorakı davranışlar uşaqların psixoloji və sosial inkişafına təhlükə yarada bilər.

### 3.5.4. Psixoloji zorakılığın başvermə səbəbləri və nəticələri

Psixoloji zorakılıq insanın "Mənlik şüuru", özünə olan hörməti və sevgisi və özünü düzgün qavramasını ciddi şəkildə təxribata məruz qoyur. Təhsil müəssisələrində müəllim

tərəfindən edilən psixoloji zorakılıq faktlarının müxtəlif formalarına rast gəlinir:

- Şagirdə hədsiz tələblər qoymaq;
- Şagirdə uyğun olmayan münasibət göstərmək və onda qorxu yaratmaq;
- Şagirdi təhqir etmək və ləyaqətini alçaltmaq;
- Şagirdə açıq-aşkar mənfi münasibət göstərmək;
- Şagirdin varlığı və dəyərini qəbul etməmək;
- Şagirdin faydasız olduğunu ona sözlə bildirmək;
- Şagirdin duyğuları və düşüncələrini dəyərsiz saymaq;
- Şagirdi ələ salıb gülmək, ona ad qoymaq onu təqlid edərək ələ salmaq;
- Şagirdin şəxsiyyəti, etibarı və dəyərini ləkələmək.

Psixoloji zorakılığın başvermə səbəbləri: Qarşılıqlı anlaşmazlıq, mənəvi təzyiqlər, ümidsizlik, qəsdən yükləmə və hər şeydən kənarlaşma kimi hallardır. Psixoloji zorakılığın nəticələri:

- Qorxu və narahatlıq və özünə qapanma baş verir;
- Utanc və günahkarlıq duyğuları yaradılır;
- Şagirdin ətrafından təcrid edilməsinə səbəb olur;
- Şagird tənhalıq və ümidsizliyə qapanır;
- Şagird intihara cəhd edir və faciə ilə nəticələnir.

Psixoloji zorakılıq uşaqların təfəkkür, yaddaş, qavrama, diqqət və təxəyyül kimi idrak proseslərinə mənfi təsir göstərir. Bu vəziyyət isə zehni qabiliyyət və məktəb uğurunun azalmasına səbəb olur.

Verbal zorakılıq psixoloji xarakterə malik olub, əsasən, qəzəb və düşmənçilik ilə səciyyələndirilir və bu və digər şəxsin özünüdərki və mənfi duyğulara səbəb olması üçün dağıdıcı ünsiyyət formasıdır. Şifahi təhqir verbal zorakılıq kimi şifahi hücum və başqa bir şəxsi zorla tənqid etmək, təhqir etmək və ya inkar etməkdir. Tibb üzrə aparılan araşdırmalarda sübut edilir ki, insanın çox kobud və hirsli olması insan beynində serotonin maddəsinin – xoşbəxtlik hormonunun azlığından baş verir. Bu maddə insan beynində sakit rejim, motorikanın fəal olması şəraiti və yüksək əhval-ruhiyyə və sağlam qidalanma rejimində çoxalır. Şagirdlərin verbal zorakılığa məruz qalmamaları üçün onları pozitiv ruhlu mövzular, rəsm çəkmək, şahmat oyunu oynamaq, musiqi parçaları dinləmək və təbiətdə olmağa cəlb etmək və ailə və cəmiyyətdə güc və nəzarətdən uzaq tutmağa çalışmaq lazımdır.

Təhsildə bəzən güc və nəzarət qazanmağı hədəfləyən bütün zorakı və ya təhqiramiz davranışlar cəmiyyətdəki bərabərsizliklərdən irəli gəlir.

Ailə və məktəbdə güc və nəzarət mexanizmi daxilində zorakılıqlar daha çox iqtisadi çətinliklər, fiziki hücumlar, səlahiyyətdən sui-istifadə, yaxınların köməyinə arxalanma, günahlandırmaq və uzaqlaşdırmağı azaltma, hədə-qorxu, fiziki hücumlar və sonda, təcridolma ilə nəticələnir (Sxem 3.4).




**Sxem 3.4. Məktəbdə zorakılığın başvermə səbəbləri**

### 3.5.5. Təhsildə cinsi zorakılıq və ona qarşı mübarizə

Uşaqlara qarşı cinsi zorakılıq və onların cinsi istismarı (pedofiliya) - insan hüquqlarının daimi və çox ağır pozuntularından biridir. Bu, qız və oğlan uşaqlarının cinsi istəklərinə və ya qeyri-istəklərinə qarşı təcavüz və yolverilməz bir fiziki davranışdır.

Cinsi zorakılığın baş verməsi nəticəsində gənc yaşda uşaqlar aşağıdakı psixoloji düşkünlüklərə məruz qalırlar:

- Saysız-hesabsız psixoloji əzab-əziyyətlərə düçar olma;
- Ruh düşkünlüyü və patoloji qorxu içində olma;
- İntihara gətirib çıxarılması;

- Travmalı stress əlamətlərinin təzahür edilməsi.

Beynəlxalq səviyyədə ”Uşaqlara qarşı cinsi zorakılığa son qoyaq!” kampaniyasında cəmiyyətin üzvləri, xüsusilə, şagirdlərə məlumat verilib. Bu kampaniyanın uşaq istismarı və cinsi zorakılıqla mübarizə standartlarının hazırlanması, ratifikasiyası və implementasiyasının gerçəkləşdirilməsi istiqamətində maarifləndirmə işləri genişləndirilməlidir. Problemin kifayət qədər ciddiliyi nəzərə alınaraq Avropa Şurasının Nazirlər Komitəsində uşaqların cinsi istismar və cinsi istifadədən müdafiəsinə dair konvensiya qəbul edilib. Konvensiyanın tələblərinə uyğun cinsi zorakılığa qarşı mübarizə nəticəsində gənclər arasında mənəvi düşkünlük və depressiya halları aradan qaldırılmalıdır. Problemin təkcə məktəb daxilində deyil, ailə, icma və cəmiyyətdə aşağıdakı həlli yollarını araşdırmaq daha faydalı olur:

- Cinsi zorakılıq hallarını yaradan səbəbləri müzakirə etmək;
- Media vasitələrinin təlimdə istifadəsini genişləndirmək;
- İnternetdə qadağan olunmuş saytların istifadəsini kodlaşdırmaq;
- Valideynləri dəyirmi masalara dəvət etmək və onlarla ailə problemlərini həll etmək;
- Məktəbin digər ictimai təşkilatlar, televiziya və radio ilə əlaqəsini genişləndirmək;
- Baş verən zorakılıqların digər uşaqlara təsiri və icmanın dəstəyini yaratmaq.

### 3.5.6. Zorakılığın azaldılması üçün məktəb mühitinin yaxşılaşdırılması

Məktəbin fiziki mühiti zorakı hadisələrin başvermə ehtimalı üçün vacib amildir. Bu baxımdan intizam proqramları fərdi və sosial tərbiyə yolu ilə məktəblərin və siniflərin iqliminin yaxşılaşdırılması üçün hazırlanmışdır. Məktəbdə baş verən kiçik çətinliklər - dəhlizlərdə toqquşma, yemək zamanı məyusluq və digər hallar risk yarada bilər. Rahat fiziki mühit stress və gərginliyi azaldır, şagirdləri yaxşı işlərlə məşğul edir və ünsiyyəti formalaşdırır. Zorakılığı aradan götürən tədbirlər və cansıxıcılıq və zorakı hərəkətlərin "Əyləncəli" şəkildə həyata keçirilmə ehtimalının azaldılması üçün aşağıdakı fəaliyyətlər daha müxtəlif və cəlbedici hesab edilə bilər:

- Kiçik ölçülü məktəblərin və siniflərin təminatı;
- İdman dərslərində köhnə idman qurğularının olması;
- Oyun meydançalarının və qaçış xətlərinin təşkil edilməsi;
- Üzgüçülük hovuzlarının və yaşıl parkların salınması;
- İnternet kafelərinin və musiqi mərkəzlərinin olması;
- Laboratoriyanın və layihə mərkəzlərinin açılması.

Bununla birlikdə, məktəb fiziki mühitinə şagird-şagird zorakılığı üçün ən vacib amil kimi böyüklər tərəfindən asan şəkildə nəzarət edilir. Tədqiqatlar sübut edir ki, kiçik məktəblər və ya siniflərin zorakılıq səviyyəsinə təsir göstərməsinə dair az araşdırma dəlilləri vardır. Digər bir amil kimi, şagirdlərin istifadə etdikləri ərazilərin yaxşı görünməsi onlarda müsbət emosiya yaradır. Nəzarətdə işçi heyətin pozitiv münasibəti öz rolunu daha çox nümayiş etdirməlidir. Müraciətlər və sorğu-sualların və uşaqlarla davranışların etik

çərçivədə olması üçün işçi heyətinə nəzarətçi təlimlərinin keçirilməsi faydalı ola bilər.

### 3.5.7. Tədris proqramları və fəaliyyətlər

Zorakılıq barədə məlumatlılığın artırılması, münasibətlərin dəyişdirilməsi və mübarizə vasitələrinin təklif edilməsi üçün hazırlanmış materiallardan geniş istifadə olunur. Bunlara daxildir:

- Ədəbiyyat, dram fəaliyyətləri, rol oyunları, filmlər və videoların nümayişi;
- Keyfiyyətli dairələrdə müzakirələrin keçirilməsi;
- Multimedia materialları və fəaliyyətlərin tətbiqi;
- Virtual mühitlərin yaradılması və sosial şəbəkələrdə müzakirələr;
- Zorakılığa qarşı kampaniya və petisiyaların aparılması;
- Sosial layihələrin həyata keçirilməsi;
- Bukletlər, broşuralar və xüsusi vəsaitlərin hazırlanması.

Sosial və emosional bacarıqların öyrədilməsi üçün bir neçə tərbiyəedici proqram vardır. Xəbərdarlıq işarələrinin və uşaqlar üçün aydın məlumatlar və məhdudiyyətlərin müəyyən edilməsi fayda verir.

Beləliklə, təhsildə zorakılıq və hüquq pozuntuları sahəsində baş verən hadisələrin təsirinin azaldılması və profilaktik tədbirlərin həyata keçirilməsi sağlam nəslin yetişdirilməsi və uğurlu gələcək üçün cəmiyyətin qurulmasında mühüm rol oynayacaq.

## Tələbələr üçün fəaliyyətlər

1. **Videonu izləyin** (www.youtube.com Trending | Drama Short Film (2018) | MYM – (25 dəq.)). Zorakılıq haqqında anlayışları lövhədə qeyd edin.

   Video üzrə müzakirələr aparın:
   1. Filmdə hansı hadisələr zorakılığın yaranmasına səbəb oldu?
   2. Uşaqlar psixoloji zorakılığa necə məruz qaldılar?

2. **Zorakılıqların növləri haqqında qısa məlumatları yazın və cütlük şəklində paylaşın.**

| Verbal zorakılıq | Fiziki zorakılıq |
|---|---|
| 1.<br>2.<br>3. | 1.<br>2.<br>3. |

3. **Zorakılığın növləri və onların həlli yollarını müəyyən edin.**

| № | Zorakılığın növləri | Zorakılığın azaldılması yolları |
|---|---|---|
| 1. | Şifahi təhqir etmə | |
| 2. | Dalaşma və xəsarət yetirmə | |
| 3. | Uşaqların fikirlərini mənasız və dəyərsiz sayma | |
| 4. | Aqressiv münasibət göstərmə | |
| 5. | Hədə-qorxu gəlmə | |
| 6. | Şəxsiyyəti ləkələmə | |

4. **Məktəbin fiziki mühitində zorakılığı azaldan ifadələri əlavə edin və qarşılığını yazın:**

| Kobud Müraciətlər | Nəzakətli müraciətlər |
|---|---|
| Sualın cavabını bilmirsənsə, əyləş! | Sualın cavabını tapmaq üçün bir qədər düşün! |
| Gəl, onun əlindəki cavablara baxaq! | Çətinliyin olsa, dostundan soruş! |

5. **Layihə işi: "Zorakılığa yox deyək!". Plan:**

1. Şagirdlərin məktəb təhlükəsizliyi kitabçasını hazırlayın;
2. Müəllimlər və idarəçilərlə məsləhətləşin;
3. Faydalı məlumatlar daxil edin;
4. Məktəb cinayətləri və zorakılıq növlərini müəyyən edin;
5. Baş verən hadisələr barədə cavab metodlarını müəyyən edin və məlumatları yekunlaşdırın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**"Təhsilalanlar arasında hüquq pozuntuları və fiziki, psixoloji və cinsi zorakılıq hallarına qarşı geniş miqyaslı profilaktik və maarifləndirici tədbirlər təşkil edir"**

**1. Verilmiş suallar əsasında analitik hesabat hazırlayın:**

- Cəmiyyətdə baş verən zorakılıqların qlobal səbəbləri nədir?
- Zorakılığın nizam-intizam və tədrisin keyfiyyətinə təsiri hansıdır?
- Şagirdlərin hüquq pozuntuları və zorakılıqların aradan qaldırılması məqsədləri nəyi həll edə bilər?
- Fiziki və psixoloji zorakılıqların baş vermə səbəbləri nədir?
- Cinsi zorakılıq tədbirlərini hansı təşkilatlarla aparmaq fayda verə bilər?
- Tədris proqramlarında zorakılığın azaldılması yolları necə tətbiq olunur?




**2. Cümləni tamamlayın.**

Oyun meydançasında dostları ilə əlbəyaxa olmaq ...

A) Verbal zorakılıqdır;
B) Fiziki zorakılıqdır;
C) Psixoloji zorakılıqdır;
D) Cinsi zorakılıqdır.

**3. Cümləni tamamlayın.**

Sinif yoldaşını xoşagəlməz adla çağırmaq ...

A) Bu hal hücumdur;
B) Bu hal xəsarətdir;
C) Bu hal sui-istifadə etməkdir;
D) Bu hal şəxsiyyəti alçaltmaqdır.

**4. Cümləni tamamlayın.**

Cinsi zorakılığın baş verməsinin əsas səbəbi ...

A) Kollektivlə birgə olmaqdır;
B) Cəmiyyətdən ayrı düşməkdir;
C) Ailənin iqtisadi zəifliyidir;
D) Qorxu hissinin güclü olmasıdır.

**5. Məktəbdə şiddət sahəsi üzrə reytinqi müəyyən edin (3 - 4 –5 –6 -7 -8 – 9 -10)**

| № | Şiddət sahələri | Reytinq |
|---|---|---|
| 1. | Şagirdlər tərəfindən müəllimlərə fiziki hücumlar | |
| 2. | Şagirdlər tərəfindən digər şagirdlərə fiziki hücumlar | |
| 3. | Şagirdlər arasında təhqir və hədə-qorxu | |
| 4. | Müəllimlərin şagirdlərə qarşı şifahi təcavüzü | |
| 5. | Şagirdlərin müəllimlərə qarşı şifahi təcavüzü | |
| 6. | Şagirdlər arasında şifahi təcavüz | |

# TƏLİM NƏTİCƏSİ 4

# MÜVAFİQ MARAQLI TƏRƏFLƏRLƏ ƏMƏKDAŞLIQ QURMAQ

## 4.1. Valideyn-məktəb icması ilə birgə fəaliyyətin qurulması yollarını müəyyən edir

### 4.1.1. Valideyn-məktəb icmasının xüsusiyyətləri

Təhsildə şagird-valideyn-müəllim əlaqələrini əks etdirən məktəb, ailə və icma partnyorluğu tədrisin keyfiyyətinin yüksəldilməsi və məktəb həyatının yaxşılaşdırılması üçün yaradılıb (Şəkil 4.1) Valideyn icmaları həqiqi tərəfdaşlıq məqsədilə məktəblə ikitərəfli ünsiyyət qurma imkanlarının inkişaf etdirilməsinə yönəldilib.

Bugünkü məktəblər 30 il əvvəlki məktəblərdən çox fərqli görünür. Müasir məktəblər, icma əlaqələrini genişləndirməklə, demoqrafik, sosial və iqtisadi dəyişikliklər baxımından şagirdlərin ehtiyacları, maraqları, valideyn baxışları və təbiətinə çox təsir göstərir. Buna uyğun təhsil proqramları bu gün təlimdə öyrənənlər, icmanın maraqlarına və dəyişkən ehtiyaclarına görə tədris olunur. Təhsildə valideyn-məktəb icmasının fəaliyyətinə əhəmiyyət verməmək bəzən cəmiyyətdə onun düzgün anlaşılmaması kimi başa düşülür. Valideynlərin məktəbi ailə və icmadan uzaq tutmaları ev-məktəb böhranının baş verməsi və böyük əksəriyyəti zəif ünsiyyətin yaradılmasına gətirib çıxarır. Zəif əlaqə şagirdlərin davranışı və məktəb uğurlarına da təsir edir. Uşaqların akademik şəkildə uğur qazanmaları və böyüklər üçün töhfə vermələri üçün yalnız ailə, məktəb və icma tərəfindən hərtərəfli və əlaqələndirilmiş dəstək tələb olunur.




**Şəkil 4.1. Məktəb, ailə və icma partnyorluğu**



**Şəkil 4.2. Valideyn-məktəb icmasının yaradılması**

### 4.1.2. Valideyn-məktəb icmasının yaradılması məqsədləri

Valideyn-məktəb icması şagirdlərin bərabər təhsil imkanları dəstəklənərək ailələrin, məktəblərin və icma üzvlərinin cəlb edilməsi və təlimat və tədqiqat əsaslı təcrübələrin müəyyənləşdirilməsində uzunmüddətli əməkdaşlıq prosesinin nəticəsidir (Şəkil 4.2). Təhsildə valideyn-məktəb icmasının yaradılmasının aşağıdakı məqsədləri vardır:

- Uşaqların sağlamlığı, təhlükəsizliyi, tərbiyəsi, qidalanması və yaşayış üçün əsas ehtiyaclarını ödəyən dəstəyin verilməsi və mühitin yaradılması;

- Şagirdlərin məktəbdə fəaliyyətinin və effektiv təlimin təmin edilməsi;
- Şagirdlərin təhsili və rifahı üçün ortaq məsuliyyətin artırılması;
- Şagird fəaliyyətinin təkmilləşdirilməsi və effektiv təhsil proqramlarının yaradılması;
- Məktəbin ictimai etibarının və hesabatlılığının gücləndirilməsi;
- Keyfiyyətli, həssas, əhatəli və qayğıkeş bir təhsil mühitinə nail olunması üçün təhsil işçiləri ilə birgə valideynlərə səlahiyyət verilməsi;
- Valideynlər və məktəb işçiləri arasında açıq ünsiyyət və anlaşmanın təşviq edilməsi;
- Şagirdlər üçün mümkün olan ən yaxşı təhsil təcrübəsinin asanlaşdırılması.

Müəllimlər tədris ilinə başlayan kimi valideynlərlə əlaqə qurmaq və valideyn-müəllim münasibətlərini ikitərəfli ünsiyyət ortaqlığı kimi görüşlərini paylaşaraq özlərini tanıtdırmağı hədəfləməlidirlər. Valideyn-məktəb-müəllim fəaliyyətinin ortaq məsuliyyəti və əməkdaşlığı təhsil proqramının uğuru və şagirdlərin rifahı və uğurlarının açarıdır. Hər ikisi uşağın şəxsiyyətinin formalaşdırılmasında böyük bir töhfə və məsuliyyət daşıyır.

### 4.1.3. Valideyn-məktəb icmasının şagird nailiyyətinə təsiri

Uşaqlar valideynləri ilə eyni davranır, reaksiya verir və təqlid edirlər. Valideynlər övladlarını öyrənməyə həvəsləndirməkdə mühüm rol oynayırlar. Bu baxımdan yaxşı valideyn dəstəyi uşağın müsbət, sağlam və yaxşı ömür sürməsini təmin edir. Bir valideynin öz uşağının təhsilinə marağı və təşviqi uşağın məktəbə münasibəti, sinifdə davranışı, özünə hörmət etməsi, dərsdə iştirak etməsi və motivasiyasına təsir göstərə bilər. Ailələrlə etibarlı münasibətləri qurmaq və ehtiyacları tanıyaraq problemi həll etmək ən təsirli ünsiyyət nümunəsidir.

Gəlirindən və mənşəyindən asılı olmayaraq valideyn dəstəyi olan şagirdlər daha yüksək nailiyyətlər və test ballarına sahib olur, məktəbə müntəzəm olaraq qatılır, daha yaxşı sosial bacarıqlara malik olur, inkişaf etmiş davranış nümayiş etdirir və məktəbə yaxşı uyğunlaşırlar. Valideynlərin məktəblə əlaqə qurmaları onların məktəb seminarlarında iştirakları, sinif və təlimdə fəal müşahidəçi olmaları, məktəb-icma fəaliyyətlərinə qoşulmaları və icmanın tədbirlərinə dəvət almaları qədər vacibdir (Şəkil 4.3):




**Şəkil 4.3. Valideynin-məktəb icması fəaliyyəti sahələri**

- Valideyn-təhsil konfransları şagirdlərin uğurları, imtahan nəticələri, hesabatlılığının təminatı və valideyn rəylərini soruşulması üzrə təşkil edilir;
- Valideynlərin sinif fəaliyyətlərində iştirakları məktəb proqramları və təlim nəticələrinin necə əldə olunmasına xidmət edir;

- İcma fəaliyyətlərinə sahə gəzintiləri, sinifdənxaric iş və icma layihələrinə dəstəklər daxildir;
- İcma dəvətlərində məktəbin strateji planına daxil olunan və maraqlı tərəflərlə əməkdaşlıqdakı fəaliyyət əks etdirilir və buraya valideyn-məktəb icmasının seminarları və görüşləri daxil edilir.

### 4.1.4. Məktəbdə keyfiyyətin təminatı üzrə valideynlərin məsuliyyətləri

Uğurlu valideyn iştirakı ailələrin təlimə qarşılıqlı dəstəyi deməkdir. Bu baxımdan valideynlərin məsuliyyətləri və onların təhsilə köməkləri aşağıdakı kimi əks olunur:

- Övladların öyrənməyə hazır olmaları üçün onların əsas fiziki, emosional, psixoloji və mədəni ehtiyaclarını təmin etmək;
- Təhsil almaq və savadlanmağın dəstəkləndiyi və təşviq olunduğu bir ev mühiti yaratmaq;
- Uşaqların maraqları və ehtiyaclarını müdafiə etmək və müəllimlərlə mütəmadi əlaqə qurmaq;
- Uşaqların təhsil almalarında birlikdə fəal iştirak etmək;
- Məktəb proqramlarına dəstək vermək və məktəb fəaliyyətlərində iştirak etmək;
- Məktəb problemləri, siyasət və tədris proqramlarının məzmunu barədə məsləhət vermək məqsədilə qruplar və fəaliyyətlərdə iştirak etmək.

### 4.1.5. Valideyn-məktəb icmasının yaradılması üsulları

Bu gün bir çox ölkənin təhsil və məktəb layihələrində valideynlər və cəmiyyət arasında tərəfdaşlığın artırılması üçün müxtəlif yanaşmalardan istifadə edilir. Hər bir məktəb və onun icmasında özünəməxsus fərqli ehtiyaclar, qaynaqlar və gözləntilər ilə ailələr və icma üzvlərinin iştirak etmələri və inkişaf etdirilən ortaqlıq növləri bir-birindən fərqləndirilir. Valideyn-məktəb icmasının təhsildə faydalı əlaqələri məktəbin cəmiyyətdə rolunu təyin edərək müsbət yöndə dəyişilir. Bu baxımdan təqdim olunan müasir yanaşmalar valideynlərin təhsilə cəlbini dəstəkləyir:

1. **Şagirdlərin fəaliyyətinin təkmilləşdirilməsi və effektiv təhsil proqramlarının yaradılması**

Valideynin iş təcrübəsi, mentorluğu və biznes-məktəb partnyorluğu şagirdləri praktiki olaraq bir şəxsiyyət kimi həyata hazırlayan təlim imkanları ilə təkmilləşdirilir. Məktəbin tədris proqramının məzmunu şagirdlərin məktəbə münasibətləri, nailiyyətləri, davamiyyətləri, motivasiyaları, özünüdərk və davranışlar, valideynlərin və ailələrin təlim və təhsildə iştirakını təşviq edir. Proqrama valideyn arzusunu əks etdirən və innovativ biliklər verən fənlərin tədrisi və uşaqların bacarıqlarını təkmilləşdirən təcrübələr və digər faydalı təlim nəticələri daxildir.

2. **Şagird, müəllim və valideynlərin ortaq məsuliyyətinin artırılması**

Uşaqlar üçün yüksək keyfiyyətli təhsil və həyat uğurlarını təmin etmək ailələrin, məktəblərin və icmaların ortaq məsuliyyətidir. Bu məsuliyyət valideyn-müəllim-şagird

əlaqəsini artırmalı və birgə əməkdaşlığı təşviq etməlidir (Şəkil 4.4)

Bəzən ailələrdə olan iqtisadi gerilik, qeyri-sabitlik və uşaqlara qarşı baş verən zorakılıq şagirdlərin təlimdəki fəaliyyətində mənfi təsirlərlə aşkarlanır. Bu mənfi təsirlər şagirdlərin məktəb və həyatda uğur qazanma imkanlarını risk altına qoyur. Belə olan halda, bu şagirdlərin valideynlərinin təlimlərə cəlbi, onlara məsləhətlərin verilməsi və psixoloq xidmətinin olması mühüm addım hesab edilir. Məktəb şəraitində ailələrin, müəllimlərin, icmaların və sosial xidmətlərin birgə dəstəyinin təmin edilməsi şagirdlərin psixoloji gərginlik və uğursuzluq riskini asanlıqla aradan qaldırır. Şagirdlərin ehtiyac duyduqları dəstəyi təmin etmək ailə, müəllim, icma, sosial və insan xidmətləri agentliklərin vəzifəsidir.




**Şəkil 4.4. Valideyn-müəllim-şagird əlaqəsinin yaradılması**

### 3. Məktəb-valideyn əlaqələrinin təşkili

Valideynləri öyrənməyə cəlb etmək barədə müəllimlər üçün tövsiyələr:

- Valideynlərlə söhbət etmək və diqqətlə dinləmələrinə əmin olmaq;
- Sadə mövzulardan başlamaq və yaxşı məsləhətlər vermək;
- Valideyn arzusu və məsləhətlərinə rəy bildirmək;
- Valideynləri ev tapşırıqlarında necə kömək etmələrinə istiqamətləndirmək;
- Tədbirlərə dəvət etmək və şəxsi işdə yaradıcı olmaq;
- Söhbətə başlamaq üçün sosial mediadan istifadə etmək;
- Bloqlar yaratmaq və yaradıcı fəaliyyəti valideynlə bölüşmək;
- Valideynləri təlim fəaliyyət araşdırılmasına cəlb etmək;
- Pozitiv fikirlərə diqqət yetirmək və məktəb təcrübələrini bölüşmək;
- Valideynləri birbaşa ziyarət etmək və problemlərin həllində məsləhətlər vermək.

### 4. İctimai etibarın və hesabatlılığın gücləndirilməsi

Təhsil sistemi və məktəblər güclü xalq dəstəyinə malikdir. Şəxsi icma və onların köməyinə arxalanan məktəb etimadı doğrultmaq üçün təhsilin keyfiyyətinə görə məsuliyyət daşıyır. Bu baxımdan ailələrin məktəblərə səfərləri məktəbin hesabatlılıq məsuliyyətini bir daha artırır və məktəbdə valideyn güvəninin qazanılması üçün ən səmərəli yollar təklif edir, tədris prosesinin təşkili və şagirdlərin fəaliyyəti barədə şəffaf məlumatlılıq təmin edir (Şəkil 4.5).



**Şəkil 4.5. Hesabatlılığın gücləndirilməsi**

### 4.1.6. Valideyn-məktəb icmasının üstünlükləri

Valideyn icmasının əsas üstünlüyü aşağıdakı uğurların əldə olunmasına gətirib çıxarır:

- Birgə əməkdaşlıqda akademik nailiyyətlər təkmilləşir;
- Yaradılmış uğursuzluqların vaxtında həllinə kömək edir;
- Münasibət və davranışlar yaxşılaşdırılır və sinifdə tədris fəaliyyətlərində iştirak artırılır;
- Məktəbdə şagird nailiyyətlərinin artırılması güclənir;
- Məktəbi daha yüksək nəticələrlə bitirənlərin sayı artır;
- Evə verilən tapşırıqların yerinə yetirilməsində məsuliyyət yaranır;
- Yüksək davamiyyət nisbəti artır və geridəqalma nisbəti azalır;
- Tədris proqramlarının yerinə yetirilməsi və akademik fəaliyyət yaxşılaşır.

**Valideynlərin əldə etdikləri faydalar:**

- Valideynlərin övladlarının tərbiyəsində əsas təsiredici qüvvə olduğu dərk edilir;
- Məktəbin fəaliyyətində anlayışlı davranılır;
- Valideynlər, övladlar və müəllimlər arasında əlaqə yaxşılaşdırılır;
- Evdə təlim fəaliyyətinə cəlb edilmə artırılır;
- Şəxsi təhsilin başa vurulması üçün məktəblə sıx əlaqə qurulur;
- Şagirdlərdə özləri haqqında pozitiv münasibətlər artırılır.

**Müəllimlərin əldə etdikləri faydalar:**

- Ünsiyyət bacarıqlarından məmnunluq artırılır;
- Daha çox iş məmnuniyyəti və uşaqların məktəbdən çıxarılmasına az müraciət edilir;
- Uşaqların davranış problemlərinə deyil, vacib təlim tapşırıqlarına vaxt ayırmaları üçün imkanlar artırılır;
- Məktəb, ailə və cəmiyyət mədəniyyəti anlayışı artırılır;
- Cəmiyyətin iştirakı ilə peşəkar inkişaf imkanları təmin edilir.

**Məktəbdə əldə edilən faydalar:**

- İcmanın məktəb fəaliyyətində iştirakı və əməkdaşlıq tədris mühiti yaxşılaşdırılır;
- Məktəbdə sağlam ünsiyyət və təlim səmərəliliyi artırılır;
- Müsbət şəkildə ev-məktəb münasibətləri inkişaf etdirilir;
- Məktəbdə əlavə xərc olmadan təcrübə və məlumat əldə edilir;
- Valideyn-icma dəstəyi və təşəbbüsü genişləndirilir.

**İcmada əldə edilən faydalar:**

- İcma xidmətləri və fəaliyyətlərin icra vaxtının təyin edilməsi, büdcənin xərclənməsi və məktəbin maliyyə səmərəliliyinin artırılmasına xidmət edilir;
- Valideyn və icma üzvlərinin məktəb fəaliyyətlərinə cəlb edildikdə şəxsi səylər nümayiş etdirilir;

- Cəmiyyətin təşkili və nail olma qabiliyyətinin gücünə dair geniş bilik və inama malik olunur;
- İcma kimliyi yaradılır, şəxsi məsuliyyət təmin edilir və məktəb səviyyəsində uğur qazanılır;
- Könüllü imkanlar daxilində fond toplama və şagirdlərə məsləhət vermə imkanı əldə edilir;
- Kitabxanaya kömək edilir və məktəbdənkənar layihə hazırlanır.

Beləliklə, valideyn-məktəb icmasında valideynlər və icma üzvləri arasında məktəb tədbirlərinin təşkili, dəstək rollarında könüllü olaraq iştirak etmələri, məktəb proqramları, prioritetlər, təlim və siyasətə dair tövsiyələr verilməklə məktəbin həyatında iştirakı təşkil edilir

## Tələbələr üçün fəaliyyətlər

1. **Qrup işi. Müzakirə.** İki qrupa bölünün. Bir qrupun üzvləri məktəbin valideynlərdən gözləntiləri, digər qrupun üzvləri isə valideynlərin məktəbdən gözləntilərini müəyyən edir.

**Qrup A.**

Məktəb → Valideynlər

**Qrup B.**

Valideynlər → Məktəb

2. **Rollu oyun.** Valideyn və müəllim kimi rollu oyun aparın:

   1. Valideynin rolu və sual:

Sizcə, məktəbə hər hansı bir şəkildə kömək edə biləcək hər hansı bir xüsusi maraq, təcrübə və ya bacarıqlarınız vardırmı? Yalnız iki və ya üç bacarığınızı ifadə edin.

   2. Müəllimin rolu və sual:

Uşaqların ev tapşırıqlarına valideynlərinin necə kömək etmələrini soruşun və situasiya quraraq öz tövsiyələrinizi qeyd edin. Valideynin bacarığını necə reallaşdırmağı fikirləşin.

3. **Cədvəldə verilmiş qaydada şagirdlərin təhsildə hansı problemlərinin olmasını valideyn və müəllim kimi qeyd edin və problemin həlli yollarını yazılı ifadə edərək təqdimatınızı hazırlayın:**

| Tərəflər | Problemlər | Həlli |
|---|---|---|
| Məktəb | 1. Dərsdən yayınma<br>2. | |
| Valideyn icması | 1. Çoxlu ev tapşırığı<br>2. | |

4. **Valideyn-məktəb icması üzrə keçirilən tədbirlərin adlarını yazın və keçirilmə üsullarını plan əsasında tərtib edin. Valideynlərin rollarını xüsusi qeyd edin.**

Plan:
1. Tədbirin adı;
2. Keçirilmə tarixi;
3. İştirak edəcək valideynlər;
4. Valideynlərin tədbirdə rolları;
5. Valideyn məmnunluğunun ölçülməsi.

Tədbirlər:
1. Fiziki məhdudiyyəti olan uşaqlarla rəsm layihəsi;
2. Oxu müsabiqəsi;
3. Tarixi yerlərə gəzinti;
4. Ekoloji səfərlər.
5. Musiqi festivalının keçirilməsi

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Valideyn-məktəb icması ilə birgə fəaliyyətin qurulması yollarını müəyyən edir”**

**1. Sualları kollektivdə müzakirə edin və cavablandırın:**

- Valideyn-məktəb icmasının təhsildə hansı rolu vardır?
- Nə üçün valideyn-məktəb icması təhsildə vacibdir?
- Valideyn məmnunluğunu yaradan əsas meyarlar hansıdır?
- Valideynləri məktəb fəaliyyətində narahat edən sahələr hansıdır?
- Tədris proqramının təkmilləşdirilməsinə valideynlər necə münasibət göstərirlər?
- Valideynlər müəllimlərlə əlaqəni necə qura bilərlər?
- Valideyn-məktəb icmasının nə kimi üstünlükləri vardır?
- Məktəb tədbirlərində valideynlərin rolları nədən ibarət olmalıdır?

**2. Valideyn məsuliyyətinə aid OLAN cavabı seçin:**

A) Vacib təlim tapşırıqlarına daha çox vaxt ayırma imkanı verir;
B) Uşaqların təlimə olan əsas fiziki, emosional, psixoloji və mədəni ehtiyacları təmin edilir;
C) Məktəbdə təlimin səmərəliliyi artırılır;
D) İcma xidmətləri və fəaliyyətlərin icra vaxtı təyin edilir və büdcə xərclənir.

**3. Verilmiş icma xidmətlərini aşağıdakı cavablara uyğun tamamlayın:**

1. Valideyn-təhsil konfransları.......................................................................................................;
2. Valideynlərin sinif fəaliyyətlərində iştirakları..........................................................................;
3. İcma fəaliyyətləri...........................................................................................................................;
4. İcma dəvətləri.................................................................................................................................. .

A) Məktəb proqramları və təlim nəticələrinin necə əldə olunmasına xidmət edilir;
B) Maraqlı tərəflərlə əməkdaşlıqdakı fəaliyyət əks etdirilir;
C) Şagirdlərin uğurları, imtahan nəticələri, hesabatlılığın təminatı və valideyn rəylərinin soruşulması təşkil edilir;
D) Sahə gəzintiləri və sinifdənxaric iş və icma layihələrinə dəstəklər daxil edilir.

**4. Şagird nailiyyətlərinə müsbət təsir edən düzgün cavabı seçin:**

A) Ailədə valideynlərin köməyi ilə formalaşdırılan bacarıqlar;
B) Evdə fərdi öyrənmə üzrə əldə olunan bacarıqlar;
C) Ailə və məktəb arasında əməkdaşlıqda yaradılan bacarıqlar;
D) Məktəbdə könüllü təhsil alma bacarıqları.

**5. Müxtəlif ailələri uşaqlarının təhsili ilə məşğul olmağa təşviq etmək üçün məktəblərdə ən yaxşı yol nədir?**

A) Ailələrlə etibarlı münasibətlər formalaşdırılır;
B) Ailənin ehtiyacları ilə tanış olunur və həll edilir;
C) Güc və məsuliyyət ailələrlə bölüşdürülür;
D) Yuxarıdakıların hamısı.

## 4.2. Digər təhsil müəssisələri ilə əlaqələrin qurulması və müvafiq məktəb şəbəkələrinə cəlb olunması yollarını izah edir

### 4.2.1. Təhsil müəssisələri ilə əlaqə və məktəb şəbəkələri

Müasir təhsil sistemləri qloballaşma və rəqəmsallaşma şəraitində getdikcə inkişaf etdirilir. Məktəblərin 21-ci əsrin tələblərinə uyğun idarə edilməsi üçün təcrübə istiqamətləri müəyyən edilməli və bu istiqamətlərə yeni inkişaf çağırışları, innovativ biliklər və inteqrasiya dəyərləri diffuziya olunmalıdır. Bu məqsədlə, məktəb şəbəkələr daha çox müstəqilliyin və hesabatlılığın dəyişdiyi dövrlərdə təhsil praktiklərinə xidmət etmək üçün bir platforma yaradır. Araşdırmalar göstərir ki, eyni coğrafi bölgədəki məktəblərin fikir mübadiləsi və yaxşı təcrübə qazanması bir ortaqlığın əsasını qoyur. Təhsildə müəyyən edilmiş məqsədlər və keyfiyyətə nail olunması üçün məktəbin digər təhsil müəssisələri ilə şəbəkələrə cəlb olunması kommunikasiyanın ən gözəl nümunəsidir (Şəkil 4.6).



**Şəkil 4.6. Məktəb şəbəkələrinin yaradılması**

Bu əlaqədə məktəb şəbəkələri sistemi yaradılır, tədrisin inkişafında müvəqqəti "Eksperimental" mərhələ kimi fəaliyyət göstərir, rəsmi və ya qeyri-rəsmi olaraq mərkəzləşdirilmiş şəkildə idarə olunur. Bu sahədə əsas məqsədlər aşağıdakılardır:

- Təhsil siyasəti və təcrübənin inkişafına beynəlxalq dəstək;
- Milli siyasətin inkişafına və həyata keçirilməsinə dəstək;
- Milli və regional idarəetmə strukturlarını inkişaf etdirmək;
- Məktəbin inkişafı üçün məktəbləri birləşdirmək;
- Peşəkar inkişaf üçün müəllimləri qruplaşdırmaq;
- Şagird qruplarını hədəf alan çoxtərəfli şəbəkələr yaratmaq.

Yeni bir fikir kimi, "Məktəb şəbəkələri"nə qoşulmaq məktəb idarə olunmasında böyük maraq yaradır. Bu şəbəkələrlə aparılan işlər verilmiş şəkildə qruplaşdırılır (Şəkil 4.7):




**Şəkil 4.7. Məktəb şəbəkəsinin istiqamətləri**

- Təhsilin keyfiyyətini yüksəltmək üçün yeni məqsədlər qoymaq;
- Məktəb şəbəkələri arasında bir-birinə dəstək və inam hissi formalaşdırmaq;
- Yeni texnoloji bacarıqlar əldə etmək və komandada işləmə səriştəsi qazanmaq;
- Yeni biliklər əldə etmək və planlaşdırma əsasında fəaliyyətləri bölüşdürmək;
- Bir-biri ilə əlaqələri genişləndirərək səmərəli əməkdaşlıq etmək.

### 4.2.2. Məktəb şəbəkəsinin yaradılması ehtiyacları və məqsədləri

Məktəb şəbəkələri bütöv və insan mərkəzli bir pedaqogikanın ortaq bir görüşü ətrafında qurulmasıdır.

Buna baxmayaraq, məktəb şəbəkələri bəzi problemlərlə üzləşir. Hesabatlılıq, mürəkkəb, dəyişkən və sosial davranışlardan asılı olan mədəniyyətlər təbliğ edilərkən çətin məsələlər üzə çıxarılır (Şəkil 4.8).

Coğrafi məkan baxımından məktəblərdə şəbəkədə müxtəlif üzvlərin ehtiyaclarını təmin edərkən problemlə üzləşir. *Bu ehtiyaclara aşağıdakılar daxildir:*



**Şəkil 4.8. Məktəb şəbəkələrinin yaradılmasının məqsədi**

- Yerli mədəniyyət, hüquqi və siyasi mühit;
- Müəyyən bir ölkə daxilində elektron təhsilin statusu;
- Şəbəkələrdə dövlət maliyyələşdirməsi-nin səviyyəsi;
- Şəbəkə üzvlərinin nə dərəcədə aktiv rol oynaması;
- Maliyyə və insan resurslarının təyinatı;
- Beynəlxalq əməkdaşlığa bağlılıq səviyyəsi;
- Şəbəkə iştirakçılarının çağırışlara məlumatlılığı;

- Elektron rabitə və müxtəlif mədəni baxışlar sistemi.

Bu ehtiyacların qarşılanması və problemlərin həllində məktəb müəllimlərinin ölkələrarası fəaliyyətləri böyük rol oynayır. Bu məqsədlə müəllimləri müxtəlif təbliğat formaları, qabaqcıl təcrübə və mübadilə proqramlarına cəlb etmək lazım gəlir. Şagirdlərin şəbəkələrdə fəaliyyətini çevik yollarla dəstəkləmək və onların təhsili ilə bağlı problemləri həll etmək ən vacib məqsədlərdəndir. Buraya şagirdlərdən ibarət maraq qruplarının zəif cəlbi, etibarlılığın azlığı, inkişafa az meyllilik və tənqidi əks etdirmək aiddir. Bundan əlavə, şəbəkələrdə rəqəmsal təhsil siyasəti və elektron təhsildə olan yeni pedaqoji fikir və iş metodlarını araşdırmaq və sınaqdan keçirmək üçün bir mühit yaradıla bilər. Bu məqsədlə məktəb şəbəkələrinin yaradılması bir çox məqsədi qarşıya qoyur:

- Məktəb təhsili sistemlərinin müxtəlif pedaqoji yanaşmalarını yaymaq;
- Məktəb şəbəkəsi üzrə yerli mədəniyyəti formalaşdırmaq;
- Şəbəkələrin yaradılması üzrə maliyyə və insan resurslarını müəyyən etmək;
- Digər məktəblərlə əlaqə yaratmaq üzrə iştirakçıları motivasiya etmək;
- Şəbəkə iştirakçıları üçün məktəb inkişafını təşviq etmək;
- İcma ilə iş və məktəb ortaqlığı yaratmaq;
- Beynəlxalq əməkdaşlığı genişləndirmək;
- Real dünya təcrübələri ilə əlaqəli tədris proqramı yaratmaq;
- Şagirdlərin beynəlxalq təcrübə ehtiyaclarına cavab vermək;
- Müəllimləri mübadilə proqramlarına cəlb etmək;

İnternet və ya üz-üzə işləyən əməkdaşlıq şəbəkələri yeniliklərin daha sürətli inkişafına imkan verir və daha çox təsirli olur, çünki müxtəlif fikirlər və əməkdaşların müəyyən bir cəmiyyətin paradiqmaları və dünyagörüşlərindən kənara çıxmasına kömək etdiyi üçün yeni yanaşmaların sınanması və təkmilləşdirilməsində daha çox insan iştirak edir.

### 4.2.3. Təhsil müəssisələri ilə əlaqə və məktəb şəbəkələrinin yaradılması

Məktəb təhsili sistemlərində şəbəkələrin rolunu nə üçün gücləndirmək lazımdır?

Digər təhsil müəssisələri ilə əlaqələrin qurulmasında məktəb şəbəkələrinin yaradılmasında çox vaxt kompleks müasir yanaşmalar tətbiq olunur. Bu yanaşmalar şəbəkələr, qruplar və partnyorlar olmaqla üç yolla tətbiq olunur. Şəbəkələr müxtəlif olur, qrup üzvləri eyni proqramı paylaşır və partnyorlar bu işə dəstək verirlər. Ümumi şəbəkə tətbiqinə e-mail, əməkdaşlıq, qrafik üzrə məlumat bazalarının yaradılması və söz əməliyyatı yolları aiddir. Buraya müxtəlif təcrübələri öyrənmək üçün hər şeydən əvvəl məktəblər, fənn üzrə mövzular və tədris planı üzrə məsul şəxs seçilməlidir ki, məktəblər arasında əlaqələr ardıcıl bölüşdürülsün. Məsələn, İB məktəbləri üzrə seçilən məktəblərdə şəxsi təcrübə bölüşülərkən hər mərhələ üzrə fənn proqramı qrup üzvləri arasında müzakirə edilir və digər məktəblərə şəbəkə vasitəsilə ötürülür. STEM təhsili üzrə pilot məktəblərdə İB məktəblərlə olan fərq izah edilir, humanitar fənlərə inteqrasiya bölüşülür və ingilis dilində şəxsi təcrübələr beynəlxalq səviyyədə paylaşılır.

Məktəb şəbəkəsinə məktəb rəhbərləri, müxtəlif fənn müəllimləri, şagirdlər və kompüter texniki işçiləri qoşulurlar. Onlar beynəlxalq təcrübə sayəsində yeni fənlərin tədrisi texnologiyası ilə tanış olur, rəsmi əlaqələr yaradaraq öz milli maraqlarının prioritetləri barədə danışmaq imkanı qazanır və şəbəkələrin potensialından istifadə edərək daha açıq dialoq qururlar (Sxem 4.1).




**Sxem 4.1. Məktəb şəbəkəsinin fəaliyyəti**

### 4.2.4. Məktəb şəbəkələrinin funksiyaları və iştirakçı məsuliyyəti

Məktəb şəbəkəsi üzrə istifadəçilər sistemli şəkildə aşağıdakı funksiyaları yerinə yetirirlər (Şəkil 4.9):



**Şəkil 4.9. Məktəb şəbəkələrinin funksiyaları**

- Yeni partnyorlar tapmaq və virtual ünsiyyət qurmaq;
- Əməkdaşlıqda yeni biliklər qazanmaq;
- Müəllimlərin peşəkar inkişafını artırmaq;
- Məktəblərdə potensialın artırılmasına dəstək;
- Vaxt və resurslardan istifadəni optimallaşdırmaq;

- Bloqlar, forumlar və peşəkar saytlar yaratmaq;
- Elektron təhsilə qoşulmaq və sertifikasiyadan keçmək;
- Təcrübə mübadiləsinin yayılmasına kömək etmək;
- Şəbəkə sistemində müxtəlif səviyyələr arasında vasitəçilik etmək.

Bu fəaliyyətləri yerinə yetirən məktəb şəbəkəsinin iştirakçılarına daxildir:

- Məktəb rəhbərləri, müəllimlər və məsləhətçilər;
- Təhsilalanlar və məktəb məzunları;
- Şəbəkə təşəbbüskarları və təhsil menecerləri;
- Tədqiqatçılar və təhsil ekspertləri;
- Şəbəkə xidmətləri üzrə texniki koordinator;
- Qiymətləndiricilər və təhsil siyasətçiləri;
- İstehsalat nümayəndələri və könüllülər.

Məktəbin digər təhsil müəssisələri ilə əlaqəsinin əsas funksiyası məktəblərdə yaradılan boşluqları doldurmaqdır. Şəbəkə fəaliyyəti üzrə iştirakçıların vəzifələrinə - şəbəkə rəhbəri, şəbəkə moderatoru, koordinator, tədris proqram üzrə məsul şəxs, texniki heyət, təşəbbüskarlar qrupu, layihə təşkilatçısı və digərləri daxildir. Sonda, şəbəkə fəaliyyətinin və istifadəçilərin qiymətləndirilməsi məktəblərarası tədris reytinqinin yüksəlməsinə səbəb olur.

### 4.2.5. Məktəb şəbəkələrinin faydaları

Sosial şəbəkələrdən istifadənin məktəb təlim nəticələrinin əldə olunmasına, strateji inkişaf planının yerinə yetirilməsinə və tədrisə faydası aşağıdakı kimidir:

- Şəbəkələrdəki əlaqələrin tədrisdə müsbət nəticələrlə əks olunması;
- İnnovativ məlumatların və yeni təhsil kəşflərinin yayılması;
- Şəbəkələr arasında faydalı virtual ünsiyyətin yaradılması;
- Müəllimlərin sosial şəbəkələrdə araşdırmalar aparmaları;
- Təhsilyönümlü sosial medianın xeyli inkişaf etdirilməsi (Şəkil 4.10).



**Şəkil 4.10. Məktəb şəbəkəsinin faydası**

Beləliklə, məktəblərin sosial şəbəkələrinin yaradılması və qarşılıqlı öyrənmə, uyğunlaşma imkanlarının və müasir təhsildə yeni elektron pedaqogikanın əsasını qoydu. Məlum olur ki, məktəblər şəbəkələrdə iştirak etməklə, təşkilat strukturları və tədris planların həyata keçirilməsinə görə sərbəstlik əldə edir, eyni cəmiyyətdə bir-birilərinin həmyaşıdı kimi, əməkdaşlıq etməyə meyilli olurlar.

## Tələbələr üçün fəaliyyətlər

1. **Müzakirə.** Kollektiv şəkildə müzakirə edin. Sosial media platformalarının siyahısını verin.

Məktəb şəbəkələri haqqında video izləyin (www.youtube.com Networks for School Improvement). Video üzrə tapşırıqları yerinə yetirin:

**Qrup A.** Məktəb şəbəkələrinin yaradılmasının şagirdlərə müsbət təsir yollarını təsvir edin.

**Qrup B.** Məktəb şəbəkəsinin təhsildə yaratdığı dəyişiklikləri qeyd edin.

2. **Cütlər şəklində iş.** Cütlərə bölünərək aşağıdakılar haqqında fikirlərinizi bölüşün:

- Hansı təhsil şəbəkələrinin və qrupların üzvüsünüz və nələr öyrənmisiniz?
- Digər məktəblərlə əlaqədə hansı təhsil problemləri daha çox müzakirə olunur?

3. **Qrup işi. Məktəb şəbəkəsi haqqında verilmiş fikirlərdən (a-h) istifadə edərək tamamlayın və geniş izahını verin:**

1. Elektron dərslər hazırlamaq və digər şəbəkəyə______________;
2. Ən yeni təcrübələr qazanıb tədrisdə______________;
3. Şəbəkəyə qoşulmaqda______________;
4. Mübadilə proqramlarında______________;
5. Şəxsi bloqda ətraf mühit______________;
6. Məktəb heyətini şəbəkədə fəal olmağa______________;
7. Kahoot proqramına şagirdləri______________;
8. Facebook-da təhsil______________ .

a. iştirak etmək;
b. tətbiq etmək;
c. forumu yaratmaq;
d. sövq etmək;
e. yükləmək;
f. planını paylaşmaq;
g. çətinlik çəkmək;
h. qoşulmağa çağırmaq.

4. **Məktəb şəbəkələrində hər bir iştirakçının fəaliyyətinə aid olan üç əsas məsuliyyəti qeyd edin:**

| Məktəb rəhbərləri | Təhsilverənlər | Təhsilalanlar | Maraqlı tərəflər |
|---|---|---|---|
| 1.<br>2.<br>3. | 1.<br>2.<br>3. | 1.<br>2.<br>3. | 1.<br>2.<br>3. |

5. **Şəbəkədə paylaşılan ən məhsuldar təhsil proqramının tədrisə təsirini layihə şəklində planlaşdırın: Yeniliklərin növü, qazanılması yolları və tədrisdə əldə edilmiş dəyişikliklər.**

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**"Digər təhsil müəssisələri ilə əlaqələrin qurulması və müvafiq məktəb şəbəkələrinə cəlb olunması yollarını izah edir"**

**1. Sualları cavablandırın və qruplarda müzakirə edin:**

- Müxtəlif proqramları öyrənmə və inkişafa dəstək vermə baxımından şəbəkələrin dəyəri və rolu nədir?
- Hansı ehtiyaclar yeni şəbəkələrin yaranmasına səbəb olur və hansı problemlərin daha da effektiv işləməsini müəyyən edir?
- Şəbəkələrin yaradılması üsulları hansıdır və təcrübə necə qazanılır?
- Şəbəkələrin fərqli kontekstlərdə fəaliyyət göstərməsi üçün üzvlərin və liderlərin hansı funksiyaları vardır?
- Şəbəkə proseslərini idarə edənlər kimlərdir və müxtəlif məsuliyyətlər necə yerinə yetirilir?
- Məktəb şəbəkəsi hansı mənbələr sayəsində daha effektli yaradıla bilər?

**2. Məktəb şəbəkəsi haqqında verilmiş fikirlərdən 2 düzgün cavabı qeyd edin:**

A) Məktəb şəbəkəsi vaxt və resurslardan istifadəni optimallaşdırır;
B) Əsas məkanda şəxsi işləri görmək üçün şəbəkədə yüzlərlə, hətta minlərlə insan şəbəkədə ola bilər;
C) Məktəb şəbəkəsi bir-biri ilə əlaqə qura bilən cihazların birləşdirilmiş bir toplusudur;
D) Məktəb şəbəkəsi bütün məlumatlara və komponentlərə çıxış imkanı təmin etmək üçün bir vasitədir;
E) Şəbəkə fəaliyyəti yalnız moderatorun məsuliyyətinə aiddir.

**3. Aşağıdakılardan hansı ümumi şəbəkə tətbiqi DEYİL?**

A) Elektron poçt;
B) Texniki quraşdırma;
C) Qrafik üsul;
D) Məlumat bazaları;
E) Söz əməliyyatı.

## 4.3. Maraqlı tərəflərlə əməkdaşlıq etmə yollarını təqdim edir (birinci ifadə dəyişilib)

### 4.3.1. Təhsildə maraqlı tərəflərin rolu

Təhsildə maraqlı tərəflər müəyyən bir proqrama qoşulan bir şəxs və ya təşkilatdır. Bu tərəflər təhsildə məktəblərin səmərəliliyini davam etdirmək üçün dəstək qrupları şəklində fəaliyyət göstərir. Eyni zamanda maraqlı tərəflər birbaşa təşkilat xaricində - məktəbin missiyasını başa düşən və şagird nailiyyətlərinin əldə olunmasında şəxsi payı olanlardır (Şəkil 4.11).

Əslində, cəmiyyət, bütövlükdə, təhsil sistemində ən böyük maraqlı tərəfdir. Bunun səbəbi yerli məktəblərdə gələcək işçilər, müəssisə sahibləri və cəmiyyət rəhbərlərini yetişdirməkdir. Güclü bir təhsil proqramı təhsilalanları uğurlu icma üzvü olmağa hazırlamaqla daha güclü bir cəmiyyət qurur. Məktəbin ətrafındakı cəmiyyətdə təcrübə yolu ilə öyrənmə üçün bir çox imkan vardır. Sadəcə düzgün insanları cəlb etmək və effektiv əməkdaşlıq əsasında tədris planlarını sinifdən kənarda birləşdirməyin yollarını tapmaq lazımdır.



**Şəkil 4.11. Maraqlı tərəflərin təhsildə rolu**

### 4.3.2. Maraqlı tərəflərlə əməkdaşlıq məqsədləri

- Təhsil proqramlarını planlaşdırmaq, icra etmək və qiymətləndirmək;
- Məktəblərdə sağlam mühitin yaradılmasına dəstək vermək;
- Şəxsi marağa və ehtiyaclara uyğun uşaqları məktəb mühitinə həvəsləndirmək;
- Tədris proqramının fəaliyyətini qiymətləndirmək üçün peşəkar xidmətlərdən istifadə etmək;
- Məktəb tədris planının qəbulu və həyata keçirilməsinə dəstək olmaq;
- Məktəb tədbirlərində yaxından iştirak etmək və dəstəkləmək;
- Məktəbə sosial və psixoloji yardımları həyata keçirmək;
- Valideynlərin övladlarının performansı ilə razılaşmaq və ev tapşırıqları fəaliyyətləri izləmək;
- Məktəbdə inkişafyönümlü icma əsaslı layihələrin təşkili və tətbiqində iştirak etmək;
- Tədris planının həyata keçirilməsini izləmək və qiymətləndirməyə kömək etmək.

### 4.3.3. Maraqlı tərəflərin növləri və fəaliyyətləri

Maraqlı tərəflər daxili və xarici tərəfdaş kimi təhsilə dəstək verirlər. Onların maraqları və ya narahatlıqları fərqli olsa da, əsas diqqət təhsilalanlara yönəldilir.

Tərəfdaşların təhsildə fəaliyyəti və iştirakı baxımından məktəblərdə bir çox problemlərlə üzləşilir:

- Maraqlı tərəfləri müəyyənləşdirmək və daha geniş bir şəbəkə yaratmaq;
- Zaman və resurs məhdudiyyətlərini aradan qaldırmaq;
- Maraqlı tərəflərlə səmərəli ünsiyyət və görüşlərin təsirini artırmaq;
- Maraqlı tərəflərin tədrisinin inkişafı ilə bağlı hesabatlılığı təmin etmək.

Maraqlı tərəflərlə əlaqə post-avtoritar bir cəmiyyətin qorunması üçün zəruri olan mədəni dəyişiklik növünün yaradılması üçün vacibdir. Təhsildə maraqlı tərəflərin iki növü vardır: Daxili və xarici maraqlı tərəflər (Şəkil 4.12).




**Şəkil 4.12. Təhsildə maraqlı tərəflərin növləri**

Daxili maraqlı tərəflərə məktəb rəhbərləri, menecerlər, müəllimlər, məktəb psixoloqu, uşaq birliyi nümayəndələri və kitabxana əməkdaşları daxildir.

Xarici maraqlı tərəflərə valideynlər, icma birlikləri və yerli bələdiyyə nümayəndələri, universitet əməkdaşları, mədəniyyət xadimləri, şairlər, yazıçılar və biznes iş adamları daxildir. Məktəb məsləhətçiləri bütün maraqlı tərəflərlə əməkdaşlıq edə bilərlər.

Maraqlı tərəflərin cəlb olunmasında hansı addımlar vardır?

1. Maraqlı tərəfləri müəyyənləşdirmək;
2. Maraqlı tərəflərlə işin təşkilini planlaşdırmaq;
3. Onlar haqqında məlumat toplamaq;
4. Maraqlı tərəflərin fəaliyyətini təhlil etmək;
5. Maraqlı tərəflərlə görülən işlərin nəticələrini hazırlamaq.

Maraqlı tərəflərin fəaliyyət və təhsilə dəstəyinin təhlili aparılarkən aşağıdakı amillər nəzərə alınmalıdır:

- Layihə komandasının üzvlərinin seçilməsi;
- Məktəb maliyyəsinin yaradılması;

- İş qrafikinin düzgün tərtib edilməsi;
- Səyahətlərin təşkil edilməsi;
- Görüş yeri və vaxtın təyin edilməsi;
- Görüş materiallarının nəzərdən keçirilməsi;
- Müsahibələr və hədəf qrupları ilə işin planlaşdırılması;
- Əsas tədbirlərin planlaşdırılması.

**Valideynlər və əsas maraqlı tərəflərin təhsilə cəlbinin təmin edilməsi**

Məktəbdə təlim nəticələri, keyfiyyətin təmin olunmasında valideynlər və digər maraqlı tərəflərin cəlb edilməsi yolları məktəbin fəaliyyət planında əsas yerlərdən birini tutur:

- Valideynlərin cəlbi üçün yüksək gözləntilər təyin edilməlidir
- Birlikdə planlaşdırma üçün vaxt ayrılmalıdır;
- Yerli icma tədbirlərində iştirak edilməli və sponsorluq edilməlidir;
- Təşəkkürlər bildirilməli və mükafatlandırma aparılmalıdır;
- Valideynlər və cəmiyyət tərəfdarları böyük işlərə görə tanınmalıdır;
- Davamlı ünsiyyət və monitorinqlərə cəlbetmə təmin edilməlidir;
- Təhsilalanların təlimat siyasəti, sinif intizam siyasəti və təlim haqqında problemlər birgə həll edilməlidir.

### 4.3.4. Daxili maraqlı tərəflərin rolları və məsuliyyətləri

Daxili maraqlı tərəf kimi məktəb direktoru, menecer, müəllim və valideynlərin birgə əməkdaşlığı şagird nailiyyətlərinin əldə olunmasını istiqamətləndirir və məktəbdə sağlam psixolji mühitin təmin olunmasına əsas verir (Şəkil 4.13).




**Şəkil 4.13. Məktəbdə maraqlı tərəflərin rolları**

**Məktəb direktoru:**

- Tədris planlarının icrası üçün vacib olan tədris materialları alır;
- Şagirdlərin məktəbli formasında olmasına nəzarət edir;
- Təhsilalanların sağlam fiziki mühitdə təhsil almalarını təşkil edir;
- Uğuru artırmaq üçün strategiyaları müəyyənləşdirir;
- Maraqlı tərəflər arasında effektiv təcrübələr haqqında məlumat paylaşır;
- Müəllimləri təkmilləşdirmək üçün peşəkar inkişafı təklif edir.

**Müəllimlər:**

- Effektiv təlimat və strategiyalardan istifadə edirlər;
- Tədris planı təqdim etməklə təlim standartları üzrə resurslar hazırlayırlar;

- Şagirdlərin gözləntilərini, inanc və təcrübələrini nəzərdən keçirirlər;
- Şagirdlərin əlavə təlim ehtiyaclarını müəyyənləşdirirlər;
- Təlimdə geridə qalan şagirdlərin ailələri ilə əlaqə qurmaq üçün uyğun üsullar təqdim edirlər;
- Peşəkar inkişaf proqramlarında iştirak edirlər.

**Məktəb meneceri:**

- Akademik, sosial və emosional dəstək verir;
- Tədrisin təşkilinə və daxili nəzarətə rəhbərlik edir;
- Şagird parlamentini tanıyır və məsləhət verir;
- Məktəb üçün keyfiyyətli məsləhət proqramı hazırlayır;
- Şagirdlərin könüllü fəaliyyətini dəyərləndirir.

**Valideynlər:**

Valideynlər məktəblərdə tədris olunan dərsləri izləyərək övladları ilə məktəb rəhbərliyi arasındakı boşluğu doldurmaq üçün vacib işlər görürlər. Bunlar aşağıdakılardır:

- Təlimi müxtəlif mənbələrlə təmin edirlər;
- Tədris planının icrasına təsir göstərirlər;
- Uşağın sosial və davranış inkişafı haqqında məlumat verirlər;
- Uşaqların təhsil ehtiyaclarını izləyirlər.

**Şagirdlər:**

- Şəxsi təlim ehtiyacları və gözləntilərin müəyyən edilməsində iştirak edirlər;
- Məktəbdə tədrisin keyfiyyətinin artırılmasında təşəbbüslər irəli sürürlər;
- Şagirdyönümlü beynəlxalq layihələrdə iştirak edirlər;
- Konüllülük fəaliyyətinə qoşulur və icma əsaslı layihələrdə iştirak edirlər;
- Məktəb şəbəkəsində fəal iştirak edir və sosial şəbəkədə məktəbi təmsil edirlər.

### 4.3.5. Xarici maraqlı tərəflərin rolları və məsuliyyətləri

**Xarici təşkilatlar (UNİCEF; Amerika Təhsil Şurası)**

Xarici təşkilatlar məktəb məsləhətçiləri kimi vacib tərəfdir. Şagirdlərin akademik ehtiyaclarını qarşılamaq üçün məsləhətçilər:

- Şagirdlərin fiziki ehtiyaclarını ödəyən dəstəkləri müəyyən edirlər;
- Yerli təşkilatlar, o cümlədən, uşaq qoruma xidmətləri və maddi yardım agentliklərindən dəstək alırlar;
- Maddi dəstək proqramları və psixoloji xidmətlər üçün əlavə kömək alırlar;
- Yerli kollec və universitetlərdən repetitorluq üçün dəstək xidmətləri alırlar;
- Xüsusi təhsil təşkilatları ilə mütəmadi əlaqə qururlar.

**Ailələr maraqlı tərəf kimi:**

- Təlimi dəstəkləyən bir ev mühiti təmin edirlər;

- Məktəblər və müəllimlərlə uşaqları üçün yüksək ümidlərini bölüşürlər;
- Müəllimlər və digər məktəb işçiləri ilə ünsiyyət qururlar;
- Məktəbdə qərarvermə prosesində iştirak edirlər.

**Peşəkarlar (psixoloq və sosial işçilər):**

- Xüsusi məktəblər və uşaqlara verdikləri töhfələri dəyərləndirirlər;
- Fiziki məhdudiyyəti olan şagirdlərlə işləmək üçün faydalı seçimlər təqdim edirlər;
- Çox vaxt məktəb idarə heyəti üzvləri kimi fəaliyyət göstərirlər;
- Məktəbə töhfələr verirlər.

**Biznes və icma liderləri:**

- Məktəblərlə fəal tərəfdaşlığı davam etdirirlər;
- Məktəb proqramlarını zənginləşdirən mənbələr və imkanlar təmin edirlər;
- Ailələri məşğulluq, əlverişli mənzil və sosial xidmətlərə cəlb edirlər;
- Ailələrin həyat səviyyəsini artıran digər investisiyaları təmin edən yerli iqtisadiyyat yaradırlar.

### 4.3.6. Tədbirlərdə maraqlı tərəflərin iştirakının təmin edilməsi

Maraqlı tərəflərin məktəb tədbirlərində iştirakı və əməkdaşlığı aşağıdakı şərtlərlə müəyyən edilə bilər:

- Məsuliyyətə görə: Hər hansı bir təşkilatda hüquqi status almış maliyyə və əməliyyat vəzifələrində iştirak etməni müəyyən etmək;
- Faydalı təsir ilə: Məktəbdə tədrisin keyfiyyətinə şəxsi qabiliyyətlər ilə təsir edə biləcək və təlim məqsədlərinə nail olma yollarını bilən nümayəndələri seçmək;
- Yaxın ərazidə olma: Məktəb icmasına daxil olan, digər icma təşkilatları ilə münasibətləri olan və məktəbin fəaliyyətində yaxından və uzun müddət fəal iştirak edə bilən insanları seçmək;
- Biznes əhəmiyyətli olması: Məktəbdə biznesin faydalı cəhətlərini tətbiq edən insanları seçmək (məsələn, istehsalat işçiləri, bank işçiləri və müştərilər);
- Digər nümayəndəliklərlə əlaqə: Yerli icmanın rəhbərləri, təhsil işçilərinin həmkarlar ittifaqı nümayəndələri, universitet nümayəndələri və digər nümayəndəliklər daxildir.

Beləliklə, məktəbdə maraqlı tərəflərin fəaliyyətləri şagirdlərin fiziki, mənəvi və psixoloji ehtiyaclarının təmin edilməsi, nizam-intizam qaydalarının tənzimlənməsi, cəmiyyətlə ünsiyyətin formalaşdırılması, təhsildən geri qalan şagirdlərin təhsil ehtiyaclarının ödənilməsi, xüsusi qayğıya ehtiyacı olan uşaqların həyata və təhsil mühitinə inteqrasiyasının təmin edilməsinə xidmət edir.

## Tələbələr üçün fəaliyyətlər

1. **Qrup işi. Müzakirə (25 dəq.).** İki qrupa bölünün. Hər qrupun üzvlərinə flipçat və rəngli marker verilir.

**Qrup A.** Məktəbdə daxili maraqlı tərəflərin xüsusi və ümumi dəstək xidmətlərini müəyyən edin və faydasını izah edin.

**Qrup B.** Məktəbdə xarici maraqlı tərəflərin xüsusi və ümumi dəstək xidmətlərini müəyyən edin və faydasını izah edin.
Cədvəli tamamladıqdan sonra qrup üzvləri bir-birinin işini təqdim edir və müqayisə edirlər.

**Qrup A.**

| Daxili maraq tərəflər | Xüsusi dəstəklər | Ümumi dəstəklər | Xidmətin faydası |
|---|---|---|---|
| 1.<br>2. | | | |

**Qrup B.**

| Daxili maraq tərəflər | Xüsusi dəstəklər | Ümumi dəstəklər | Xidmətin faydası |
|---|---|---|---|
| 1.<br>2. | | | |

2. **Cütlər şəklində iş.** Məktəbdə maraqlı tərəflərinin məsuliyyətlərini qeyd edin və işin tətbiqini izah edin:

- Tədris proqramı üzrə yeni şagirdlərə yeni təlimatlar hazırlamaq;
- Təlimdən geri qalan uşaqların ailələrinin məktəblə əlaqəsini təşkil etmək;
- İdman yarışlarında ən yaxşı şagirdlərin hazırlanmasına dəstək vermək;
- İnternet şəbəkəsinin tam təmin olunmasına dəstək.

Plan: Maraqlı tərəfdaş ⟶ Xidmət fəaliyyəti ⟶ Faydalı təsir

3. **Vəziyyətlərin təhlili (Case Study). Mətni oxuyun və maraqlı tərəflərin məsuliyyətlərini müzakirə edin.**

Dağ başında yerləşən ucqar bir kənddə işgüzar və fəal icması olan bir məktəb fəaliyyət göstərir. Məktəbin istedadlı şagirdləri və təcrübəli işçi heyəti vardır. Kənd məktəbinə gedən yolda qışda uşaqlara çətinlik yaradılır və uşaqlar nəqliyyat cəhətdən əziyyət çəkirlər. İcma üzvləri zəhmətkeş fermerlər və meşə təsərrüfatı ilə məşğul olan adamlardır. Məktəblilərə dəstək verməyə hazır olduqlarını məktəbdə dəfələrlə bildirilmişdir. Digər tərəfdən, məktəbin 12 şagirdinin Avropada keçiriləcək “İstedadlar” yarışında iştirak etməsi üçün müraciət edilmiş və dəvət edilmişlər. Hazırlanacaq proqramda yer (1-4) tutulsa, o zaman onlara 10000 avro pul mükafatı veriləcək. Bu yarışda qalib gəlmək üçün məktəbə maraqlı tərəflərin cəlb edilməsi və dəstəyin verilməsini planlaşdırmaq lazımdır. Məktəbin yarışda qalib gəlməsi üçün hansı dəstəyin verilməsini üstün tutursunuz?

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Məktəb fəaliyyətlərində maraqlı tərəflərlə əməkdaşlıq etmə yollarını təqdim edir"**

**1. Verilmiş sualları müzakirə edin və cavablandırın:**

- Maraqlı tərəflərlə əməkdaşlıq hansı məqsədlərə xidmət edir?
- Daxili və xarici maraqlı tərəflərin əməkdaşlığı təhsildə hansı sahələrdə birləşdirilir?
- Maraqlı tərəflərin məsuliyyətləri şagirdlərin hansı fiziki ehtiyaclarını ödəyir?
- Psixoloji dəstək yardımları necə və kimlər tərəfindən təşkil edilir?
- Maraqlı tərəflərlə məktəblə fəaliyyətləri necə müəyyən edilir?
- Maraqlı tərəflərlə işin üstün və qeyri-üstün cəhətləri hansıdır?

**2. Təhsildə maraqlı tərəflərin düzgün sırasını seçin:**

A) Valideyn və icma nümayəndələri;
B) Yerli müəssisə rəhbərləri;
C) Məktəb müəllimləri;
D) Universitet məzunları
E) Bu cavabların hamısı düzgündür.

**3. Maraqlı tərəflərin əməkdaşlığının düzgün məqsədini seçin:**

A) Məktəb fəaliyyətində şəxsi karyeranı inkişaf etdirmək məqsədi ilə iştirak etmək;
B) Məktəbdə tədrisə şəxsi qabiliyyət ilə təsir edilə biləcək və inkişafyönümlü layihələr təklif etmək;
C) Məktəblərin təmirə ehtiyacı olan sahələrinin yenilənməsi yollarını izah etmək;
D) İqtisadi geriliyi olan ailələrə iş təklif etmək.

**4. Maraqlı tərəflərin təhsildə əməkdaşlığını izah edin və qiymətləndirin.**

| Maraqlı tərəf | Mühüm deyil | Az mühümdür | Mühümdür | Çox mühümdür |
|---|---|---|---|---|
| Məktəb rəhbərliyi | | | | |
| Menecerlər | | | | |
| Biznes səhmdarları | | | | |
| İcma təşkilatı | | | | |
| Müəllimlər | | | | |
| Universitet məzunları | | | | |

# CAVABLAR

| Təlim nəticəsi 1 üzrə düzgün cavablar | |
|---|---|
| Qiymətləndirmə meyarı 1 | |
| Sual 2 | A |
| Sual 3 | C |
| Sual 4 | B |
| Sual 5 | B |
| Qiymətləndirmə meyarı 2 | |
| Sual 2 | 1 – Səhv |
| | 2 – Doğru |
| | 3 – Səhv |
| | 4 – Səhv |
| | 5 – Doğru |
| | 6 – Səhv |
| | 7 – Doğru |
| | 8 – Doğru |
| | 9 – Səhv |
| | 10 – Doğru |
| Sual 3 | A |
| Sual 4 | B |
| Sual 5 | B |
| Qiymətləndirmə meyarı 3 | |
| Sual 2 | 1 – Səhv |
| | 2 – Doğru |
| | 3 – Doğru |
| | 4 – Səhv |
| | 5 – Səhv |
| Sual 3 | D |
| Sual 4 | C |
| Sual 5 | B |
| Qiymətləndirmə meyarı 4 | |
| Sual 2 | B |
| Sual 3 | E |
| Sual 4 | C |
| Sual 5 | B |
| Sual 6 | D |

| Təlim nəticəsi 1 üzrə düzgün cavablar | |
|---|---|
| Qiymətləndirmə meyarı 5 | |
| Sual 2 | 1 – Doğru |
| | 2 – Doğru |
| | 3 – Səhv |
| | 4 – Doğru |
| | 5 – Doğru |
| | 6 – Səhv |
| | 7 – Doğru |
| | 8 – Doğru |
| Sual 3 | C |
| Sual 4 | B |
| Qiymətləndirmə meyarı 6 | |
| Sual 2 | A |
| Sual 3 | D |
| Sual 4 | 1 – Formativ |
| | 2 – Summativ |
| | 3 – Diaqnostik |
| Sual 5 | B |
| Qiymətləndirmə meyarı 7 | |
| Sual 2 | B |
| Sual 3 | B |
| Sual 4 | B |
| Sual 5 | 1 – Doğru |
| | 2 – Yanlış |
| Sual 6 | B |
| Sual 7 | D |
| Qiymətləndirmə meyarı 8 | |
| Sual 2 | 1 – Doğru |
| | 2 – Səhv |
| | 3 – Səhv |
| | 4 – Doğru |
| Sual 3 | B |
| Sual 4 | C |
| | |

| Təlim nəticəsi 2 üzrə düzgün cavablar | |
|---|---|
| Qiymətləndirmə meyarı 1 | |
| Sual 2 | B |
| Qiymətləndirmə meyarı 2 | |
| Sual 2 | Səhv |
| | Doğru |
| | Səhv |
| | Doğru |
| | Səhv |
| | Doğru |
| | Doğru |
| | Səhv |
| | Doğru |
| | Doğru |
| Qiymətləndirmə meyarı 3 | |
| Sual 3 | C |
| Sual 4 | Doğru |
| Sual 5 | Səhv |
| Sual 6 | B |
| Qiymətləndirmə meyarı 4 | |
| Sual 3 | Doğru |
| Sual 4 | B |
| Sual 5 | C |
| Qiymətləndirmə meyarı 5 | |
| Sual 2 | Səhv |
| Sual 3 | C |
| Sual 4 | B |
| Qiymətləndirmə meyarı 7 | |
| Sual 2 | Doğru |
| Sual 3 | C |
| Sual 4 | C |
| Qiymətləndirmə meyarı 8 | |
| Sual 2 | C |

| Təlim nəticəsi 3 üzrə düzgün cavablar | |
|---|---|
| Qiymətləndirmə meyarı 1 | |
| Sual 2 | B |
| Qiymətləndirmə meyarı 2 | |
| Sual 2 | Özünütərbiyə |
| | Yenidəntərbiyə |
| | Yenidəntərbiyə |
| | Özünütərbiyə |
| | Özünütərbiyə |
| | Yenidəntərbiyə |
| | Özünütərbiyə |
| | Özünütərbiyə |
| | Yenidəntərbiyə |
| | Yenidəntərbiyə |
| Qiymətləndirmə meyarı 3 | |
| Sual 2 | A |
| Sual 3 | D |
| Sual 4 | C |
| Sual 5 | B |
| Qiymətləndirmə meyarı 4 | |
| Sual 2 | Səhv |
| | Doğru |
| | Doğru |
| | Doğru |
| | Səhv |
| | Doğru |
| | Səhv |
| | Doğru |
| Sual 3 | C |
| Sual 4 | B |
| Qiymətləndirmə meyarı 5 | |
| Sual 2 | B |
| Sual 3 | E |
| Sual 4 | B |

| **Təlim nəticəsi 4 üzrə düzgün cavablar** | |
|---|---|
| Qiymətləndirmə meyarı 1 | |
| Sual 2 | B |
| Sual 3 | 1 – C |
| | 2 – A |
| | 3 – D |
| | 4 – B |
| Sual 4 | C |
| Sual 5 | D |
| Qiymətləndirmə meyarı 2 | |
| Sual 2 | A və D |
| Sual 3 | C |
| Qiymətləndirmə meyarı 3 | |
| Sual 2 | E |
| Sual 3 | B |

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Arnett, J. J. (2010). Adolescence and emerging adulthood: A cultural approach (4th ed.). Upper Saddle River, NJ: Prentice Hall.
2. Association for Supervision and Curriculum Development. (1975). The middle school we need. Washington, DC: Author.
3. Blakemore, S., & Choudhury, S. (2006). Development of the adolescent brain: Implications for executive function and social cognition. Journal of Child Psychology and Psychiatry, 47(3/4), 296-312.
4. Bransford, J. D., Brown, A. L., & Cocking, R. R. (Eds.). (2000). How people learn: Brain, mind, experience, and school (Expanded ed.). Washington, DC: National Academy Press.
5. Brighton, K. L. (2007). Coming of age: The education and development of young adolescents. Westerville, OH: National Middle School Association.
6. Brown, D., & Knowles, T. (2007). What every middle school teacher should know (2nd ed.). Portsmouth, NH: Heinemann.
7. Caissy, G. A. (2002). Early adolescents: Understanding the 10 to 15 year olds (2nd ed.). Boston, MA: Da Capo Press.
8. Cadwallader, T., Garza, N., and Wagner, M. (2002). Participation In Extracurricular. Activities. Retrieved from www.nlts2.org/reports/2003_04-2/nlts2_report_2003_04-2_ch4.pdf Casey, B.
9. Giedd, J. N., & Thomas, K. M. (2000). Structural and functional brain development and its relation to cognitive development. Biological Psychology, 54, 241-257.
10. Caskey, M. M., & Ruben, B. (2007). Under construction: The young adolescent brain. In S. B. Mertens, V. A. Anfara, Jr., & M. M. Caskey (Eds.), The young adolescent and the middle school (pp. 47-72). Charlotte, NC: Information Age.
11. Commission on the Development of Education, UNESCO, Paris, 1972. Retrieved June 12, 2015 from http://unesdoc.unesco.org/images/0022/002232/223222e.pdf.
12. Gardner, Howard (1999) Intelligence Reframed. Multiple intelligences for the 21st century, New York: Basic Books. 292 + x pages. Useful review of Gardner's theory and discussion of issues and additions.
13. Learning together throughout our lives: Discussion kit on the Report to UNESCO of the International Commission on education for the 21st century. (1997). Retrieved June 12, 2015 from http://www.unesco.ca/en/homeaccueil/resources-ressources/~/media/PDF/UNESCO/LearningTogether.ashx
14. Mastering Soft Skills for Workplace Success: Networking. (n.d.). Retrieved April 23, 2018, from

15. Restorative Practices: Fostering Healthy Relationships & Promoting Positive Discipline in Schools: A Guide for Educators | The Advancement Project |
16. Zhou, Nan-Zhao. Four 'Pillars of Learning' for the Reorientation and Reorganization of Curriculum: Reflections and Discussions. Retrieved June 12, http://www.ibe.unesco.org/cops/Competencies/PillarsLearningZhou.pdf.
17. Valideynlərin məktəb həyatına cəlb edilməsinin əhəmiyyəti- Xəbərlər, Valideyn Müəllim , 27 noyabr 2017
18. Müəllimlərin etik davranı qaydaları - 19 aprel 2017-ci il tarixli 2/1 nömrəli Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının Qərarı
19. Недвецкая М.Н., Пыканов И.В., Вострикова М.В. Управление взаимодействием школы и семьи в процессе педагогического сопровождения подростков с девиант-ным поведением // Азимут научных исследований: педагогика и психология. 2015. № 4 (13). С. 77-80.
20. 15. Газизова О.Н. Методика работы учителя по преодолению конфликтов в школе // Вестник Гуманитарного института ТГУ. 2015. № 2 (18). С. 10-11.
21. Bailey, Lora B. "Interactive Homework: A Tool For Fostering ParentChild Interactions and Improving Learning Outcomes For At-Risk Young Children." Early Childhood Education Journal 34, no. 2 (2006): 155–167
22. Child Trends. (2013). Parental involvement in schools. Available at: https://www.childtrends.org/?indicators=parental-involvement-in-schools
23. Council of European Union (2014) Conclusions on Efficient and Innovative Education and Training to Invest in Skills - supporting the 2014 European Semester, Brussels, 24 February 2014
24. Epstein, J. (1995). School/Family/Community Partnerships: Caring for the Children we Share. Phi Delta Kappan, 76(9) 701-712.
25. Hopkins, D. (2003) "Understanding Networks for Innovation in Policy and Practice" in OECD (Ed.), Networks of Innovation Towards New Models for Managing Schools and Systems. OECD Publishing, Paris.
26. National Network of Partnership Schools (https://nnps.jhucsos.com/)
27. Parent Information and Resource Centers (https://nationalpirc.org/)
28. Robinson, K. & Harris, A. L. (2015). The broken compass: Parental involvement with children's education. J. Hardie, (Ed.). Contemporary Sociology: A Journal of Reviews, 44(5), 697–699.
29. Walson, T.; Brown, M.; and Swick, K. J. "The Relationship of Parents' Support to Children's School Achievement." Child Welfare 62(1983): 175-180.

30. www. etico.iiep.unesco.org › teacher-codes-conduct Teacher codes of conduct | ETICO - Unesco IIEP